AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN
AĞCABƏDİ FİLİALI



*Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş*

# "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ"

*mövzusunda*

## TƏLƏBƏ ELMİ CƏMİYYƏTİNİN XVII konfransının

# MATERİALLARI

AĞCABƏDİ - 25 MAY 2023

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
AĞCABƏDİ FİLİALI



**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ**

# "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ"

**mövzusunda**

**TƏLƏBƏ ELMİ CƏMİYYƏTİNİN XVII KONFRANSININ**

# MATERİALLARI

*Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda Tələbə Elmi Cəmiyyətinin XVII konfransının materialları ADPU-nun Ağcabədi filialının Elmi Şurasının 01 iyun 2023-cü il tarixli iclasının (Protokol № 08) qərarı ilə çap olunur.*

**AĞCABƏDİ-2023**

## AZƏRBAYCAN RESPUBLİKASINDA 2023-CÜ İLİN "HEYDƏR ƏLİYEV İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu,

nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***29 sentyabr 2022-ci il***

# KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

**Sədr:**

| | |
|---|---|
| Mobil Məcidov | ADPU-nun Ağcabədi filialının direktoru, dosent |
| **Sədr müavini:** | |
| Səbuhi Quliyev | ADPU-nun Ağcabədi filialının "Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müəllimi, TEC-nin sədri |
| **Üzvlər:** | |
| Seymur Süleymanov | ADPU-nun Ağcabədi filialının tədris və elmi işlər üzrə direktor müavini, dosent |
| Mahir Səlimov | ADPU-nun Ağcabədi filialının tərbiyə işləri üzrə direktor müavini, dosent |
| Baxış Ələsgərov | ADPU-nun Ağcabədi filialının "İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Vaqif Allahverdiyev | ADPU-nun Ağcabədi filialının "Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Sahib Zeynalov | ADPU-nun Ağcabədi filialının "Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Tahir Kərimli | ADPU-nun Ağcabədi filialının "Pedaqoqika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının müdiri, baş müəllim |
| Xəyyam Bədəlov | ADPU-nun Ağcabədi filialının "Pedaqoji" fakültənin dekan müavini, baş müəllim |
| Qərənfil Rzayeva | ADPU-nun Ağcabədi filialının "Keyfiyyətin təminatı" şöbəsinin müdiri, baş müəllim |
| Sahibə Nəsirova | ADPU-nun Ağcabədi filialının "Kompüter mərkəzi"nin müdiri |
| Fatma Əliyeva | ADPU-nun Ağcabədi filialının "Kompüter mərkəzi"nin mütəxəssisi |

## MÜNDƏRİCAT

***Mobil Məcidov***
*Giriş sözü*............................................................................................................. **7**

## PLENAR İCLAS

***Seymur Süleymanov***
*Heydər Əliyev Azərbaycanın elm və təhsil sisteminin himayədarıdır*.................................. **8**

***Səbuhi Quliyev***
*Heydər Əliyev və gənclər siyasəti*........................................................................... **10**

## "FİZİKA VƏ RİYAZİYYAT" BÖLMƏSİ

**1.** ***Şirinova Salatın Elxan qızı*** *(RİN1901B) - Elleptik növlü tənliklərin kanonik şəklə gətirilməsi*........................................................................................ **12**
*Elmi rəhbər: dos. Zeynalov Sahib Adıgözəl oğlu*

**2.** ***Hüseynli Nazənin Etibar qızı*** *(RİN2001B) - Transendent tənliklərin həlli üsulları*.................................................................................................... **15**
*Elmi rəhbər: dos. Zeynalov Sahib Adıgözəl oğlu*

**3.** ***Həsənova Təhminə Veysəl qızı*** *(RİN2101B) - Say sistemlərində tətbiq olunan ümumi metodlar*........................................................................................ **18**
*Elmi rəhbər: dos. Zeynalov Sahib Adıgözəl oğlu*

**4.** ***Sadıqova Asya Əli qızı*** *(RİN2101B) -Müsbəthədli sıraların yığılma əlamətləri* .......... **19**
*Elmi rəhbər: dos. Süleymanov Seymur Elman oğlu*

**5.** ***Həsənova Gülşən Raqif qızı*** *(RİN1901B)-Triqonometrik tənliklərin həlli texnologiyaları*......................................................................................... **22**
*Elmi rəhbər: m. Orucov Zakir Şükür oğlu*

**6.** ***Ələmşahova Sevinc Ziya qızı*** *(RİN2001B) - Tənliklərin həlli zamani yaranan kənar köklər və onların yaranma səbəbləri*........................................................... **25**
*Elmi rəhbər: m. Orucov Zakir Şükür oğlu*

**7.** ***Əbdürrəhimova Nərmin Hökmran qızı*** *(RİN2001B) -Troqonometrik çevirmələr, tənliklər və bərabərsizliklər*............................................................................. **28**
*Elmi rəhbər: m. Əlizadə Elqayıd Bakir oğlu*

**8.** ***Məmmədova Ellada Sabir qızı*** *(RİN1801B) -Törəmə və onun tətbiqləri*..................... **30**
*Elmi rəhbər: m. Quliyeva Leyla Ləlakişi qızı*

**9.** ***Piriyeva Aytəkin Novruz qızı*** *(FM2101B) - Fizika üzrə qrafik tipli testlərin həlli metodikası*.......................................................................................................... **35**
*Elmi rəhbər: m. Zalova Nəzakət Cəmil qızı*

## “RƏQƏMSAL BACARIQLAR” BÖLMƏSİ

**10.** ***Məmmədova Elnarə Pənah qızı*** *(RİN1901B) -STEAM təhsili gələcəyin qurucularını yetişdirəcək təhsil metodudur*........................................................................ **42**
*Elmi rəhbər: b/m. Zeynalova Səbinə Cəfər qızı*

**11.** ***Qocayev Xəlil Eldəniz oğlu*** *(RİN1801B) -Neyron şəbəkələrin imkanları*.................... **45**
*Elmi rəhbər: b/m. Zeynalova Səbinə Cəfər qızı*

**12.** ***Eyyubova Zeynəb Yaşar qızı*** *(RİN2001B) XXI əsrin texnologiyası olan nanotexnologiyanın tətbiqləri*.......................................................................... **47**
*Elmi rəhbər: b/m. Zeynalova Sevil Cəfər qızı*

**13.** ***Şirinova Əcəb Sahib qızı*** *(FM2101B) -STEAM əsaslı dərslərdə mikrobit texnologiyası”*.......................................................................................................... **50**
*Elmi rəhbər: m. Quliyev Səbuhi Vaqif oğlu*

**14.** ***Eyvazova Fatimə Həsən qızı*** *(RİN2201B) -STEAM metodologiyasının tətbiqi*........... **52**
*Elmi rəhbər: m. Quliyev Səbuhi Vaqif oğlu*

**15.** ***Qabilova Gülşən Elşən qızı*** *(TSPX2101B) - Antivirus proqramların tətbiqi*.............. **53**
*Elmi rəhbər: m. Abdullayeva Sevda Rafiq qızı*

## “TARİX” BÖLMƏSİ

**16.** ***Baxışova Vüsalə Lətif qızı*** *(TCM2001B) - Ermənilərin cənubi qafqaza köçürülməsi*.......................................................................................................... **55**
*Elmi rəhbər: dos. Ələsgərov Baxış İslam oğlu*

**17.** ***Şıxalıyeva Aytən İlhamiz qızı*** *(TCM1901B) - Vətən müharibəsi dövründə Azərbaycan-Türkiyə əməkdaşlığı*...................................................................... **60**
*Elmi rəhbər: dos. Hüseynov Məhəmməd Allahverdi oğlu*

**18.** ***Qasımlı Gültac Rəhman qızı*** *(TCPX2001B) - Qarabağın dini abidələri:tarixi, müasir vəziyyəti və erspektivləri*...................................................................... **63**
*Elmi rəhbər: t.ü.f.d., b/m. Kərimli Anar Tahir oğlu*

**19.** ***Səlimli Mirağa Mirnemət oğlu*** *(TM2201B) - Laçın rayonu ərazisində yerləşən əsas tarixi- dini abidələrimiz*.......................................................................... **69**
*Elmi rəhbər: b/m. Əliyev Araz Boran oğlu*

## "COĞRAFİYA" BÖLMƏSİ


**20.** ***Şıxəliyeva Ləman Seymur qızı*** *(TCM1901B) - İqlim dəyişikliyi və onun landşafta təsiri*........................................................................................................ ***75***
*Elmi rəhbər: dos. v.i.e. Cəfərov Fazil Tatarxan oğlu*

**21.** ***Əliyeva Əzizə Niyaməddin qızı*** *(TCM2001B) - Azərbaycan Respublikasının geoloji quruluşu və faydalı qazıntıları*........................................................................... ***76***
*Elmi rəhbər: m. Sadıqov Əli Bəhrəm oğlu*

**22.** ***Quliyev Hüseyn Nadir oğlu*** *(TCM2101B) - Azərbaycanın iqtisadi rayonları*........... ***82***
*Elmi rəhbər: m. Sadıqov Əli Bəhrəm oğlu*

**23.** ***İsgəndərli Emin Elsəvər oğlu*** *(TCM1901B) - İşğaldan azad olunmuş ərazilərdə ekoloji vəziyyət*.............................................................................................. ***83***
*Elmi rəhbər: m. Mahmudova Səlminaz Cavanşir qızı*


## "ƏDƏBİYYATŞÜNASLIQ" BÖLMƏSİ


**24.** ***Məmmədova Elnarə Eldar qızı*** *(AZD2101B) - Qarabağ ədəbi mühitinin formalaşmasında ədəbi məclislərin rolu*...................................................................... ***87***
*Elmi rəhbər: dos. Allahverdiyev Vaqif Saleh oğlu*

**25.** ***Allahyarova Sevinc Samir qızı*** *(AZD2102B) - Rafiq Yusifoğlunun yaradıcılığında uşaq ədəbiyyatının nümunələri*........................................................................... ***93***
*Elmi rəhbər: dos. Allahverdiyev Vaqif Saleh oğlu*

**26.** ***Quliyeva Aytəkin Rizvan qızı*** *(AZD2001B) - Koroğlu dastanında şeir şəkilləri və məcazlar*.................................................................................................... ***95***
*Elmi rəhbər: dos. Allahverdiyev Vaqif Saleh oğlu*

**27.** ***Hüseynova Fidan Namiq qızı*** *(AZD2101B) - Bəxtiyar Vahabzadənin Gülüstan poeması nda tarixi hadisələrin bədii əksi*...................................................................... ***98***
*Elmi rəhbər: dos. Allahverdiyev Vaqif Saleh oğlu*

**28.** ***İmanova Könül Vüqar qızı*** *(AZD2102B) - M. F. Axundzadə maarifçi-realist konsepsiyanın banisi kimi*............................................................................... ***104***
*Elmi rəhbər: b/m. Rzayeva Qərənfil Zeyqəm qızı*

**29.** ***Nəbizadə Sürəyya Seymur qızı*** *(AZD2101B) - Vətən müharibəsində döyüşçü-şair obrazı*....................................................................................................... ***108***
*Elmi rəhbər: b/m. Məhərrəmova Sevinc Ziyad qızı*

**30.** ***İsmayılova Aynur Kamran qızı*** *(AZD2001B ) -C. Məmmədquluzadənin dramaturji yaradıcılığında obrazların səciyyəsi*........................................................................ **111**
*Elmi rəhbər: m. Abdullayeva Maya Ağamirzə qızı*

## "DİLÇİLİK" BÖLMƏSİ

*31.* ***Abışova Ağca İsrail qızı (AZD2101B)*** *- Dəli kürün dili*............................................ **115**
*Elmi rəhbər: dos. Fərzəliyeva Mətanət Çərkəz qızı*

**32.** ***Orucova Gülşən Hafiz qızı*** *(AZD2101B) - Ağcabədi toponimləri (Kürdlər, Qaradolaq, Yuxarı qıyamadınlı, Arazbar, Sarvanıllar)*............................................ **115**
*Elmi rəhbər: dos. Məmmədov Sabir Rüstəm oğlu*

**33.** ***Şirinova Nəzrin Arif qızı*** *(AZD2101B) - Şamaxı toponimləri (Acıdərə, Adnalı, Avaxıl, Böyük Xınıslı, Məlhəm)*.................................................................................... **116**
*Elmi rəhbər: dos. Məmmədov Sabir Rüstəm oğlu*

**34.** ***Hümbətova Aişə Pəhlivan qızı*** *(İBT2001B) - Dil quruculuğunun bəzi məqamları, Onomastikanın dünəni və bu günü*......................................................................... **118**
*Elmi rəhbər: f.ü.f.d., b/m. Əliyev Əli Umud oğlu*

**35.** ***Məhərrəmova Minarə Səyavuş qızı*** *(İBT2102B) - Azərbaycan dilində ad və soyadların yaranması və inkişafı*............................................................................... **124**
*Elmi rəhbər: b/m. Mikayılova Fəridə Mürşüd qızı*

**36.** ***Rəhimli Elza Adil qızı*** *(AZD2001B) - M. Füzulinin "Leyli və Məcnun" poemasının interperetasiyası*............................................................................................ **127**
*Elmi rəhbər: b/m. Əliyeva Tərlan Əliş qızı*

**37.** ***Mahmudova Lalə Ramiz qızı*** *(AZD2202B) - Heydər Əliyev və Azərbaycançılıq*......... **130**
*Elmi rəhbər: b/m. Rzayeva Leyla Musa qızı*

## "XARİCİ DİL" BÖLMƏSİ

**38.** ***Mamedova Aytac Əkbər qızı*** *(XDM2101B) - İngiltərədə təhsil sistemi* ..................... **132**
*Elmi rəhbər: b/m. Mahmudzadə Səfurə Novruz qızı*

**39.** ***Abduləzimova Fidan Vüqar qızı*** *(AZD2202B) - Ingilis dilində Tabeli mürəkkəb cümlə və onun Azərbaycan dilində qarşılıqlı müqayisəsi*........................................... **133**
*Elmi rəhbər: b/m. Rzayeva Leyla Musa qızı*

**40.** ***Səlimova Gülər Mahir qızı*** *(XDM2201B) - İngilis dilində nitq hissələri, onların bölgüsü, cümlədə yeri və funksiyaları*...................................................................... **136**
*Elmi rəhbər: b/m. Əhmədova Lətifə Kərəm qızı*

**41.** ***İsmayılova Ləman Hasil qızı*** *(TSPX2101B) - The Noun............................................* **142**
*Elmi rəhbər: m. Cəfərova Sevil Musa qızı*

**42.** ***Hüseynova Səadət Ədalət qızı*** *(XDM2101B) - Discrimination against African-Americans...............................................................................................................* **145**
*Elmi rəhbər: m. Bünyadzadə Gülnar Bakir qızı*

## "PEDAQOGİKA- PSİXOLOGİYA" BÖLMƏSİ

**43.** ***Məhərrəmova Lamiyə Bəxtiyar qızı*** *(AZD2101B)-Mənəvi tərbiyə işində vətənpərvərlik nümunələrindən istifadənin əhəmiyyəti...............................................* **156**
*Elmi rəhbər: p.ü.f.d.,b/m. Kərimli Tahir Mehdixan oğlu*

**44.** ***Həsənzadə Möləkxanım Zöhrab qızı*** *(AZD2201B) - Ulu Öndər Heydər Əliyev və Şuşa şəhərində mədəni irsin qorunması.. ....................................................................* **158**
*Elmi rəhbər: p.ü.f.d.,b/m. Kərimli Tahir Mehdixan oğlu*

**45.** ***Salahzadə Aysel Faiq qızı*** *(MQT1901B) - Xurşidbanu Natavanın maarifçilik fəaliyyəti.........................................................................................................* **160**
*Elmi rəhbər: t.ü.f.d., b/m. Nəcəfov Əlizadə Şəmil oğlu*

**46.** ***Cəfərzadə Səadət Sahib qızı*** *(İBT1901B) -Ətraf aləmin çirklənməsi...................... ...* **165**
*Elmi rəhbər: b/m. Quliyeva Ülviyyə İnqilab qızı*

**47.** ***Qaraşova Günay Binyamin qızı*** *(RİN2001B)-Oğuznamələrdə tərbiyə məsələləri.....* **170**
*Elmi rəhbər: b/m. Məmmədova Sara Muradxan qızı*

**48.** ***Ataşova Əfruzə Elxan qızı*** *(İBT1901B) - Texnologiya dərslərində interaktiv təlim, pedaqoji texnologiyalar..........................................................................................* **173**
*Elmi rəhbər: b/m. Cəfərova Sevil Rafiq qızı*

**49.** ***Cəfərova Jalə Əkbər qızı*** *(TSPX2101B)-İnsan davranışının psixoloji yaşı................* **176**
*Elmi rəhbər: b/m. Əlizadə Aygün Yaşar qızı*

**50.** ***Nağıyeva Aysu Sənan qızı*** *(AZD2101B)-Uşaqlarda şəxsi keyfiyyətlərin formalaşması prosesində müəllim- şagird münasibətlərinin təhlili.............................* **180**
*Elmi rəhbər: b/m. Əliyeva Hicran Nəsir qızı*

**51.** ***Hüseynzadə Fidan Kamil qızı*** *(AZD2102B) - Natamam və tam ailələrdə tərbiyə işinin təşkili.........................................................................................................* **180**
*Elmi rəhbər: m. Cəfərova Ətrabə Şirastan qızı*

**52.** ***Tağızadə Nuray Nəciməddin qızı*** *(TSPX2101B) - Internetdən istifadənin fəsadları və onların aradan qaldırılması yolları.........................................................................* **183**
*Elmi rəhbər: m. Yolçuzadə Pərişan Üzeyir qızı*

# GİRİŞ SÖZÜ

***Mobil Məcidov, dosent***
***ADPU-nun Ağcabədi filialının direktoru***

Gənc nəslin hərtərəfli inkişaf etdirilməsi ölkəmizin gələcəyi üçün vacib məsələdir. Dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, cəmiyyətin islahatları hərəkətə gətirən qüvvəsi və yaşlı nəslin davamçısı hesab olunur. Gənclər cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar. Nəsillər dəyişir, ölkələr inkişaf edir. Ancaq ənənələr, milli dəyərlər gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması daim diqqət mərkəzində dayanır və mənsub olduğu xalqın rifahına və ölkənin çiçəklənməsinin təminatına çevrilir.

Hər bir xalq gənc nəsli öz milli mənəviyyatı, mədəniyyəti ruhunda tərbiyə edir. Tarixən imperiyaların və sivilizasiyaların qovuşduğu məkanda yaşayan Azərbaycan xalqının mübarizlik ruhu həyat amalı olaraq onun xarakterinə və düşüncəsinə hopmuşdur.

Ümummilli Liderimiz Azərbaycan gəncliyi haqqında söhbət açılanda böyük fəxarətlə qeyd edirdi: "Azərbaycan gənci daima döyüş meydanlarında, zəfərlərdə böyümüş, inkişaf etmişdir. Azərbaycan gənci böyük elmi ixtiraları, kəşfləri ilə dünya sivilizasiyasının yaranmasında öz möhürünü vurmuşdur. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi də bu tarixi kökdən, bu gendən gələn milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan miras qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanıblar".

Bu gün Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda Tələbə Elmi Cəmiyyətinin XVII konfransı keçirilir. Konfransda filial tələbələrinin müxtəlif elm sahələri üzrə apardığı elmi-tədqiqat işlərinin yekun təqdimatı keçiriləcəkdir. Kafedralar üzrə ümumilikdə 6 sahəni – "Fizika və Riyaziyyat", "Rəqəmsal Bacariqlar", "Tarix", "Coğrafiya", "Ədəbiyyatşünasliq","Dilçilik" bölmələrini əhatə edən elmi-tədqiqat işlərinin ilkin müzakirəsi keçirilmiş, tədqiqatçı-tələbədən müsbət rəy alanlar Tələbə Elmi Cəmiyyətinin XVII elmi konfransında iştirak hüququ qazanmışdır.

Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda TEC-nin XVII konfransının işini açıq elan edir və konfransın işinə uğurlar arzulayıram.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN ELM VƏ TƏHSİL SİSTEMİNİN HİMAYƏDARIDIR

***Seymur Süleymanov, dosent***
***Tədris və elmi işlər üzrə direktor müavini***

Ümummilli Liderin rəhbərliyi ilə respublikamızın iqtisadi potensialının gücləndirilməsi, elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Heydər Əliyevin rəhbərliyi dövrü Azərbaycanın təhsil tarixinə tərəqqi dövrü kimi daxil oldu. Təkcə paytaxtımızda deyil, respublikamızın ucqarlarında da yüzlərlə məktəb, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikildi. Bütün sahələrində görünməmiş uğurlar qazanıldı.

Buna görə Dahi Öndər cəmiyyətin inkişaf zəminini düzgün olaraq təhsildə və maarifçilikdə görürdü, bu sahənin inkişafına diqqət və qayğısını əsirgəmirdi.

Keçmiş sovetlər dövründə Ulu Öndər Azərbaycan təhsilinin tərəqqisinə mane olan bir sıra amilləri aradan qaldırmış, mövcud potensialı ölkənin gələcək inkişafının elmi əsaslar üzərində qurulmasına, respublikanın mədəni intellektual resurslarının gücləndirilməsinə, Azərbaycan üçün layiqli vətəndaşların yetişdirilməsi işinə səfərbər etmişdir. Məhz həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yenilənmiş, ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəbləri açılmışdır.

O illərdə Azərbaycanın əldə etdiyi mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması idi. Bu məqsədi uğurla həyata keçirmək üçün Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil alması üçün böyük qruplarla keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdur. O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdır.

Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bütün sahələrə, o cümlədən elm və təhsilə diqqət və qayğı daha da artırıldı. Bu təsadüfi deyildi. Çünki bu Dahi Şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir.

1993-cü ilin iyununda xalqın istəyi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması Azərbaycan mədəniyyətinə yeni ab-hava gətirdi. Təhsil işçiləri, ziyalılar dövlətin yüksək qayğısı ilə əhatə olundular.

Yuxarıda qeyd etdiyimiz kimi, Ümummilli Lider hələ Azərbaycana birinci rəhbərliyi dövründə təhsilə böyük önəm verirdi. Ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənardakı ali məktəblərə gənclərin göndərilməsi, hərbi kadrların yetişdirilməsi, respublika elmlər akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdır. Respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmiş, ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə qədər artmışdır.

Ümummilli Lider Heydər Əliyev öhdəsinə düşən bütün işləri yüksək səviyyədə reallaşdırdığı üçün məhz 1983-cü ildə SSRİ-də məktəb islahatı da Nazirlər Soveti sədrinin birinci müavini kimi ona tapşırılmışdı. Ulu Öndərin bu işin öhdəsindən layiqincə gəldiyini yaxşı xatırlayırıq.

1993-cü ilin iyununda Bakıya qayıdan Ümummilli Liderin xüsusi diqqət yetirdiyi məsələlərdən biri təhsil sisteminin yaxşılaşdırılması ilə bağlı idi. Buna görə də Ulu Öndər təhsilin milli tərəqqinin gerçək amilinə çevrilməsi üçün geniş islahatlar proqramının hazırlanaraq reallaşdırılması vəzifəsini qarşıya qoydu. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncamı imzalaması isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlmişdi. Çox qısa müddətdə komissiyanın hazırladığı "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda imzalanaraq qüvvəyə minmişdi. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin etdi. Ulu Öndər Heydər Əliyev azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Ümummilli Liderimizin fikrincə, ana dili azərbaycançılığın təməl prinsipi idi. Eyni zamanda, xatırlamaq yerinə düşər ki, Ulu Öndər o dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu bütün rəhbər vəzifəlilərə də tövsiyə edirdi. Başqa bir fakt 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, Azərbaycan dilinin ana dili kimi təsbitlənməsi də Heydər Əliyevin cəsarətinin, Azərbaycan dilinə qəlbən bağlılığının sevgisinin əyani təzahürü idi. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" - deyən Heydər Əliyevin azərbaycançılığa, Azərbaycan dilinə sevgisi bitib-tükənməz idi, kökdən gəlirdi. Ona görə də dilin saflığı, təmizliyi uğrunda daim mübarizə aparırdı.

Bu gün iftixar hissi ilə qeyd edə bilərik ki, Heydər Əliyev siyasəti, banisi olduğu milli dövlətçilik strategiyası onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin bundan sonra da davam etməsi Azərbaycan dövlətinin tərəqqisi üçün ən böyük təminatdır. Siyasi mübarizədə müdriklik və qətiyyət, həyatda praqmatizm, dövlət idarəçiliyində ustalıq - Heydər Əliyev siyasi məktəbinin əsasını təşkil edən bu amillər Vətənə və xalqa xidmət naminə real siyasətlə məşğul olan hər bir kəs üçün tarixi örnəkdir. Çünki Heydər Əliyev şəxsiyyəti özlüyündə bir tarixi hadisə idi. Bu böyük insanın ideyaları bundan sonra da daim yaşayacaq, gələcək nəsillərə örnək olaraq qalacaqdır.

# HEYDƏR ƏLİYEV VƏ GƏNCLƏR SİYASƏTİ

*Səbuhi Quliyev, müəllim*
*Tələbə Elmi Cəmiyyətinin sədri*

Salam, hörmətli konfrans iştirakçıları!

Ümumilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda TEC-in XVII konfransında cəmiyyətin sədri olaraq Ulu Öndərimiz Heydər Əliyev və gənclər siyasətinə həsr olunmuş çıxışıma Ulu Öndərimiz Heydər Əliyevin gənclər haqqında dəyərli sözləri ilə başlamaq istəyirəm.

"Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir."

Ümummilli Lider Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edib. Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövürlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdır. Azərbaycan gənclərinin l forumunda bu barədə danışan ölkə rəhbəri demişdir: "Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm". Bu həmin illərin ən böyük nailiyyətlərindən idi. Dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur. Qeyd etdiyimiz kimi, hələ Sovet hakimiyyəti illərində ümummilli liderimiz yüzlərlə Azərbaycan gəncinin ittifaqın bir çox böyük və mərkəzi şəhərlərində təhsil almalarına şərait yaratmışdır. Bu gənclər keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə ali təhsil almağa göndərilir və savadlı kadr kimi vətənə qayıdaraq fəaliyyət göstərməyə başlayırdılar. Həmin gənclərin böyük bir qismi bu gün müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunda yaxından iştirak edir, hüquq-mühafizə orqanlarında rəhbər vəzifələrdə çalışır, elmimizin, səhiyyəmizin, mədəniyyətimizin inkişafında əvəzsiz xidmət göstərirlər. Ulu Öndərimiz savadı, qabiliyyəti, istedadı ilə seçilən gənclərə qayğı və diqqət göstərməyi bacarırdı. Şübhəsiz ki, bu gənclərin bir çoxunu özü seçir, onların qabiliyyətini və biliyini sınaqdan çıxarandan sonra Moskvaya, Leninqrada oxumağa göndərirdi. Bu gənclər maddi cəhətdən təmin edilir, yüksək, mükəmməl təhsil almalarına hər cür şərait yaradılırdı. Buna görə də Heydər Əliyevin 2-ci dəfə hakimiyyətə qaydışını ən çox alqışlayanlar elə gənclərin özü idi. Heydər Əliyev gənclərə arxalandığı kimi, gənclərdə onu böyük bir Lider, əvəzolunmaz tarixi şəxsiyyət, milli dövlət quruculuğumuzun banisi kimi qəbul edirdilər. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasətinə sadiq qalan Prezident İlham Əliyev də Azərbaycan

gənclərinin inkişafını hədəfləyən mühüm sənədlərə imza atdı. "Gənclərin rifahına xidmət edən mühüm Dövlət Proqramları" bu istiqamətdə görülən işlərin miqyasını aydın ortaya qoyur. Diqqət edək:

1. "Azərbaycan gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər);
2. "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)";
3. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı;
4. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası";
5. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı;
6. Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı.

Bütün bu sənədlərin hazırlanmasında məqsəd ondan ibarət olub ki, ölkəmizdə gənclərin potensialı inkişaf etdirilsin, onların faydalı məşğulluğu təmin olunsun. Bundan başqa, gənclərin ölkənin ictimai-siyasi, mədəni həyatında fəallığını təmin etmək üçün 2007-ci il "Gənclər İli" elan olundu və tədbirlər planından irəli gələrək respublikanın şəhər və rayonlarında "Gənclər evi" yaradıldı. Yeni nəslin sağlam və fəal formalaşdırılması üçün Gənclər Fondunun yaradılmasını xüsusi qeyd etməliyik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq göstərişinə əsasən Gənclər Fondu hər il istedadlı gənclərin təhsil xərclərinin maliyyələşdirilməsi üzrə müsabiqə elan edir.

Dövlətin gənclərə sistemli dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində öz gücünə, istedadına inam hissi artıb. Beləliklə, uğurlu gənclər siyasətinin ən böyük nəticəsi o oldu ki, milli düşüncəyə, vətənpərvərlik hissinə malik gənclik yetişdi. Yüksək keyfiyyətlər qazanmış çağdaş nəsil öz sözünü hərb meydanında dedi. Bu nəsil Qarabağın kədərli hekayəsini dəyişdi; doğma Yurdu işğalçı tapdağından qurtardı; öz sevgisi, cəsurluğu, fədakarlığı, döyüş qabiliyyəti, ən yüksək məqam olan şəhidliyi ilə ortaya Azad Qarabağ, Güclü Vətən tablosu qoydu.

TEC öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitutsiyasını, Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli 295 nömrəli Sərəncamına uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirinin 27.06.2014-cü il 752 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində təhsil alanların elmi-tədqiqat işinin təşkili haqqında" əsasnaməsini, eləcə də ADPU-nun əmr və sərəncamlarını, ADPU-nun Ağcabədi filialının nizamnaməsini əldə rəhbər tutur.

Bu il TEC-ə cəlb olunan tələbələrin ümumi sayı 60 nəfərdir. Bunlardan "Fizika və riyaziyyat" bölməsi üzrə 12 nəfər, "Rəqəmsal bacarıqlar" bölməsi üzrə 7 nəfər, "Tarix" bölməsi üzrə 7 nəfər, "Coğrafiya" bölməsi üzrə 5 nəfər, "Ədəbiyyatşünaslıq" bölməsi üzrə 7 nəfər, "Dilçilik" bölməsi üzrə 7 nəfər, "Xarici dil" bölməsi üzrə 5 nəfər, "pedaqogika- psixologiya" bölməsi üzrə 10 nəfər tələbə elmi-tədqiqat işi götürmüşdür. Hər bir tələbəmizə uğurlar arzulayıram.

## "FİZİKA VƏ RİYAZİYYAT" BÖLMƏSİ

## ELLEPTİK NÖVLÜ TƏNLİKLƏRİN KANONİK ŞƏKLƏ GƏTİRİLMƏSİ

***Tələbə: Şirinova Salatın Elxan qızı (RİN1901B),***
***Elmi rəhbər: f-r.ü.f.d., dosent, Zeynalov Sahib Adıgözəl oğlu***

Yüksəktərtibli törəmələrə nəzərən xətti olan bütün diferensial tənlikləri üç sinfə (növə) ayırmaq olar. Bu siniflərin hər birində sadə tənliklər vardır. Həmin tənliklər kanonik tənliklər adlanır. Eyni sinfə daxil olan tənliklər çoxlu sayda ümumi xassələrə malikdirlər. Kanonik tənlikləri nəzərdən keçirək. Tənliyin sinfinin təyin olunmasında yüksək tərtibli törəmələrin əmsallarından istifadə olunur. İkidəyişənli $u(x,y)$ funksiyasının daxil olduğu tənliyin təsnifatına baxaq. Bu halda yüksək tərtibli törəməyə nəzərən xətti bircins tənlik

$$a_{11}(x,y)\frac{\partial^2 u(x,y)}{\partial x^2} + 2a_{12}(x,y)\frac{\partial^2 u(x,y)}{\partial x\partial y} + a_{22}(x,y)\frac{\partial^2 u(x,y)}{\partial y^2} + F\left(x,y,u(x,y),\frac{\partial u(x,y)}{\partial x},\frac{\partial u(x,y)}{\partial y}\right) = 0 \quad (4)$$

şəklində, xətti tənlik isə

$$a_{11}(x,y)\frac{\partial^2 u(x,y)}{\partial x^2} + 2a_{12}(x,y)\frac{\partial^2 u(x,y)}{\partial x\partial y} + a_{22}(x,y)\frac{\partial^2 u(x,y)}{\partial y^2} + b_1\frac{\partial u(x,y)}{\partial x} + b_2\frac{\partial u(x,y)}{\partial y} + cu(x,y) = f(x,y) \quad (5)$$

şəklində olar. (4) yaxud (5) şəklində olan tənlikləri asılı olmayan dəyişənləri yeni dəyişənlərlə əvəz etməklə sadə şəklə gətirmək olur.(5) tənliyində asılı olmayan dəyişənləri

$$\begin{cases} \xi = \varphi(x,y) \\ \eta = \psi(x,y) \end{cases} \quad (6)$$

əvəz etməklə $(\xi,\eta)$ və $(x,y)$ nöqtələrinin uyğun olduğu oblastları arasında qarşılıqlı birqiymətli uyğunluq yaradaq. Fərz edək ki, $\varphi(x,y)$ və $\psi(x,y)$ funksiyaları və onların birinci və ikinci tərtib törəmələri kəsilməzdir. (4) tənliyinə daxil olan xüsusi törəmələri təyin edək:

$$\frac{\partial u(x,y)}{\partial x} = \frac{\partial u(x,y)}{\partial \xi}\cdot\frac{\partial \xi}{\partial x} + \frac{\partial u(x,y)}{\partial \eta}\cdot\frac{\partial \eta}{\partial x}$$

$$\frac{\partial u(x,y)}{\partial y} = \frac{\partial u(x,y)}{\partial \xi}\cdot\frac{\partial \xi}{\partial y} + \frac{\partial u(x,y)}{\partial \eta}\cdot\frac{\partial \eta}{\partial y}$$

(6) düsturlarına əsasən yaza bilərik:

$$\begin{cases} \frac{\partial \xi}{\partial x} = \frac{\partial \varphi(x,y)}{\partial x} \\ \frac{\partial \eta}{\partial x} = \frac{\partial \psi(x,y)}{\partial x} \end{cases}; \quad \begin{cases} \frac{\partial \xi}{\partial y} = \frac{\partial \varphi(x,y)}{\partial y} \\ \frac{\partial \eta}{\partial y} = \frac{\partial \psi(x,y)}{\partial y} \end{cases}$$

Bu münasibətləri nəzərə alsaq birinci tərtib xüsusi törəmələr üçün yaza bilərik:

$$\frac{\partial u(x,y)}{\partial x} = \frac{\partial u(x,y)}{\partial \xi}\cdot\frac{\partial \varphi(x,y)}{\partial x} + \frac{\partial u(x,y)}{\partial \eta}\cdot\frac{\partial \psi(x,y)}{\partial x} \quad (7)$$

$$\frac{\partial u(x,y)}{\partial y} = \frac{\partial u(x,y)}{\partial \xi} \cdot \frac{\partial \varphi(x,y)}{\partial y} + \frac{\partial u(x,y)}{\partial \eta} \cdot \frac{\partial \psi(x,y)}{\partial y} \qquad (8)$$

İndi isə ikinci tərtib xüsusi törəmələri təyin edək:

$$\frac{\partial^2 u(x,y)}{\partial x^2} = \frac{\partial}{\partial \xi}\left(\frac{\partial u(x,y)}{\partial x}\right) \cdot \frac{\partial \xi}{\partial x} + \frac{\partial}{\partial \eta}\left(\frac{\partial u(x,y)}{\partial x}\right) \cdot \frac{\partial \eta}{\partial x} = \frac{\partial}{\partial \xi}\left(\frac{\partial u(x,y)}{\partial \xi} \cdot \frac{\partial \varphi(x,y)}{\partial x} + \frac{\partial u(x,y)}{\partial \eta} \cdot \frac{\partial \psi(x,y)}{\partial x}\right) \cdot \frac{\partial \xi}{\partial x} +$$

$$+\frac{\partial}{\partial \eta}\left(\frac{\partial u(x,y)}{\partial \xi} \cdot \frac{\partial \varphi(x,y)}{\partial x} + \frac{\partial u(x,y)}{\partial \eta} \cdot \frac{\partial \psi(x,y)}{\partial x}\right) \cdot \frac{\partial \eta}{\partial x} = \left(\frac{\partial^2 u(x,y)}{\partial \xi^2} \cdot \frac{\partial \varphi(x,y)}{\partial x} + \frac{\partial u(x,y)}{\partial \xi} \cdot \frac{\partial^2 \varphi(x,y)}{\partial x^2} \cdot \frac{\partial \xi}{\partial x} + \frac{\partial^2 u(x,y)}{\partial \xi \partial \eta} \cdot\right.$$

$$\left.\cdot \frac{\partial \psi(x,y)}{\partial x}\right) \cdot \frac{\partial \xi}{\partial x} + \left(\frac{\partial^2 u(x,y)}{\partial \xi \partial \eta} \cdot \frac{\partial \varphi(x,y)}{\partial x} + \frac{\partial^2 u(x,y)}{\partial \eta^2} \cdot \frac{\partial \eta}{\partial x} + \frac{\partial u(x,y)}{\partial \eta} \cdot \frac{\partial^2 \psi(x,y)}{\partial x^2}\right) \cdot \frac{\partial \eta}{\partial x} = \frac{\partial^2 u(x,y)}{\partial \xi^2} \cdot$$

$$\cdot \left(\frac{\partial \varphi(x,y)}{\partial x}\right)^2 + \frac{\partial u(x,y)}{\partial \xi} \cdot \frac{\partial^2 \varphi(x,y)}{\partial x^2} + \frac{\partial^2 u(x,y)}{\partial \xi \partial \eta} \cdot \frac{\partial \psi(x,y)}{\partial x} \cdot \frac{\partial u(x,y)}{\partial x} + \frac{\partial^2 u(x,y)}{\partial \eta \partial \xi} \cdot \frac{\partial \varphi(x,y)}{\partial x} \cdot \frac{\partial \psi(x,y)}{\partial x} +$$

$$\frac{\partial^2 u(x,y)}{\partial \eta^2} \cdot \left(\frac{\partial \psi(x,y)}{\partial x}\right)^2 + \quad \frac{\partial u(x,y)}{\partial \eta} \cdot \frac{\partial^2 \psi(x,y)}{\partial x^2} = \frac{\partial^2 u(x,y)}{\partial \xi^2} \cdot \left(\frac{\partial \varphi(x,y)}{\partial x}\right)^2 + 2 \cdot \frac{\partial^2 u(x,y)}{\partial \xi \partial \eta} \cdot \frac{\partial \varphi(x,y)}{\partial x} \cdot \frac{\partial \psi(x,y)}{\partial x} +$$

$$\frac{\partial^2 u(x,y)}{\partial \eta^2} \cdot \left(\frac{\partial \psi(x,y)}{\partial x}\right)^2 + \frac{\partial u(x,y)}{\partial \xi} \cdot \frac{\partial^2 \varphi(x,y)}{\partial x^2} + \frac{\partial u(x,y)}{\partial \eta} \cdot \frac{\partial^2 \psi(x,y)}{\partial x^2} \qquad (9)$$

Burada xüsusi törəmələrin bərabərliyi haqqında Şvars teoremindən istifadə olunmuşdur.

$$\frac{\partial^2 u(x,y)}{\partial y^2} = \frac{\partial}{\partial \xi}\left(\frac{\partial u(x,y)}{\partial y}\right) \cdot \frac{\partial \xi}{\partial y} + \frac{\partial}{\partial \eta}\left(\frac{\partial u(x,y)}{\partial y}\right) \cdot \frac{\partial \eta}{\partial y} = \frac{\partial^2 u(x,y)}{\partial \xi^2} \cdot \left(\frac{\partial \varphi(x,y)}{\partial y}\right)^2 + 2 \cdot \frac{\partial^2 u(x,y)}{\partial \xi \partial \eta} \cdot \frac{\partial \varphi(x,y)}{\partial y} \cdot$$

$$\cdot \frac{\partial \psi(x,y)}{\partial y} + \frac{\partial^2 u(x,y)}{\partial \eta^2} \cdot \left(\frac{\partial \psi(x,y)}{\partial y}\right)^2 + \frac{\partial u(x,y)}{\partial \xi} \cdot \frac{\partial^2 \varphi(x,y)}{\partial y^2} + \frac{\partial u(x,y)}{\partial \eta} \cdot \frac{\partial^2 \psi(x,y)}{\partial y^2}, \qquad (10)$$

$$\frac{\partial^2 u(x,y)}{\partial x \partial y} = \frac{\partial}{\partial \xi}\left(\frac{\partial u(x,y)}{\partial \xi} \cdot \frac{\partial \varphi(x,y)}{\partial x} + \frac{\partial u(x,y)}{\partial \eta} \cdot \frac{\partial \psi(x,y)}{\partial x}\right) \cdot \frac{\partial \xi}{\partial y} + \frac{\partial}{\partial \eta}\left(\frac{\partial u(x,y)}{\partial \xi} \cdot \frac{\partial \varphi(x,y)}{\partial x} + \frac{\partial u(x,y)}{\partial \eta} \cdot \frac{\partial \psi(x,y)}{\partial x}\right) \cdot$$

$$\frac{\partial \eta}{\partial y} = \frac{\partial \varphi(x,y)}{\partial x} \cdot \frac{\partial \varphi(x,y)}{\partial y} \cdot \frac{\partial^2 u(x,y)}{\partial \xi^2} + \left(\frac{\partial \varphi(x,y)}{\partial x} \cdot \frac{\partial \psi(x,y)}{\partial y} + \frac{\partial \psi(x,y)}{\partial x} \cdot \frac{\partial \varphi(x,y)}{\partial y}\right) \cdot \frac{\partial^2 u(x,y)}{\partial \xi \partial \eta} + \frac{\partial \psi(x,y)}{\partial y} \cdot \frac{\partial \psi(x,y)}{\partial x} \cdot$$

$$\frac{\partial^2 u(x,y)}{\partial \eta^2} + \frac{\partial^2 \varphi(x,y)}{\partial x \partial y} \cdot \frac{\partial u(x,y)}{\partial \xi} + \frac{\partial^2 \psi(x,y)}{\partial x \partial y} \cdot \frac{\partial u(x,y)}{\partial \eta} \qquad (11)$$

(7), (8), (9), (10) və (11) bərabərliklərini (4) tənliyində yazıb, qruplaşdırma aparsaq, belə bir çevrilmiş tənlik alarıq:

$$\alpha_{11}(x,y)\frac{\partial^2 u(x,y)}{\partial \xi^2} + 2\alpha_{12}(x,y)\frac{\partial^2 u(x,y)}{\partial \xi \partial \eta} + \alpha_{22}(x,y)\frac{\partial^2 u(x,y)}{\partial \eta^2} +$$

$$+F_1\left(\xi, \eta, u(x,y), \frac{\partial u(x,y)}{\partial \xi}, \frac{\partial u(x,y)}{\partial \eta}\right) 0 \qquad (12)$$

Burada

$$\alpha_{11}(x,y) = a_{11}(x,y)\left(\frac{\partial \varphi(x,y)}{\partial x}\right)^2 + 2a_{12}(x,y)\frac{\partial \varphi(x,y)}{\partial x} \cdot \frac{\partial \varphi(x,y)}{\partial y} + a_{22}(x,y)\left(\frac{\partial \varphi(x,y)}{\partial y}\right)^2;$$

$$\alpha_{12}(x,y) = a_{11}(x,y)\frac{\partial \varphi(x,y)}{\partial x} \cdot \frac{\partial \psi(x,y)}{\partial y} + 2a_{12}(x,y)\left(\frac{\partial \varphi(x,y)}{\partial x} \cdot \frac{\partial \psi(x,y)}{\partial y} + \frac{\partial \varphi(x,y)}{\partial y} \cdot \frac{\partial \psi(x,y)}{\partial x}\right) +$$

$$+a_{22}(x,y)\frac{\partial \varphi(x,y)}{\partial y} \cdot \frac{\partial \psi(x,y)}{\partial y};$$

$$\alpha_{22}(x,y) = a_{11}(x,y)\left(\frac{\partial\psi(x,y)}{\partial x}\right)^2 + 2a_{12}(x,y)\frac{\partial\psi(x,y)}{\partial x}\cdot\frac{\partial\psi(x,y)}{\partial y} + a_{22}(x,y)\left(\frac{\partial\psi(x,y)}{\partial y}\right)^2$$

işarə edilmişdir.

Bu bərabərliklərdən istifadə edərək

$$\alpha_{12}{}^2(x,y) - \alpha_{11}(x,y)\alpha_{22}(x,y) = \left(\alpha_{12}{}^2(x,y) - \alpha_{11}(x,y)\alpha_{22}(x,y)\right)\left[\frac{D(\varphi,\psi)}{D(x,y)}\right]^2 \quad (13)$$

bərabərliyinin doğruluğunu yoxlamaq olar. Burada, $\frac{D(\varphi,\psi)}{D(x,y)}$ Yakobi determinantıdır.

$\Delta = \alpha_{12}{}^2(x,y) - \alpha_{11}(x,y)\alpha_{22}(x,y)$ tənliyin diskriminantı adlanır.

Beləliklə, (4) tənliyini belə təsnif etmək olar:

1. Əgər hər hansı D oblastında $\Delta > 0$ olarsa, onda (4) tənliyi hiperbolik növlü tənlik adlanır.
2. Əgər hər hansı D oblastında $\Delta < 0$ olarsa, onda (4) tənliyi elleptik növlü tənlik adlanır.
3. Əgər hər hansı D oblastında $\Delta = 0$ olarsa, onda (4) tənliyi parabolik növlü tənlik adlanır.

Elleptik növlü tənliklərin kanonik şəkilə gətirilməsi.

Əgər (4) tənliyi D oblastında elleptikdirsə, onda bu oblastda elə $\varphi(x,y)$ və $\psi(x,y)$ funksiyaları vardır ki, (6) əvəzləmələrinin köməyi ilə bu tənlik

$$\frac{\partial^2 u(x,y)}{\partial\xi^2} + \frac{\partial^2 u(x,y)}{\partial\eta^2} + F_2\left(\xi,\eta,u,\frac{\partial u}{\partial\xi},\frac{\partial u}{\partial\eta}\right) = 0 \quad (14)$$

kanonik şəklinə gətirilir. Əvvəlcə tənliyi formal olaraq

$$\frac{\partial^2 u(x,y)}{\partial\xi\partial\eta} + F_1\left(\xi,\eta,u,\frac{\partial u}{\partial\xi},\frac{\partial u}{\partial\eta}\right) = 0 \quad (15)$$

şəklinə gətirək. Bu halda yeni $\xi$ və $\eta$ dəyişənləri kompleks qoşma olurlar:

$$\xi = \varphi(x,y) + i\psi(x,y), \quad \eta = \varphi(x,y) - i\psi(x,y).$$

Çünki baxılan halda xarakteristikanın diferensial tənlikləri

$$\frac{dy}{dx} = \frac{a_{12}(x,y) - \sqrt{-\Delta}}{a_{11}(x,y)}, \frac{dy}{dx} = \frac{a_{12}(x,y) + \sqrt{-\Delta}}{a_{11}(x,y)} - \text{dir.}$$

Beləliklə, elleptik növ tənliklərin xarakteristikası yalnız xəyalidir. Asılı olmayan dəyişənlərdən asılı yeni $\rho = \frac{\xi+\eta}{2} = \varphi(x,y)$ və $\sigma = \frac{\xi-\eta}{2} = \psi(x,y)$ dəyişənlərini daxil edək. Nəticədə (15) tənliyi

$$\frac{\partial^2 u}{\partial\rho^2} + \frac{\partial^2 u}{\partial\sigma^2} + F_2\left(\rho,\sigma,u,\frac{\partial u}{\partial\rho},\frac{\partial u}{\partial\sigma}\right) = 0 \quad (16)$$

kanonik şəklinə gətirilir.

**Nəticə:** İşdə xüsusi törəməli diferensial tənliklərin təsnifatına baxılmış, onları kanonik şəklə gətirmək üçün xüsusi törəmələri təyin edən əsas düsturdan istifadə olunması təklif olunmuşdur. Misal nümunələri göstərilmiş və Python proqramlaşdırma dilində proqram tərtib olunmuşdur. Tərtib olunmuş proqrama əsasən sabit əmsallı xüsusi törəməli diferensial tənliklərin növünü müəyyən etmək olur.

**İstifadə olunmuş ədəbiyyat:**


1. H. İ. Aslanov. Adi diferensial tənliklər və riyazi fizika tənlikləri. Bakı, "Adiloğlu", 2001.
2. M. Ə. Əzimov, F. H. Səlimov, Ş. F. Məmmədov. Diferensial tənliklər. Bakı, 1991.
3. Z. D. Abbasov. Riyazi – fizika tənlikləri. Bakı, 2016.
4. F. M. Həsənov, A. Ə. Mehdiyev. Riyazi fizika üsulları. Bakı, 2010.
5. Q. T. Əhmədov, K. H. Həsənov, M. H. Yaqubov. Adi diferensial tənliklər. Bakı,1978.
6. S. A. Zeynalov. Riyazi fizika tənlikləri. Bakı, 2019.


## TRANSENDENT TƏNLİKLƏRİN HƏLL ÜSULLARI

*Tələbə: Hüseynli Nazənin Etibar qızı (RİN2001B),*
*Elmi rəhbər: f-r.ü.f.d., dosent, Zeynalov Sahib Adıgözəl oğlu*

Dəyişənlər üzərində digər əməllər məsələn, irrasional dərəcədən qüvvətə yüksəltmə, loqarifmləmə, triqonometrik funksiyalar daxil olan ifadələr yaxud yuxarıda sadalanan riyazi əməllər dəyişən üzərində sonsuz sayda aparılmaqla düzəldilən tənliklər transendent tənliklər adlanır. Transendent tənliklərə bu tənliklər və onların kombinasiyaları aiddir:
Loqarifmik tənliklər, üstlü tənliklər, triqonometrik və tərs triqonometrik tənliklər
Qeyd olunan tənliklərin iştirakı ilə düzəldilən tənliklərin analtik üsullarla həlli bir sıra çətinliklər yaradır. Həmin çətinliklərin aradan qaldırılması üçün süni üsulların axtarışı həmişə aktualdır.

Loqarifmik tənliklər

***Tərif.*** $\log_a f(x) = \log_a g(x)$ şəklində olan tənlik loqarifmik tənlik adlanır. Burada $a > 0$ və $a \neq 1$ –dir.
$\log_a f(x) = b$ şəklində olan tənliyə baxdıqda $f(x) > 0$ ödənməlidir, $f(x) = a^b$ tənliyi həll olunur.

Loqarifmik tənlikləri həll edərkən iki metoddan istifadə edilir.

1) $\log_a f(x) = \log_a g(x)$ tənliyindən $f(x) = g(x)$ tənliyinə keçmə ilə ;
2) Yeni dəyişən daxil etmək ilə;

Misallar həll olunan vaxt bəzən süni üsullardan istifadə edilir.

*Teorem:* $log_a f(x) = log_a g(x)$ tənliyi

$$\begin{cases} f(x) = g(x) \\ f(x) > 0 \\ g(x) > 0 \end{cases}$$

qarışıq sistemi ilə eynigüclüdür.

*Teorem:* $log_{h(x)} f(x) = log_{h(x)} g(x)$ tənliyi

$$\begin{cases} f(x) = g(x) \\ f(x) > 0 \\ g(x) > 0 \\ h(x) > 0 \\ h(x) \neq 0 \end{cases}$$

qarışıq sistemi ilə eynigüclüdür.
Loqarifmik tənlikləri həll edərkən loqarifmin xassələrindəndə istifadə edilir.

$a^{\log_a x} = a$
$\log_a(x_1 x_2) = \log_a x_1 + \log_a x_2 \ , x_1 > 0, x_2 > 0$

Üstlü tənliklər

Dəyişəni qüvvət üstündə yerləşən tənliklərə üstlü tənliklər deyilir.

Sadə üstlü tənliklər $a^x = b\ (a \neq 1, a > 0)$ olan tənliklərdir. $a^x > 0$ yəni müsbət olduğu üçün $b > 0$ olduqda tənliyin həlli vardır. $b \leq 0$ olduqda tənliyin həlli yoxdur.

Üstlü tənliyin bu tərifi də vardır.

$a^{f(x)} = a^{g(x)}$ şəklində olan yaxud bu şəklə gətirilən tənliyə üstlü tənlik deyilir. Burada $a > 0$ və $a \neq 1$

Üstlü tənlikləri həll edərkən əsasən aşağıdakı üsuldan istifadə edilir. Nümunələrlə aşağıda verilmişdir.

1. Əsasları bərabərləşdirməklə həll oluna bilən üstü tənliklər.
2. Ortaq vuruğu mötərizə xaricinə çıxartmaqla həll oluna bilən üstü tənliklər.
3. Yeni dəyişən daxil etməklə həll oluna bilən üstü tənliklər.
4. Əsasında dəyişən iştirak edən üstlü tənliklər.
5. Loqarifmik eyniliklərin tətbiqi ilə həll olunan üstlü tənliklər.

Triqonometrik tənliklər.

Dəyişəni triqonometrik funksiyalar işarəsi altında olan tənliklərə triqonometrik tənliklər deyilir.

Triqonometrik tənliklərin həlli iki mərhələdən ibarət olur bunlar aşağıdakılardır.
Birinci olaraq hər bir tənlik çevirmələr nəticəsində sadə tənlik şəklinə düşür. İkinci olaraq isə sadə tənliyin həll edilməsidir.

*Misal:* $5^x + 7^x = 12^x$ tənliyini həll edin.
Həlli: Bu tənliyi həll etmək üçün qrafik üsulundan istifadə etmək olar.




İlk öncə hər iki tərəfi $12^x$-ə bölək;

$$\left(\frac{5}{12}\right)^x + \left(\frac{7}{12}\right)^x = 1 \Leftrightarrow \left(\frac{7}{12}\right)^x = 1 - \left(\frac{5}{12}\right)^x$$

$y = \left(\frac{7}{12}\right)^x$ funksiyası azalan funksiyadır, doğurdanda $x_1 < x_2$ olduqda

$y_1 - y_2 = \left(\frac{7}{12}\right)^{x_1} - \left(\frac{7}{12}\right)^{x_2} > 0$ olur. Beləliklə $y_1 > y_2$ alınır bu isə funksiyanın azalan olduğunu göstərir.

$y = 1 - \left(\frac{5}{12}\right)^x$ funksiyası isə artan funksiyadır, doğurdanda

$x_1 < x_2$ olduqda

$y_1 - y_2 = -\left(\frac{5}{12}\right)^{x_1} - \left(-\left(\frac{5}{12}\right)^{x_2}\right) = \left(\frac{5}{12}\right)^{x_2} - \left(\frac{5}{12}\right)^{x_1} > 0$ olur.

Beləliklə $y_1 > y_2$ alınır bu isə funksiyanın artan olduğunu göstərir.




Verilmiş funksiyaları eyni koordinat sistemində quraq. Qrafikdəndə aydındır ki, bu funksiyaların biri artan digəri azalandır ki, bunlar sadəcə bir nöqtədə kəsişirlər. Beləcə tənliyin bir kökü vardır və $x = 1$-dir.

Bu tənliyi başqa cür də həll etmək mümkündür.

Tənliklə eynigüclü olan tənlik aşağıdakı şəklindədir.

$$\left(\frac{5}{12}\right)^x + \left(\frac{7}{12}\right)^x = 1 \Leftrightarrow$$

$$\Leftrightarrow \left(\sqrt{\frac{5}{12}}\right)^{2x} + \left(\sqrt{\frac{7}{12}}\right)^{2x} = 1$$

$-1 < \sqrt{\frac{5}{12}} < 1; -1 < \sqrt{\frac{7}{12}} < 1$ olduğundan deməli, $\sin a = \sqrt{\frac{5}{12}} \cos a = \sqrt{\frac{7}{12}}$ vardır. Həqiqətəndə triqonometrik eyniliyə əsasən də göstərmək olur.

$\sin^2 a = 1 - \cos^2 a \Rightarrow \sin^2 a = 1 - \frac{7}{12} = \frac{5}{12} \Rightarrow \sin a = \sqrt{\frac{5}{12}}$

Tənliyin yerinə əvəzləməni yazsaq, alarıq:

$$\sin^{2x} a + \cos^{2x} a = 1$$

$\sin^2 a + \cos^2 a = 1$ eyniliyinə əsasən $2x = 2 \Rightarrow x = 1$ olur.

*Misal:* $\left(\frac{2x}{1+x^2}\right)^y + \left(\frac{1-x^2}{1+x^2}\right)^y = 1$ tənliyini həll edin.

Həlli: $\frac{2x}{1+x^2}$ və $\frac{1-x^2}{1+x^2}$ ifadələrindəki məxrəc yəni, $1 + x^2 > 0$ olduğu məlumdur.

İsbat etmək olar ki, $\frac{2x}{1+x^2} \le 1$ olur.

$(x-1)^2 \ge 0 \Leftrightarrow x^2 + 1 - 2x \ge 0 \Leftrightarrow 2x \le 1 + x^2 \Leftrightarrow \frac{2x}{1+x^2} \le 1$

Beləliklə, isbat olundu.

$x \in R$ olduqda $-1 \le \frac{2x}{1+x^2} \le 1$ olduğu üçün elə bir $a$ ədədi vardır ki, $\sin a = \frac{2x}{1+x^2}$ olur. Eyni qayda ilə $\cos a = \frac{1-x^2}{1+x^2}$ olduğunu göstərmək olar: Doğrudanda əsas triqonometrik eyniliyə əsasən yazmaq olar.

$\cos^2 a = 1 - \sin^2 a = 1 - \left(\frac{2x}{1+x^2}\right)^2 = 1 - \frac{4x^2}{(1+x^2)^2} = \frac{(1+x^2)^2 - 4x^2}{(1+x^2)^2} = \frac{1+x^4-2x^2}{(1+x^2)^2} = \frac{(1-x^2)^2}{(1+x^2)^2} \Leftrightarrow$

$\Leftrightarrow \cos a = \pm\frac{|1-x^2|}{1+x^2}$

Beləliklə,

$$\sin^y a + \cos^y a = 1$$

tənliyi alınır. Burdan aydın görünür ki, $y = 2$ olduqda tənlik eynilik alınır. Deməli $x \in R$ və $y = 2$ olduqda tənlik eyniliyə çevrilir. $\sin a = 1$ olduqda $\cos a = 0$ olur. Bu halda isə y istənilən

ədəd olduqda tənlik doğru bərabərliyə çevrilir. $\sin a = 1$ olduğundan $\sin a = \frac{2x}{1+x^2}$ bərabərliyindən $x = 1$ alınır. Deməli, $x = 1$ və $y \in R$ olduqda tənlik eyniliyə çevrilir.
Cavab : $x \in R$ və $y = 2$ və $x = 1$ və $y \in R$

**İstifadə olunmuş ədəbiyyat:**

1. S. A. Zeynalov, E.B. Əlizadə, E.V. Əsgərzadə. Elementar riyaziyyat. Bakı, 2022.
2. Ə. M. Məmmədov, R. Y. Şükürov. Elementar riyaziyyat. Bakı, 2010.
3. S. Cəbrayılov, B. Ə. Əliyev. Riyazi analiz. Bakı, 2010.
4. Ə. M. Məmmədov, R.Y. Şükürov. Elementar riyaziyyat. Bakı, 2010.

## SAY SİSTEMLƏRİNDƏ TƏTBİQ OLUNAN ÜMUMİ METODLAR

***Tələbə: Təhminə Həsənova Veysəl qızı (RİN2101B),***
***Elmi rəhbər: f-r.ü.f.d., dosent, Zeynalov Sahib Adıgözəl oğlu***

Ədədlərin adlandırılması, işarə edilməsi və yazılması sistemlərinə say sistemləri deyilir.

*q = 2-lik* say sisteminin mərtəbə vahidləri təklik, ikilik, dördlük, səkkizlik, on altılıq, otuz ikilik və s. Məsələn: $1011_{(2)}$ ədədində 1 təklik, 1 ikilik, 0 dördlük, 1 səkkizlik vardır. *q = 5-lik* say sisteminin mərtəbə vahidləri təklik, beşlik, iyirmi beşlik, yüz iyirmi beşlik və s. Məsələn: $1234_{(5)}$ ədədində 4 təklik, 3 beşlik, 2 iyirmi beşlik, 1 yüz iyirmi beşlik vardır. q = 10-luq say sisteminin mərtəbə vahidləri isə təklik, onluq, yüzlük, minlik və s. Məsələn: $212_{(10)}$ ədədində 2 təklik, 1 onluq, 2 yüzlük vardır. 10-luq say sisteminin üstünlüyü mərtəbə vahidlərinin vurulması zamanı növbəti mərtəbə vahidinin asanlıqla tapılmasıdır.

Bütövlükdə kainat genişlənməkdə davam edir. Ədədlər sistemində necə? Ehtimal olunurmu? Biz ədədlərin yazılışında say sisteminin əsası böyüdükcə onlarının yazılışının "həcminin" kiçilməsinin şahidi oluruq. Məsələn 3-lük say sistemində 5 ədədinin yazılışı belədir: $12_{(3)}$, ancaq 10-luq say sistemində isə belədir: $5_{(10)}$ . 2-lik say sistemində 5 ədədinin yazılışı belədir: $101_{(2)} = 5_{(10)}$ .

Fərz edək ki, q-lük say sistemində verilmiş ədədi h-lıq say sisteminə çevirmək lazımdır. Bu çevirməni 3 cür icra etmək olar:

1) Əvəzetmə qaydası. Əvvəlcə q-lük say sistemindən 10-luq say sisteminə keçib, sonra 10-luq say sistemindən h-lıq say sisteminə keçmək lazımdır.

2) Bölmə qaydası. Fərz edək ki, q-lük say sistemində bizə bir a ədədi verilmişdir. Bu ədədi h-lıq say sisteminə çevirmək lazımdır. Verilmiş a ədədini h-a bölüb, qalığı tapmaq lazımdır:

$$a = hk_0 + r_0$$
$$a: h = k_0(r_0)$$

Əgər $k_0 \geq h$ olarsa, onda $k_0$-ı h-a bölürük. Natamam qisməti □$k_1$, qalığı isə $r_1$ ilə işarə edirik:

$$k_0 = hk_1 + r_1$$
$$k_0: h = k_1(r_1)$$

$k_1 \geq h$ olarsa proses yenə davam etdirilir:

$$k_0 = hk_1 + r_1 \quad (k_1 \geq h)$$
$$k_1 = hk_2 + r_2 \quad (k_2 \geq h)$$
$$\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots.$$
$$k_{m-2} = hk_{m-1} + r_{m-1} \ (k_{m-1} \geq h)$$

Bu proses o zamana qədər davam edir ki, natamam qismət h-dan kiçik olsun.

3) Vurma qaydası. Vurma qaydası q-lük say sistemindəki kəsr ədədini h-lıq say sisteminə çevirmək üçün istifadə olunur. Bunun üçün verilmiş kəsr və alınan hasillərin kəsr hissələri ardıcıl olaraq h əsasına vurulur. h əsası q-lük say sistemində ifadə olunur və vurma q-lük say sistemində aparılır. Vurmadan alınan tam ədədləri onların alınma ardıcıllığı ilə soldan-sağa yazmaqla axtarılan cavab əldə edilir. Vurma əməliyyatı lazımi dəqiqlik (kəsr hissədə tələb olunan mərtəbələrin sayı) alınana qədər davam etdirilir, yəni alınan cavab çox vaxt təxmini olur. Odur ki, əks çevirmə zamanı alınan ədəd verilmiş ədədə uyğun gəlməyə bilər.

**Nəticə**: Say sistemlərində tətbiq olunan ümumi metodları axtararkən tapdığımız metodlar bütün say sistemlərində tətbiq olunmalıdır. Bütün say sistemlərində tətbiq olunan ümumi metodlar aşağıdakılardır: 1) Əvəzetmə qaydası. Əvvəlcə q-lük say sistemindən 10-luq say sisteminə keçib,sonra 10-luq say sistemindən h-lıq say sisteminə keçmək lazımdır.

2) Bölmə qaydası. Fərz edək ki, q-lük say sistemində bizə bir a ədədi verilmişdir. Bu ədədi h-lıq say sisteminə çevirmək lazımdır. Bu zaman a ədədini h-a bölürük, alınan natamam qisməti yenə h-a bölürük. Bu prosesi h-dan kiçik qismət alınana kimi davam etdiririk. Sonda alınan qalıqları sağdan sola düzürük.

3) Vurma qaydası. Vurma qaydası q-lük say sistemindəki kəsr ədədini h-lıq say sisteminə çevirmək üçün istifadə olunur. Bunun üçün verilmiş kəsr və alınan hasillərin kəsr hissələri ardıcıl olaraq h əsasına vurulur. h əsası q-lük say sistemində ifadə olunur və vurma q-lük say sistemində aparılır. Vurmadan alınan tam ədədləri onların alınma ardıcıllığı ilə soldan-sağa düzürük.

**İstifadə olunmuş ədəbiyyat:**

1. F. Əliyev, A. İ. Əliyev. Elementar riyaziyyat, Bakı, Azərnəşr, 2002. 328 səh.
2. K. S. Əsgərov, T. M. Əliyeva Tənliklərin təqribi üsullarla həlli. B., APİ- nin nəşri, 1990.
3. M. Cəbrayilov, K. S. Əsgərov. Orta məktəb riyaziyyat kursu (dərs vəsaiti). Bakı, ADPU, 1994.
4. İ. H. Hüseynov, M. A. Kərimov. Riyaziyyat Ensiklopediyası. III hissə. Bakı, 2011.
5. F.G. Feyziyev. Cəbr və ədədlər nəzəriyyəsi. Bakı, 2010.
6. S.A. Zeynalov, S.E. Suleymanov, E.V. Əsgərzadə. Riyaziyyat. Bakı, 2020.

## MÜSBƏTHƏDLİ SIRALARIN YIĞILMA ƏLAMƏTLƏRİ

***Tələbə: Sadıqova Asya Əli qızı (RİN 2101B),***
***Elmi rəhbər: f-r.ü.f.d., dosent, Zeynalov Sahib Adıgözəl oğlu***

Riyaziyyatda sıraların nəzəriyyəsi adlanan vacib bir bölmə vardır. Bu bölmədə hədləri mənfi olmayan ədədlər olan müsbəthədli sıralar da var. Belə sıraların quruluşu nisbətən sadədir.

Buna görə də, onların yığılması haqqında bir sıra daha sadə və konkret təkliflər söyləmək mümkündür. Bu təriflərin bəzisi sonsuz sərhədli qeyri-məxsusi inteqralların yığılma əlamətlərini xatırladır. Bu mövzuda müsbəthədli sıraların yığılma əlamətləri tədqiq olunur.

*Zəruri və kafi şərt*

1. Verilmiş $U_1+U_2+...+U_{n+...}$ (1) sırasının hədləri mənfi olmayan ədədlər $Un \geq 0$ ($n = 1,2,...$) olduqda ona müsbəthədli sıra deyilir.

*Teorem 1.* Müsbəthədli (1) sırasının xüsusi cəmləri ardıcıllığının yuxarıdan məhdud olması onun yığılan olması üçün zəruri və kafi şərtdir.

Şərtin zəruriliyi. Tutaq ki, müsbəthədli (1) sırası yığılandır: $\lim_{n\to\infty} S_n$=S. Yığılan ardıcıllıq isə məhduddur. Buradan $S_n \leq M$ ($n = 1,2,...$) münasibəti alınır.

*Şərtin kafiliyi.* Müsbəthədli sıranın xüsusi cəmləri ardıcıllığı monoton azalmayan olar:

$$S_n \leq S_n+U_{n+1}=S_{n+1}\ (U_{n+1} \geq 0).$$

Monoton artan (azalmayan) və yuxarıdan məhdud olan ardıcıllıq isə yığılandır. Buradan (1) sıranın yığılan olması alınır.

**Nəticə:** Müsbəthədli sıra yığılan olmadıqda onun xüsusi cəmləri ardıcıllığı qeyri-məhdud olar və $\lim_{n\to\infty} S_n$=+∞.

**Qeyd**. Sıranın xüsusi cəmləri ardıcıllığının məhdud olması istənilən sıranın yığılan olması üçün zəruri şərtdir,lakin kafi deyildir. Məsələn, $\sum_{k=1}^{\infty}(1)^{k+1}$ sırasının xüsusi cəmləri ardıcıllığının məhdud $|S_n| \leq 1$ olmasına baxmayaraq həmin sıra dağılandır.

*2. Koşi-Maklorenin inteqral əlaməti.*

Müsbəthədli sıraların və mənfi qiymətlər almayan funksiyaların qeyri-məxsusi inteqralının yığılması arasında müəyyən əlaqə vardır.

*Teorem 2.* $F(x)$ funskiyası $[1, \infty]$ oblastında təyin olunmuş,mənfi qiymətlər olmayan və monoton azalan olduqda

$$\sum_{k=1}^{\infty} f(k) \text{ sırası ilə } \int_1^{\infty} f(x)dx \quad (4)$$

qeyri-məxsusi inteqralı eyni zamanda ya yığılandır,ya da dağılandır.

*İsbatı.* F(x) funksiyası $[1, \infty]$ oblastında azalan olduğundan $x - in\ k \leq x \leq k + 1$ ($k = 1,2,...$) qiymətlərində

$$f(k) \geq f(x) \geq f(k+1)\ (k = 1,2,...) \text{ bərabərsizlikləri doğru olar.}$$

Bu bərabərsizliklərin bütün tərəflərini $[k, k+1]$ parçası üzrə inteqrallasaq,

$f(k) \geq \int_k^{k+1} f(x)dx \geq f(k+1)(k = 1,2,...)$ münasibəti alarıq. Burada k-ya $1,2,...n$ qiymətlərini verərək alınan bütün bərabərsizlikləri tərəf-tərəfə toplayaq:

$$\sum_{k=1}^{n} f(k) \geq \int_1^{n+1} f(x)dx \geq \sum_{k=1}^{n} f(k+1) \quad (5)$$

(3) sırasının xüsusi cəmini $s_n \sum_{k=1}^{n} f(k)\ il$ə işarə edək. Onda (5) bərabərsizliklərini $S_{n\geq} \int_1^{n+1} f(x)dx \geq S_{n+1}$-f(1) (n=1,2,...) kimi yazmaq olar.

Tutaq ki, (3) sırası yığılandır. Onda 1-ci teoremə görə $S_n \leq$ M ($n = 1,2,...$) olar.

Bu halda (6) münasibətindən istənilən n üçün ödənilən

$$\int_1^{n+1} f(x)dx \leq M \quad (7) \text{ bərabərsizliyi alınar.}$$

(7) bərabərsizliyi ödənildiyindən mənfi qiymətlər almayan funksiyanın sonsuz sərhədli qeyri-məxsusi inteqralının yığılma əlamətinə görə (4) qeyri-məxsusi yığılan olar. İndi tutaq ki,(4) qeyri-məxsusi inteqralı yığılandır.Onda yuxarıda göstərdiyimiz məlum teoremə görə

$$\int_1^{n+1} f(x)dx \leq \int_1^{\infty} f(x)dx < +\infty \text{ olar.}$$

Bu halda (6) bərabərsizliyindən

$$S_n \le f(1) + \int_1^x f(x)dx = M < +\infty \ (n = 1,2,\dots)$$

münasibəti alınır ki, bu da 1-ci teoremə görə (3) sırasının yığılan olduğunu göstərir.Müsbəthədli (3) sırası dağılan olduqda onun xüsusi cəmləri ardıcıllığı qeyri-məhdud olar və (6) bərabərsizliyinə görə

$$\int_1^{n+1} f(x)dx \to +\infty \ (n \to \infty)$$

alınar ki,bu da (4) inteqralının dağılan olduğunu göstərir.

(4) qeyri-məxsusi inteqralı dağılan isə $\int_1^{n+1} f(x)dx \to +\infty \ (n \to \infty)$ *və* (6) bərabərsizliyinə görə $S_n \to +\infty$ (n→ ∞), *yəni* (3) sırası dağılan olar.

*Misal 1.* $1 + \frac{1}{2^\alpha} + \frac{1}{3^\alpha} + \dots + \frac{1}{n^\alpha} + \dots$ (8) sırasının yığılmasını tədqiq etməli.

$f(x) = \frac{1}{x^\alpha}$ $(x \ge 1)$ funksiyası vasitəsilə (8) sırasını

$f(1) + f(2) + \dots + f(n) + \dots$ (9) şəklində yazmaq olar.

Onda 2-ci teoremə görə (9) sırasını və

$$\int_1^\infty f(x)dx = \int_1^\infty \frac{dx}{x^\alpha} \quad (10)$$

qeyri-məxsusi inteqralı eyni zamanda ya yığılandır,ya da dağılandır. Məlumdur ki,(10) qeyri-məxsusi inteqralı $\alpha > 1$ olduqda yığılan, $\alpha \le 1$ *olduqda* isə dağılandır. Deməli, (8) sırası $\alpha > 1$ olduqda yığılan,$\alpha \le 1$ olduqda isə dağılandır.

Xüsusi halda,$\alpha = 1$ olduqda alınan harmonik $1+\frac{1}{2}+\frac{1}{3}+\dots+\frac{1}{n}+\dots$ sırası dağılan, $\alpha = 2$ olduqda alınan $1+\frac{1}{2^2}+\frac{1}{3^2}+\dots+\frac{1}{n^2}+\dots$ sırası isə yığılan olar.

*Misal 2.* $\sum_{k=2}^{\infty} \frac{1}{k \ln k}$ sırasının yığılmasını tədqiq etməli.

Burada $f(x) = \frac{1}{x \ln x}$ funksiyası üçün $\frac{1}{k \ln k} = f(k)$ mübasibəti ödənilir və həmin funksiyanın qeyri-məxsusi inteqralı dağılandır:

$$\int_2^\infty f(x)dx = \int_2^\infty \frac{dx}{x \ln x} = \int_2^\infty \frac{d \ln x}{\ln x} = \ln \ \ln x \int_2^\infty = \infty.$$

Buna görə də verilmiş sıra dağılandır.

*3.Müqayisə əlaməti.*

*Teorem 3.* Müsbəthədli

$$U_1+U_2+\dots+U_n+\dots \text{ və } V_1+V_2+\dots V_n+\dots \quad (1)$$

sıralarının uyğun hədləri arasında $U_n \le V_n$ $(n = 1,2,\dots)$ münasibəti ödənilirsə, onda (11) sırası yığıldıqda (1) sırası da yığılır, (1) sırası dağıldıqda isə (11) sırası da dağılır.

*İsbatı:* (11) sırası yığıldıqda 1-ci teoremə görə elə M> 0 ədədi var ki,

$\sigma_n = \sum_{k=1}^{n} V_k \le M$ $(n = 1,2,\dots n)$ münasibəti ödənilir. Onda $U_k \le V_k$ bərabərsizliyinə görə

$S_n = \sum_{k=1}^{n} U_k \le \sum_{k=1}^{n} V_k = \sigma_n \le M$ və ya $S_n \le M$ $(n = 1,2,\dots)$ bərabərsizliyi alınır ki, buda 1-ci teoremə görə (1) sırasının yığılan olduğunu göstərir.

*4. Dalamber əlaməti.*

*Teorem 4.* Müsbəthədli

$$U_1+U_2+\dots+U_n+\dots \ (U_n>0, n = 1,2,\dots) \quad (1)$$

Sırasının hədləri n-nin hər hansı $n_0$-dan sonra gələn bütün qiymətlərində

$$\frac{Un+1}{U} \leq q < 1 \ (n \geq n_0) \quad (16)$$

bərabərsizliyinin ödədikdə, (1) sırası yığılan,

$$\frac{Un+1}{U} \geq 1 \quad (17)$$

Bərabərsizliyini ödədikdə isə həmin sıra dağılandır.

*5. Koşi əlaməti.*

*Teorem 5.* Müsbəthədli (1) sırasının hədləri n-nin hər hansı $n_0$-dan sonra gələn bütün qiymətlərində

$\sqrt{U}_n \leq q < 1$ bərabərsizliyini ödədikdə (1) sırası yığılan,

$\sqrt{U}_n \geq 1$ (20) bərabərsizliyini ödədikdə isə həmin sıra dağılandır.

**Nəticə 1.** Verilmiş sıranın sonlu sayda həddini atmaq və ya ona sonlu sayda yeni hədd əlavə etmək, həmin sırasının yığılan və ya dağılan olmasına təsir etmir.

**Nəticə 2.** Yığılan sıra qalığının limiti sıfıra bərabərdir.

**Nəticə 3**. Sıranın ümumi həddinin $n \to \infty$ limiti olmadıqda və ya sıfırdan fərqli sonlu ədəd olduqda dağılır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. M.S. Cəbrayılov, B. Ə. Əliyev Riyazi analiz. Bakı, 2010.
2. S. N. Məsimova. Ali riyaziyyatın əsasları. Bakı, 2006.
3. V. M. Qurbanov. Ədədi və funksiomal sıralar. Bakı, 2005.
4. R. H. Məmmədov. Ali riyaziyyat kursu. II hissə, Bakı,1981.

## TRİQONOMETRİK TƏNLİKLƏRİN HƏLLİ TEXNOLOGİYALARI

***Tələbə: Həsənova Gülşən Raqif qızı (RİN1901B),***
***Elmi rəhbər: m. Orucov Zakir Şükür oğlu***

Triqonometriya yunanca "trigono"- "üçbucaq" və "metron" - "ölçü" sözlərindən götürülmüşdür. Köməkçi vasitə kimi triqonometrik funksiyalardan sin, cos, tan, cot, sec və csc tətbiq edilir. Tiqonometrik hesabatlar həmçinin daha mürəkkəb həndəsi fiqurlara (poliqonlar, stereometriyadakı fiqurlar) da tətbiq edilə bilər. İndi isə biz triqonometrik tənliklərin müxtəlif həlli üsullarını nəzərdən keçirəcəyik.

1. Əsas triqonometrik eyniliklər.

Triqonometrik tənliklərin həllində aşağıdakı əsas eyniliklərdən istifadə olunur:

1. $\cos^2\alpha + \sin^2\alpha = 1$ (1)
2. $tg\alpha = \frac{\sin\alpha}{\cos\alpha}$ (2) ; $ctg\alpha = \frac{\cos\alpha}{\sin\alpha}$ (3)
3. $tg\alpha \cdot ctg\alpha = 1$ (4)
4. $1 + \mathrm{tg}^2\alpha = \frac{1}{\cos^2\alpha}$ (5) ; $1 + \mathrm{ctg}^2\alpha = \frac{1}{\sin^2\alpha}$ (6)

2. Ən sadə triqonometrik tənliklər.

Dəyişəni triqonometrik funksiyaların işarəsi altında olan tənliklərə triqonometrik tənliklər deyilir. Əvvəlcə sadə triqonometrik tənliyin xüsusi halları olan $\sin x = a$, $\cos x = a, \operatorname{tg} x = a, \operatorname{ctg} x = a$ (1) tənliklərinə baxaq.

a) $\sin x = a$ tənliyi (2) tənliyinin $|a| \leq 1$ olduqda bütün həlləri

$$x = arcsina + 2\pi n, n \in Z \qquad (3)$$

$$x = \pi - arcsina + 2\pi n, n \in Z \qquad (4)$$

ümumi düsturu ilə əvəz etmək əlverişlidir.

b) $cosx = a$ tənliyi (6) tənliyinin $|a| \leq 1$ olduqda bütün həlləri $x = \pm arccosa + 2\pi n, n \in Z$ düsturu ilə verilir.

c) $\operatorname{tg} x = a$ tənliyi $y = \operatorname{tg} x$ funksiyasının əsas dövrü $\pi$ olduğundan (7) tənliyinin bütün həlləri $x = arctgx + \pi n, n \in Z$ oxşar qayda ilə göstərilir ki, $ctgx = a$ tənliyinin bütün həlləri $x = arcctgx + \pi n, n \in Z$ düsturu ilə verilir.

3. Cəbri tənliklərin həlli.

.$f(sinx) = 0, f(cosx) = 0, f(tgx) = 0, f(ctgx) = 0$ şəklində olan tənliklər $sinx = y, cosx = t,\ tgx = z,\ ctgx = u$ əvəzləmələrinin köməyi ilə cəbri tənliyə gətirilərək həll olunur.

$$a_0 sin^{2n+1}x + a_1 cos^{2n}x + a_2 sin^{2n-1}x + a_3 cos^{2n-2}x + \cdots + a_{2n} sinx + a_{2n+1} = 0 \quad (3)$$

şəklində olan tənliklərdə $sinx = y$ əvəzləməsi vasitəsi ilə cəbri tənliyə gətirilir.

4. Vuruqlara ayırmaqla triqonometrik tənliklərin həlli.

Triqonometrik tənliklərin həllində ən çox istifadə olunan həll üsullarından biridə vuruqlara ayırma üsuludur. Vuruqlara ayırma üsulu ilə həll edilən sadə triqonometrik tənliklərə baxaq.

$a, b, \alpha, \beta$ $(\alpha^2 + \beta^2) \neq 0$ istənilən ədədlər olduqda

$$sin(\alpha x + a) = sin(\beta x + b) \qquad (1)$$

$$cos(\alpha x + a) = cos(\beta x + b) \qquad (2)$$

$$sin(\alpha x + a) = cos(\beta x + b) \qquad (3)$$

şəkilli tənliklər triqonometrik funksiyaların cəminin və fərqinin hasilə çevrilməsi düsturlarından istifadə etməklə vuruqlara ayırma üsulu ilə həll oluna bilərlər.

5. Hasili cəmə çevirmə düsturları ilə triqonometrik tənliklərin həlli.

$a, b, c, d$ istənilən ədədlər olduqda

$$sin\, ax \cdot sin\, bx = sin\, cx \cdot sin\, dx \qquad (7)$$

$$cos\, ax \cdot cos\, bx = cos\, cx \cdot cos\, dx \qquad (8)$$

$$sin\, ax \cdot sin\, bx = cos\, cx \cdot cos\, dx \qquad (9)$$

$$sin\, ax \cdot cos\, bx = sin\, cx \cdot cos\, dx \qquad (10)$$

və s. şəkilli tənlikləri tədqiq edək. Məsələn, (7) tənliyində $a + b = c + d$ münasibəti ödənərsə, onda

$$\sin ax \cdot \sin bx = \sin cx \cdot \sin dx \iff$$

$$\iff \frac{\cos(a-b)x - \cos(a+b)x}{2} = \frac{\cos(c-d)x - \cos(c+d)x}{2} \iff \cos(a-b)x = \cos(c-d)x.$$

Sonuncu tənlik (2) şəkilli tənlikdir.

6. Köməkçi bucaq daxiletməklə triqonometrik tənliklərin həlli.

Köməkçi bucaq daxil etmə üsulu ilə həll edilən triqonometrik tənlikləri nəzərdən keçirək.
$a, b, c\ (a \neq 0, b \neq 0)$ verilmiş ədədlər olduqda
$a\,sin\,x + b\,cos\,x = c$ (1) olduqda həlli var və onun həlli üçün

$$x = -\alpha + (-1)^k arc\sin\frac{c}{\sqrt{a^2+b^2}} + \pi n, n \in Z \quad (4)$$

düsturu doğrudur.
7. Dərəcəsini azaltmaqla triqonometrik tənliklərin həlli.
İkiqat arqumentə keçid düsturları ilə həll edilən triqonometrik tənliklər.
$0 \leq a \leq 1, 0 \leq b \leq 1$ olduqda

$$\sin^2 x = a, \quad \cos^2 x = b \quad (1)$$

şəkillində və həmçinin

$$a\sin^2 x + b\cos^2 x + c\cos 2x = d \quad (2)$$

şəkilli tənlikləri də ikiqat arqumentə keçid düsturlarının tətbiqi ilə həll etmək olar.
8.Dəyişəni tərs triqonometrik funksiya işarəsi altında olan tənliklərin həlli.

Dəyişəni tərs triqonometrik funksiya işarəsi altında olan tənlikləri həll edərkən əsasən aşağıdakı eynilik və bərabərsizliklərdən istifadə olunur:
$arcsinx + arccosx = \frac{\pi}{2}$; $arctgx + arcctgx = \frac{\pi}{2}$; $-\frac{\pi}{2} \leq arcsinx \leq \frac{\pi}{2}$; $0 \leq arccosx \leq \pi$;
$-\frac{\pi}{2} < arctgx < \frac{\pi}{2}$; $0 < arccctgx < \pi$;
$\sin(arcsinx) = x$; $\cos(arccosx) = x$; $|x| \leq 1$; $\text{tg}(arctgx) = x$; $\text{ctg}(arcctgx) = x$;
$x \in R$.

**Nəticə:** Elmi tədqiqat işində əsas triqonometrik eyniliklər, ən sadə triqonometrik tənliklər, triqonometrik tənliklərin həlli üsulları araşdırılmış və bəzi məsələlərin həlli yolları aydınlaşdırılmışdır. Həmçinin belə nəticəyə gəldik ki, istənilən triqonometrik tənliyi həlli aşağıdakı mərhələlərdən ibarətdir:
1) Tənliyin ən səmərəli həlli yolunun müəyyənləşdirilməsi
2)Tənlik üzərində çevirmələr aparmaqla onun ən sadə tənlik şəklinə gətirilməsi
3) Alınan sadə tənliyi həlli
4) Həllin düzgünlüyünün yoxlanılması

Qeyd olunmuş mərhələlər istənilən triqonometrik tənliyin həlli prosesində istifadə olunur.

**İstifadə olunmuş ədəbiyyat:**

1. İ. Hüseyinov, M. Kərimov. Riyaziyyat Ensiklopediyası. I hissə Bakı, 2011.
2. B.Ö.Tahirov, F.M. Namazov və b. Riyaziyyatın tədrisi üsulları. Bakı, 2007.
3. İ. Həsənov, Triqonometrik tənliklərin həlli üsulları. Bakı, 2017.
4. M.C. Mərdanov və S.Mirzəyev,Y. Mamedov. Cəbr və analizin başlağıcı. 5-11-ci siniflər üçün dərslik, Bakı, 2005.
5. Prof. H. Xəlilov və b. Riyaziyyat-I. Bakı, 2021.

# TƏNLİKLƏRİN HƏLLİ ZAMANI YARANAN KƏNAR KÖKLƏR VƏ ONLARIN YARANMA SƏBƏBLƏRİ

***Tələbə: Ələmşahova Sevinc Ziya qızı (RİN2001B),***
***Elmi rəhbər: m. Orucov Zakir Şükür oğlu***

Bizə çatan mənbələrə görə məsələləri qədim alimlər naməlum кəmiyyətlərlə ümumi üsulla həll edirdilər. Təкcə yunan riyaziyyatçısı İsgəndəriyyəli Diofantin "Hesab" Kitabında tənliklərin həlli ardıcıl izahla ifadə olunmuşdur. Amma, ilk dəfə belə məsələnin həll edilməsi IX əsrdə yaşamış Bağdad alimi Məhəmməd Musa Əl-Xarəzminin əsərində göstərilmişdir. "Əl cəbr" sözü onun elmi əsərinin adının bir hissəsidir. Kitab "Kitab əl-cəbr əl müкabala" (Bərpa etmə və qarşı qoyulma haqqında kitab") adlanır. Bir müddət кeçdikdən sonra bu ad hamıya tanış olan "cəbr" sözünə çevrildi və əsər tənliklərin həlli haqqında elmin əsasını qoydu. Tənliklərin həlli və onların köklərinin tapılması müasir riyaziyyat dərsliklərində geniş təsbit olunmuşdur. Lakin kənar köklərin alınması səbəbləri o qədər də geniş aydınlaşdırılmamışdır. Məqsədimiz bunları daha geniş aspektdə nəzərdən keçirməkdir.

Diofant İsgəndəriyəli, qədim yunan riyaziyyatcısı : 13 kitabda "Hesabın" müəllifi, ilk dəfə olaraq məchul və onun dərəcələri üçün hərfi işarələr daxil etmişdir, qeyri-müəyyən tənliklər haqqında təlimin banisi.

Xarəzmi (əl-Xarəzmi) Məhəmməd bin Musa (787-850 ətrafı ), Orta Asiya alimi; hesab, cəbr, astronomiya, coğrafiya üzrə işlərin müəllifi.

*Tənlik və tənliyin kökü :*

*Tərif:* Bir-birinə " = " işarəsilə bağlanan iki cəbri ifadəyə bərabərlik deyilir. Bərabərliyin sol və sağ olmaqla iki tərəfi vardır.

*Tərif:* Dəyişən daxil olan bərabərlik dəyişənin bütün mümkün qiymətlərində doğru ədədi bərabərliyə çevrilərsə onda o eynilik adlanır.

*Tərif:* Dəyişəni olan bərabərliyə tənlik deyilir.

Tənlik dedikdə sağ və sol tərəfi funksiya olan bərabərlik başa düşülür. Yəni dəyişənlərin elə qiymətlərini tapmaq lazımdır ki, $f(a)$ $və$ $g(a)$ funksiyalarının uyğun qiymətləri bərabər olsun.

*Tərif:* Dəyişənin tənliyi doğru ədədi bərabərliyə çevirən qiymətlərinə tənliyin kökü deyilir.

Yəni $f(a) = g(a)$ olarsa, $x = a$ ədədi tənliyin kökü adlanır. Tənliyi həll etmək onun köklərinin olub-olmadığını müəyyən etmək, varsa həmin kökləri tapmaq, yoxdursa olmadığını isbat etmək deməkdir.

*Tərif:* Həll prosesində alınan, lakin verilmiş tənliyi ödəməyən ədədə kənar kök deyilir. Başqa cür desək, tənliyin təyin oblastına daxil olmayan ədəd kənar kök adlandırılır.

*Tərif:* Dəyişənin, tənliyə daxil olan ifadələri mənalı edən bütün qiymətlər çoxluğu dəyişənin mümkün qiymətləri oblastı adlanır.

Tənliyin köklərinin sayı haqqında aşağıdakı hallar mümkündür.

1. Tənliyin yeganə kökü var.
2. Tənliyin bir neçə kökü vardır.
3. Tənliyinin heç bir kökü yoxdur.
4. Tənliyin istənilən sayda kökü vardır.

İstənilən tənliyin həllini sadə hala gətirmək əsas məsələdir.

Tənliklər iki əsas üsulla sadələşir: dəyişənin əvəz edilməsi və vuruqlara ayırma.

Bəzi hallarda hansı əvəzləməni aparmaq, necə vuruqlara ayırmaq olduqca çətin olur. Burada müvəffəqiyyət standart şəkildə düsturları bilməkdən, təcrübədən, məntiqdən və uğurdan asılıdır.

Eynigüclü tənliklər**:**

Fərz edək ki,

$$f_1(x) = f_2(x) \qquad (1)$$

$$\varphi_1(x) = \varphi_2(x) \qquad (2)$$

kimi iki tənlik verilmisdir.

*Tərif:* Əgər (1) tənliyinin bütün kökləri (2) tənliyinin də köküdürsə, onda (2) tənliyinə (1) tənliyinin nəticə tənliyi deyilir. Nəticə tənliyin elə həlləri ola bilər ki, o verilmiş tənliyin həlli olmasın.

*Tərif:* Bir-birinin nəticəsi olan tənliklərə eynigüclü (ekvivalent) tənliklər deyilir. Başqa sözlə, həllər çoxluğu üst-üstə düşən tənliklər eynigüclü tənliklər adlanır.

*Teorem 1:* Əgər $h(x)$ funksiyası $f(x) = g(x)$ tənliyinin təyin oblastında təyin olunmuş funksiyadırsa, onda tənliyin hər tərəfinə $h(x)$ funksiyasını əlavə etsək verilmiş tənliklə eynigüclü tənlik alınır: $f(x) = g(x) \leftrightarrow f(x) + h(x) = g(x) + h(x)$

*Teorem 2:* Əgər h(x) funksiyası $f(x) = g(x)$ tənliyinin təyin oblastında təyin olunmuş funksiyadırsa, və $h(x) \neq 0$ olarsa, onda tənliyin hər tərəfini $h(x)$ funksiyasına vursaq (bölsək) verilmiş tənliklə eynigüclü tənlik alarıq:

$$f(x) = g(x) \leftrightarrow f(x)h(x) = g(x)\,h(x),$$

$$f(x) = g(x) \leftrightarrow \frac{f(x)}{h(x)} = \frac{g(x)}{h(x)}$$

*Teorem 3:* Əgər $\frac{f_1(x)}{f_2(x)} = \frac{g_1(x)}{g_2(x)}$ tənliyində $f_2(x) \neq 0$ *və* $g_2(x) \neq 0$ olarsa, onda verilmiş tənlik $f_1(x)g_2(x) = f_2(x)g_1(x)$ tənliyi ilə eynigüclüdür.

$$\frac{f_1(x)}{f_2(x)} = \frac{g_1(x)}{g_2(x)} \leftrightarrow f_1(x)g_2(x) = f_2(x)g_1(x)$$

*Teorem 4:* Əgər $f(x) = g(x)$ tənliyini tək dərəcədən natural qüvvətə yüksəltsək (kök alsaq), verilmiş tənliklə eynigüclü tənlik alınır:

$$f(x) = g(x) \leftrightarrow\Rightarrow (f(x))^{2n+1} = (g(x))^{2n+1};$$

$$(f(x) = g(x) \leftrightarrow \sqrt[2n+1]{f(x)} = \sqrt[2n+1]{g(x)},\ n \in N.$$

*Teorem 5:* Əgər $a > 0,\ a \neq 1$ olarsa, onda $a^{f(x)} = a^{g(x)}$tənliyini $a$ əsasına görə loqarifmləsək, onunla eynigüclü tənlik alınır: $a^{f(x)} = a^{g(x)} = f(x) = g(x)$.

*Teorem 6:* Əgər $f(x) = 0$ tənliyindən $g(x) = 0$ tənliyi alınarsa, onda aşağıdakı tənliklər eynigüclüdür:

$$\begin{cases} f(x) = 0 \\ g(x) = 0 \end{cases} \leftrightarrow f(x) = 0 \quad , \quad \left[\begin{array}{l} f(x) = 0 \\ g(x) = 0 \end{array}\right. \leftrightarrow g(x) = 0$$

Tənliyin kənar kökləri və onların yaranma səbəbləri: Tənliklərin həlli zamanı eynigüclü olmayan çevirmələr apardıqda kənar köklər yarana yaxud tənliyin kökləri itə bilər. Eynigüclü olmayan çevirmələri nəzərdən keçirək.

Eynigüclü olmayan çevirmələr. Aşağıdakı çevirmələr eynigüclü olmayan çevirmələr adlanır.

*1.* $f(x) = g(x)$ şəklində tənliyi cüt dərəcədən qüvvətə yüksəltmə aşağıdakı nəticəyə gətirilir.

$$f(x) = g(x) \leftrightarrow (f(x))^{2n} = (g(x))^{2n},\ n \in N.$$

*2.* $\frac{f_1(x)}{f_2(x)} = g(x)$ tənliyinin $f_2(x) \neq 0$ tənliyinin nəticəsi $f_1(x) = f_2(x)g(x)$ tənliyidir:

$$\frac{f_1(x)}{f_2(x)} = g(x) \leftrightarrow f_1(x) = f_2(x)g(x)$$

*3.* $f(x) + h(x) = g(x) + h(x)$ tənliyin hər iki tərəfindən eyni toplananı atdıqda, tənliyin nəticəsi üçün yaza bilərik:

$$f(x) + h(x) = g(x) + h(x) \leftrightarrow f(x) = g(x).$$

*4.* $f(x)\,g(x) = 0$ tənliyinin nəticəsi $\left[\begin{array}{l} f(x) = 0 \\ g(x) = 0 \end{array}\right.$ olar.

$$f(x)\,g(x) = 0 \leftrightarrow \left[\begin{array}{l} f(x) = 0 \\ g(x) = 0 \end{array}\right.$$

*5.* $\sqrt[2n]{f(x)} = \sqrt[2n]{g(x)}$ şəklində tənliyinin $2n$ dərəcədən qüvvətə yüksəldilməsi nəticəsində alınan tənlik $(f(x) \geq 0, g(x) \geq 0)$ *belə olar:*

$$\sqrt[2n]{f(x)} = \sqrt[2n]{g(x)} \rightarrow f(x) = g(x)$$

*6.* Aşağıdakı çevirmələr zənciri tədricən təyin oblastların genişlənməsinə gətirir, ümumiyyətlə bu çevirmələr kənar köklərin yaranmasına səbəb ola bilər:

$$\sqrt{f(x)}\ \sqrt{g(x)} = 0 \rightarrow \sqrt{f(x)g(x)} = 0 \rightarrow \sqrt{|f(x)|}\ \sqrt{|g(x)|} = 0$$

*7.* Tənliyin hər tərəfindən sinus alma əməli aşağıdakı nəticəyə gətirir:

$$f(x) = g(x) = sinf\,(x) = sing(x).$$

**Nəticə:** Elmi tədqiqat işində tənlik və tənliyin kökü, eynigüclü tənliklər araşdırılmış və tənliyin kənar köklərinin yaranma səbəbləri aydınlaşdırılmışdır. Həmçinin belə nəticəyə gəldik ki, tənliklərlərin həlli zamanı müxtəlif üsullardan istifadə olunur. Bu zaman yuxarıda qeyd etdiyimiz eynigüclü olmayan çevirmələr də aparılır ki, nəticədə alınan köklərdən biri və ya bir neçəsi verilmiş tənliyi ödəmir yəni kənar kök alınır. Odur ki, tənliyin həlli zamanı alınan kökləri əsas tənlikdə yerinə qoyub yoxlamaq lazımdır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. İ. Hüseyinov, M. Kərimov. Riyaziyyat Ensiklopediyası, I hissə. Bakı, 2011.
2. İ. Hüseyinov, M. Kərimov. Riyaziyyat Ensiklopediyası, II hissə. Bakı, 2011.

3. S. A. Zeynalov, E. B. Əlizadə, E. V. Əsgərzadə Elementar riyaziyyat-I. Bakı, 2022.

## TRİQONOMETRİK ÇEVİRMƏLƏR, TƏNLİKLƏR VƏ BƏRABƏRSİZLİKLƏR

***Tələbə: Əbdürrəhimova Nərmin Hökmüran qızı (RİN2001B),***
***Elmi rəhbər: m. Əlizadə Elqayıd Bakir oğlu***

Çox uzun mərhələli olan və həndəsədə istifadə edilən triqonometriyanın tarixi 3000 ilə yaxındır.Vətəni Misir və Hindistan hesab olunur. Üçbücaqların tərəfləri və bucaqları arasında əlaqənin ilk dəfə misir astronomları Hipparx və Ptolomey tərəfindən tapıldığı hesab edilir.

Triqonometriya sözünə ilk dəfə alman riyaziyyatçısı Pitiskusun kitabında 1505- ci ildə rast gəlinib. Bucağı ölçmək üçün tətbiq olan ölçü vahidlərindən biri dərəcə ölçüsüdür. Dərəcə ölçüsündə ölçü vahidi olaraq, məsələn, düz bucağın 90 bərabər hissəyə bölünməsindən alınan bucaq, yəni düz bucağın $\frac{1}{90}$ hissəsi götürülür. Lakin, bir çox praktik məsələlərin həlli zamanı bucağın radian ölçüsü anlayışını tətbiq etmək əlverişli olur.

1. $\frac{a}{c} = \sin\alpha, \frac{b}{c} = \sin\beta$ (qarşıdakı katetin hipetonuza nisbətinə iti bucağın sinusu deyilir).
2. $\frac{b}{c} = \cos\alpha, \frac{a}{c} = \cos\beta$ (bitişik katetin hipetonuza nisbətinə iti bucağın kosinusu deyilir).
3. $\frac{a}{b} = \operatorname{tg}\alpha, \frac{b}{a} = \operatorname{tg}\beta$ (qarşıdakı katetin bitişik katetə nisbətinə iti bucağın tangensi deyilir).
4. $\frac{b}{a} = \operatorname{ctg}\alpha, \frac{a}{b} = \operatorname{ctg}\beta$ (bitişik katetin qarşıdakı katetə nisbətinə iti bucağın kotangensi deyilir).

Triqonometrik funksiyaların tərifinə əsalanaraq aşağıdakı əsas eynilikləri yazmaq olar.

1. $cos^2\alpha + sin^2\alpha = 1$
2. $tg\ \alpha = \frac{\sin\alpha}{\cos\alpha}$
3. $ctg\ \alpha = \frac{\cos\alpha}{\sin\alpha}$
4. $tg\ \alpha \cdot ctg\ \alpha = 1$
5. $1 + tg^2\alpha = \frac{1}{cos^2\alpha} = sec^2\alpha$
6. $1 + ctg^2\alpha = \frac{1}{sin^2\alpha} = cosec^2\alpha$

Arqumentləri $\frac{\pi}{2} \pm \alpha, \pi \pm \alpha, \frac{3\pi}{2} \pm \alpha, 2\pi \pm \alpha$ və ya, ümumiyyətlə $\frac{\pi}{2}k \pm \alpha$ ($k \in Z$ və $\alpha$-ixtiyari bucaqdır) bucaqları olan triqonometrik funksiyaları arqumenti $\alpha$ olan triqonometrik funksiyalarla, müəyyən düsturların köməyi ilə ifadə etmək olar. Bu düsturlar çevirmə düsturları adlanır.

Çevirmə düsturları aşağıdakılardır.

$$\sin\left(\frac{\pi}{2} - \alpha\right) = \cos\alpha,\ \cos\left(\frac{\pi}{2} - \alpha\right) = \sin\alpha$$

$$\sin\left(\frac{\pi}{2} + \alpha\right) = \cos\alpha, \cos\left(\frac{\pi}{2} + \alpha\right) = -\sin\alpha$$

$$\sin(\pi + \alpha) = -\sin\alpha,\ \ \sin(\pi - \alpha) = \sin\alpha$$

$$\cos(\pi + \alpha) = -\cos\alpha,\ \ \cos(\pi - \alpha) = -\cos\alpha$$

$$\sin\left(\frac{3\pi}{2} + \alpha\right) = -\cos\alpha, \sin\left(\frac{3\pi}{2} - \alpha\right) = -\cos\alpha,$$

$$\cos\left(\frac{3\pi}{2}+\alpha\right)=\sin\alpha\,,\cos\left(\frac{3\pi}{2}-\alpha\right)=-\sin\alpha,$$
$$\sin(2\pi-\alpha)=-\sin\alpha,\cos(2\pi-\alpha)=\cos\alpha$$
$$\text{tg}\left(\frac{\pi}{2}-\alpha\right)=\text{ctg}\alpha,\quad \text{ctg}\left(\frac{\pi}{2}-\alpha\right)=\text{tg}\alpha,$$
$$\text{tg}\left(\frac{\pi}{2}+\alpha\right)=-\text{ctg}\alpha,\quad \text{ctg}\left(\frac{\pi}{2}+\alpha\right)=-\text{tg}\alpha,$$
$$\text{tg}\left(\frac{\pi}{2}-\alpha\right)=\text{ctg}\alpha,\quad \text{ctg}\left(\frac{\pi}{2}-\alpha\right)=\text{tg}\alpha,$$
$$\text{tg}\left(\frac{\pi}{2}+\alpha\right)=-\text{ctg}\alpha,\quad \text{ctg}\left(\frac{\pi}{2}+\alpha\right)=-\text{tg}\alpha,$$
$$\text{tg}(\pi-\alpha)=-\text{tg}\alpha,\quad \text{ctg}(\pi-\alpha)=-\text{ctg}\alpha$$

Dəyişəni, yalnız triqonometrik funksiyaların işarəsi altında olan tənliyə triqonometrik tənlik deyilir.

İstənilən triqonometrik tənliyin həlli nəticə etibarı ilə $sinx=a, cosx=a, tgx=a,\ ctgx=a, a\in R$ şəklində olan ən sadə triqonometrik tənliklərin həllinə gətirilir. Bunun üçün cəbri tənliklərin həllində tətbiq olunan üsullardan – yəni dəyişənin daxil edilməsi, vuruqlara ayırma, dərəcəni azaltma, qiymətləndirmə və mühakimə yolu ilə, köməkçi bucaq daxil etməklə, məchulu yox etməklə və s. müxtəlif üsullardan istifadə olunur.

Triqonometrik tənlikləri həll etmək üçün əsas eynilikləri və triqonometrik düsturları bilmək lazımdır. Dəyişəni triqonometrik funksiya işarəsi altında olan bərabərsizliyə triqonometrik bərabərsizlik deyilir.

Triqonometrik bərabərsizliklərin həlli məlum çevirmələrin köməyilə sadə triqonometrik bərabərsizliklərin həllinə gətirilir. Sadə triqonometrik bərabərsizliklər aşağıdakılardır.

I. $sinx>a, sinx\geq a, sinx<a, sinx\leq a$

II. $cosx>a, cosx\geq a, cosx<a, cosx\leq a$

III. $tgx>a, tgx\geq a, tgx<a, tgx\leq a$

IV. $ctgx>a, ctgx\geq a, ctgx<a, ctgx\leq a$

**İstifadə olunmuş ədəbiyyat:**

1. A. Əhmədova. Riyaziyyat nədir?. Sumqayıt, 2019.
2. Doç. Dr. M. Sencer Çorlu Ezgi Riyaziyyat kuram ve uygulamalarıyla.
3. How riyazi analiz pedagogy is adaptable and accessible in any class-room. https://www.amle.org/ (müəllif - Michele Schuler)
4. https://www.youtube.com/watch?v=7XpqOd7ychE
5. Ort İsrael https://azerisrael2020.ort.org.il/index.php/category/baku/
6. https://www.youtube.com/results?search_query=STEAM+mikrobit+logic+bloku

# TÖRƏMƏ VƏ ONUN TƏTBİQLƏRİ

***Tələbə: Məmmədova Ellada Sabir qızı (RİN1801B),***
***Elmi rəhbər: m. Quliyeva Leyla Lələkişi qızı***

Elm və texnikanın inkişaf etdiyi müasir dövürdə "Törəmə və onun tətbiqi" sahəsi özünəməxsus geniş yer tapmışdır. Buna baxmayaraq təcrübə göstərir ki, abituriyentlərin nisbətən çətinlik çəkdiyi mövzulardan biri də məhz bu, yəni "Törəmə və onun tətbiqləri" mövzusudur. Bu məqsədlə də təqdim olunan məqalədə həmin mövzu ilə bağlı qısa məlumat verilir.

Tutaq ki, müəyyən aralıqda təyin olunmuş $y = f(x)$ funksiyası verilib.

Fərz edək ki, $x$ arqumenti müəyyən (müsbət və ya mənfi) $\Delta x$ artımı alır. Onda $y = f(x)$ funksiyası da müəyyən $\Delta y = f(x + \Delta x) - f(x)$ (1) artımı alır. Bu artımın arqument artımına olan

$$\frac{\Delta y}{\Delta x} = \frac{f(x + \Delta x) - f(x)}{\Delta x} \quad (2)$$

nisbətinə baxaq.

*Tərif:* Funksiya artımının arqument artımına nisbətinin arqument artımı sıfra yaxınlaşdıqda (yəni $\Delta x \to 0$ olduqda) limiti varsa, bu limitə funksiyanın x nöqtəsində törəməsi deyilir və $y'$, $f'\left(x\right)$, $\frac{dy}{dx}$, $y'_x$ kimi işarə olunur.

Beləliklə, tərifə görə $f'(x) = \lim_{\Delta x \to 0} \frac{\Delta y}{\Delta x}$ və ya $f'(x) \lim_{\Delta x \to 0} \frac{f(x+\Delta x)-f(x)}{\Delta x}$ (3)

Nöqtədə törəməsi olan funksiya bu nöqtədə diferensiallanan funksiya, törəmənin tapılması əməliyyatı isə diferensiallama adlanır.

Funksiyanın törəməsinin hər hansı $x_o$ nöqtəsindəki qiyməti $f'(x_o), (y'(x_o))$ kimi işarə edilir. Bu qiyməti tapmaq üçün əvvəlcə funksiyanın $f'\left(x\right)$ törəməsi tapılır, alınmış nəticədə $x = x_o$ götürülür.

Müəyyən intervalın bütün nöqtələrində diferensiallanan funksiya həmin intervalda diferensiallanan funksiya adlanır.

Törəmənin həndəsi və fiziki mənası

Tutaq ki, $(a, b)$ intervalında təyin olunmuş f(x) funksiyasının qrafiki üzərində götürülmüş $M$ nöqtəsi arqumentin $x_o$, $N$ nöqtəsi isə $x_o + \Delta x$ qiymətinə uyğundur ($x_o$ və $x_o + \Delta x$ qiymətləri $(a; b)$ intervalındandır) (şəkil 1). $M$ *və* $N$ nöqtələrindən keçən düz xətt $y = f(x)$ əyrisini kəsən adlanır. Kəsənlə absis oxunun müsbət istiqaməti arasındakı bucağı $\varphi$ ilə işarə edək. $N$ nöqtəsindən $Ox$ oxuna endirilmiş perpendikulyarla bu perpendikulyara $M$ nöqtəsindən Oy oxuna endirilmiş perpendikulyarın kəsişmə nöqtəsini $K$ ilə işarə edək ($MK \perp NK$) və $\Delta MKN - dən$ kəsənin $k_1$ bucaq əmsalını tapaq.

$$k_1 = tg\varphi = \frac{NK}{MK} = \frac{\Delta y}{\Delta x} \quad (4)$$




Şəkil 1.

Aydındır ki, *N* nöqtəsi əyri boyunca ixtiyari tərəfdən ($\Delta x$ müsbət də, mənfi də ola bilər) *M* nöqtəsinə yaxınlaşdıqda $\Delta x \to 0$ olur (və tərsinə $\Delta x \to 0$ olduqda $N \to M$). Bu zaman *MN* kəsəni müəyyən *MT* vəziyyətinə yaxınlaşarsa, *MT* düz xəttinə (*MN* kəsəninin limit vəziyyətinə) əyrinin (baxılan halda $y = f(x)$ əyrisinin) *M* nöqtəsində toxunanı deyilir.

*MT* toxunanının *Ox* oxunun müsbət istiqaməti ilə əmələ gətirdiyi bucağı $\alpha$ ilə işarə edək. $\Delta x \to 0$ olduqda, $\varphi \to \alpha$ və *MT* toxunanı Ox oxuna perpendikulyar olmadıqda, tangens funksiyasının kəsilməzliyinə əsasən $tg\varphi \to tg\alpha$. Bunu nəzərə alaraq (2) bərabərliyində $\Delta x \to 0$ şərti ilə limitə keçsək, *MT* toxunanının $k$ bucaq əmsalını taparıq.

$$k = \lim_{\Delta x \to 0} \frac{\Delta y}{\Delta x} = f'(x_o) \qquad (5)$$

Beləliklə, arqumentin hər hansı $x_o$, nöqtəsində $y = f(x)$ funksiyasının $f'(x_o)$ törəməsi, funksiyanın qrafikinə $(x_o; f(x_o))$ nöqtəsində çəkilmiş toxunanın absis oxunun müsbət istiqaməti ilə əmələ gətirdiyi bucağın tangensinə – toxunanın bucaq əmsalına bərabərdir. Bu, törəmənin həndəsi mənasıdır.

Aydındır ki, toxunanın bucaq əmsalı məlumdursa, onun tənliyini asanlıqla yazmaq olar. *MT* düz xətti $M(x_o;\ y_o)$ nöqtəsindən keçdiyindən, onun tənliyi

$$y - y_o = k(x - x_o) \qquad (6)$$

şəklindədir. (6)-da (5)-i nəzərə alsaq, $y = f(x)$ əyrisinə $M(x_o, y_o)$ nöqtəsində çəkilmiş *MT* toxunanının tənliyini alırıq:

$$y - y_o = f'(x_o)(x - x_o)$$

və ya

$$y = y_o + f'(x_o)(x - x_o) \qquad (7)$$

*Misal:* $y = x^2 - 3x + 5$ parabolasına *M (2,3)* nöqtəsində çəkilmiş toxunanın absis oxu ilə əmələ gətirdiyi $\alpha$ bucağını və toxunanın tənliyini tapaq.

*Həlli:* Törəmənin tərifinə əsasən tapırıq ki, $y' = 2x - 3$. $x = 2$ olduqda $y' = 1$, yəni $tg\alpha = 1$. Deməli, $\alpha = \frac{\pi}{4}$.

(7)-yə əsasən M(2,3) nöqtəsində toxunanın tənliyi *y-3= 1·(x-2)*, və ya *y=x+1* şəklindədir.

Törəmənin fiziki mənasını vermək üçün fərz edək ki, $y = f(x)$ funksiyası M maddi nöqtəsinin düz xətt üzrə hərəkət qanununu təsvir edir, yəni $y = f(x)$, $M$ nöqtəsinin başlanğıc andan $x$ zaman müddətinə getdiyi yoldur.

Onda maddi nöqtənin $x_o$, anına qədər getdiyi yol $y = f(x_o), x_1$ anına qədər getdiyi yol $y_1 = f(x_1)$ olar və deməli, $\Delta x = x_1 - x_0$ müddətində M nöqtəsi $\Delta y = f(x_1) - f(x_o) = f(x_o + \Delta x) - f(x_o)$ yolunu qət edir. Fizikadan məlum olan tərifə görə $\frac{\Delta y}{\Delta x}$ nisbəti nöqtənin $\Delta x$ zaman müddətində orta sürəti, $\frac{\Delta y}{\Delta x}$-in $\Delta x \to 0$ şərti ilə limiti isə nöqtənin $x_o$ anında ani sürəti (və ya sadəcə sürəti) adlanır. Bu sürəti $v$ ilə işarə etsək,

$$v = \lim_{\Delta x \to 0} \frac{\Delta y}{\Delta x} = \lim_{\Delta x \to 0} \frac{f(x_0 + \Delta x) - f(x)}{\Delta x} = f'(x_o)$$

alarıq. Beləliklə, düzxətli hərəkətin sürəti yolun zamana görə törəməsinə bərabərdir.

Funksiyanın cəminin, hasilinin və nisbətinin törəməsi.Triqonometrik, üstlü və loqarifmik funksiyalarının törəməsi. Mürəkkəb, tərs və qüvvət funksiyalarının törəməsi.

*Teorem 1:* $u = u(x)$ və $v = v(x)$ funksiyaları $x$ nöqtəsində diferensiallanandırsa, onların cəmi, fərqi, hasili və nisbəti də (məxrəc bu nöqtədə sıfırdan fərqli olduqda) bu nöqtədə diferensiallanandırlar və bu törəmələr

$$(u \pm v)' = u' \pm v', \quad (uv)' = u'v + uv', \quad \left(\frac{u}{v}\right)' = \frac{u'v - uv'}{v^2} \quad (v \neq 0)$$

düsturları ilə hesablanır.

Bu düsturlardan birinin, məsələn, nisbətin törəməsi düsturunun doğruluğunu isbat edək. Bunun üçün törəmənin tərifindən, $f(x + \Delta x) = f(x) + \Delta y$ bərabərliyindən və limitlər haqqında teoremdən istifadə edəcəyik.

$$\left(\frac{u}{v}\right)' = \lim_{\Delta x \to 0} \frac{\frac{u(x+\Delta x)}{v(x+\Delta x)} - \frac{u(x)}{v(x)}}{\Delta x} = \lim_{\Delta x \to 0} \frac{u(x+\Delta x) \cdot v(x) - u(x) \cdot v(x+\Delta x)}{v(x+\Delta x) \cdot v(x) \cdot \Delta x}$$

$$= \lim_{\Delta x \to 0} \frac{[u(x) + \Delta u] \cdot v(x) - u(x) \cdot [v(x) + \Delta v]}{v(x) \cdot [v(x) + \Delta v] \cdot \Delta x} = \lim_{\Delta x \to 0} \frac{uv + v \cdot \Delta u - uv - u \cdot \Delta x}{v \cdot [v + \Delta v] \cdot \Delta x}$$

$$= \lim_{\Delta x \to 0} \frac{v \cdot \frac{\Delta u}{\Delta x} - u \frac{\Delta v}{\Delta x}}{v^2 + v \cdot \Delta v} = \frac{v \cdot \lim\limits_{\Delta x \to 0} \frac{\Delta u}{\Delta x} - u \lim\limits_{\Delta x \to 0} \frac{\Delta v}{\Delta x}}{v^2 + v \cdot \lim\limits_{\Delta x \to 0} \Delta v} = \frac{u'v - uv'}{v^2}$$

*Triqonometrik, üstlü və loqarifmik funksiyaların törəməsi.*

$y = sinx$ funksiyası törəməsini tapaq.

$\Delta y = \sin(x + \Delta x) - sinx = 2sin\frac{\Delta x}{2}\cos\left(x + \frac{\Delta x}{2}\right)$. Ona görə də, $\Delta x \neq 0$ olduqda

$$\frac{\Delta y}{\Delta x} = \frac{\sin\frac{\Delta x}{2}}{\frac{\Delta x}{2}} \cdot \cos\left(x + \frac{\Delta x}{2}\right)$$

$$\lim_{\Delta x \to 0} \frac{\Delta y}{\Delta x} = \lim_{\Delta x \to 0} \frac{sin\frac{\Delta x}{2}}{\frac{\Delta x}{2}} \cdot \lim_{\Delta x \to 0} cos\left(x + \frac{\Delta x}{2}\right) = 1 \cdot cosx = cosx$$

Deməli, $(sinx)' = cosx$

2. $y = cosx$;

$y' = (cosx)' = \left(sin\left(\frac{\pi}{2} + x\right)\right)' = cos\left(\frac{\pi}{2} + x\right) \cdot \left(\frac{\pi}{2} + x\right)' = cos\left(\frac{\pi}{2} + x\right) = -sinx;$

$(\cos x)$`$= -\sin x$

2. $y = \text{tg}\, x;$

İki funksiyanın nisbətinin törəməsi düsturuna görə,

$$y' = (\text{tg}\, x)' = \left(\frac{sinx}{cosx}\right)' = \frac{(sinx)' \cdot cosx - (cosx)' \cdot sinx}{cos^2x} = \frac{cos^2x + sin^2x}{cos^2x}$$

$$= \frac{1}{cos^2x};\ \ y' = \frac{1}{cos^2x}\ \ \left(x \neq \frac{\pi}{2} + n\pi,\ n \in Z\right)$$

3. $y = ctgx$ ;

$$y' = (ctgx)' = \left(\frac{cosx}{sinx}\right)' = \frac{(cosx)' \cdot sinx - (sinx)' \cdot cosx}{sin^2x} =$$

$= -\frac{1}{sin^2x}\ (x \neq \pi n, n \in Z)$3. $y = \text{tg}\, x;$

İki funksiyanın nisbətinin törəməsi düsturuna görə,

$$y' = (\text{tg}\, x)' = \left(\frac{sinx}{cosx}\right)' = \frac{(sinx)' \cdot cosx - (cosx)' \cdot sinx}{cos^2x} = \frac{cos^2x + sin^2x}{cos^2x}$$

. $y = \log_a x\ \ (a > 0, a \neq 1)$

$$\Delta y = \log_a(x + \Delta x) - \log_a x = \log_a\left(1 + \frac{\Delta x}{x}\right),\ \Delta x \neq 0$$

$$\frac{\Delta y}{\Delta x} = \frac{1}{\Delta x} log_a\left(1 + \frac{\Delta x}{x}\right) = \frac{1}{x} \cdot \frac{x}{\Delta x} log_a\left(1 + \frac{\Delta x}{x}\right) = \frac{1}{x} log_a\left(1 + \frac{\Delta x}{x}\right)^{\frac{x}{\Delta x}}$$

$\frac{x}{\Delta x} = \alpha$ işarə edək. Onda, ikinci görkəmli limitə əsasən,

$lim_{\Delta x \to 0}\left(1 + \frac{\Delta x}{x}\right)^{\frac{x}{\Delta x}} = lim_{\alpha \to \infty}\left(1 + \frac{1}{\alpha}\right)^{\alpha} = e$ və loqarifmik funksiya kəsilməz olduğundan ,

$$y' = \lim_{\Delta x \to 0} \frac{\Delta y}{\Delta x} = \lim_{\Delta x \to 0} \frac{1}{x} \cdot \log_a\left(1 + \frac{\Delta x}{x}\right)^{\frac{x}{\Delta x}} = \frac{1}{x}\log_a e = \frac{1}{xlna},$$

Xüsusi halda, $y = lnx$ olduqda,

$$y' = (\ln x)' = \frac{1}{x} \cdot \quad y = \log_a x\ \ (a > 0, a \neq 1)$$

$$\Delta y = \log_a(x + \Delta x) - \log_a x = \log_a\left(1 + \frac{\Delta x}{x}\right),\ \Delta x \neq 0$$

$\frac{\Delta y}{\Delta x} = \frac{1}{\Delta x} log_a\left(1 + \frac{\Delta x}{x}\right) = \frac{1}{x} \cdot \frac{x}{\Delta x} log_a\left(1 + \frac{\Delta x}{x}\right) = \frac{1}{x} log_a\left(1 + \frac{\Delta x}{x}\right)^{\frac{x}{\Delta x}}$

$\frac{x}{\Delta x} = \alpha$ işarə edək. Onda, ikinci görkəmli limitə əsasən,

$lim_{\Delta x \to 0}\left(1 + \frac{\Delta x}{x}\right)^{\frac{x}{\Delta x}} = lim_{\alpha \to \infty}\left(1 + \frac{1}{\alpha}\right)^{\alpha} = e$ və loqarifmik funksiya kəsilməz olduğundan,

$$y' = \lim_{\Delta x \to 0} \frac{\Delta y}{\Delta x} = \lim_{\Delta x \to 0} \frac{1}{x} \cdot \log_a\left(1 + \frac{\Delta x}{x}\right)^{\frac{x}{\Delta x}} = \frac{1}{x}\log_a e = \frac{1}{xlna},$$

Xüsusi halda, $y = lnx$ olduqda,

$$y' = (\ln x)' = \frac{1}{x} \cdot$$

*Tərs funksiyanın törəməsi.*

*Teorem 3:* Tutaq ki, $y = f(x)$ funksiyası $x_0$ nöqtəsinin müəyyən ətrafında artan (azalan) kəsilməz funksiyadır və bu nöqtədə onun sıfırdan fərqli $f'(x_0)$ törəməsi var. Onda bu funksiyanın uyğun $y_0 = f(x_0)$ nöqtəsinin müəyyən ətrafında təyin olunmuş $x = f^{-1}(y)$ tərs funksiyası var, $y_0$ nöqtəsində diferensiallanandır və

$$\left(f^{-1}(y_0)\right)' = \frac{1}{f'(x_0)} \qquad (9)$$

bərabərliyi doğrudur.

$y$- in $x$-ə görə törəməsini $y_x'$- lə, $x$-in $y$-ə görə törəməsini $x_y'$-lə işarə etsək, (9) bərabərliyini $x_y' = \frac{1}{y`_x}$ şəklində yazmaq olar.

(9) bərabərliyi göstərir ki, verilmiş funksiyanın törəməsinin tərsi, tərs funksiyanın törəməsinə bərabərdir (uyğun nöqtələrdə).

*Qüvvət funksiyanın törəməsi.*

Tutaq ki, $n$ natural ədəddir və $y = x^n$ funksiyasının törəməsini tapmaq tələb olunur.

Nyuton binomu düsturunu tətbiq edərək alarıq :

$$\Delta y = (x+\Delta x)^n - x^n = \left[x^n + nx^{n-1}\Delta x + \frac{n(n-1)}{1\cdot 2}x^{n-2}\cdot(\Delta x)^2 + \cdots + (\Delta x)^n\right] -$$
$$x^n = nx^{n-1}\Delta x + \frac{n(n-1)}{1\cdot 2}x^{n-2}(\Delta x)^2 + \cdots + (\Delta x)^n$$

Buradan, $\Delta x \neq 0$ üçün

$$\frac{\Delta y}{\Delta x} = nx^{n-1} + \frac{n(n-1)}{1\cdot 2}x^{n-2}\cdot\Delta x + \cdots + (\Delta x)^{n-1}.$$

$\lim_{\Delta x\to 0}\Delta x = 0$, olduqda $lim_{\Delta x\to 0}(\Delta x)^2 = \cdots = lim_{\Delta x\to 0}(\Delta x)^{n-1} = 0$ olduğundan,

$y' = lim_{\Delta x\to 0}\frac{\Delta y}{\Delta x} = nx^{n-1}$, yəni $(x^n)' = nx^{n-1}$

Törəmənin tətbiqi ilə məsələ həlli

*Məsələ:* Şirkət oturacağı kvadratşəkilli olmaqla səthinin sahəsi 192 $sm^2$ olan ağzı açıq qutular istehsal etməyi planlaşdırır.Qutunun həcmi onun hansı ölçülərində maksimum olar?

Həlli: Qutunun oturacağı kvadrat olduğundan onun həcmi $V = x^2h$ olar. Məsələdə verilən digər məlumatlardan istifadə etməklə həcmi bir dəyişəndən,yalnız x-dən asılı ifadə edək.

Qutunun səthinin $sahəsi = 4$, yan $üzlərinin\ sahəsi + oturacağının\ sahəsi.$

$S_{səth} = 4xh + x^2 = 192$, buradan $h = \frac{192-x^2}{4x}$ olduğunu $V = x^2h$ düsturunda yerinə yazsaq, qutunun həcmini yalnız x dəyişənindən asılı

*V(x)* = $x^2\left(\frac{192-x^2}{4x}\right)$ = 48 - $\frac{x^3}{4}$ kimi ifadə etmək olar.

İndi isə məsələnin şərtində verilənlərə görə *V(x)* funksiyanın təyin oblastını müəyyən edək.

Aydındır ki, uzunluq mənfi ola bilməz, yəni $x > 0$. Qutunun kvadratşəkilli oturacağının sahəsi isə 192-dən kiçik olmalıdır, yəni $x^2 < 192$ , və ya $x < \sqrt{192}$. Deməli, 0< $x < \sqrt{192}$. $V(x)$ funksiyasının (0; $\sqrt{192}$) intervalında maksimum qiymətini tapmalıyıq. Bunun üçün funksiyanın törəməsin alaq:

$$V`(x) = \left(48x - \frac{x^3}{4}\right)` = 48 - \frac{3x^2}{4} = \frac{3}{4}(8-x)(8+x)$$

$$x = 8\ və\ x = -8\ olduqda\ V`(x) = 0\ olur.$$

Lakin -8 $\overline{\in}$ (0;$\sqrt{192}$). Deməli, baxılan intervalda böhran nöqtəsi $x = 8$ olur. $0 < x < 8$ olduqda $V`(x) > 0$ , $8 < x < \sqrt{192}$ olduqda $V`(x) < 0$ olduğundan, $V(x)\ funksiyası\ x = 8$ olduqda maksimum qiymət alır.

Qutunun oturacağının tərəfləri 8 sm olarsa, onun hündürlüyü

$h = \frac{192-8^2}{4\times 8} = 4\ sm$ olar.

Ölçüləri 8 sm × 8 $sm$ × 4 $sm$ olan qutunun həcmi maksimum olur.

**Nəticə:** yekununda belə bir nəticəyə gəldik ki, dəyişəni kök işarəsi altında olan tənliklərə irrasioanl tənliklər deyilir. İrrasioanl tənliklərin daxil olduğları köklər hesabi kök mənasında işlədilir. Yəni Nəticə olaraq qeyd etmək olar ki , törəmə və onun tətbiqləri mövzusu müasir dövrümüzün təlabatına cavab olaraq elmi texniki tərəqqidə , xüsusilə sürətlə inkişaf etməkdə olan sənayedə, şirkət sahibləri üçün daha səmərəli yolla qazanc əldə etmələri üçün geniş imkanlara malikdir. Buna sadə bir misal olaraq məqalənin sonunda verilən məsələdə şirkət hansı ölçülərdə həcmi böyük olan qutu istehsalında öz əksini tapmışdır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. M. H. Yaqubov, İ. M. Abdullayev, Ə. H. Yaqubov, N. A. Kərimli, A. H. Bağırov, H. N. Ağayev, M. M.Vəliyev. "TQDK. Abituriyent".
2. N. M. Qəhrəmanova, M. A. Kərimov, Ə. F. Quliyev. Riyaziyyat 11 Dərslik , Bakı, 2018.
3. İ. Hüseynov, M. Kərimov, "Riyaziyyat ensiklopediyası, II hissə, Bakı, 2004".
4. T. Oral, İ. Həsənov "Cəbr", Dərs vəsaiti, Bakı, 2003.
5. B. Ö. Tahirov, F. M. Namazov və b. "Riyaziyyatın tədrisi üsulları". Bakı, 2007.
6. M. Əsədov, Ş. Rəcəbov, "Riyaziyyat", Dərs vəsaiti, Dəyər nəşrləri. 2016.
7. R. Əliməmmədov, Riyaziyyat, Dərs vəsaiti, Araz yayımları. 2013.
8. M. M. Abbaszadə, N. Ə. Babayev, M. C. Mərdanov və b. "Riyaziyyat". Abituriyent II nəşr, Bakı, 2003.
9. İ. Hüseyinov, M. Kərimov "Riyaziyyat Ensiklopediyası", I hissə. Bakı, 2011.

## FİZİKA ÜZRƏ QRAFİK TİPLİ TESTLƏRİN HƏLLİ METODİKASI

***Tələbə: Piriyeva Aytəkin Novruz qızı ( FM2101B),***
***Elmi rəhbər: m. Zalova Nəzakət Cəmil qızı***

Qarşıya qoyulan məqsəddən asılı olaraq qrafik testləri bir neçə tipə ayırmaq olar. Birinci tip testlərdə şagird bir parametrlə digər parametr arasında funksional asıllığı müəyyən etməyi, əldə edilən biliklər əsasında bu asıllığın qrafikini qurmağı öyrənir. Bu vərdiş təcrübi materialı təhlil etməyə imkan verir. Belə tip qrafik testlərə aşağdakı formada tapşırıqları misal göstərmək olar. Məs: Qrafiklərdən hansı … kəmiyyətinin … asılılığını düzgün təsvir edir?

*1. Xətti funksiyanın qrafiki və həlli metodikası*

Məqsədə çatmaq üçün şagirdlərə riyaziyyat kursunda keçilmiş elementar funksiyaları anlatmaq lazımdır. Məktəbdə keçirilən riyaziyyat fənnindən bizə məlum olduğu kimi xətti funksiyanın düsturu və qrafiki aşağıdakı kimidir:

$$y = kx + b$$




Qrafikdən də görsəndiyi kimi k>0 olduqda qrafikin qolları yuxarı, k<0 olduqda isə qollar aşağı olur. Biz fizikanın bir çox bölmələrində xətti funksiyanın qrafiklərin bilirik. Məs: Düzxətlibərabər sürətli hərəkətdə, elastiklik və sürtünmə qüvvəsində, müxtəlif mühitlərdə elektrik cərəyanı və s.

İndi isə xətti funksiyaya aid qrafik tipli teslərin həllinə baxaq:

1.Bərabərsürətli hərəkətdə yolun zamandan asıllıq qrafiki hansıdır ?

A)



B)



C)



D)



E)



*İzahı:* Bərabərsürətli hərəkətdə gedilən yol zamanla düz mütənasibdir. Cavab: A variantıdır.

2. *Kvadratik funksiyanın qrafiki və onun həlli metodikası*

Kvadratik funksiyanın düsturu və qrafiki aşağıdakı kimidir :

$y = ax^2 + bx + c$




Kvadratik funksiyalarınada fizikanın müxtəlif bölmələrində rast gəlmək olar: Məs, bərabərtəcilli hərəkətdə,mexaniki enerji, mexaniki iş və gücdə və s.

İndi isə kvadratik funksiyaya aid qrafik tipli test nümunələrinə baxaq:

1. Bərabərtəcilli hərəkətdə cismin yerdəyişməsinin proyeksiyasının zamandan asıllıq qrafiki hansıdır ?

A) $S_x$




B) $S_x$




C) $S_x$




D) $S_x$




E) $S_x$



*İzahı:* Bərabərtəcilli hərəkətdə cismin yerdəyişməsinin proyeksiyası $S_x = v_{ox}t + \frac{a_x}{2}t^2$ düsturu ilə ifadə olunur. Düstura əsasən deyə bilərik ki, yerdəyişmənin proyeksiyası zamanla kvadratik düz mütənasibdir.Cavab B variantıdır.

3. *Hiperbolik funksiyanın qrafiki və həlli metodikası*

Hiperbolik funksiyanın qrafiki və düsturu aşağıdakı kimi ifadə olunur :

$y = \frac{k}{x}$ *və* $\frac{k}{x^2}$ ( tərs mütənasib funksiyanın düsturu )




Tərs mütənasib funksiyanın qrafikinə fizikanın bir çox bölməsində rast gəlmək olar Məs, dinamikanın əsasları, yarımkeçiricilər, dalğa optikası və s.

*İndi isə tərs funksiyaya aid test nümunələrinə baxaq:*

1.Sabit qüvvənin təsiri ilə cismin aldığı təcilin onun kütləsindən asılılıq qrafiki hansıdır?

A) *a*




*B) a*




C) *a*




*D) a*




*E) a*




*İzah :* Sabit qüvvənin təsiri ilə cismin aldığı təcili $a = \frac{F}{m}$ düsturuna əsasən deyə bilərik ki, kütlə ilə tərs mütənasibdir. Cavab D variantıdır.

4. *Kökaltı funksiyanın qrafiki və həlli metodikası*

Kökaltı funksiyanın düsturu və qrafiki aşağıda qeyd olunan kimidir:

$y = k\sqrt{x}$ (qeyd edək ki, burada $k > 0$ dır)




Kvadratik funksiyaya da fizikanın bir neçə bölməsində rast gəlmək olar. Məs. Mexaniki rəqslər və dalğalar,Vakumda, qazlarda elektrik cərəyanı və s .

İndi isə kökaltı funksiyaya aid qrafik tipli test nümunələrinə baxaq:

1.Mexaniki hərəkət zamanı yaylı rəqqasın periodunun yaydan asılmış yükdən asılılıq qrafiki hansıdır ?

A) *T*




*B) T*




*C) T*




*D T*




*E) T*




*İzahı:* Yaylı rəqqasın periodunun yükdən asılılıq düsturu – $T = 2\pi\sqrt{\frac{m}{k}}$ dir. Düstura əsasən period yükdən kökaltı düz mütənasibdir. Cavab E variantıdır.

5. *Dəyişməz funksiyanın qrafiki və həlli metodikası*

Dəyişməz funksiyanın düsturu və qrafiki aşağıdakı kimidir:

$y = const$ və $x = const$




Sabit yəni dəyişməz funksiyanın qrafikinə demək olar ki hər bölməsində rast gəlmək olur. Məs: mexaniki rəqslər və dalğalar, sürtünmə qüvvəsi, izoprosesləri və s.

İndi isə sabit funksiyaya aid test nümunələrinə baxaq:

1.Riyazi rəqqasın sərbəst rəqsalərinin periodunun rəqsin hərəkətinə sərf olunan zamandan asılılıq qrafiki hansıdır ?

A)



B)



C)



D)



E)



*İzahı:* Riyazi rəqqasın sərbəst rəqslərinin periodu zamandan asılı deyil.

*Cavab A variantıdır.*

**Nəticə:** Qrafik tipli testlər müasir dövrdə ən çox həll olunan testlər sırasındadır. Eyni zamanda həyatımızın ayrılmaz hissəsidir.Qrafik tipli testləri həll edə bilməklə biz bir çox işləri bacara bilərik. Belə nəticəyə gəlmək olar ki xəbərimiz olmadan gündəlik həyatımızda qrafiklərdən çox istifadə edirik. Məs: Biz şagirdlər gündəlik olaraq oxuduğumuz dərsin miqdarının zamandan asılılıq qrafikini, müəllimlərin iş saatlarının həftə ərzində asılılıq qrafiki və s.

**İstifadə olunmuş ədəbiyyat:**


1.N. A. Pyorişkin, N. A. Rodina. Fizika VII sinif. Bakı, 1995.
2.G. Y. Myakişev, B. B. Buxovtsev. Fizika XI sinif. Bakı, 2003.
3.S. Q. Abdullayev, Əsas fiziki Kəmiyyətlər, qanunlar, düsturlar, qrafiklər, Bakı, 2010.

4.A. Ə. Həsənov. Fizika məsələlərini necə həll etməli. Bakı, 2005.
5.TQDK. Fizika. Abituriyent jurnalının xüsusu buraxılışı. Bakı, 2012.

## "RƏQƏMSAL BACARIQLAR" BÖLMƏSİ

# STEAM TƏHSİL GƏLƏCƏYİN QURUCULARINI YETİŞDİRƏCƏK TƏHSİL METODUDUR

***Tələbə: Məmmədova Elnarə Pənah qızı (RİN1901B),***
***Elmi rəhbər: b/m. Zeynalova Səbinə Cəfər qızı***

Bu gün müasir texnologiyalar bütün dünyada inkişafı, uğuru təmin edən əsas vasitələrdən biridir. Texnoloji mübarizə əsri kimi tanınan XXI əsr bütün sahələrdə inkişafı təmin edə biləcək kadr potensialı, hansı ki, müasir texnologiyaların dilini bilən, yeni elmi yanaşmaları mənimsəyən, ixtiralar edən, əmək bazarında özünü doğruldan şəxslər axtarışındadır. Bu da müasir təhsil metodlarının tətbiqini ön plana çıxarır. Dünya təhsil sistemində özünə yer alan belə metodlardan biri də STEAM-dır. STEAM nədir və necə yaranıb?

STEAM təhsil məsləhətçisi Vivet Pitelon Sparkes "STEAM nədir?" kitabında göstərir ki, STEAM beş fəndən – Elm (Science), Texnologiya (Technology), Mühəndislik (Engineering), İncəsənət (Art) və Riyaziyyat (Math) ibarət olan və fənlər arasında keçidi təmin edən bir modeldir.

STEAM təhsilinin əsas məqsədləri:

1. Təhsilalanların təlim tapşırıqlarının həlli prosesində innovativ yaradıcılığı inkişaf etdirmək;
2. Elmi və texnoloji tərəqqinin sosial və etik aspektləri haqqında təsəvvürləri formalaşdırmaq;
3. Təlim prosesində tədqiqat apara bilmək və layihə icraetmə bacarıqlarını artırmaq;
4. İdeyaların reallaşdırılmasında, problemlərin həllində uyğun texnologiya, proqram təminatı seçmək və tətbiq etmək;
5. Elmi tədqiqat və layihə fəaliyyətlərinin metodlarını mənimsəmək, məhsulların modelləşdirilməsi, dizaynı, əmək məhsullarının təhlükəsizliyini təmin etmək;
6. Qarşıya qoyulan texnoloji tapşırıq və problemlərin həllində müxtəlif fənlər üzrə əldə olunan biliklərin əlaqəsini yaratmaq bacarıqlarını formalaşdırmaq;
7. İnformasiyanın araşdırılması, analizi, arqumentləşdirilməsi, əldə olunan məlumatların təqdim edilməsi, uyğun texnologiyaların tətbiqi, İKT vasitələri alətlərinin müasir istehsalat və ya xidmət sektorunda tətbiq imkanlarını qiymətləndirmə bacarıqlarını formalaşdırmaq;
8. Müasir texnologiyalar haqqında təməl biliklər formalaşdırılması, öyrənilən texnologiyalarla əlaqəli peşələr, onların əmək bazarındakı yeri və bu sahələrə olan tələbatın mövcud durumu haqqında təsəvvürləri formalaşdırmaq.

STEAM təhsilinin tətbiqindən gözlənilən nəticələr:

1. Fənlərin qarşılıqlı, əlaqəli şəkildə öyrənilməsindən və universal təlim fəaliyyətinin formalaşdırdığı biliklərdən fəal istifadə edir;
2. Gündəlik həyatda qarşıya çıxa biləcək problemlərin müasir və yaradıcı həll yollarını müəyyənləşdirir və inkişaf etdirir;
3. Cəmiyyətin mütərəqqi inkişafında mühəndislik və texnologiyanın rolunu dərk edir; texnosferanın vahid mənzərəsinin, texnoloji mədəniyyətin və əmək mədəniyyətinin mahiyyətini anlayır; sənaye və kənd təsərrüfatı istehsalı, enerji və nəqliyyat üçün texnologiyaların inkişafının sosial və ekoloji nəticələrini başa düşür;

4. Obyekt və ya proseslərin qrafik təsvir vasitələri və formaları ilə işləmək bacarığı nümayiş etdirir, qrafik sənədləşmənin icrası qaydalarını mənimsəyir;
5. Fəaliyyətin məqsədini müstəqil müəyyənləşdirir və fəaliyyət planını hazırlayır; müstəqil həyata keçirir, nəzarət edir və tənzimləyir; məqsədə çatır və fəaliyyət planlarını həyata keçirmək üçün bütün mümkün mənbələrdən istifadə edir; müxtəlif vəziyyətlərdə və qeyri standart situasiyalarda uğurlu strategiyalar seçir, liderlik edir;
6. Ortaq fəaliyyət müddətində məhsuldar ünsiyyət və qarşılıqlı əlaqə quraraq əməkdaşlıq edir, fəaliyyətin digər iştirakçıların mövqelərini nəzərə alır.

STEAM metodunun məqsədi və yaxın hədəfləri

STEAM metodunun əsas məqsədi təhsilalanlarda "XXI əsr bacarıqları"nı formalaşdırmaq və inkişaf etdirməklə real həyat problemlərinin (DİM-lərin) həllinə nail olmaqdır.

Bir parçası olduğumuz rəqəmsal əsrin tələblərinə uyğunlaşa bilmək üçün:

- XXI əsr bacarıqlarını özündə formalaşdırmış mütəxəssislərə ehtiyac duyulur;
- İstənilən bir ölkə inkişaf etmək, öz regionunda liderlik edə bilmək üçün məhz öz vətəndaşlarının XXI əsr bacarıqlarının inkişaf etdirilməsinə önəm verir.

STEAM metodunun yaxın hədəfləri:

- Təhsilalanlarda sistemli və alternativ düşünmə bacarıqlarının inkişaf etdirilməsi
- Təhsilalanların hadisələr və proseslər arsındakı əlaqəni dərk etməsini təmin etmək
- Təhsilalanların ətrafda baş verən hadisələrə həssas yanaşaraq problemləri vaxtında aşkarlamaq və səbəblərini təyin etmək bacarıqlarını inkişaf etdirmək
- Təhsilalanların problemləri həlletmə bacarıqlarını inkişaf etdirmək
- Təhsilalanların yaradıcı düşünərək planlama, dizayn, layihələndirmə, təqdim etmə, biznes və sahibkarlıq qabiliyyətlərini inkişaf etdirmək
- Təhsilalanlarda qurma-yapma (maker) fəaliyyətinə maraq yaratmaq
- Layihə əsaslı öyrənmə üçün təlim mühiti yaratmaq
- Təhsilalanların komanda şəklində və müstəqil olaraq araşdırmalar aparmaqla özünəinam hissi, təqdimetmə və təkliflər vermə kimi qabiliyyətlərini formalaşdırmağa şərait yaratmaq
- Təhsilalanlarda nəticə olaraq XXI əsr bacarıqlarını formalaşdırmaq
- Təhsilalanların gələcək üçün karyera planlama və peşə seçiminə düzgün yönləndirmək və s.

STEAM məktəbi olmaq niyə bu qədər vacibdir?

Bu gün kiçik şagirdlərimiz böyüyəcək və sabah öz peşələri ilə işə başlayacaq və ölkə iqtisadiyyatına töhfə verəcəklər.

- STEAM təhsilinin məqsədi, düşündüklərini reallaşdıra bilən, təməl elmlər tərəfindən ortaya qoyulan nəzəri bilikləri alaraq texnologiya və mühəndislik təhsili ilə qarışdıraraq həyata dəyər qatacaq məhsullar istehsal edən XXI əsr bacarıqlarına sahib gənclər yetişdirməkdir.
- STEAM məktəbi olmaqla Azərbaycanda STEAM təhsilinə rəhbərlik etmək və bu təhsili genişləndirməyi hədəfləyir.
- Bu gün, XXI əsr bacarıqlarına sahib fərdləri yetişdirməyin yolu- STEAM təhsildir.
- STEAM təhsili dünyanın hər yerində təhsil islahatının mərkəzindədir və getdikcə daha çox əhəmiyyət kəsb edir.
- STEAM təhsili inkişaf etmiş ölkələrdə, xüsusən ABŞ-da dövlət siyasəti olaraq tətbiq olunur.

STEAM şagirdi

• Sərbəst və məqsədyönlü şəkildə məlumat toplayır.
• Tədqiqatlar aparır və öz nəticələrini bölüşür.
• Məktəb dövründə gələcək iş həyatında olan bacarıqlar formalaşır.
• Problemin həlli üçün elmi məzmunlu dizayn proseslərində iştirak edir.
• Problemlərin həlli üçün Elmi Tədqiqat və Mühəndislik Dizayn Proseslərindən istifadə edir.
• Biliklərini riyazi bilik və bacarıqlarını real həyati problemlərin həllində tətbiq edir.
• Yazılı və şifahi formada effektiv ünsiyyət qurur.
• Özünün və başqasının işini, fəaliyyətini qiymətləndirməyi bacarır.
• Müxtəlif layihələrdə və yarışlarda iştirak edir

STEAM müəllimi kimdir?

• İnteqrasiya olunmuş layihə əsaslı öyrətmədən istifadə edir.
• Komanda işini effektli təşkil edir.
• Müxtəlif mütəxəsissləri, icma və cəmiyyət üzvlərini təlimə cəlb edir.
• Çevik uyğunlaşır.
• Özünə inamlıdır.
• Ünsiyyətcildir.
• Yaradıcıdır.
• Tənqidi düşünəndir.
• Fasiləsiz təhsilalandır.
• Liderdir.
• İnnovativdir.
• Mentordur.

STEAM yanaşmasının məqsədi aktiv, məhsuldar, tənqidi düşünməyi bacaran, bildiklərini ortaq bir istiqamətə yönəldən, məhsulu ilə ölkəsinin iqtisadiyyatına dəstək olan, bir sözlə, dünyaya fayda verə biləcək insanlar yetişdirməkdir. STEAM-ın müsbət tərəfləri olduqca çoxdur. Onun tədrisi düşünmə, əməkdaşlıq, ünsiyyət, yaradıcılıq və yenilikçilik, informasiya və kommunikasiya bacarıqlarını inkişaf etdirir. Bu bacarıqlar şagirdlərin mürəkkəb problemləri təhlil edə bilməsi, dəqiq cavabları olmayan sualları araşdırması, məlumat mənbələrini fərqli baxışlardan qiymətləndirməsi və dəlillərə əsaslanaraq müvafiq nəticələr çıxara bilməsinə yardımçı olur. Ekspertlərin fikrincə, STEAM ixtisasları üzrə iş yerlərinin sayı 2022-ci ilin sonlarına kimi 9 milyon artacaq. Elmin nüfuzunun və əhəmiyyətinin artdığı, davamlı inkişaf prinsipləri əsasında texnologiyaların mühüm əhəmiyyət kəsb etdiyi bir vaxtda STEAM təhsil metodunun tətbiqinin vacibliyi bir daha ön plana çıxır.

**Nəticə:** STEAM metodunun əsas məqsədi təhsilalanlarda "XXI əsr bacarıqlarını" formalaşdırmaq və inkişaf etdirməklə real həyat problemlərinin həllinə nail olmaqdır. STEAM metodikası təhsilalanlara bilikləri nəzəri olaraq deyil, məhz tətbiqi xüsusiyyətlərini aşkarlayaraq çatdırmağı hədəfləyir. Bu zaman şagirdlər riyaziyyat və təbiət fənlərində araşdıraraq və tədqiq edərək mənimsədikləri müxtəlif məlumatları gündəlik həyatlarında qarşılarına çıxan müxtəlif problemlərə, müxtəlif layihələrdə tətbiq etməklə öz yaradıcılıqlarını, komanda şəklində işləmək bacarıqlarını, məntiqi təfəkkürlərini, problem həll etmə bacarıqlarını inkişaf etdirirlər. Eyni zamanda öyrəndiklərini tətbiq etdikləri üçün öyrəndikləri məlumatları daha yaxşı mənimsəyir, daha uzun müddət onların yaddaşında qalır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. A. Əhmədova. STEM nədir?, Sumqayıt, 2019.
2. Doç. Dr.M. Sencer Çorlu Ezgi Çallı,"STEM kuram ve uygulamalarıyla".

**İnternet resursları:**

1. Ort İsrael https://azerisrael 2020.ort.org.il/index.php/category/baku/
2. "How STEM pedagogy is adaptable and accessible in any classroom" https://www.amle.org/ (müəllif - Michele Schuler)

## NEYRON ŞƏBƏKƏLƏRİN İMKANLARI

*Tələbə: Qocayev Xəlil Eldəniz oğlu (RİN1901B),*
*Elmi rəhbər: b/m. Zeynalova Səbinə Cəfər qızı*

Süni intellekt - insandan daha üstün düşünən gələcək üçün bir neçə alternatif hazırlayan və onların arasından ən məntiqli yolu seçən bir nəsnədir.

Bir neçə nəzəriyyənin birləşməsiylə yaranan süni intellekt, bir sadə düşüncədən ortaya çixdı. Əslində bu düşüncənin tam bir banisi yoxdur. Hansıkı pazzlın parçaları kimi, birləşdirdikdən sonra tam bir şəkil ortaya çıxır. Lakin bu pazzl şəkilsizdir, birləşdirlir sonra şəkil üzərinə çəkilir. Fikir kompüterlər insandan daha yaxşı düşünə bilər fenomeni üzərində formalaşdı. Bu vəziyyət isə kompüter bilimi, nəzəriyələr, teoremlər tələb edirdi.

Buna görə də Lütfizadənin "Qeyri səlis məntiq" nəzəriyyəsinə süni intellektin əsas amillərindən biridir dedik . Süni intellektin ana xətti bundan ibarətdir: Ucu açiq bir proqramlama yaratmaq və bu proqramlamanın özü-özünü inkşaf etdirməsinə zəmin yaradacaq sistemlərə çıxışına icazə verməkdir.

Anlaşılması çətin olan bu cümləni bir neçə misallarla izah edək.

Kökü 1940-lara gedib çatan bu fikiri ortaya atan Alon Matison Turingdir. Kriptoanaliz kompüterləri tam olmasada, ilk süni intellektə sahib kompüterlərdən birdir və bu kompüterlər faşist Almanyasının Eniqma şifrəli mesaj ötrücüsünü qirmaqla məşhurlaşdı.

Süni intellektin işləməsi üçün superkompüterlər lazımdır. Bu kompüterlərin düşündüyümüz kimi ekranı yoxdur, nədə mausu. Superkompüterlər bunlardır. Dünyanın ilk superkompüterini İBM ixtira etdi və hazırda ən yaxşı superkompüter qizğın bazarda məhz İBM-in əlindədir saniyədə 120 000 petaflob əməliyyat həyata keçirə bilir bir petaflob isə, saniyədə 100 triliyondan çox əməliyyata bərabərdir. İnsan beyni isə saniyədə 20 triliyon əməliyyat edə bilir. Bu hesabla superkompüterlər bir insandan dəfələrlə çox yaddaşa və əməliyyat gücünə malikdir.

Süni intellekt ifadəsi ilk dəfə 1956-cı ildə Con Makkarti tərəfindən istifadə olunub. O bu ifadəni işlədərkən süni intellekti "maşınları intellektual etmək elmi və mühəndisliyi" adlandırıb.

İntellektə malik olan maşınlar və digər süni aparatlar barəsində yazılı fikirlərə hələ qədim yunan miflərində rast gəlmək olar. İntellektə malik avtomatlaşdırılmış maşınlar Heron, Əl Cəzirə, Volfqanq von Kempelen, Cabir ibn Həyyan, Parasels və digər ixtiraçılar tərəfindən qədim dövrlərdən bəri hazırlanmışdır. Artıq eramızdan əvvəl IV əsrdə yaşamış Aristotel süni intellektin düşüncəsinin əsasını təşkil edən sillogizm nəticələr nəzəriyyəsinin əsasını qoymuşdur. 1275ci

ildə Roman Llull özünün Ars Maqna adlı məntiq aparatını ixtira etmişdir. Ars Maqnaya istifadəçi xristianlıq haqqında öz sualını daxil edir və aparat insanın köməyi olmadan dərhal avtomatik olaraq bu suala cavab tapırdı. Bu aparat müsəlmanları xristianlaşdırmaq məqsədilə yaradılmışdır.

Maşınların təlimi sərbəst şəkildə süni intellekt biliklərinin və onun işləmə proseslərinin alınmasına aiddir. Bu süni intellekt elminin ilk dövrlərindən mərkəzi olmuşdur. 1956-cı ildə Darmund yaz konferansında Rey Solomonoff öz-özünü öyrədə bilən maşının ola biləcəyi haqqında hesabat yazdı və onu "İntuitiv nəticə maşını" adlandırdı. Maşın təliminin iki növü vardır; müəllimsiz və müəllim ilə. Müəllimsiz öyrənmə cisimləri olduğu kimi qavramağa icazə verir. Müəllim ilə öyrənmə isə sinifləndirməyə və reqressiv analizə kömək edir. Sinifləndirmə onun üçün istifadə olunur ki, cismin hansı kateqoriyaya aid olduğu aydınlaşdırılsın. Reqressiv analiz isə ədədi sıralarda giriş ədədlərindən istifadə olunan funksiya tapılması ilə çıxış ədədinin proqnozlaşması üçün istifadə olunur.Təlim prossesi zamanı maşının düzgün cavabları mükafatlandırılır, yalnış cavabları isə cəzalandırılır.

Müasir dövrdəki süni intellektin əsası 1956-cı ildə Dartmut Kollecində keçirilən konferensiyada qoyulmuşdur.

Süni intellektin aşağıdakı tərifləri verilir:

- Ənənəvi olaraq intellektual hesab olunan insan fəaliyyətinin növ və ya proqram təminatında modelləşdirmə vəzifələri qoyulur və həll olunur.
- Ənənəvi olaraq insanın prerogativi sayılan funksiyaları (yaradıcı) yerinə yetirmək üçün ağıllı sistemlərin mülkiyyəti. Üstəlik, ağıllı bir sistem, bilikləri belə bir sistemin yaddaşında saxlanılan, müəyyən bir mövzu sahəsinə aid yaradıcı hesab olunan problemləri həll edə biləcək texniki və ya proqram sistemidir. Ağıllı bir sistemin quruluşuna üç əsas blok daxildir — məlumat bazası, həlledici və məlumatların daxil edilməsi üçün xüsusi proqramlar olmadan kompüterlərlə əlaqə yaratmağa imkan verən ağıllı interfeys.
- Kompüter elmləri və informasiya texnologiyaları sahəsindəki vəzifəsi, kompüter sistemlərinin və digər süni cihazların köməyi ilə ağlabatan düşüncə və hərəkətin yaradılmasıdır.
- sistemin xarici məlumatları düzgün şərh etmək, bu cür məlumatlardan öyrənmək və çevik uyğunlaşmadan istifadə edərək müəyyən məqsəd və vəzifələrə çatmaq üçün əldə olunan biliklərdən istifadə etmək bacarığıdır.
- İnsanlar və "maşınlar" üçün ümumi olan xüsusi bir zəka təriflərindən birini aşağıdakı kimi tərtib etmək olar: "Zəka, müəyyən bir mürəkkəblik sinifinin problemlərini həll etmək və bu problemləri həll etmək üçün bir sistemin (ilk növbədə evristik) qabiliyyətidir"

**İstifadə olunmuş ədəbiyyat:**

1. Компьютер учится и рассуждает (ч. 1) // Компьютер обретает разум (100 000 nüs.). Москва: Мир. под ред. В. Л. Стефанюка. 1990 [Artificial Intelligence Computer Images]. ISBN 5-03-001277-X (рус.); ISBN 0705409155 (англ.).
2. В. В. Девятков Системы искусственного интеллекта. Информатика в техническом университете (3000 nüs.). М.: Изд-во МГТУ им. Н. Э. Баумана. Гл. ред. И. Б. Фёдоров. 2001. ISBN 5-7038-1727-7.

3. С. Н. Корсаков Начертание нового способа исследования при помощи машин, сравнивающих идеи (200 nüs.). М.: МИФИ. Под ред. А. С. Михайлова. 2009. ISBN 978-5-7262-1108-4.
4. А. А. Жданов Автономный искусственный интеллект (20 000 nüs.). М.: БИНОМ. Лаборатория знаний. 2009.
5. Лорьер Ж.-Л. Системы искусственного интеллекта (20 000 nüs.). М.: Мир. 1991. ISBN 5-03-001408-X.
6. Дж. Ф. Люгер Искусственный интеллект: стратегии и методы решения сложных проблем (4-е изд 2000 nüs.). М.: Вильямс. Под ред. Н. Н. Куссуль. 2005 [Artificial Intelligence: Structures and Strategies for Complex Problem Solving]. ISBN 5-8459-0437-4.
7. Нильсон Н. Искусственный интеллект. — М.: Мир, 1973. — 273 с.
8. Ю.Ю. Петрунин, М. А. Рязанов Савельев А. В. Философия искусственного интеллекта в концепциях нейронаук. (Научная монография). — М.: МАКС Пресс, 2010. — ISBN 978-5-317-03251-7.

## XXI ƏSRİN TEXNOLOGİYASI OLAN NANOTEXNOLOGİYANIN TƏTBİQLƏRİ

***Tələbə: Eyyubova Zeynəb Yaşar qızı (RİN2001B),***
***Elmi rəhbər: b/m. Zeynalova Sevil Cəfər qızı***

Son illər dünya elminin əsas istiqamətlərindən biri sayılan nanotexnologiya çox böyük sürətlə inkişaf edir. Əslində, nanotexnologiya son vaxtlar populyarlaşsa da, onun hekayəsi 1970-ci illərə gedib çıxır. İlk dəfə 1974-cü ildə tədqiqatçı Norio Taniguchi tərəfindən istifadə edilən bu termin o dövrdə çox geniş yayılmış deyildi.

Nanotexnologiya maddənin atom, molekulyar və supramolekulyar səviyyədə idarə edilməsidir. Nanotexnologiya müəyyən bir məqsədə xidmət etmək üçün 1-dən 100 nanometrə qədər olan strukturların dizaynı və istifadəsidir. Nanotexnologiya müxtəlif sahələri özündə birləşdirən bir elmdir, çünki fizika, kimya, materialşünaslıq, biologiya, səhiyyə, kompüter texnikası və s. Nanotexnologiya 0,1-100 nm ölçülü quruluşları və bu quruluşlarda baş verən fiziki, kimyəvi və bioloji hadisələrin yaratdığı təsirləri öyrənir. Bu elmi-texniki istiqamətin əsasını yeni nanoquruluşlu materialların alınması, tədqiqi və tətbiqi təşkil edir.

Nanotexnologiya real dünyada tətbiqi olan nanomiqyasda istənilən bir texnologiyadır. Bir nanometrin nə qədər kiçik olduğunu təsəvvür etmək elə də asan deyil. Gündəlik istifadə etdiyimiz qələmi götürək, həmin qələmin ucunun genişliyi 1 milyon nanometr ölçüsündə A4 vərəqini götürək. Həmin vərəqin qalınlığı təxminən 75 nm ölçüsündədir. Əgər dünya da olan hər bir insan 1nm olsa idi, planetdə ki bütün insanları bir avtomobilə sığışdırmaq olardı. Bu misal nanonun nə qədər kiçik olduğunu sübut edir.

Nanoelm və nanotexnologiya ətrafımızdakı dünyanı yenidən formalaşdırmaq üçün istifadə edilə bilər. Sözün əsl mənasında yer üzündəki hər şey, yediyimiz yeməkdə, geyindiyimiz paltarlar, yaşadığımız bina və evlər, öz bədənimiz atomlardan ibarətdir. Nanotexnologiya ilə manipulyasiya

etmək və bundan faydalanmaq mümkündür. Əşyalar kiçildikcə onların xassələri onların ölçülərindən asılıdır. Alimlər, elm adamları materialların xassələrinin dəyişdirmək olduğunu müəyyən etmişdilər. Məsələn: kimyəvi reaktivlik, elektrik keçiriciliyi, maqnit keçiriciliyi və bir sıra xüsusiyyətlər nanotexnologiyanın tətbiqi nəticəsində nizamlana və dəyişdirilə bilərlər. Buna misal olaraq eynəklər üzərində şəffaf nano ölçülü təbəqələr və onların suya davamlı, çızıqlara davamlı edən görüntülər daxildir.

Nanotexnologiya hansı sahələrdə tətbiq olunur?

Nanotexnologiyanın istifadəsi demək olar ki, qeyri-məhduddur və o, həyatın bütün sahələrində özünü göstərir. Texnologiya, tibb, materialşünaslıq və tekstil kimi onlarla başqa sahədə istifadə olunur. Həmçinin faydali qazıntıların istehsalında, o cümlədən neft–qaz çıxarılmasında; maşınqayırmada, tribotexnikada, inşaat materiallarının istehsalında da tətbiq olunur.

Nanotexnologiya artıq tibbi alətlərə və müalicələrə güclü şəkildə daxil edilmişdir. Bəzi nanohissəcikli dərmanlar neyrodegenerativ xəstəliklərin və ya xərçəngin erkən diaqnozu və müalicəsi üçün ciddi rahatlıq təmin edir. Bu texnologiya sağlam hüceyrələrə zərər vermədən xərçəng hüceyrələrini məhv etmək qabiliyyətinə malikdir. Bu son nəticədə xərçəngin hazırda müalicə üsulunu dəyişdirə və kimya terapiyasının toksik təsirlərini kəskin şəkildə azalda bilər. Elm adamları bu yaxınlarda bəzi kimyəvi maddələrdən və yaşıl yarpaq ekstraktlarından – çay yarpaqlarından istifadə edərək kvant nöqtələrini yaratmaqla, ucuz bir üsul inkişaf etdirmişdilər. Bu proses olduqca qənaətcildir və ya məhsullar toksik deyildir. Tədqiqatçılar sübut edir ki,çay yarpaqları ilə yaradılan kvant nöqtələri dəriyə nüfuz edə və xərçəng hüceyrələrinin böyüməsini təxminən 80% azalda bilər. Digər tərəfdən, nanotexnologiya gen tətbiqləri, diş müalicəsi və ortopediya kimi sahələrdə tez-tez istifadə olunur. Nanotexnologiya müalicələri əvvəlkindən daha effektiv edir.

Nanotexnologiyalar müxtəlif enerji sahələrində günəş panellərinin səmərəliliyini və qənaətcilliyini artırmaq, yeni növ akkumulyatorlar yaratmaq, daha yaxşı katalizdən istifadə etməklə yanacaq istehsalının səmərəliliyini artırmaq və daha yaxşı işıqlandırma sistemlərini yaratmaq üçün istifadə olunur. Nanotexnologiyaların energetikada tətbiqinin əsas məsələlərindən biri yeni nəsil akkumulyatorların hazırlanmasıdır. Bu məqsədlə enerji selinin sıxlığının artırılması, akkumulyatorların dolma müddətinin, onların ölçülərinin və kütləsinin azaldılması, həmçinin təhlükəsizliyin və stabilliyin yüksəldilməsi istiqamətində tədqiqatlar aparılır.

Nanotexnologiya daha kiçik, daha ağıllı, daha portativ, daha sürətli sistemlərə səbəb olan hesablama və elektronikada əsas rol oynayır. Televizorlar, smartfonlar və planşetlər kimi bir çox elektron cihaz Nanotexnologiyanın nemətlərindən faydalanır. Bu cihazların əksəriyyətində üzvi işıq yayan diodlar (OLED) kimi tanınan nanostrukturlu polimer filmlər var. Bu ekranlar istifadəçilərə digərlərindən fərqli olaraq daha parlaq və daha yaxşı görüntü keyfiyyəti təklif edir. Digər tərəfdən, bu ekranların kifayət qədər yüngül olması da istifadəçilərin seçim etmələri üçün mühüm amildir. Elektronikada nanotexnologiyaların başqa bir tətbiq sahəsi yeni nəsil sərt disklərlə bağlıdır.

Tədqiqatçılar çirkli suyu içməli suya çevirən münasib qiymətə nano-strukturlu filtrlə işləyirlər. Bu filtrlər həmçinin arsen kimi zəhərli mikroelementləri və yağ kimi özlü maye çirkləri təmizləyə bilər. Digər tərəfdən, öz çəkisinin 20 qatını neft və fabriklərdən dəniz suyuna tökülən neft kimi maddələri udmaq qabiliyyətinə malik nanofabrika materialları asanlıqla təmizlənə bilir. Bu

yolla ətraf mühitin çirklənməsi minimuma endirilir. Bundan başqa nanotexnologiya təbiətdə özbaşına yoxa çıxan plastik qablaşdırmada da istifadə olunur.

Materialların rəngləri, möhkəmliyi, keçiriciliyi və reaktivliyi kimi xüsusiyyətlər nanomiqyasda əhəmiyyətli dərəcədə fərqlənə bilər. Karbon "nanoborular" poladdan 100 qat daha möhkəm, lakin altı dəfə yüngüldir. Karbon nanoborular təkcə möhkəmliyi və çox yüngül olması ilə deyil, həmdə yarımkeçiricilərə xas olan xassələri ilə fərqlənir. Ona görə də bu tapıntı bütün dünya tədqiqatçılarının maraq dairəsini təşkil edir.

Parçalarda istifadə edilən nanoölçülü aşqarlar ləkə, qırış və bakteriya artımının qarşısını alır. Bunun xaricində idman ləvazimatlarından tutmuş su itələyici, nanohissəcikli geyimlərə, motosiklet dəbilqələri kimi sərt və davamlı məhsullara qədər bir çox sahədə müvəffəqiyyətlə istifadə olunur.

**Nəticə:** Nanotexnologiya, bu gün elm və texnikanın inkişafında ən qabaqcıl və perspektivli istiqamətdir. Onun imkanları təxəyyülü heyrətləndirir.Yeni minilliyin gəlişi ilə nanotexnologiya erası başladı. Nanotexnologiya daha kiçik, daha səmərəli olmağa yönəlmiş dünyaya bir cavabdır. Elmi tədqiqat işinin sonunda belə nəticəyə gəlirik ki, nanotexnologiyanın tətbiqlərini real həyatda hər yerdə görmək olar. İstifadə etdiyimiz hər hansı gündəlik məhsulda nanotexnologiyanın tətbiqini görə bilərik. Məsələn, avtomobillər, yük maşınları, kosmik gəmilər, qayıqlar getdikcə daha yüngül olan materialdan hazırlana bilər. Həmçinin yaddaş tutumunu artırmağa kömək edən kompüter çipinin ölçüsü də kiçilir. Gəzərkən telefonlarımızı doldurmaq üçün nanogeneratorlar vastəsilə ağıllı telefonlarımızı daha da ağıllı edə bilərik. Nanotexnologiya daha ağıllı, daha kiçik, daha portativ, daha sürətli sistemlərə səbəb olan hesablama və elektronikada əsas rol oynamışdır. Hal-hazırda kompüterləri bir əlimizlə daşıya bilirik. Halbuki 40 il əvvəl komputerlərin ölçüsü bir otağın həcmi ölçüsündə idi. Tranzistorlar, yeni hesablama əməliyyatlarını yerinə yetirən açarlar onların ölçüləri 2000-ci ildə 250 nm idi. Lakin 2016-cı ildə artıq 1nm -ə qədər kiçilmişdir.

**İstifadə olunmuş ədəbiyyat:**


1. H. F. Mirələmov, Ç. İ. Məmmədov, Nanotexnologiya və nanokimyanın əsasları. Bakı, 2008.
2. H. S. Orucov, Ç. İ. Əbilov, O. M. Sadıqov, M. Ş. Həsənova, Elektronikada Nanotexnologiyalar və nanomateriallar. Bakı, 2017
3. A. M. Məhərrəmov, M. Ə. Ramazanov, L. İ. Vəliyeva, Nanotexnologiya, Bakı, 2007.
4. https://youtu.be/vxfslC9lRt0
5. https://tr.wikipedia.org/wikiNanoteknoloji
6. https://www.kitabyurdu.org/muhazire/m-fizika/614-nanohissecikler-ve-ya-nanoqrulus-muhazireler.html
7. https://elmtehsil.com/elm-ve-heyat/texnologiya-nanotexnologiya/149
8. https://portal.azertag.az/az/encyclopedia/post/18120

## STEAM ƏSASLI DƏRSLƏRDƏ MİKROBİT TEXNOLOGİYASI

***Tələbə: Şirinova Əcəb Sahib qızı (FM2101B),***
***Elmi rəhbər: m. Quliyev Səbuhi Vaqif oğlu***

Mikrobit cib ölçülü, kodlaşdırılan bir kompüterdir. ARM-də quraşdırılmış prosessor, hərəkət sensoru, USB port, LED işıq və Bluetooth texnologiyasına malikdir. Beləliklə, micro: bit dərs zamanı lazım olacaq hər cür şey yaratmaq üçün istifadə edilə bilər. Nə üçün istifadə edilə biləcəyinə gəldikdə isə sonsuz imkanlara malik mikro: bitin məqsədi yeni nəsil gənclərdə daha yüksək səviyyədə yaradıcılıq, həvəs yaratmaq və gələcəkdə iş qabiliyyətini artırmaqdı. Mikrobit, ünsiyyət, yenilik və əməkdaşlıq bacarıqlarına əsaslanan, texnologiyadan istifadə etmək üçün ən yaxşı vasitədir.

*Mikrobitin əsas hissələri*:

1. USB portu.
2. 3V Portu.
3. Baterya Portu.
4. Giriş çıxış üçün 3 port.
5. 25 led lampa.
6. Proqramlana bilən 2 düymə (A və B).
7. Blutuzun smart antenası.
8. Kabellərin qoşulması üçün 20 pin.
9. GND portu.
10. Akselerometr və kompas.

*Makecode mühiti ilə tanışlıq*

İnput bölməsində müəyyən funksiyaları yerinə yetirmək üçün aşağıdakı bloklardan istifadə olunur:

1 on button "A" pressed.
2 on shake.
3 on pin "P0" pressed.
4 button "A" is pressed.
5 acceleration (mg).
6 pin "P0" is pressed.
7 light level.
8 compass heading (°).
9 temperature (°C).
10 is shake gesture.
11 On "loud" sound.
12 on logo "pressed".
13 logo is pressed.
14 sound level.

Variables bölməsində müəyyən funksiyaları yerinə yetirmək üçün "make a variables" dəyişəni axtarırıq və bizə aşağıdakı bloklar açılır:

1 set to.
2 change by.

Bunların bir birindən fərqi ondan ibarətdir ki, set to -da dəyişən sabitdir, change by isə dəyişən sabit deyilir.

Math bölməsində müəyyən funksiyaları yerinə yetirmək üçün aşağıdakı bloklardan istifadə olunur:

1 vurma bölmə çıxma toplama əməlləri;
2 remainder of;
3 min of and;
4 max of and;
5 absolute of;
7 round (ceiling, floor, truncate);
8 pick random to;
9 constrain between;
10 map from low high to low;
11 pick random true or false.

6 square root;

Bu kimi bölmələrdən istifadə etməklə makecode mühitində mikrobit üçün proqramlar yaza bilərik.

*Mikrobitə proqramın yazılması.*

*Məsələ1:* Makecode mühitində bərabəryeyinləşən hərəkət edən cismin başlanğıc *sürəti =2 m/san, təcili a=3* $\frac{m}{san^2}$ *olan cismin t=4 saniyə* sonra sürətini tapmaq üçün proqram tərtib edin.

*İzahı:* Basic bölməsindən forever blokunu gətiririk. Variables bölməsindən biz əvvəlcə dəyişənləri make a variables - də qeyd edib təyin edirik. Make a variables $a$, $t$ və $v$ dəyişənlərinin işarələrini yazırıq və sonda təyin etdiyimiz dəyişənlərə aid bloklar görsənir onları gətirib forever blokuna yerləşdiririk $a$, $t$ və $v$ dəyişənlərinin qiymətlərini yerinə yazırıq. Basic bölməsindən show number blokunu gətiririk . Math bölməsindən toplama və vurma əməlini yerinə yətirən blokları seçib show number blokunun üzərinə yerləşdiririk. Variables bölməsindən $a$, $t$ və $v$ dəyişənlərini math bölməsindən gətirdiyimiz vurma toplama əməllərinin yerinə yerləşdiririk. Sonra yazdığımız proqramı yükləyirik. Kompüter və mikrobiti əlaqələndirmək üçün USB – dən istifadə olunur.

*Məsələ 2:* Mikrobitdə vurma cədvəli hazırlayaq.

1 dəyişən "button A", 2 dəyişən "button B" və hasil "On shake". Biz input bölməsindən A və B düymələrini gətiririk. Variables (dəyişənlər) bölməsindən a və b dəyişənlərini təyin edib yerlərinə yerləşdiririk. Math (riyaziyyat) bölməsindən "pick random 1 to 9" (verilən aralıqda təsadüfi bir ədəd seçir) blokunu seçib, təyin etdiyimiz dəyişənlərin üzərinə yerləşdiririk. Basic bölməsindən "show number" blokunu seçirik, onun üzərinə $a$ və $b$ dəyişənlərini yerləşdiririk. Daha sonra input bölməsindən "on shake" blokunu seçirik, basic bölməsindən "show number" blokunu seçib üzərinə yerləşdiririk. Math bölməsindən vurma əməlini seçib üzərlərinə təyin etdiyimiz $a$ və $b$ dəyişənlərini qeyd edirik. Sonra yazdığımız proqramı yükləyirik. Kompüter və mikrobiti əlaqələndirmək üçün USB – dən istifadə olunur. Yüklənənlərdən hex. formatında yüklədiyimiz proqramın üzərinə gəlib göndər menyusundan mikrobit seçirik. Proqramı yükləyirik bu zaman mikrobitde sarı işıq yanıb sönür. Bu proqramın yükləndiyini göstərir. Nəticədə hazırladığımız proqramı mikrobitdə göstəririk. Biz mikrobiti silkələdikdə təsadüfi seçdiyimiz ədədləri və aldığımız hasili görəcəyik.

*Microbitdən istifadə edərək sadə layihələrin hazırlanması*

*Layihə 1:* Mikrobitdən istifadə etməklə limon layihəsi.

*İzahı:* Basic bölməsindən Forever blokunu iş müstəvisinə daxil edirik. Daha sonra İnput bölməsindən pin is pressed blokunu iş müstəvisinə daxil edirik. Növbəti mərhələdə Logic bölməsindən İF ELSE blokunu iş müstəvisinə daxil edirik. Şərt blokunun daxilinə Basic bölməsindən Show Leds blokunu daxil edirik. Əgər Limonun üzərinə əlimizi yerləşdiririksə onda mikrobitin ekranında "Ə" simvolu əks olunan əks halda heçnə görünməyən proqram tərtib edirik.

**İstifadə olunmuş ədəbiyyat:**

1. A. Əhmədova. STEM nədir?, Sumqayıt, 2019.
2. Doç. Dr.M.Sencer Çorlu Ezgi Çallı,"STEM kuram ve uygulamalarıyla".
3. How STEM pedagogy is adaptable and accessible in any classroom. https://www.amle.org/ (müəllif - Michele Schuler)
4. https://www.youtube.com/watch?v=7XpqOd7ychE
5. Ort İsrael https://azerisrael2020.ort.org.il/index.php/category/baku/

6. https://www.youtube.com/results?search_query=STEAM+mikrobit+logic+bloku

# STEAM METODOLOGİYASININ TƏTBİQİ

***Tələbə: Eyvazova Fatimə Həsən qızı (RİN2201B),***
***Elmi rəhbər: m. Quliyev Səbuhi Vaqif oğlu***

STEAM - Elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat sahələrində olan biliklərin gündəlik həyatda qarşıya çıxan problemlərin həllində fənlərarası inteqrasiya və layihə əsaslı öyrənmə vasitəsilə reallaşdırma metodikasıdır.

Termin ilk dəfə ABŞ Milli Elm Qurumu (U.S. National Science Foundation) tərəfindən 2001-ci ildə SMET olaraq bir neçə fənn və bacarığın inteqrasiyasından ibarət olan peşələri ifadə etmək üçün istifadə olunub.

3D çap rəqəmsal bir modelə əsaslanan materialları tək-tək qoyaraq fiziki (və ya 3D) bir obyekt yaratmaq üçün istifadə olunan bir prosesdir.

*Nə üçün 3D çap bu qədər vacibdir?*

1. Ənənəvi üsullarla müqayisədə daha sürətli və daha asan hazırlanma.
2. Yüksək sürətlə hazırlanan keyfiyyətli modellər yalnız sizin bacarıqlarınız ilə məhdudlaşır.
3. 3D printerlə istehsal etmək heç bir yaş və ya ixtisas fərqindən asılı deyil.
4. Hal-hazırda tapa bilmədiyiniz hər hansı bir detal lazımdır. Dərhal yarada və çap edə bilərsiniz.
5. İnsan həyatının bütün sahələrində məhdudiyyətsiz tətbiq imkanlarına malikdir.
6. Sənaye sahəsində inqilabi dəyişiklik iqtidarındadır.

*3D çapın tətbiq sahələri:*

1. Rəqəmsal istehsal: modellər, maşınlar (robotlar), oyuncaqlar və digər məhsulların hazırlanması;
2. Tibb: Pasientin hüceyrələrindən istifadə edərək transplantasiya üçün orqanların hazırlanması;
3. Süni əzalar: süni əzaların daha qənaətli yaradılması və tənzimlənməsi;
4. İnşaat Mühəndisliyi: Evlərin və körpülərin daha tez müddətdə yaradılması;
5. İncəsənət: Texnologiya və heykəltəraşlığın birlikdə tətbiqi möhtəşəm layihələr yarada bilər;
6. Dəbb: dizaynerlər paltar, ayaqqabı və aksesuar hazırlamaqda adi üsullara meydan oxuya biləcək yeni bir vasitəyə sahibdirlər;
7. Humanitar yardım: 3D printerləri olan könüllülər fəlakət zonalarında və ya yoxsulluq vəziyyətindəki bölgələrdə əvəzedici parçaları və digər zəruri əşyaları yarada bilərlər;
8. Kosmik tətqiqat: yaxın gələcəkdə astronavtlar 3D çap texnologiyasından istifadə edərək ay bazaları qura bilərlər. Və ya hətta 3D yeməklərini çap edə bilərlər.

3D çapın ən vacib hissəsi çap ediləcək obyektin 3D rəqəmsal modelinin hazırlanmasıdır. 3D printerdə çap olacaq 3D modelin hazırlanmasında onlayn olan TinkerCad proqramından istifadə edirik. Əgər hər hansı obyektin yaradılması və ya dizaynında komputerlərdən istifadə olunacaqsa, bu proses Komputer Dəstəkli Dizayn (Computer-Aided Design) və ya CAD adlanır. Bu gün biz TinkerCadla tanış olub, TinkerCad alətlərinin istifadə qaydasını öyrənəcəyik. TinkerCAD hesabının qeydiyyatı: 1. www.tinkercad.com səhifəsinə daxil olun və "İndi qoşul"("Join now") düyməsinə klikləyin.

FlashPrint proqramı Tinkercad vasitəsilə hazırlanmış modelin 3D formatında 3D printerdə çap edilməsi üçün istifadə edilir. Proqramı kompüterə yükləmək üçün www.flashforge.com saytından "Software" menyusuna daxil olmaqla "FlashPrint" menyusundan proqramın müxtəlif versiyalarını nəzərdən keçirmək olar. Orta məktəblərimizdə Flashprint proqramının 4.6.2 versiyasından istifadə edildiyi üçün bu versiyanı yükləmək daha məqsədəuyğundur.

3D formatında obyektləri çap etmək üçün 3D printerlərdən istifadə olunur. 3D printerlərin müxtəlif versiyaları vardır. ADPU-nun Ağcabədi filialında 3D printerin-Flashforge Adventure 3.0 versiyasından istifadə olunur. Bu versiya ölçüləri 150 x 150 x 150 mm-ə qədər olan üçölçülü modelləri çap etmək üçün nəzərdə tutulmuşdur. O, qapalı tipli korpusa, daxili işıqlandırmaya və çapın gedişatını uzaqdan izləmək üçün kameraya malikdir. Adventurer 3 olduqca səssizdir, əməliyyat zamanı 45 dB-dən az səs yaradır. Printerin çapa tam hazır olması üçün sadəcə bir an lazımdır. Çap başlığının 200°C-yə qədər istiləşmə müddəti cəmi 60 saniyədir. Onun maksimal işləmə temperaturu 240°C-dir. 3D printer 3 modeli çapdan sonra çıxarmaq üçün innovativ həllə malikdir. Masanın müəyyən edilmiş yerindəki düyməni yumşaq bir şəkildə basmaqla çap səthini sürüşdürüb təhlükəsiz şəkildə çıxarmaq olar. Bu, hətta böyük modelləri yapışan səthi asanlıqla zədələyə biləcək əlavə alətlərdən istifadə etmədən çıxarmağa imkan verir. Bu printer üçün ən böyük çap ölçüsü 150 x 150 x 150 mm-dir. Printerin qapalı tipli korpusu var. Bununla belə, şəffaf yan divarlar istifadəçiyə modelin çap prosesini müşahidə etməyə imkan verir. İçərisində quraşdırılmış LED işığı sayəsində filamentin sonrakı təbəqələrinin tətbiqi prosesi daha asan görünür. İşıqlandırma printerin toxunma menyusundan söndürülə və ya yenidən yandırıla bilər. Printer həmçinin çapı uzaqdan idarə etməyə imkan verən daxili kameraya malikdir.

Adventurer 3-ün ön hissəsindəki toxunuşa həssas menyudan istifadə etmək son dərəcə asandır, aydın 2,8" ekrana malikdir. Daha az təcrübəli istifadəçilər belə aydın tərtibat sayəsində cihazı idarə etməyi asan tapacaqlar.

**İstifadə olunmuş ədəbiyyat:**

1. A. Əhmədova. STEAM nədir?, Sumqayıt. 2019.
2. How STEAM pedagogy is adaptable and accessible in any classroom. https://www.amle.org/ (müəllif - Michele Schuler)
3. https://botland.store/flashforge-3d-printers/15590-3d-printer-flashforge-adventure-3-6970152952431.html

## ANTİVİRUS PROQRAMLARININ TƏTBİQİ

***Tələbə: Qabilova Gülşən Elşən qızı (TSXP2101B),***
***Elmi rəhbər: m. Abdullayeva Sevda Rafiq qızı***

Antivirus proqram vasitələri, virusların neytrallaşdırılmasını və komputerin diaqnostikasını təmin edir. Kompüter virusu çox kiçik ölçülü xüsusi yazılmış proqram olub, komputerdə istifadə olunan müxtəlif proqramları "korlamaqla" və ya proqramlara "yoluxmaqla" xoşagəlməz hadisələr yaradır.Tərkibinə virus daxil olmuş proqram "yoluxmuş" proqram adlanır. Belə olan halda hər hansı yoluxmuş proqram işə düşərkən komputerin idarəetmə sistemi virusun təsirinə məruz qalır. Viruslar çoxalaraq proqramlara özbaşına qoşulur, lazımsız və ziyanlı müxtəlif əməliyyatları həyata keçirir,

komputerin normal işini pozur. Buna görədə virusların xüsusiyyətlərinin və əmələ gəlmə xarakterinin öyrənilməsi viruslarla mübarizədə antivirus proqramlardan effektiv istifadəyə imkan verir.

Antivirus proqramları - komputer viruslarından mühafizə üçün xüsusi proqramlardır. Virus proqramlarını aşkarlamaq və ləğv etmək üçün antivirus proqramlarından istifadə edilir. Viruslar 3 məqsədlə yaradılır:

1. İntiqam
2. Kommersiya
3. Özünü təsdiq

Virusun aşkar edilməməsi üçün o çox kiçik həcmə malik olmalıdır.

Viruslarla mübarizə antivirus proqramlarının bir neçə növü var:

1. Skanerlər (başqa adı: faqlar, poliqaflar),
2. Disk müfəttişləri (CRC-skanerlər),
3. Rezident monitorlar,
4. İmmunizatorlar.

*Disk müfəttişləri.* Disk müfəttişlərinin (CR-skanerlər) iş prinsipi diskdə olan fayıllar və sistem sektorları üçün CRC-cəmlərin (nəzarət cəmlərinin )hesablanmasına əsaslanıb.

*Rezident monitorlar.* Rezident monitorlar-daim operativ yaddaşda yerləşən və disklə və operativ yaddaşla aparılan əməliyyatlara nəzarət edən proqramlardır(əvvəlki ikisindən fərqli olaraq).

*İmmunizatorlar.* İmmunizatorların iki növü var:

1. yoluxma barədə məlumat verən immunizatorlar
2. hər hansı virusla yoluxmanın qarşısını alan immunizatorlar.

*Skanerlər.* Antivirus skanerlərin iş prinsipi fayılların və sistem yaddaşının yoxlanmasına və onlarda məlum və ya yeni ( skanerə məlum olmayan) virusların axtarışına əsaslanır. Məlum virusların axtarışı üçün "maska" lardan istifadə edilir. Bundan başqa viruslarla mübarizədə digər "antivirus proqram" -lardan istifadə olunur, onlar müxtəlif prinsiplərdə yaradıla bilər. Məs: Polifaqlar - ən populiyar və səmərəli antivirus proqramlarıdır.

**İstifadə olunmuş ədəbiyyat:**

1 . M. S. Xəlilov. İnformatika.
2. İnformatika, Dərslik, "Bilik" nəşriyyatı, Bakı, 2015. səh.640.
3. S. Q. Kərimov, Ş. B. Həbibullayev, T. İ. İbrahimzadə. İnformatika. Bakı, 2011.
4 .V. B. Müslümov, Ə. Ə. Əliyev, Ş. B. Həbibullayev, Y. B. Sərdarov, İnformatika. Bakı, 2015.
5.Wikimedia.az-az.nina.az
6. Medium.com

## "TARİX" BÖLMƏSİ

# ERMƏNİLƏRİN CƏNUBİ QAFQAZA KÖÇÜRÜLMƏSİ

***Tələbə: Baxışova Vüsalə Lətif qızı (TCM2001B),***
***Elmi rəhbər: t.ü.f.d., dosent, Ələsgərov Baxış İslam oğlu***

Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən I Pyotrun 1724-cü ilin noyabrın 10-da ermənilərin Azərbaycanın Xəzər dənizi sahillərində, Dərbənd və Bakı, həmçinin Gilan, Mazandaran və Gürgan ərazilərində məskunlaşmasını rəsmiləşdirən fərmanından sonra başladı.

Bu fərmana görə ermənilər Rusiya İmperiyasının Cənubi Qafqazdan İran körfəzinə kimi geniş əraziləri ələ keçirmək planının həyata keçirilməsində "beşinci qüvvə" rolunu oynayacaqdılar. Bu planın bir hissəsi kimi Rusiya generalları Azərbaycan əhalisini hansı yolla olursa olsun yaşadığı yerlərdən didərgin salmaq əmri almışdılar. Lakin Rusiyanını Qafqazdakı hərbi uğursuzluqları onun ermənilərin planlı məskunlaşdırılması siyasətini bir müddətə dondurdu.

Türkmənçay müqaviləsinin nəticəsi olaraq 40000 erməni Azərbaycanın müxtəlif ərazilərində məskunlaşdırıldı.




1829-cu ilin Ədirnə sülhünün nəticələrinə görə isə, Osmanlı İmperiyası ərazilərində yaşayan 90000 erməni də Azərbaycanda yerləşdirildi. Onlar əsasən Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarında məskunlaşdırıldılar.

Amerikalı alim Castin Makkartinin yazılarında Cənubi Qafqazda, daha doğrusu Azərbaycanda erməni koloniyalarının yaradılması haqqında bunları demişdir: "1828 və 1920-ci illər arasında yerlərdə əhalinin demoqrafik tərkibini ermənilərin xeyirinə dəyişmək siyasəti nəticəsində iki milyondan çox müsəlman məcburi olaraq yaşadıqları ərazilərdən sürgün edilmişdir. Ruslar iki dəfə 1828 və 1854-cü illərdə Şərqi Anadoluya hücum etmiş, lakin hər iki halda geri çəkilməyə məcbur olmuşlar. Geri çəkilərkən onlar özləri ilə 100000 erməni ailəsini də Qafqaza gətirmiş və məhv edilmiş türklərin yerlərində yerləşdirmişdilər".

1877-1878-ci illər müharibəsində, ruslar Qars–Ərdəhan vilayətini zəbt etmiş, müsəlmanları qovaraq onların yerində 70000 erməni məskunlaşdırmışdılar… 1895-1896-cı illərin hadisələrində isə təxminən 60 000 erməni Qafqazda məskun edilmişdir…..birinci dünya müharibəsi illərində miqrasiya balanslı şəkildə davam etmiş, Şərqi Anadoludan olan 400 000 erməni Qafqazın 400 000 müsəlman əhalisinə dəyişdirilmişdir.



Amerika akademikinin göstərdiyi rəqəmlərə görə, 1828 və 1920-ci illər arasında Azərbaycana 560 000 erməni köçürülmüşdür. Bununla da Şərqi Qafqazın ruslar tərəfindən işğalı nəticəsində Azərbaycan torpaqlarında – Araks çayının şimalında erməni əhalisi sürətlə artmağa başladı. Bununla bağlı diqqətə layiq bir fakt da Z. Balayanın özü etiraf etmişdir: "Onun (İrəvanın) əhalisi başqa yerlərdən gəlmələrdir.

Ermənilər Zaqafqaziyaya köçürülərkən onların harada yerləşdirilməsinə xüsusi diqqət əslində həqiqi İrəvanlı yoxdur". Akademik A. İ. İonisian yazır ki, "İrəvan şəhərinin əhalisinin yalnız dörddə biri ermənilərdir, azərbaycanlılar burada mütləq üstünlüq təşkil edir".

Rus imperatoru I Nikolayın 21 mart 1828-ci ildə verdiyi fərmanına görə Azərbaycanın

Naxçıvan və İrəvan xanlığı ləğv olunmuş, onların yerində rus hakimləri tərəfindən idarə olunan "Erməni vilayəti" adlanan yeni inzibati qurum yaradılmışdır. 1849-cu ildə bu mahalın adı dəyişdirilərək İrəvan quberniyası qoyulmuşdur.

A.S.Qriboyedov yazırdı: rus ordusunun tutduğu rayonlardan –Təbriz, Xoy, Salmas, Marağadan bütün erməniləri Naxçıvan, İrəvan və Qarabağ vilayətlərinə köçürmək lazımdır. Qriboyedovun bu tövsiyəsi layiqincə yerinə yetirildi.

1832-ci ildə azərbaycanlılar Qarabağ əhalisinin 64,8 %, ermənilər isə 34,8% təşkil etdi. 1918-1920-ci illərdə Ermənistan Respublikasının törətdikləri azərbaycanlı qırğınları Qarabağı da əhatə etmişdi.

1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətini təşkil edərkən tarixi ədalətsizliyə yol verildi, Qarabağın dağlıq və aran hissəsi süni şəkildə bir-birindən ayrıldı. Beləliklə, ermənilərin köçürülməsi ilə ərazilərin etnik tərkibi dəyişdirilməyə başladı.

Çar Rusiyasının Şimali Azərbaycana ermənilərin köçürülmə siyasətində Naxçıvan bölgəsinə də xüsusi yer ayrılmışdı. Çar I Nikolay (1825-1855) İrəvan və Naxçıvan xanlıqları əsasında qondarma "Erməni vilayəti" yaradılması haqqında 1828-ci ilin martında fərman vermişdi.

Lakin qısa bir müddət sonra, 1840-cı ildə bu vilayəti ləğv etmiş; beləliklə, həmin ideyanın doğru olmadığı təsdiq olunmuşdu. Buna baxmayaraq 1828-1831-ci illərdə Naxçıvan bölgəsinə xeyli miqdarda erməni köçürülmüşdü.

Naxçıvan vilayəti və Ordubad dairəsinə İrandan 2387 ailə, Türkiyədən 8 ailə köçürülmüşdür. Qriqoryevin ermənilərin İrandan Naxçıvana köçürülməsinə dair faktları Şopendən müəyyən qədər fərqlənir. Şopen İrandan Naxçıvana köçürülənlərin ümumi sayının 2387 ailə (Naxçıvan əyaləti üzrə 2137, Ordubad dairəsi üzrə 250 ailə) olduğunu göstərirsə, Qriqoryevdə bu rəqəmlər müvafiq olaraq 2551 (+164), 2285 (+148) və 266 (+16) təşkil edirdi. Qriqoryevin təqdim etdiyi cədvəl ermənilərin haradan haraya köçürülməsini də aydınlaşdırır. Cədvəldən aydın olur ki, Naxçıvan əyalətinə

köçürülən 2285 ailədən 416-sı (18,2 %) Naxçıvan şəhərində məskunlaşmışdı. Qalan ailələr Naxçıvan əyalətinin 43, Ordubad dairəsinin 5 kəndində yerləşmişdi.

Qriqoryevin təqdim etdiyi cədvəlin mühüm cəhətlərindən biri də ondan ibarətdir ki, o Naxçıvana köçürülən ermənilərin yaş və cins kimi vacib demoqrafik göstəriciləri haqqında təsəvvür yaradır. Köçürülən ermənilərin (13 160 nəfər) 6954 nəfərini (52,8 %) kişilər təşkil edirdi. Kişilərə dair məlumat iki yerə bölünmüş, burada böyüklər və kiçik yaşlılar ayrılmışdır. Bu rəqəmlər də əslində ciddi informasiya mənbəyidir. Köçürülən ermənilərin 4459 nəfəri (64,12 %) böyüklər, 2495 nəfəri (35,88 %) kiçik yaşlılar idi. Bu fakt köçürülən ermənilər içərisində demoqrafik artım potensialını göstərir. Köçürülən ermənilərin 6206 nəfərini (42,2 %) qadınlar təşkil edirdi.

Ermənilərin cənubi Qafqazda ərazi iddialarının ideoloji əsası 1885-ci il Fransada (Marsel) yaranmış "Armenakan", 1887-ci ildə İsveçrənin Cenevrə şəhərində yaradılan "Hnçaq" və 1890-cı ildə Tiflisdə əsası qoyulan "Daşnaksütyun" millətçi partiyalarının fəaliyyəti ilə bağlı olmuşdur. Bu partiyalar Osmanlı İmperiyası və İrandan qaçmış ermənilərin yaşadığı əraziləri birləşdirmək üçün bütün vasitələrdən, ən əsası isə qiyam və terror aktlarından geniş istifadə etməyi qarşılarına məqsəd qoymuşdular. "Daşnaksütyun" nasist tipli partiya olub. "Daşnaksütyun partiyasının məqsədi bunlardır:

1) silahlı qiyam
2) yalnız ermənilər arasında yox, bütün xalqlar arasında inqilabi fikrin formalaşması üçün intensiv iş görmək
3) ermənilərin silahlanması və təşkilatlanması
4) hökumət adamlarına və idarələrinə qarşı terror və onların məhv edilməsi.

Bu məqsədə nail olmaq üçün hər şeyə icazə verilir; propaqanda, terror, azğın partizan müharibələri".

Daşnaksütyun patiyasının fəaliyyətini ardıcıllıqla izləyən gürcü yazıçısı Karibi 1919-cu ildə ağrı hissilə yazırdı: "Daşnaklar gələrkən özləri ilə Milli nifrət toxumu gətirdilər. Və deməliyəm ki, belə bir toxumlar səpilmiş torpaq üzərində erməni – müsəlman qan davası, və erməni və gürcü müharibəsindən başqa bir şey bitə bilməzdi".

"Bu elə bir təşkilat idi ki, Rusiya imperiyasının hakim dairələri ilə birlikdə Qafqazda inqilabi və milli azadlıq hərəkatını boğmağa çalışmışdı. Bunun nəticəsi olaraq 1905-ci ildə ilk Erməni – Azərbaycan qarşıdurması baş vermişdir. 1907 və 1912-ci illər ərzində Osmanlı İmperiyası ərazilərindən və İrandan təqribən yarım milyon erməni Qars, İrəvan və Yelizavetpol qəzalarına köçürüldü. Bölgədə etnik qarşıdurmaları alovlandıraraq hegemonluğu əlinə almaq məqsədi güdən Rusiya hökuməti əhalinin bu axınına susaraq dəstək verdi".

Beləliklə, Ermənilərin azərbaycanlılara qarşı törətdikləri 1918-ci il soyqırımı əvvəlkilərindən daha geniş miqyas almış və daha amansız olmuşdur. İndi ki, Ermənistan, Dağlıq Qarabağın Erməni terrorçu seperatçı qüvvələri Azərbaycanın 20% ərazisini işğal etmiş, 30 min insanı məhv etmiş və 50 min adamı şikəst edərək 1 milyon azərbaycanlını ata-baba yurdundundan qaçqın etmişdir.



Beləliklə, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla insanın taleyinə ciddi təsir göstərib. Erməni tərəfinin Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başlamış bu münaqişə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə nəticələnib. Eynilə onlar Bakıda, Gəncədə, Naxçıvanda, Zəngəzurda, Qubada, Dərələyəzdə, Şamaxıda və başqa yerlərdə dəhşətli qırğınlar törətmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayət olunmuşdur.

Azərbaycanlıların öz tarixi etnik torpaqlarından qovulması Sovet dövründə də davam etmişdir. Hətta Ermənistandan 150 min azərbaycanlı deportasiya olunmuş, Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. Bütün Beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyinə hazır olduqlarını nümayiş etdirirlər.

1992-ci il fevralın 26-da baş vermiş Xocalı faciəsi təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqrımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır. Əsrlər boyu ermənilərin törətdikləri soyqrımlarda xalqımız öz əzmkarlığını göstərmiş, dövləti üçün mübarizə aparmışdır.
Yəni dövləti əldən qaçırsaq harada yaşayarıq?
Dinimizi, imanımızı harada taparıq?

Dövlət hər kəsin dinidir, imanıdır, həyatıdır, şərəfidir, məsləkidir, quranıdır, amalıdır.

Bir uşaq olmasa vətən yaşayar, ancaq vətən olmasa uşaq yaşaya bilməz. Hətta bir qadın əmzikdəki körpəni qar-çovğununa buraxıb əlinə silah götürərək vətənin azadlığı naminə mübarizə aparmışdır.

**Nəticə:** Elmi tədqiqat işimdə göründüyü kimi mənfur ermənilərin hətta rusların və farsların da Azərbaycanın hər zaman torpaqlarında gözü olmuşdur. Lakin, Ümummilli Lider Heydər Əliyevin daxili və xarici siyasəti, xalqın birliyi Azərbaycanın müstəqilliyinin qorunub, saxlanılmasına müvəffəq olmuşdur. Belə ki, 1992-ci ildə dövlət müstəqilliyimiz, milli azadlığımız körpə uşağın ilk

addımlarına bənzəyirdisə, artıq Müzəffər Ali Baş Komandan İlham Əliyevin və rəşadətli ordumuzun şücaəti sayəsində xalqımız, güclü və iradəli addımlarla irəliləyir.

1905-ci il hadisələri ilə bugünkü günümüzdə baş verən münasibətləri müqayisə etdikdə səbəblərin də nəticənin də eyni olduğunu görürük. Erməni millətçilərini çirkin məqsədlərə aparan yol və vasitələr də eynidir. Tarix eyni ilə təkrar olunur. Tarixin dərslərindən düzgün nəticə çıxarmayanda isə, tarix onu yaşayanlarla sərt danışır. Tarix heç bir saxtakarlığı sevmir, tarix həmişə hər şeyi öz yerinə qoyur.

Azərbaycan xalqı ona görə cənab Prezidenti sevir ki, O müasir Azərbaycan dövlətçiliyinin banisi Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiqdir və O, heç bir vaxt hər hansı böyük dövlət və ya beynəlxalq təşkilatın diqtəsi ilə deyil, məhz lideri olduğu çoxmillətli və çoxkonfessiyalı Azərbaycan dövlətinin milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir.

Azərbaycanın müstəqil dövlət olması xalqımızın azadlığa çıxması tarixi hadisələrdir və biz onları qiymətləndirməli, əldə edilmiş nailiyyətləri əbədiləşdirməliyik. Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır. Bu istər bizim istərsə də gələcək nəsillərin qarşısında duran strateji vəzifədir.

Eyni zamanda "Dəmir yumruq" əməliyyat adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən müharibəsi Azərbaycan dövlətinin hərbi qüdrətinin və Azərbaycan xalqının qələbə əzminin əyani təsdiqidir.

Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Ulu Öndərin şah əsəri Azərbaycan dövləti öz suverenliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı zəfər qazanmaqla sübuta yetirmişdir.

**Qarabağ Azərbaycandır!**
**Zəngəzur Azərbaycandır!**
**İrəvan Azərbaycandır!**
**Təbriz Azərbaycandır!**

**İstifadə olunmuş ədəbiyyat:**

1. Heydər Əliyev Azərbaycanlıların soyqırım haqqında Azərbaycan Respublikasının prezidentinin fərmanı. Bakı, 26 mart 1993.
2. Azərbaycan milli ensklopediyası. Bakı, 2007.
3. H. Sadıqov. Erməni məsələsi. Bakı, 2012.
4. T. Mustafazadə. Ümumi tarix. IV cild. 1998.
5. Z. Sultanov. Xocalı soyqırımı. Bakı,1993.
6. İ. Pompoyev. Qarabağ qan içində. Bakı, 1996.

# VƏTƏN MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN - TÜRKİYƏ ƏMƏKDAŞLIĞI

***Tələbə: Şixəliyeva Aytən İlhamiz qızı (TCM1901B),***
***Elmi rəhbər: dos. Hüseynov Məhəmməd Allahverdi oğlu***

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan istifadə edərək Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmaqla törətdikləri növbəti hərbi təxribat nəticəsində 44 günlük Vətən müharibəsi başlamışdır. Bu Vətən müharibəsi ərəfəsində bir sıra ölkələrdə Azərbaycanın yanında olduqlarını bildirmişdilər. İlk sırada olan ölkə isə qardaş Türkiyə olmuşdur ki, Azərbaycana dəstəyini heç bir vaxt əsirgəməmişdir.

44 günlük Vətən müharibəsi ərəfəsində Türkiyənin NATO üzvü olması da, necə deyərlər, işimizə çox yaradı. 44 günlük müharibədə Ermənistan və böyük erməni diasporu bütün vasitələrlə çalışdı ki, Rusiya münaqişəyə qoşulsun. Ermənilər təkcə Rusiyanı deyil, digər KTMT-yə üzv dövlətləri də münaqişəyə qoşmağa çalışırdı. Ancaq Türkiyə faktoru həm Rusiyanı, həm də digər KTMT üzvlərini İkinci Qarabağ müharibəsində neytral mövqe nümayiş etdirməyə məcbur etdi. Türkiyə siyasilərinin Azərbaycanın hüquqları uğrunda nümayiş etdirdikləri el birliyi bəlkə də qardaş ölkə tarixində bir ilk idi. Hələ onu demirəm ki, Türkiyə hərbi sənayesinin son nailiyyətlərinin İkinci Qarabağ müharibəsində tətbiqi dünyanı heyrətə saldı. Türkiyənin 1993-cü ildən başlayaraq şəxsi heyətin təlimi, silahlı qüvvələrin texniki təchizarı ilə yardım göstərdiyi Azərbaycan ordusu Qarabağda həyata keçirilən döyüş əməliyyatlarında hərbi taktika, strategiya və planlaşdırma baxımından möhtəşəm uğurlara imza atılmışdı. Türkiyə isteehsalı olan PUA VƏ SİHA -lardan həmçinin Azərbaycanın özünün pilotsuz uçan aparatları, kamikazade sistemləri və digər hərbi texnikasından geniş istifadə olunan əməliyyatlar Ermənistan ordusunu müharibə dövründə çətin vəziyyətə salmışdı.

Qardaş Türkiyə 44 günlük Vətən müharibəsi zamanı təkcə döyüşən orduya siyasi-mənəvi dayaq olmadı, həm də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, informasiya cəbhəsində də fəal iştirak etdi. Türkiyənin müxtəlif televiziya kanalları yəni TRT Haber, CNN Türkiye, Anadolu Agentliyi, SHOW Haber, BBC NEWS Türkce və s. Və mətbuat orqanları yəni Hürriyet, Sabah, Milliyet, Cumhuriyyet, Türkiye, Halkın sesi, Meydan və s. sosial media Azərbaycanın ərazi bütövlüyü uğrunda ədalətli müharibəsinə müxtəlif aspektlərdən yanaşdılar. CNN Türk telekanalının əməkdaşı Fulya Öztürk müharibə həqiqətlərini peşəkarcasına işıqlandırmışdır. Fulya Öztürk ermənilərin Gəncə, Bərdə, Tərtərdə - mülki obyektləri hədəf almasını anbaan lentə almışdı.

Azərbaycanda tez-tez işlədilən gözəl bir zərb-məsəl var: Dost dar gündə tanınar. Azərbaycanla Türkiyənin dostluğu, qardaşlığı da zamanın sərt sınaqlarında möhkəmlənib və yenilməz olub. 44 Günlük Vətən müharibəsində İlham Əliyev ilə Rəcab Tayyib Ərdoğanın münasibətləri, qardaşlığı daha da möhkəmlənmişdi. İlham Əliyev müharibənin ilk günlərindən xalqa müraciət edir və görüşlər keçirir 2020 ci il 30 Sentyabr yaralı əsgərlərlə görüşündə bildirmişdirki bizə ən çox məktublar qardaş Türkiyədən gəlir. Bu məktublarda onlar bizimlə birlikdə vuruşmaq istədiklərini bildirirlər. Amma mən burdan onlara öz dərin təşəkkürkərimi bildirirəm. Ancaq Azərbaycan ordusu güclü ordu və təchiz edilmiş ordudur. Türkiyə bizim həmişə yanımızdadır və dəstəkləmişdir. Türkiyə ilə yanaşı Pakıstan, Əfqanıstan da Azərbaycanı

dəstəkləmişdir. Vətən müharibəsinin ilk günlərindən Rəcəb Tayyib Ərdoğan İlham Əliyevlə telefon danışıqları aparmışdı. 2020 ci ilin Sentyabrın 27 də Rəcab Tayyib Ərdoğan İlham Əliyevə zəng etmiş hərbi qulluqçuların həlak olması ilə əlaqədar baş sağlığı vermişdi. Dövlət başçıları dost və qardaş Azərbaycan və Türkiyə arasında münasibətlərin bundan sonrada uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildirdilər.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Qarabağ Zəfəri. Bakı, 2021.
2. Zəfər yolu. Bakı, 2021.
3. İnternet mənbələri.
4. Zəfər çıxışları. Bakı, 2020.
5. M. Camid. 44 Xəyalları həqiqətə çevirdi. Bakı, 2021.
6. Şərəfli döyüş yolu. Bakı, 2021.

## QARABAĞIN DİNİ ABİDƏLƏRİ: TARİXİ, MÜASİR VƏZİYYƏTİ VƏ ERSPEKTİVLƏRİ

***Tələbə: Qasımlı Gültac Rəhman qızı (TCPX2001B,***
***Elmi rəhbər: t.ü.f.d., b/m. Kərimli Anar Tahir oğlu***

İki əsrdən artıqdır Azərbaycan xalqına qarşı davam edən erməni təcavüzünün qurbanları təkcə soydaşlarımız deyil, həm də yaşı minillərlə ölçülən tarixi mədəni abidələrimiz, müqəddəs ocaqlarımız və məbədlərimizdir. Tarixi abidələr xalqın keçmişinə işıq tutan, onun yaddaşını həmişə təzə saxlayan, canlı arxivdirlər. Tarixi-dini abidələr isə xalqın təkcə tarixi deyil, həm də mənəvi, ruhani yaddaşını hifz edən müqəddəs məkanlardır. Bu baxımdan ermənilərin tarixi-mədəni abidələri, o cümlədən məbədlərimizi məhv etmələri başadüşüləndir. Onlar bu yolla bizim minilliklər ərzində yaşadığımız torpaqlardan həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etmək istəyirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarı ilə təsdiq edilmiş "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı", "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı" və "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na əsasən 30 il ərzində işğal altında qalmış ərazilərdə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin ümumi sayı 900-dən çoxdur. Heç şübhəsiz ki, bu siyahıya alınmayan, lakin əzəli torpağımız Qarabağdakı varlığımızın, milli kimliyimizin maddi sübutları olan minlərlə tarixi abidəmiz, dəyərimiz vardır. Bəzi məlumatlara görə dövlət qeydiyyatında olmayan abidələrin sayı 1500-dən artıqdır, beynəlxalq əhəmiyyətli abidələrin sayı onlarladır.

İşğal altındakı torpaqlarımızda təsbit olunmuş tarixi-dini abidələrin təqribi sayı 403-dür. Onlardan 67-si məscidlər, 144-ü məbədlər, 1192-i ziyarətgahlardır.

Ermənilərin tarixi-dini abidələrimizə qarşı vandal təcavüzü müxtəlif istiqamətlərdə aparılmışdır. Milli mənsubiyyəti və qədim tarixi milli, dini ənənəni özündə ehtiva edən abidələr

tamamilə uçurulmuşdur. Bu abidələrin ermənиləşdirilməsinə, özgələşdirilib dəyişdirilməsinə cəhd edilmiş, işğal altındakı müsəlman dini kimliyinə aid olan abidələr, o cümlədən digər mədəniyyət göstəriciləri dağıdılmış, təhqir olunmuşdur.

Son illərdə məscidlərdə mal-qara və digər heyvanların saxlanılması faktı Qərb ölkələrinin fotomüxbirləri tərəfindən də lentə alınmış və bütün dünya ictimaiyyəti bu kadrlarla tanış olmuşdur.



Ağdam Cümə məscidi 1868-1870-ci illərdə tikilmişdir. Memarı Kərbəlayi Səfixan Qarabaği olan məscid iki minarəli və ikimərtəbəlidir. Məscid binası daşdan, binanın fasad hissəsinin künclərindən qalxan minarələr isə kərpicdən hörülmüşdür.

Mərkəz gümbəzə dayaq olan dörd sütun daxili məkanın həm tən ortasında kvadrat, həm də yan tərəflərdə iki mərtəbəli eyvanlar yaradır. İbadət zalına baxan və qadınlar üçün nəzərdə tutulan bu eyvanlar da öz növbəsində yuxarıdan gümbəzlərlə örtülür. Burada da az qala hər detalda İslam incəsənəti üçün mühüm olan mürəbbe (dördbucaqlı) və dairə münasibətlərinə rast gəlmək olar. İbadət zalı mehrabın kənarlarından və eyvanlardan açılan pəncərələrlə işıqlandırılır. Mehrab tağçasının üzərində binanın dekor tərtibini verən ustad Məhəmməd Nəqqaş Təbrizinin adı və təmir olunduğu il, hicri təqvimlə 1331-ci il (miladi 1913) tarixi həkk olunmuşdur.

Mənbələrdə göstərilir ki, Ağdam Cümə məscidinin divarlarını ilkin variantda Kərbəlayi Səfixanın dostu nəqqaş Məhəmməd Şükuhi işləmişdir. Məscidin giriş qapısı Səfəvi memarlığı üçün xarakterik olan iri tağ portalın içindədir.

Memar Kərbəlayi Səfixan Qarabaği 1817-ci ildə doğulmuş, 1910-cu ildə vəfat etmişdir. Onun Azərbaycanın Şuşa, Ağdam, Bərdə, Füzuli şəhərlərində, eləcə də Ukraynanın Odessa və Türkmənistanın Aşqabad şəhərlərində ucaltdığı məscidlər bu gün də memarlıq nümunələri hesab olunur.

Kərbəlayi Səfixan Qarabaği sayəsində "Qarabağ məscid memarlığı" adlı üslub formalaşmış və bu üslubu başqa heç bir digər üslublarla səhv salmaq mümkün deyil.

Ağdam şəhəri 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunanda Azərbaycan memarlığının incilərindən sayılan Ağdam Cümə məscidi də erməni təcavüzünün qurbanına çevrilmişdir. Məscidin minarələri daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, dizayn və yazıları pozulmuşdur. Abidə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 №-li qərarı ilə Ölkə əhəmiyyətli daşınmaz Tarix və Mədəniyyət abidələrinin siyahısına daxil edilmişdir.

Kür-Araz çayları arasındakı inşaat, xüsusilə XIV əsrin başlanğıcında daş türbələrin geniş

şəkildə yayılması ilə əlamətdardır. Bu abidələrdən biri nadir təsadüf edilən səciyyəyə malik türbədir.

Ağdam rayonunun Xaçındərbətli kəndində yerləşən bu abidə nisbətən alçaq bir kürsülük üzərində yüksələn səkkizbucaqlı piramidaşəkilli günbəzlə örtülüdür. Bu abidənin əsas məziyyəti onun həcmində deyil, bu ənənəvi quruluşun özünəməxsusluğundadır.



Xaçındərbətli abidəsində yeraltı hissənin varlığı onun qülləvari türbələr qrupuna daxil edilməsinə əsas verən başlıca bir əlamətdir. Abidənin istər daxili səthlərinin, istər daxilindəki günbəzin və istərsə də xaricindəki səthlərin işlənməsi binaya təkrarolunmaz bir fərdi xüsusiyyət verir.

Xaçındərbətli abidəsinin giriş qapısı üzərindəki kitabə, onun 1314-cü ildə ustad Şahbənzər tərəfindən Musa oğlu Qutlunun məzarı üzərində tikildiyini göstərir.

Xaçındərbətli abidəsinin ən zəngin hissəsini giriş səthinin memarlığı və onun daxili günbəzinin stalaktitli quruluşu təşkil edir. Xarici səthlər çox da dərin olmayan batıqlarla işlənmiş və bu batıqların yuxarı hissəsi tağlara bağlanmışdır. Abidənin ümumi kompozisiya görünüşündə əhəmiyyətli bir ünsür də onun piramida şəkilli günbəzinin üzlüyünü təşkil edən daş tavalardan düzəldilmə örtükdür.

Xaçındərbətli abidəsinin giriş səthində və daxilində olan heyvan təsvirləri də son dərəcə diqqəti cəlb edir. Onların içərisində vəhşi heyvan təsvirləri xüsusilə qeyd olunmalıdır. Azərbaycan memarlığı abidələri içərisində bu təsvirləri xatırladan nümunələr Bakıda, Bayıl qalasının (XIII əsr) üzərində də var. Xaçındərbətli abidəsinin daxili günbəzi Şirvan memarlığının daşdan oyma stalaktit kompozisiyalarını xatırladır.

Ağdərədə İslam istiqamətli bir sıra abidələr mövcud olmuşdur. Bunların arasında ən çox yayılan pirlərdir. Rayon mərkəzindən 10 kilometr aralıda yerləşən "Ulduz təpə" piri bölgədə tanınan ziyarət yerlərindən olmuşdur.



1992-ci ilin oktyabrında Azərbaycan hökumətinin qərarı ilə Ağdərə rayonu ləğv edilərək, ərazisi Dağlıq Qarabağa aid olmayan üç rayonTərtər, Ağdam, Kəlbəcər rayonları arasında bölünmüşdür. Rayon ərazisi 17 iyun 1993-cü ildə Ermənistan ordusu tərəfindən işğal olunmuşdur.

Albaniyada xristianlığın yayılmasında böyük xidmətləri olmuş apostol Yeliseyin xatirəsinə ölkədə əsrlər boyu bir çox məbədlər tikilmişdir. Bunlardan bizim günədək gəlib çatanlardan biri də, keçmiş Dağlıq Qarabağın Ağdərə rayonundakı Müqəddəs Yelisey monastır kompleksidir. Dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, uca bir dağın zirvəsində tikilmiş və qala divarları ilə əhatə olunmuş monastır kompleksinin əsası V əsrdə qoyulub. Xaçın knyazlığı dövründə burada geniş inşaat işləri aparılmış, böyük baş kilsə binası, altı kiçik kilsə, bir neçə yaşayış və təsərrüfat binaları tikilmişdir. Yaxşı yonulmuş daşdan tikilmiş baş kilsənin ikimailli daş damının üstündə dörd sütunlu ratonda ucalır. XIII-XIV əsrlərə aid edilən bu alban kilsəsi geniş ibadət zalından və silindrik tağbəndlərlə tamamlanan sütunları olan kvadrat formalı otaqdan ibarətdir. Monastır kompleksində dəfələrlə yenidənqurma və inşaat işləri aparılmışdır.

Bu monastırda vaxtilə alban çarı III Vaçaqanın qəbri olub, sonradan ermənilər tərəfindən dağıdılıb, başqa yerlərə aparılımışdır.

Erkən orta əsr tarixçilərinin məlumatlarına görə, Albaniya hökmdarı Mömin III Vaçaqan kilsələrin tikintisinə böyük diqqət yetirirdi. Bir sıra iri tikililər onun adı ilə bağlıdır. Müqəddəs Yelisey monastır kompleksi bu tikililər arasında xüsusi yer tutur. Həmin kompleksin əsas binası bazilika tipinə aiddir. Rəvayətə görə, məbəd Qafqaz Albaniyasında xristianlığı ilk dəfə təbliğ etmiş Müqəddəs Yeliseyin şərəfinə tikilmişdir.

Moisey Kalankatlının əsərində Müqəddəs Yelisey məbədinin tikintisi haqqında məlumatlar vardır. Tarixçi, Müqəddəs Yeliseyin Albaniya hökmdarı III Vaçaqanın zamanında quru cəsədinin əldə olunması barədə danışaraq qeyd edir ki, «müqəddəs Yeliseyin görkəminin meydana gəlməsi cəsəd qalıqlarının aparılmasını və lazım olan yerdə dəfn olunmasını zəruri etdi, müqəddəs ierey (keşiş) Stefan onun başını Urekan kəndində torpağa tapşırdı. Oradan quru cəsəd qalıqlarını müqəddəs Ners-Mihra qardaşlığına köçürdülər və bu yer indi Cirviştek adlanır.

Güman etmək olar ki, əvvəllər burada müqəddəs Ners-Mihra qardaşlığının kilsəsi tikilmiş, kilsə onların adını daşımışdır. "Uzun müddətdən sonra Vaçaqanın burada uca sütun tikdirdiyi" nəzərə alınarsa, ehtimal etmək olar ki, buradakı ilkin tikili təxminən V əsrə aiddir.

Moisey Kalankatlının məlumatlarından belə nəticəyə gəlmək olar ki, Cirviştek monastırı erkən alban xristian tikililərindən biri olmuşdur. Kompleksin hal-hazırda mövcud olan qalıqları (baş kilsə, yeddi zəng qülləsi, bir sıra yaşayış və təsərrüfat binaları, habelə güclü müdafiə divarları) daha sonrakı tarixi dövrün tikililəridir. Abidədəki yazılar bunu təsdiq edir. Lakin yazılar arasında elələri də vardır ki, burada qədim tikililərin mövcud olması fikrinin xeyrinə dəlillər verir. Baş kilsənin divarında həkk olunmuş yazıda deyilir: "Mən, arxidyakon Serob bu müqəddəs guşədə əvvəlki özül üzərində müqəddəs apostolun [kilsəsini] tikdirdim".

Bu ilkin tikilinin tədqiqi məqsədilə baş kilsənin Şərq divarı yanında arxeoloji qazıntılar aparılmışdır. Qazıntılar nəticəsində xeyli qədim tikinti qalıqları və məişət əşyaları aşkar edilmişdir. Müəyyən olunmuşdur ki, Müqəddəs Yelisey məbədi də 8,7 metr uzunluğunda olmuş üçnefli bazilika idi. Məbədin şərq tərəfi nalşəkilli səcdəgah absidası ilə başa çatırdı. Bazilikanın yan neflərinin sonlarında keşiş cübbələrinin saxlandığı yerlər vardır. Məbəd IX-X əsrlərdə dağıdılmışdır.

İşğal dövründə ermənilərin bu məbəddə qriqoryanlaşdırma işləri aparmışlar. Onlar məbədin müxtəlif yerlərində qriqoryan xaçlarının təsvirlərini yerləşdirmişlər.

Füzuli rayonu tarixi-dini abidələrlə, xüsusən də türbələrlə zəngindir. Bu abidələr sırasına

rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babı Yaqub (XIII əsr) türbəsini, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsini, Əhmədalılar kəndində orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşının üzərindəki türbəni, XIX əsrə aid olduğu söylənilən Cəlil türbəsini aid etmək olar.






Karvansara 1681-ci ildə Füzuli rayonundakı Qarğabazar kəndinin mərkəzində, çox da hündür olmayan bir təpənin döşündə inşa olunmuşdur. Karvansara tikilisinin eni 23,7 metr, uzunluğu isə 34,7 metrdir. Qarğabazar kəndində tikildiyi üçün o, Qarğabazar karvansarası adı ilə tanınır. Bu tarixi abidəyə bəzən Şah Abbas karvansarası da deyirlər. Onun memarı məlum deyil.

Memarlıq üslubuna görə Qarğabazar karvansarası Alban dövrü memarlıq ənənələrinin oxşarıdır. Girişin sağ və sol tərəflərində gözətçi otaqları qarşısında iki böyük sal daş vardır. Görünür, gözətçilər həmin daşların üstündə dayanıb, karvansaraya daxil olan karvanların yüklərinə baxırmışlar. Karvansara ölkənin daşınmaz tarixi abidələrindən hesab edilir.

Qarğabazar kəndinin işğalından sonra ermənilər bu tarixi-memarlıq abidəsini mal tövləsinə çevirmişdilər.

Qiyasəddin məscidi Qarğabazar kəndində, Şah Abbas karvansarasından yuxarı, qayanın üstündə yerləşir. Yerli əhali onu Şah Abbas məscidi də adlandırmışdır. Hacı Qiyasəddin Ağa Dizaği 1633-cü ildə Dizaq mahalının Qarğabazarı kəndində anadan olmuşdur. Sayılıb seçilən Hacı Qiyasəddin Qarğabazarı kəndinin kəndxudası olmuşdur. Deyilənlərə görə o, qurucu və xeyirxahlığı ilə seçilib. O, hicri-qəməri 1095-ci (miladi 1683/84) ildə doğma kəndlərində məscid tikdirmişdir. Həmin məscidin qapı çatı üzərindəki kitabədə yazılıb: "Bu məscidi Böyük Allahın mərhəmətli bəndəsi Hacı Qiyasəddin tikdirib. H. T. 1095". Bu da miladi tarixi ilə 1683-84-cü illərə təsadüf edir.

Hacı Qiyasəddin məscidi eyvansızdır. Tamamilə yerli daş materialları ilə bir zaldan ibarət tikilmişdir. Dam örtüyü tağtavan şəkilindədir. Giriş qapısı nəzərə alınmasa burada ağac materialından istifadə olunmamışdır. Məscid kəndin mərkəzindəki sal qayalı təpənin üstündə inşa edilmişdir. Həmin məbəd Hacı Qiyasəddin məscidi adlanır. Tarixi abidə kimi qorunur.





Füzuli şəhərindəki Hacı Ələkbər məscidi memar Kərbalayı Səfixanın ilkin işlərindəndir. Məscidin giriş qapısı üzərindəki daş kitabədə "Memar Kərbalayı Səfixan Qarabağinin işidir" – sözləri yazılmışdır. Kitabədə məscidin tikilmə tarixi də – hicri tarixi ilə 1307-ci il göstərilir. Bu tarixi miladi təqviminə çevirəndə 1889-1890-cı illərə uyğun gəlir. Bu dini ocaq Hacı Ələkbər məscidi adlandırılmışdır. Hacı Ələkbər xeyriyyəçi olub. O, bu məscidin inşası üçün vəsait ayırıb və Şuşadan ustalar dəvət edib. Xeyirxah işlərinə hörmət və ehtiram əlaməti olaraq yerli camaat Hacı Ələkbər bəyi öz tikdirdiyi məscidin ibadət zalının sol pəncərələrindən birincisinin qənşərində dəfn etmişdir.

1993-cü ilin avqustunda Füzuli şəhərinin Ermənistan tərəfindən işğalı zamanı Hacı Ələkbər məscidi yararsız hala düşmüşdür.

V-VI əsrlərə aid alban monastırı olan "Ağoğlan" məbədi Laçın rayonu ərazisində, Ağoğlan çayının sahilində yerləşir. Tarixi abidə əvvəllər qəsr olmuş, lakin müxtəlif dövrlərdə dağıntılara məruz qaldığından IX əsrdə kilsə üslubunda yenidən inşa edilərək monastır formasına salınmışdır. Köhnə divarlar üzərində yeniləri tikilsə də, abidə ilk bünövrəsini olduğu kimi saxlamış və alban dövrü memarlığının möhtəşəm nümunələrindən birinə çevrilmişdir.

Əvvəllər məbədin qəsr kimi tanınması rəvayətlərdə də öz əksini tapmışdır. Belə rəvayət edilir ki, qədim zamanlarda bu ərazidən keçən gənc bir səyyah buranın gözəl təbiətinə heyran olmuş və bu məkanda qəsr tikdirmək qərarına gəlmişdir. Ətrafında yerli əhalidən tikinti işini bacaran könüllülərindən dəstə toplayıb işə başlamışdır. Xalqın sevgisini və rəğbətini qazanan gənc, çox yaraşıqlı olduğundan yerli əhali onu "Ağoğlan" adlandırıbmış.



Tikilən qəsr vaxtilə "Qaranquş qəsri" adı ilə də bilinmişdir. Bununla bağlı rəvayət də çox maraqlıdır. Deyilənə görə, günlərin bir günü, günorta yeməyi vaxtı bir qaranquş aşpazın başına fırlanıb, onun camaata yemək verməsinə mane olmağa çalışırmış. Ətrafdakı insanlar quşun bu hərəkətinə maraqla tamaşa edir, lakin heç nə anlamırmışlar. Anidən qaranquş özünü qaynar qazanın içinə atıb öldürür. Bundan qəzəblənən aşpaz yeməyi kənara boşaldarkən qazanda ilan ölüsü olduğunu görür. Camaat isə heyrətdən donub

Qəsrin sahibi xilaskar quşun ölüsünü təntənə ilə tikilinin yanında basdırır, qəsri də onun şərəfinə "Qaranquş qəsri" adlandırır. Lakin zaman ötdükcə qəsrin bu adı unudulmuş və məbədə çevriləndən sonra isə xalq arasında onu tikdirənin şərəfinə "Ağoğlan" kimi tanınmağa başlanmışdır. Məbəd kifayət qədər böyük ölçülərə malikdir. Plan baxımından üç nefli olan düzbucalı bazilikadan ibarətdir. İbadət zalının bütün nefləri Silindrik formalı tağlarla örtülmüşdür.

İnteryer baxımından bazilika möhkəm yerli daş olan bazaltdan inşa edilmişdir. Tikilinin fasadının yan tərəfində zala yeganə giriş oyuğu var. Fasadın hamar səthləri yuxarı hissədə isə bir-birindən uzaq məsafədə yerləşmiş ensiz pəncərə oyuqları ilə kəsilir və zalın daxili məkanına bu oyuqlardan işıq düşür.

"Ağoğlan" məbədinin daxili divarları yonulmuş iri, qara daşlarla üzlənmişdir. Vaxtilə divarlarda, mala üzərində tematik çoxrəngli rəsmlər çəkilmişdi. Onların çox hissəsi zamanla silinsə də, şimal divarında indiyədək qismən freska rəsmli fraqmentlər qalmaqdadır. Zalın interyerinin yuxarı hissələrində daş üzərində dekorativ oymalar tətbiq edilmişdir.

1992-ci ildə erməni qəsbkarları ərazini işğal etdikdən sonra "Ağoğlan" məbədini özününküləşdirməyə başlamışlar. Onlar məbədi təmir etmək adı altında abidənin divarları üzərində bir neçə daş yazıları, həmçinin xeyli sayda alban dövrünə aid ornament və rəmzləri tamamilə silmiş, formalarını dəyişdirmişlər. Məbədin guya xristianlığın qriqoryan məzhəbinə məxsusluğunu göstərən 26 yazı lövhəsini abidənin divarlarının müxtəlif yerlərinə bərkitmişlər.

Saxtakarlıqlarında daha da irəli gedən ermənilər kompleksin ümumi giriş qapısının önündə İrəvandan gətirilmiş xaçdaşlar basdırmış, binanın fasadını söküb kirəmid və dəmirlə əvəzləmişlər.

"Kitabi-tarixi Qarabağ" əsərinin müəllifi Mir Mehdi Xəzaninin yazdığına görə, hicri tarixi ilə 1182-ci ildə (miladi ilə 1768-69-cu il) Qarabağ hakimi İbarahimxəlil xan tərəfindən bina edilən məscid hicri 1281-ci ilində (miladın 1866-1867-ci illərində) mükəmməl şəkildə təmir olunmuşdur. Daxili sahəsi 558 $m^2$-dir. Təxminən 30 metr hündürlüyündə qoşa minarəsi var.



Baharlının "Qarabağnamə"sində deyilir ki, Şuşanın baş meydanında 1759-cu ildə Pənahəli xan tərəfindən qamışdan iki qapılı məscid tikilmiş, 1768-ci ildə isə onun yerində mərhum xanın oğlu İbrahimxəlil xan tərəfindən daha möhtəşəm məscid ucaldılmışdır. Təxminən 100 ildən sonra elə bu yerdə onun qızı Gövhər Ağanın tapşırığı və vəsaiti ilə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən daha bir məscid inşa edilmişdir. Buna qədər mövcud olmuş Cümə məscidi binasının görünüşü ilə o zaman Qafqaza səyahət edən rus rəssamı Vasili Vereşaqinin çəkdiyi şəkildən tanış ola bilərik.

Rəssamın çəkdiyi şəkildəki məscid binası əzəmətlidir. Onun giriş hissəsi Səfəvi memarlığına xas olaraq həddən artıq böyük baştağdan qurulmuşdur. Baştağın üzərində dam örtüyü Avropa memarlığına məxsus ampir şəklində işlənmişdir. Bu məscid binasının yerində tikilən Yuxarı Gövhər Ağa məscidinin fasadı isə üç eyniölçülü tağla irəli çəkilərək binanın şimal, yəni ön hissəsi

boyunca uzanan eyvan şəklində həll olunmuşdur. Yeni binada Qurani-Kərimdən ayələr, məscidin inşa tarixi və Gövhər Ağanın vəsiyyətnamələrini əks etdirən çoxlu daş kitabələrə rast gəlmək olar. Binanın ikinci mərtəbəsi və minarələrdəki ornament, eləcə də kitabələr məşhur Azərbaycan şairi və nəqqaşı Mir Möhsün Nəvvab tərəfindən işlənmişdir.

Səxavəti və xeyriyyəçiliyi ilə ad çıxaran xan qızı Gövhər Ağa məscidin bir hücrəsini mədrəsə etmiş, bura ibadətə gələn və ehtiyacı olanlara həftədə bir dəfə yardım, məsciddə Quran oxuyan və azan verən müəzzinlərə məvacib ayırmışdı. Gövhər Ağa vəfat edəndən sonra məscidin həyətində dəfn edilmiş, az sonra isə nəşi Məkkəyə aparılaraq orada torpağa tapşırılmışdır.



Saatlı məscidi 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Şuşa şəhərinin tarixini tədqiq edən Çingiz Qacarın yazdığına görə, Saatlı məscidinin yerində 1759-cu ildə Pənahəli xanın tikdirdiyi məscid və mədrəsə olmuş, məhz bu mədrəsədə böyük Azərbaycan şairi Molla Pənah Vaqif dərs demişdir. Məscid Şuşanın Saatlı məhəlləsində tikildiyi üçün belə adlanır. Saatlı məhəllə məscidi olsa da, şəhərin digər məhəllə məscidlərindən həm həcmi, həm memarlıq quruluşu, həm də dekorativ tərtibatı ilə

Tədqiqatçı Rizvan Qarabağinin yazdığına görə, bura Kərbəlayi Səfixan Qarabağinin tikdiyi son minarəli məscid olmuşdur. Sonrakı illərdə bu gözəl sənətkarın tikdiyi məscidlərdə uca minarələr olmamış, onları damın üstündə güldəstə formalı kiçik şərəfələr əvəz etmişdir. Amma memarlıq üslubundakı belə kəskin dəyişikliyin nə ilə bağlı olması heç yerdə izah olunmur. Fasad yalnız divar və assimmetrik düzülüşə malik qapı və pəncərələrdən ibarətdir.

Saatlı məscidinin interyer həlli bədii kamillik nümunəsi hesab oluna bilər. Tavana dayaq olan dörd səkkizbucaqlı daş sütunlara minnətdar olaraq ibadət zalı üçnefli məkana malikdir. Bunun nəticəsində zalda sanki sonsuz sayda tağ keçidlər yaranır. Divarların səthi həndəsi fiqurlar və nəbati naxışlarla tərtib olunmuşdur. Tək minarə binanın arxa tərəfində yerləşdirilmişdir. Belə ehtimal edilir ki, minarə məscidlə eyni vaxtda deyil, sonrakı illərdə ucaldılmışdır. İstedadlı memarın tikdiyi bütün binaların divarında belə bir söz yazılmışdır: "Qarabağdan olan Kərbəlayi Səfixan tərəfindən tikildi". Əlbəttə, bu daş imzalar sonrakı dövrlər üçün sənəd kimi böyük əhəmiyyət daşıyır. Lakin bunsuz da memarın yaratdığı əsərlərə, məscidlərə, hətta, uzaqdan baxanda belə, onun kim tərəfindən tikildiyi məlum olur – memar Qarabaği.

**Nəticə:** Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Qarabağda zaman-zaman dini abidələr tikilmiş, xalqın inam və etiqad yerinə çevrilmişdir. Qarabağda, eləcə də ətraf ərazilərdə yaşayan inanclı insanlar bu dini abidələrə xüsusi ehtiramla yanaşmış, ibadət etmək üçün tez-tez bu abidələri ziyarət etmişlər. Təəssüf ki, 30 ildən artıq erməni işğalı altında qalan ərazilərimizdə mövcud olan dini-mənəvi abidələrimiz erməni vandalizminə məruz qalmış, tarixi abidələrimiz dağıdılmış, təyinatından kənar müxtəlif məqsədlər üçün istifadə olunmuşdur.

2020-ci ildə Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun torpaqlarımızı işğaldan azad etməsiylə artıq bölgədə quruculuq işləri geniş vüsət almışdır. Yenidənqurma işləri əsnasında dağıdılmış dini-mənəvi abidələrimiz yenidən bərpa olunur. İnanırıq ki, tezliklə azad olunmuş ərazilərimizə əhalimiz qayıdaraq firavan həyata qovuşacaq və uzun illər yad nəfəslərlə tıncıxmış mənəvi abidələrimiz doğma nəfəslərimizlə isinəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. B. Orujov – Non – muslım relıgıous monuments ın Azerbaıjan.
2. B. Orujov – Relıgıous tourısm destınatıons ın Azerbaıjan.
3. R. Qurbanov – Non- muslım mınorıtıes ın Azerbaıjan.
4. R. Qurbanov – Armenıan terror: relıgıous and hıstorıcal monuments of Azerbaıjan.

## LAÇIN RAYONUNUN TƏBİƏTI VƏ ƏSAS TARİXİ-DİNİ ABİDƏLƏRİ

***Tələbə: Səlimli Mirağa Mirnemət oğlu (TM2201B),***
***Elmi rəhbər: b/m Əliyev Araz Boran oğlu***

Laçın rayonu zəngin tarixi keçmişə malik olan bir ərazidir. Laçın rayonu 1924-cü ildə təsis edilmişdir. Rayon kimi yaranma tarixi 08 avqust 1930- cu ildir. Ərazisi 1835 kvadrat kilometr, əhalisi 78.6 min nəfərdir. Laçın rayonunda 1 şəhər, 1 qəsəbə(Qayğı), 125 kənd vardır. Laçın rayonunun 200-ə yaxın tarix mədəniyyət və memarlıq abidələri, onlarla kurqan, qala tipli abidələr, çoxlu sayda qəbirüstü abidələr, at və qoç fiqurları, sujetli daşlar, eləcədə bu ərazi çoxlu təbii sərvətləri, qiymətli mineral suları ilə zəngin bir ərazi olmuşdur. Laçın rayonu 1992- ci ilin may ayının 18-dən Ermənistan Respublikasının işğalı altına düşmüş və yuxarıda göstərilən tarixi abidələrimiz eləcədə təbii sərvətlərimiz erməni vandalizminin qurbanı olmuşdur. Laçının 28 illik işğalına 2020-ci ilin dekabrın 1-də son qoyulmuşdur.

Laçın Dağlıq Qarabağın ətrafında yerləşən 7 rayondan biridir. Şuşa şəhərinin azad edilməsinin ardınca noyabrın 9-da Azərbaycan Ordusu Laçının da Güləbürd, Səfiyan, Türklər kəndlərini işğalçılardan təmizləyib. Müzəffər Azərbaycan Ordusunun Laçın rayonunun bir hissəsinə və digər mühüm strateji mövqelərə daxil olmasından, xüsusilə Şuşa şəhəri və onun ardınca 70-dən artıq kəndin azad olunmasından az sonra Ermənistan kapitulyasiyasını elan edib.

Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı birgə Bəyanata əsasən, Ermənistan silahlı qüvvələri Laçını da Ağdam və Kəlbəcər kimi Azərbaycana təhvil verməli olub.

Bu gün Laçını tərk edən erməni əhalisi 1992-ci ildə rayonun işğalından sonra orada qeyri-qanuni məskunlaşıb. Ağdam və Kəlbəcərdə olduğu kimi, qeyri-qanuni yaşadıqları əraziləri - Azərbaycan torpaqlarını tərk edən ermənilər Laçından da təhlükəsiz şəkildə, atəşə məruz qalmadan rahatlıqla bütün əşyalarını götürüblər. Azərbaycan Ordusu onlara ərazini tərk etmək üçün bütün şəraiti yaradıb. Bunun müqabilində isə, Laçından çıxan ermənilər qaldıqları evləri yandırıb, vandallıq edib, meşələrə od vuraraq, suları çirkləndirərək ekoloji fəlakət törədiblər. Bu gün təhlükəsiz şəkildə və öz seçimi ilə ərazini tərk edən erməni əhalisindən fərqli olaraq, 1992-ci ildə rayonun azərbaycanlı əhalisi oradan zorakılıqla qovulub. Onların bir çoxu qırğına məruz qalıb,

atəşə tutulub, meyitləri belə təhqir edilib. İşğalı dövründə Laçın rayonu yüzlərlə şəhid verib, onlarla dinc insan Laçında girov götürülüb.

Rayondan köçkün düşən Azərbaycan əhalisi özü ilə heç nə götürə bilməyib, sakinlərin bütün əmlakı Ermənistan ordusu tərəfindən qarət olunub. Bu gün baş verənlər həm də Azərbaycan və Ermənistan arasındakı fərqi anlamaq üçün növbəti əyani nümunədir.

Laçın rayonu respublikanın cənub-qərbində, Qarabağ silsiləsində yerləşir. Rayonun relyefi dağlar və dağlıq yaylalardan ibarətdir. Ən hündür nöqtəsi Qızılboğaz dağıdır (3594 m). Bitki örtüyü kolluq və seyrək meşəli çəmənliklərdən, enliyarpaqlı dağ meşələrindən (palıd, vələs, fıstıq və s.), subalp və alp çəmənliklərindən ibarətdir.

Ərazisinin çox hissəsində qışı quraq keçən mülayim-isti, soyuq iqlim tipi, Qarabağ yaylasında isə dağ-tundra iqlimi üstünlük təşkil edir.

İllik yağıntının miqdarı 600-900 mm-dir. Rayon ərazisindən Həkəri çayı və onun qolları keçir.

Rayonun meşə fondu işğal dövründə əhəmiyyətli hissəsi Ermənistan tərəfindən məhv edilib. Laçında 10 ədəd Şərq çinarı növünə məxsus qədim ağaclar təbiət abidələri kimi qeydə alınıb. Bunlardan 8 ədədi rayonun Malxələf kəndindədir, ən yaşlı ağacın diametri 210 sm, hündürlüyü 26 metr, yaşı isə 400 il təşkil edib. Rayon ərazisində ümumi sahəsi 1092 ha olan üçüncü dövrün relikt növlərinə aid "Ardıc meşəsi" dövlət təbiət abidələri kimi xüsusi qiymətli meşə sahələrinin siyahısına daxil edilib. Burdakı ağacların yaşı 100-150 ilə çatır.

Rayon ərazisində 2 xüsusi mühafizə olunan təbiət ərazisi - Qaragöl Dövlət Təbiət Qoruğu və Laçın Dövlət Təbiət Yasaqlığı yerləşir.

Qaragöl Dövlət Təbiət Qoruğu Laçın rayonu ilə Gorus rayonu sərhədində dəniz səviyyəsindən 2658 m hündürlükdə, Həkəri çayının sağ qolu olan Ağoğlan çayının mənbəyinə yaxın 240 hektar ərazidə yaradılıb. Gölün dərinliyi 5-6 metr olmaqla vulkanik mənşəlidir. Qaragölün əsas biokütləsində "Gammarus lacustris" şirinsu xərçəngi mühüm yer tutmaqla qiymətli balıq növü olan Qızılxallı balıq (forel) üçün yem bazası hesab olunub. Gölün müasir vəziyyəti heç də qənaətbəxş deyil, aerokosmik şəkillərdən gölün tamamilə quruduğu müşahidə edilib. Ətraf çəmənliklər sistemsiz olaraq intensiv otarılmaqla bitki örtüyü korlanıb.

Laçın Dövlət Təbiət Yasaqlığı: 1961-ci ilin noyabr ayında Laçın rayonu ərazisində 20 000 hektar ərazidə yaradılıb. Bitki örtüyünə görə yasaqlığın ərazisi iberiya palıdlarından ibarət olan orta dağ-meşə (1000-1700 m), Şərq palıdından ibarət olan yuxarı dağ meşə (1700-2200 m), sulbalp (2200-2500 m) və alp (2500-2800 m) çəmənlikləri qurşaqlıqlarına ayrılır. Sahəsinin 7 369 ha və ya 34,5%-i meşə sahəsi, 1 448 və ya 6,8%-i alp çəmənliyi, 7 400 ha və ya 34,8%-i subalp çəmənliyi, 4 257 ha və ya 20% otlaqlar, 862 və ya 4% qayalar və uçqunlar, 34 ha xüsusi təyinatlı torpaqlardır. Burada Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilən heyvan növlərindən dağ keçisi (Bezoar keçisi), Avropa cüyürü, Nəcib maral, Xəzər uları, Ütəlgi qızılquş, Adi qızılquş, Qonur ayı, Ağbaş kərkəs məskunlaşıb. Meşələri əsasən vələs, cökə, ağcaqayın və s. qarışıq tip meşələrdir. Yasaqlığın ərazisindəki Hacısamlı meşəsində dünyada qiymətli sayılan Qırmızı palıdın (Qızıl palıd) təbii arealı mövcud olub. Bu ağac Azərbaycan Respublikasında ancaq həmin yasaqlıqda yayılıb.

Həkəriçay Laçın, Qubadlı və Zəngilan rayonlarının ərazisindən axaraq Araz çayına tökülür. Kiçik Qafqazın Azərbaycan daxilində Tərtərçaydan sonra (Bazarçayla birlikdə) ikinci ən böyük çayı olub, qar, yağış və yeraltı sulardan qidalanır. Çayın sutoplayıcı sahəsi 1180 km2, uzunluğu 113 km, çoxillik orta su sərfi 10,8 m3/san, illik axımın həcmi 341 mln.m3-dir.

Ağsuçay Laçın rayonu ərazisinə daxil olur və Həkəriçayına tökülür.

Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik 7 relikt göldən Laçın rayonu ərazisində yerləşən Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl böyük antropogen təsirə məruz qalıb.

Laçın rayonu zəngin faydalı qazıntılarla, o cümlədən (3 filiz, 37 qeyri-filiz və inşaat mater alları yataqları) civə, vermikulit, əlvan və üzlük daşları, sement xammalı və tikinti daşı yataqları ilə zəngindir. Burada sənaye əhəmiyyətli Gilgəzçay, Sarıbulaq, Narzanlı civə, Ahnəzər əlvan daşı, Qarabəyli, Dəlikdaş, Çorman və Narzanlı kimi vermikulit yataqları daha böyük ehtiyatlara malikdir.

Laçın rayonunda 73 tarix-mədəniyyət abidəsi dövlət qeydiyyatına alınıb. Onlardan 3-ü ölkə əhəmiyyətli memarlıq, 8-i ölkə əhəmiyyətli arxeoloji, 47-si yerli əhəmiyyətli memarlıq, 3-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə abidəsi, 3-ü yerli əhəmiyyətli arxeoloji, 9-u dekorativ-tətbiqi sənət nümunələri (xalq daş heykəltəraşlıq) abidələridir.

Rayon ərazisində yerləşən Ağoğlan məbədi, Məlikəjdər türbəsi, Sarı Aşığın xatirə muzeyi, Həmzə Soltan sarayı və Dəmirovlu Pir məbədi Azərbaycan Respublikası ərazisində mövcud olan daşınmaz tarix-mədəniyyət abidələri içərisində xüsusi önəmə malikdir

Laçın rayonunun Cicimli kəndi yaxınlığında geniş məzarlıq içərisində iki türbə yanaşı ucalır. Onlardan tarixən qədim olan, pir kimi ziyarət edilən, yerli əhalinin Məlik Əjdər türbəsi kimi tanıdığı türbədir. Alimlər abidəni XIII-XIV əsrə aid edirlər. Türbənin üzərində verilən naxışlar və işlənmiş heyvan obrazlarının Xaçındərbətli kəndində olan türbənin naxışları ilə oxşarlığı da belə nəticəyə gəlməyə imkan verir.

V-VI əsrlərə aid olan Alban dövrünə aid Ağoğlan monastrı Laçın rayonunun Kosalar kəndi ərazisində yerləşir. İşğal dövründə Ermənistan Ağoğlan monastırının memarlıq quruluşunda və interyerində dəyişikliklər edib, divar yazılarını korlamış, abidənin divarları üzərində olan bir neçə daş yazıları, eləcə də xeyli sayda alban dövrünə məxsus bir çox ornament və simvolları tamamilə silib, onlardan bir çoxunun formalarını dəyişdirərək tanınmaz hala salıb.

XVII əsrdə yaşamış bayatı ustadı Sarı Aşığın xatirə muzeyi 1989-cu ildə rayonun Güləbird

kəndində istifadəyə verilib. Ermənistan silahlı qüvvələri tərəfindən Laçın rayonunun işğal edilməsi nəticəsində muzeyin binası və 200-ə yaxın eksponatı məhv edilmiş və talan edilib.

Arxeoloqlar 1927-ci ildə Sarı Aşığın məzarının yerləşdiyi Güləbird qəbiristanlığında və türbədə araşdırmalar aparmış, belə qənaətə gəlmişlər ki, türbə XVII əsrə aiddir.

Xalq arasında böyük şöhrəti olmuş Sarı Aşığın xatirə kompleksi də erməni vandalizminin qurbanları sırasındadır. Abidə tamamilə yerlə yeksan edilmişdir. Qeyd etmək lazımdır ki, Sarı Aşığın sevgilisi, həyatdan nakam köçmüş Yaxşının məzarıda Güləbird kəndində Həkəri çayının sağ sahilində idi və onun məzarıda dağıdılmışdır.

Həmzə Soltan sarayı Laçın rayonunun Hüsülü kəndində yerləşir. XVIII əsrdə tikilməsi ehtimal edilən sarayın tikintisində şərq memarlıq ənənələrindən geniş istifadə edilib. Saray əvvəl böyük bir kompleks təşkil etsə də, dövrümüzə ondan yalnız bir saray binası qalıb. Rayonun işğalından sonra memarlıq abidəsi olan Həmzə Soltan sarayı Ermənistan tərəfindən otel kimi istifadə edilib və içərisində böyük dəyişikliklər aparılıb.

Dəmirovlu Pir məbədi yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına alınıb.

Bu tikili "Alban ölkəsinin tarixi" adlı əsərin müəllifi, mənşəcə Qafqaz albanlarından olan Alban tarixçisi, Moisey Kalankatlının əsərində adı qeyd edilən Varazqun məbədidir. Qeyri-adi

memarlıq quruluşuna malik olan abidə bir çox özəlliklərini itirərək günümüzə qədər öz görkəminin əsas hissəsini saxlamışdır. Tikili Bozlu kəndinin (Laçın rayonu) ərazisində, lakin hava yolu ilə daha çox Quşçu kəndinin yaxınlığında, Həkəri çayının sağ qolu olan Ağoğlan çayının sol sahilində, sahildən 2 kilometr aralıda Varazqun adlanan sahədə qərar tutmuşdur. Qəzalı bir vəziyyətdə, II–V əsrlərə aid olan tarixi abidə – Varazqun məbədi günbəzli, ikiapsidalı planda olduqca diqqətəlayiq və dövrünə uyğun möhtəşəm bir şəkildə inşa edilmişdir. Məbədin ətrafında Varazxan adlanan kəndin xarabalıqları qalmaqdadır. Bu yaşayış məntəqəsi 1904-cü ildə Qafqazın 5 verstlik xəritəsində Varazqun kimi qeyd edilmişdir. Ehtimal ki, məbədin ilk adı da elə Varazxan və ya Varazqun olmuşdur. Yerli əhali, yəni azərbaycanlılar tərəfindən məbədin adının və yaşayış məntəqəsinin türkləşdirildiyini iddia edən ermənilər bu qədim alban məbədini Varazqom adlandırırlar.

Şəlvə sövməsi Laçın rayonunun Şəlvə kəndində XV əsrə aid edilən sövmə tipli alban məbədləri sırasına daxildir. Sövmə binası yerli bazalt daşlardan və əhəng-gəc qatışığından inşa edilib

- Güləbird kəndi ərazisində XV əsrə aid Qız qəbri abidəsi, dəmir dövrünə aid Kurqan, Qız qəbri (kurqan), orta əsrə aid Qədim qəbiristanlıq, Bayatı ustadı Sarı Aşığın qəbri.
- Cicimli kəndi ərazisində XVI əsrə aid Məlik Əjdər türbəsi, XVI-XVII əsrlərə aid türbə, orta əsrlərə aid Çoban daşı və qədim qəbiristanlıq.
- Malxələf kəndi ərazisində XVII əsrə aid Xəlifə türbəsi, qədim qəbiristanlıq. Sınıq körpü.
- Aşağı Fərəcan kəndi ərazisində X əsrə aid məbəd, Fərəcan Güləbird yolunda körpü, qədim qəbiristanlıq.
- Sus kəndi ərazisində XVII əsrə aid bulaq.
- Seyidlər kəndi ərazisində XVII əsrə aid bulaq, qədim qəbiristanlıq, Pircançay üzərində qədim körpü.
- Pircahan kəndi ərazisində XVII əsrə aid bulaq, XI əsrə aid Qovur qalası.
- Korcabulaq kəndi ərazisində məbəd.
- Ziyrik kəndi ərazisində dəmir dövrünə aid Rizvan meşəsində kurqan.
- Ərikli kəndi ərazisində XVI əsrə aid Qaraşaqqal türbəsi, araxışda türbə və qədim qəbiristanlıq.
- Piçənis kəndi ərazisində məbəd.
- Şəlvə kəndi ərazisində məbəd.
- Qorçu kəndi ərazisində məbəd.
- Laçın şəhərində (1941-1945-ci illər) Böyük Vətən müharibəsində həlak olanların xatirə kompleksi
- Abdallar (Bəylik) kənd ərazisində: Həkəri çayı üzərində körpü XVIII əsr, daş qutu-dəmir dövrü, qəbiristanlıq.
- Zabux kəndi ərazisində: Sümüklü qəbiristanlığı, XVI əsrə aid Xallanlı qəbiristanlığı.
- Malıbəy kəndi ərazisində: qədim qəbiristanlıq.
- Ağoğlan kəndi ərazisində IX əsrə aid Ağoğlan qəsri, qədim qəbiristanlıq.
- Sultanlar (Hüsülü) kəndi ərazisində: 1761-ci ilə aid Soltan Əhməd sarayı, XIV əsrə aid qədim qəbiristanlıq.
- Zeyvə kəndi ərazisində Soltanbaba türbəsi, Şeyx Əhməd türbəsi, Türbə, qədim qəbiristanlıq.
- Qarıqışlaq kəndi ərazisində XI əsrə aid məscid, Dəmirovlu Pir-Məbəd.
- Sadınlar kəndinin mərkəzində XVII əsrə aid məbəd.

- Hacılar kəndi ərazisində: qədim qəbiristanlıq, bulaq (abidə).
- Vağazin kəndi ərazisində məbəd.
- Quşçu kəndi ərazisində XV əsrə aid Uşaq qalası, böyük Bulaq, Korca bulaq, Sadınlar qalacığı.
- Mirik kəndi ərazisində XV əsrə aid qala, məbəd.
- Bozlu kəndi ərazisində qəbiristanlıq, Xaçın yalı ərazisində XV əsrə aid Xaçın daşı.
- Əhmədli kəndi ərazisində XVII əsrə aid məbəd "Vəng" qəbiristanlığı.
- Minkənd kəndi ərazisində XV əsrə aid Minkənd çayı üzərində ikitağlı, Abaxeyir ərazisində bir tağlı körpü. Məbəd və digər tarixi-dini abidələri misal göstərmək olar.

Yüksək bədii və tarixi səciyyə daşıyan eksponatlarla zəngin olan Laçın Tarix-Diyarşünaslıq Muzeyi 1979-cu ildə fəaliyyətə başlayıb. Muzeyin ümumi sahəsi 1200 m2-dir.

Muzeyin fondu 10 mindən çox eksponat təşkil edib. Muzeyin həyətində açıq səma altında ekspozisiya da fəaliyyət göstərib, burada müxtəlif əsrlərdə hazırlanmış qədim tarixə malik bədii daş nümunələri, at və qoç fiqurları, süjetli oymalar, kənd təsərrüfatı alətləri və bir çox məişət əşyaları nümayiş etdirilib.

1992-ci ildə Laçın şəhərinin işğal edilməsi nəticəsində muzey binası tamamilə dağıdılıb, eksponatları məhv və talan edilib.

Laçın Dövlət Rəsm Qalereyası da talan edilib, qalereyada saxlanılan 60-dan çox rəsm əsəri erməni vandalizminə məruz qalıb.

Laçında bir sıra uşaq musiqi məktəbləri də fəaliyyət göstərib. Laçın şəhər Əli Quliyev adına 1 nömrəli Uşaq Musiqi Məktəbi 1966-cı ildə yaradılıb. Bu təhsil ocağı 1992-1995-ci illərdə Bakı şəhəri, Nərimanov rayonu, İnşaatçılar Mədəniyyət Sarayında, 1995-2008-ci illərdə Bakı şəhəri, Nərimanov rayonu, Səttərxan adına Mədəniyyət Evində fəaliyyət göstərib. 2008-ci ildən bu günədək məktəb Bakı şəhəri, Nizami rayonu ərazisində fəaliyyətini davam etdirir. Laçın rayon Şəlvə kənd Uşaq Musiqi Məktəbi 1985-ci ildə yaradılıb. Hazırda fəaliyyətini Sumqayıt şəhəri Sarı Qaya qəsəbəsində davam etdirir. Laçın rayon Şamkənd kənd Uşaq Musiqi Məktəbi 1988-ci ildə yaradılıb. Məktəb yaranandan 1992-ci ilədək Laçın rayon Şamkənd kəndində, 1992-ci ildən 2004-ci ilədək Şəki rayonu Çələbixan kəndində fəaliyyət göstərib. 2004-ci Ağcabədi rayonu Taxtakörpü qəsəbəsindəki 552 saylı yaşayış məhəlləsində fəaliyyətini davam etdirir. Laçın rayon Ərdəşəvi kənd Uşaq Musiqi Məktəbi 1989-cu ildə yaradılıb. Rayonun işğalından sonra məktəb fəaliyyətini Abşeron rayon Pirəkəşkül qəsəbəsində Uşaq bağçasının binasında davam etdirir.

Laçın rayon Mədəniyyət evi 1930-cu ildən fəaliyyət göstərir. Mədəniyyət evi rayonun işğalından əvvəl Laçın şəhərinin mərkəzində xüsusi dövlət sifarişi əsasında inşa edilmiş, ən müasir texniki qurğularla, səhnə avadanlıqları ilə və keyfiyyətli inventarlarla təchiz edilmişdir. Mədəniyyət evi sahəsi 3700 m2 olan mədəniyyət sarayında fəaliyyət göstərirdi.

1982-ciildən Mədəniyyət Nazirliyinin- əmri əsasında Laçın rayonunun Mədəniyyət Evinin nəzdində "Xalq Teatrı" yaranmışdır. "Xalq Teatrı" hazırda kiçik səhnə əsərlərini tamaşaya qoymaqla rayon sakinlərinə xidmət göstərir. Laçın rayonunun işğalı nəticəsində rayon Mədəniyyət Evinin bütün əmlakı işğal zonasında qalmışdır.

Laçın rayon Mədəniyyət evi Ağcabədi rayonu Taxta-Körpü qəsəbəsində 250 nəfərlik tamaşaçı yeri olan yeni inşa edilmiş binada yerləşir. 2015-ci il Laçın rayon Mədəniyyət evi Laçın Rayon Mədəniyyət Mərkəzi adı ilə fəaliyyət göstərir.

**Nəticə:** Nəticə olaraq qeyd etmək lazımdır ki, Hən Qafqaz Albaniyası xristianlığına aid olan tarixi-dini abidələrimizin həmdə islam mədəniyyəti ənənələrini özündə təcəssüm etdirən müqəddəs abidələrimizin bir daha ətraflı öyrənilməsinə ehtiyac olmaqla yanaşı , onların tarixi görkəmini saxlamaq şərti ilə bərpa olunması zəruriliyi vardır. Beləliklə həmin müqəddəs abidələrin gələcək nəsillərə çatdırılmasına nail olmaq mümkündür. O cümlədən Laçın rayonu ərazisində tədqiqata cəlb olunması zəruri olan digər tarixi abidələrimizində öyrənilməsinə ehtiyac duyulur.

Biz post müharibə dövründə Laçın rayonu ərazisində yerləşən tarixi-dini abidələrimizin geniş tədqiqata cəlb olunmasına əminik və bu istiqamətdə artıq işlərə başlanmışdır.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Azərbaycan Arxeologiyası. 6 cilddə. III, IV, V, VI cildlər.
2. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007.
3. Z. Bünyadov. Azərbaycan tarixi. Bakı, 1995.
4. N. Məmmədov. İşğal altındakı tarixi abidələrimiz. Bakı, 2015.
5. N. Məmmədov. Güllələnən abidələr. Bakı, 2009.
6. Xalq qəzetinin materialları.
7. "Virtual Qarabağ" İnformasiya-kommunikasiya texnologiyaları mərkəzi.

## "COĞRAFİYA" BÖLMƏSİ

# İQLİM DƏYİŞİKLİYİ VƏ ONUN LANDŞAFTA TƏSİRİ

***Tələbə: Şıxalıyeva Ləman Seymur qızı (TCM1901B),***
***Elmi rəhbər: k.t.ü.f.d.dost.v.i.e. Cəfərov Fazil Tatarxan oğlu***

XXI əsr doğurdan da bəşəriyyəti həyəcanlandıran anomal, qarşısı alınmaz, neqativ təbii hadisələri ilə təəccübləndirir. İqlim dəyişmələri ilə mübarizə aparma yollarından danışsaq bəlkə də ən səmərəli yollarından biri alternativ və bərpa olunan enerji növlərinin inkişafıdır. Alternativ enerji növlərinin inkişafı ilə iqlim dəyişiklikləri arasındakı əlaqəni görmək üçün enerji daşıyıcılarının inkişafına nəzər salmaq gərək. Əslində, bəşəriyyət ta qədimdən indi alternativ adlanan enerji növlərindən yararlanıbdır. Günəş, su, külək və bio enerjisi artıq qədim sivilizasiyalar dövründə istifadə edilirdi.

Dünyanı narahat edən qlobal problemlərdən biri də İqlim dəyişmələridir. İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Qeyri-sabit hava şəraiti tək Azərbaycanda deyil dünyanın bir sıra ölkələrində hiss olunmaqda və problemlər yaratmaqdadır. Bu problemlərə diqqətin artması özünü bir sıra beynəlxalq tədbirlərin, o cümlədən elmi və praktiki konfransların keçirilməsində göstərir. İqlim Dəyişmələri üzrə Hökümətlərarası Ekspertlər qrupunun son qiymətləndirmə hesabatına görə son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. Temperaturun artması isə əsasən antropogen amillərlə bağlıdır. Antropogen amillərin əsasını istilik effekti yaradan qazlar: karbon, metan, azot oksidi, azot 1 oksid və xlor-fülor birləşmələr təşkil edir. Son 100 illik kosmik müşahidələr göstərir ki, tufanların, çovğunların həm intensivliyi, həm də tezliyi artıb. İsti küləklər, qasırğalar, yağıntılar güclənib. Eyni zamanda, sel, daşqın hadisələrinin də sayı artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq qızma 2000 metr dərinliyə qədər çatır. Bu da isti axınların daha da qızmasına səbəb olur. Yəni bütün bu təbii fəlakətlərin artımında əsas amil iqlim dəyişmələridir. Azərbaycan da qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmamışdır. Son 100 ildə Azərbaycan ərazisində orta illik temperaturlar 0,4-1,30C-yə qədər artmışdır. Temperatur artımı regionlardan asılı olaraq qeyri-bərabər paylanır. Son 10 illiklərdə Azərbaycan ərazisində kiçik dağ çaylarında sel və daşqınların sayı və gücü artmışdır.

Son proqnozlara əsasən XXI əsrin əvvəllərində okean suyunun səviyyəsi 0,5-1 m, sonunda isə 2 m qalxmaqla qurunun bir hissəsini su altında qalması ilə nəticələnə bilər. Qlobal istiləşmə planetin biomüxtəlifliyi üçün ciddi təhlükə hesab edilir. Dünya alimləri iqlim dəyişkənliyinin doğurduğu fəsadların qarşısını almaq üçün yollar axtarırlar. Burada əsas məqsəd iqlim dəyişikliklərinin ətraf mühitə vurduğu zərəri və antropogen təsiri minimuma endirməkdir. Qlobal iqlimin qorunması istiqamətində dünya miqyasında bir sıra məsələlər həyata keçirilir. 1992-ci ildə BMT-nin İqlim Dəyişilmələri üzrə Çərçivə Konvensiyası qəbul olunub ki, burada da məqsəd iqlim dəyişmələrinin müəyyən çərçivəyə salınmasını nəzərdə tutur. Qlobal istiləşmə və istilik efekti XX əsrdə texniki tərəqqinin atmosferdə yaratdığı ən faciəli, dəhşətli hadisə kimi dəyərləndirməlidir.
Su və külək dəyirmanları, heyvan təzəyindən məişətdə istifadə edilmə, günəş şüaları hesabına suyun qızdırılması – bunların hamısı belə nümunələrdəndir. Bu günə olan məlumata əsasən artıq

194 ölkə və bir regional təşkilat BMT-nin iqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etmişdir. Konvensiyanın tələblərinə əsasən hər bir ölkə atmosferə tullanan istilikxana qazlarının miqdarı, iqlim dəyişmələrinin təsiri və onun nəticəsində baş vermiş dəyişikliklər, iqlim dəyişmələri ilə mübarizə üzrə görülmüş işlər barədə mütəmadi olaraq Konvensiyanın Katibliyinə hesabatlar təqdim edir.

**Nəticə:** İqlim dəyişikliyinin konkret nəticələrinin təkzibedilməz sübutları ehtiva olunur. Daha çox təbiətin ekosistemləri zərər çəkəcək, lakin iqlimin dəyişməsinin insanlara da təsiri olacaq. Atmosfer temperaturunun artması insanların səhhətinə təhlükə yaradır. Ən əsas problemlərdən biri ərzaq təhlükəsizliyi ola bilər. Həmçinin iqlim dəyişikliyi səbəbindən məcburi miqrasiya ilə bağlı və həm miqrasiya, həm də su və ərzaq resurslarının bölünməsində dəyişiklik nəticəsində dövlətlər arasında mümkün münaqişələr təhlükəsini qeyd edirlər. İqlim dəyişikliyindən əsasən yoxsul ölkələr zərər çəkəcək, lakin daşqınlar və quraqlıq riskinin artması səbəbindən inkişaf etmiş ölkələr də zərərdən qaçınmaycaqlar.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan Respublikasının İqlim dəyişmələri üzrə I Milli Məlumat, Bakı, 2000.
2. Azərbaycan Respublikasının İqlim dəyişmələri üzrə II Milli Məlumat,
3. Azərbaycan Respublikasının İqlim dəyişmələri üzrə III Milli Məlumat, Bakı, 2010.
4. İqlim dəyişmələri və ekoloji stabillik, "Avrasiya Press" Bakı, 2011.
5. Cənubi Qafqaz regionu üçün Regional İqlim Dəyişikliklərinin Təsirlərinin öyrənilməsi. UNDP, 2011.
6. Qeyri Hökümət Təşkilatlarının iqlim dəyişikliklərinin təsiri ilə bağlı birgə fəaliyyətə qərar verdilər, http: //www. Qht xeber.
7. E. Abbasov. Qlobal istiləşmə ekoloji tarazlığı pozur. 2014, Xalq qəzeti.
8. N.H. Paşa, İ.H. Qasımov, XXI əsrin ən böyük təhlükəsi – Qlobal İstiləşmə və Azərbaycan. Bakı, 2012.


## AZƏRBAYCAN RESPUBLİKASININ GEOLOJİ QURULUŞU VƏ FAYDALI QAZINTILARI


***Tələbə: Əliyeva Əzizə Niyaməddin qızı (TCM2001B),***
***Elmi rəhbər: m. Sadıqov Əli Bəhrəm oğlu,***


Böyük və Kiçik Qafqaz dağ sistemlərinin şərq hissəsini əhatə edən Azərbaycan Respublikasının ərazisi mürəkkəb geoloji quruluşa malikdir. Qeyd olunmalıdır ki, ümumən keçən əsrin 20-ci illərinə qədər Azərbaycan ərazisi geoloji cəhətdən çox zəif öyrənilmişdir. Böyük Qafqaz meqaantiklinoriumunun Azərbaycan daxilində yerləşən cənub-şərq hissəsi kəskin assimetrik tektonik quruluşa malikdir. Meqaantiklinoriumun cənub qanadı çox sıxılmış və cənuba aşırılmışdır. Simmetrik quruluşda olan şimal qanadda tektonik örtüklər inkişaf etmişdir. Bazardüzü, Tufan sahəsindəki struktur zonalar qərbə tərəf morfostrukturun cənub yamacına meyl edərək, dağətəyi zonanı əmələ gətirir və Qanıx-Əyriçay vadisinin Dördüncü dövr çöküntüləri altına keçir. Böyük Qafqazı cənubda Qanıx-Əyriçay ekogeokimyəvi landşaft rayonu Qanıx-Əyriçay əyilməsindən

ayıran tektonik qırılma müəyyən struktur boyu uzanır. Samur dərinlik qırılmasından cənub-şərqə meqaantiklinorium gömülməyə başlayır. Böyük Qafqaz meqaantiklinoriumu tərkibinə bir sıra antiklinorium və sinklinoriumlar daxildir.

Azərbaycan Şərqi Avropa tavası ilə Afrika-Ərəbistan tavalarının toqquşduğu sərhəddə yerləşir. Ərazi tamamilə Alp-Himalay geosinklinalının tərkibinə daxildir. Tava toqquşması nəticəsində Mezozoy erasında K.Qafqaz, Naxçıvan və Talış dağlarında vulkanlar püskürmüşdür. Sönmüş vulkanlar Qarabağ vulkanik yaylasında daha geniş yayılıb. Böyük Işıqlı, Qızılboğaz və Gəlinqaya bu yaylanın ən iri sönmüş vulkanlarıdır. Kaynazoyda B.Qafqaz güclü tektonik qalxmaya məruz qalmış, Kür-Araz ovalığı isə çökmüşdür. Azərbaycanda ən qədim süxurlar Kembriyə qədərki, yəni Palezoy yaşlı olub, Naxçıvanda-Dərələyəz silsiləsində və Sədərək qalxmasında, Tovuz rayonunda Zəyəmçay (Əsrikçay) hövzəsində üzə çıxıb. Onların yaşı 400-450 milyon ildir.B. və K.Qafqaz dağlarında Mezozoy erasının gilli şistləri, vulkanik süxurları, əhəng və qum daşları 130-250 mln. İl yaşındadır. Ən cavan süxurlar Kür-Araz, Samur-Dəvəçi, Lənkəran ovalıqlarında




IV dövrə aid olub, qalınlığı 10 km-dir. Xəzərin sahilindəki qum tirələri və balıqqulaqları ən cavan süxurlardır.Ümumiyyətlə Azərbaycan ərazisi gənc olduğundan Kaynazoy yaslı süxurlar daha geniş yayılıb.IV dövr vulkan püskürməsindən əmələ gəlmiş vulkan külləri və lavaları Qarabağ vulkanik yaylasında geniş yayılıb. Lava soyuyaraq çınqıla çevrilib. Məsələn: Ayıçınqılı, Pəriçınqılı, Qırmızıdağ və s. Azərbaycanın ən iri sönmüş vulkanları Böyük Işıqlı və Qızılboğaz Qarabağ vulkanik yaylasındadır.Geoloji quruluşun mürəkkəb olması, yəni ərazinin sıxılması nəticəsində Azərbaycanda 5 tektonik zona yaranıb.

1. Böyük Qafqaz qalxması. Bu zonaya B.Qafqazın Cənub yamacı, Abşeron-Qobustan daxildir.
2. Kiçik Qafqaz qalxması. Bura bütün K.Qafqaz (Naxçıvanın dağlıq hissəsi də) və Talış dağları aiddir.
3. Kür çökəkliyi. Bura Qanıx-Əyriçay, Acınohur-Ceyrançöl və Kür-Araz ovalığı aiddir.
4. Araz tektonik zonası. Bura Naxçıvanın Arazboyu maili düzənlikləri aiddir.
5. Ön Qafqaz çökəkliyi. Bura Qusar maili düzənliyi və Samur-Dəvəçi ovalığı aiddir.

Sudur zonası Samur antiklinoriumunun cənub-şərq sahəsində yerləşir. Qusar əyilməsinin Kaynozoy çöküntüləri ilə örtülmüş erkən geosinklinal tektonik mərtəbə kompleksi Sudur kəndindən şimal-

qərbdə kiçik sahədə görünür. Sudur zonası cənubda Şahdağ sinklinoriumuna sıxılmış və sinklinal strukturlar əmələ gətirmişdir. Şərqdə bu struktur zona Qazma-Qırız qırılması ilə kəsilir. Şərqdə bu zonanın davamında Təngi-Beşbarmaq antiklinoriumu uzanır.

Təngi-Beşbarmaq antiklinoriumu şimal-qərbdə Qaraçay dərəsindən cənub-şərqdə Xəzərin şelfinə qədər uzanır. O sıxılmış cüt antiklinal strukturdan və onların arasında yerləşən sinklinal zonadan ibarətdir. Antiklinorium zonasında yura çöküntüləri səthə çıxır, bəzi yerlərdə onun səthində Şahdağ karbonat fasiyasından ibarət tektonik örtük yerləşir (məsələn, Çıraqqala örtüyü). Antiklinorium şimaldan və cənubdan dərinlik qırılmaları ilə əhatə olunur. Onu təşkil edən strukturlar Siyəzən qırılması üzrə şimala aşmış və bəzi yerlərdə ensiz örtük yaratmışdır.

Tufan antiklinoriumu Qərbi Xəzər dərinlik qırılmasından şərqə gömülən antiklinorium, qərb istiqamətində çox genişlənir. Tufan antiklinoriumu əsas alt və orta yuranın təbəqəli şistlər qatından və qumdaşı laylarından ibarətdir. Bu çöküntülərin qalın qatı güclü qırışıq və dərinlik qırılmaları ilə kəsilmişdir (məsələn, Suayrıcı zona üzrə uzanan Baş Qafqaz qırılması). Tufan antiklinoriumu bir sıra aşağı dərəcəli antiklinorium və sinklinoriumlardan təşkil olunmuşdur – Quruş-Qonaqkənd antiklinoriumu, Xınalıq sinklinoriumu, Bazardüzü antiklinoriumu və s.

Vəndam antiklinoriumu Böyük Qafqaz qalxmasının Azərbaycan daxilində ən cənub strukturdur. Bu struktur Qanıx-Əyriçay sinklinoriumu ilə sərhəd boyu bayos çöküntülərinin səthə çıxması ilə müəyyən edilir. Bu çöküntülərin çıxışı alçaq tirələr və təpələr əmələ gətirir. Göyçayın dərəsindən şərqə bu antiklinorium xeyli qalxmış və dərinlik qırılmaları ilə əhatələnmiş struktur əmələ gətirir. Şərqdə Vəndam antiklinoriumunun şimal qanadında Lahıc sinklinoriumu yerləşir. Vəndam antiklinoriumunun quruluşunda bayosun vulkanogen süxurları, qismən valanjin, titon, bəzi yerlərdə (məsələn, Balakənçay hövzəsində) paleogen çöküntülərindən iştirak edir.

Şahdağ-Xızı sinklinoriumu şimalda Sudur zonası və Təngi-Beşbarmaq antiklinoriumu, cənubda Tufan antiklinoriumu ilə həmsərhəddir. Sinklinoriumun qərb hissəsi yura sisteminin karbonat qatları və şistlərindən əmələ gəlmişdir. Yura və təbaşir dövrlərinin qalın karbonat qatları əraziyə həm struktur, həm morfostruktur, həm də ümumi landşaft baxımdan xüsusi məzmun və görkəm verir.

Zaqatala-Qovdağ sinklinoriumu Baş Qafqaz qalxmasının bütün cənub yamacını əhatə edir. Zaqatala-Qovdağ sinklinoriumunun qərb hissəsinin quruluşunda təbaşir sisteminə aid, geniş şərq hissəsinin quruluşunda isə təbaşir və paleogen sistemlərinin çökmə süxur kompleksləri iştirak edir. Bu komplekslər gil, qumdaşı, əhəngdaşı, təbəqəli şist və flişəbənzər çöküntülərdən ibarətdir. Sinklinoriumun Girdımançaydan şərqdə yerləşən geniş şərq hissəsində şimaldan cənuba Dübrar-Yaşma sinklinoriumu, Aladaş-Yunusdağ antiklinoriumu bir-birini əvəz edir.

Şamaxı-Qobustan sinklinoriumu Böyük Qafqaz meqaantiklinoriumunun cənub-şərq batımı sahəsinin ən böyük struktur elementlərindəndir. Şamaxı-Qobustan sinklinoriumu cənub-şərq istiqamətdə genişlənir və onu təşkil edən çöküntü kompleksinin yaşı və tərkibi dəyişir. Sinklinoriumun qərb hissəsində təbaşir, paleogen, neogen, şərq hissəsində isə neogenin qalın çökmə süxur kompleksləri (gillər, qumdaşları, əhəngdaşı) geniş yayılmışdır. Bu sinklinoriumun mühüm tektonik əlamətlərindən biri palçıq vulkanlarının geniş yayılmasıdır.

Böyük və Kiçik Qafqaz dağ sistemlərinin şərq hissəsini əhatə edən Azərbaycan Respublikasının ərazisi mürəkkəb geoloji quruluşa malik olması, faydalı qazıntıların müxtəlifliyi və rəngarəngliyi ilə fərqlənir. Böyük Qafqaz təbii vilayəti bir sıra faydalı qazıntı növləri ilə zəngindir.

Azərbaycan çox qədim dövrlərdən neft diyarı kimi tanınmışdır. Belə ki, tarixi məlumatlara görə hələ bizim eramızdan əvvəl VII–VI əsrlərdə Abşeron yarımadasında neft çıxarılmışdır.

Azərbaycanın neft və təbii qaz ehtiyatı əsasən Abşeron yarımadasında və Xəzər dənizinin Azərbaycan şelf zonasında cəmlənib. Bundan başqa, cənubi-şərqi Qobustanda, Siyəzən və Şabran rayonlarında neft yataqları müəyyən edilmişdir. Abşeron yarımadasında məşhur Balaxanı-Sabuncu-Ramana, Qaraçuxur, Qala, Buzovna, Binəqədi, Bibiheybət, Qaradağ, Puta, Körgöz, Pirallahı adası neft yataqlarında hasilat aparılır. Son illərdə Xəzərdə bir sıra böyük neft və qaz ehtiyatına malik olan yataqlar aşkar edilmişdir. Bunlardan Azəri-Çıraq-Günəşli və Şahdəniz yataqları ən perspektivli yataqlardır. Böyük Qafqaz təbii-coğrafi rayonunda neft və qaz ehtiyatları əsasən Pliosen dövrünün məhsuldar qat adlanan neftli-qazlı laydəstlərində toplanmışdır. Məşhur qat çöküntülərinin qalınlığı Abşeron yarımadasında, cənub-şərqi Qobustanda, Xəzər akvatoriyasında 1000–2000 m-lə 3000–3500 m arasındadır. Məhsuldar qat çöküntülərinin tərkibində bir sıra yüksək kollektor qabiliyyətli qalın qum, qumdaşı layları vardır. Antiklinal qırışıqlarda neftli-qazlı kollektorlar bəzi mədənlərdə 3000–4000 m-dən dərində yerləşir. Siyəzən mədənlərində neft Maykop çöküntülərindən çıxarılır.
Azərbaycanda quruda təbii qaz cənubi-şərqi Qobustanda çıxarılır. Bu qiymətli xammalın ən böyük yatağı da burada yerləşir. Bundan əlavə, neft yataqlarının istismarı zamanı neftlə bərabər çıxan qazdan da istifadə edilir.

Neft yataqları ilə bağlı yaranmış faydalı qazıntı növlərindən biri də təbii bitumlardır. Bitum yataqları Abşeron yarımadasında Balaxanı, Binəqədi kəndləri ətrafındadır. Bunlardan Balaxanı yatağı daha böyük olmaqla, onillər ərzində istismar edilir.
Enerji daşıyıcılardan Böyük Qafqaz dağlarının cənub yamacında İsmayıllı rayonu, şimal-şərq yamacında isə Quba rayonu ərazisində yanar şist yataqları aşkar edilmişdir.

Azərbaycan Respublikasındakı yanar faydalı qazıntılar neft, qaz, şist, torf və s-dir. Bunlardan neft və qaz sənaye əhəmiyyətlidir. Neft həm qurudakı yataqlardan, həm də Xəzər dənizi yataqlarından çıxarılır. Azərbaycan Respublikasının ərazisi (xüsusi ilə Abşeron yarımadası) dünyanın ən qədim neft çıxarılan rayonlarından biridir. Hələ e.ə. VII–VI əsrlərdə Abşeronda neft çıxarılmış və bir çox ölkələrə daşınmışdır. 1985-ci ilədək Azərbaycan Respublikasında təqribən 1,2mlrd. T. Neft (25%-i dəniz neft yataqlarından) hasil edilmişdir. Azərbaycan Respublikasının nefti yüksək keyfiyyətli, azkükürdlü və azparafinlidir. Sıxlığı böyük diapazonda (780–940kq/m$^3$) dəyişir. Naftalanda Maykop və Ağçaqıl çöküntülərindən özünün müalicə xüsusiyyyətlərinə görə dünyada yeganə olan neft də hasil edilir. Respublikada çıxarılan yanar qazlar karbohidrogen tərkiblidir. Onlar neftin tərkibində həll olmuş, sərbəst ("qaz örtüyü"), xalis qaz halında olur. Son 30–50 il ərzində çoxlu qaz-kondensant yatağı kəşf olunub, istifadəyə verilmişdir.
Azərbaycan Respublikasında hazırda 8 neftli-qazlı (Abşeron, Şamaxı-Qobustan, Aşağı Kür, Bakı arxipelaqı, Gəncə, Yevlax-Ağcabədi, Quba-Xəzəryanı, Kür-Qabırrı çaylararsı) və 2 perspektivli (Acınohur və Cəlilabad) rayon ayrılır. Abşeron, Şamaxı-Qobustan, Aşağı Kür, Bakı arxipelaqı rayonlarında əsas neftli-qazlı dəstə "məhsuldar" qatdır. Qum, qumdaşı və gil təbəqələrinin növbələşməsindən ibarət olan bu dəstənin qalınlığı 4000m-ə (bəzi yerlərdə daha artıq) çatır. Məhsuldar qatla əlaqədar olan yataqlar (Balaxanı-Sabunçu-Ramana, Suraxanı-Qaraçuxur-Zığ, Qala, Bibiheybət, Neft Daşları, Puta, 28 May, Lökbatan-Binəqədi, Səngəçal-dəniz-Duvannı-dəniz-Bulla, Bulla-dəniz və s.) çox horizontlu və antiklinal quruluşludur. Ən böyük neft-qaz-kondensant yataqları Abşeron, Bakı arxipelaqları və Aşağı Küryanı rayonlarındadır. İşlənən yataqlarda

məhsuldar qatdan başqa, əsas neftli-qazlı çöküntülər Maykop dəstəsi, Eosen şöbəsi və Üst Təbaşir çöküntüləridir. Quba Xəzəryanı rayonunda Siyəzən monoklinalı ilə əlaqədar olan yataqlarda Samrat mərtəbəsindən başlayaraq Üst Təbaşir çöküntülərinə qədər bütün çöküntü kompleksləri (Sarmat, Çokrak, Maykop dəstəsi, Eosen, Paleosen, Üst Təbaşir) neftli-qazlıdır. Kür-Qabırrı çaylararsı rayonunda da kəşf olunmuş yataqlarda neft-qaz Eosen yaşlı çöküntülərlə (Tərsdəllər yatağı) əlaqədardır. Respublika ərazisində Maykop-Abşeron yaşlı çöküntülərdə bir sıra yanar şist və liqnit-qonur kömür təzahürləri aşkar edilmişdir.

Dəmir filizləri bu gün də sənayenin, iqtisadi inkişafın əsas dayaqlarından biri sayılır. Hazırda Azərbaycanın ərazisində 3 dəmir filizi yatağının sənaye əhəmiyyətli ehtiyatları təsdiq edilməklə etibarlı mineral-xammal bazası yaradılmışdır. Onların hər üçü Daşkəsən filiz rayonunda yerləşməklə Daşkəsən, Cənubi Daşkəsən və Dəmir kobaltlı-maqnetit yataqları ilə təmsil olunurlar. Qeyd etmək lazımdır ki, Daşkəsən qrupu (Daşkəsən, Cənubi Daşkəsən, Dəmir) yataqları respublikanın mineral-xammal bazasında uzun illər ərzində özünəməxsus yer tutmuşlar. Bu yataqların bazasında son illərə qədər Azərbaycan Filizsaflaşdırma Kombinatı fəaliyyət göstərmiş və onun məhsulu (dəmir konsentratı) Gürcüstanın Rustavi metallurgiya kombinatının tələbatını tam ödəyirdi. Yaxın illərdə Daşkəsən filizsaflaşdırma kombinatının fəaliyyəti bərpa olunacağı təqdirdə 70–80 il müddətində etibarlı ehtiyatla təmin ediləcəkdir.

Azərbaycanın, eləcə də bütün Qafqaz regionunun ən böyük polimetal filiz yatağı Böyük Qafqaz silsiləsinin cənub yamacında, Balakən rayonu ərazisində 1958-ci ildə aşkar edilmiş Filizçay yatağıdır. Eyni adlı çayın hövzəsində ortadağlıq qurşaqda yerləşən bu yataq Tufan antiklinoriumunda orta yura şistləri, tufogen qumdaşı və argillit laylarında yerləşir. Filizçay yatağında 80-dən artıq mineral müəyyən edilmişdir. Onlara mis, qurğuşun, gümüş və kükürdlə yanaşı, qızıl, bismut, kobalt, kalium, selen və tellur kimi qiymətli komponentlər aiddir. Cənub yamacda bir sıra xüsusiyyətlərinə görə Filizçay polimetal yatağına yaxın Kasdağ və Jixix yataqları da aşkar edilmişdir. Balakən-Zaqatala filiz rayonu Filizçay, Kasdağ, Katex, Saqator, Karabçay kolçedan-polimetal yataqlarını birləşdirməklə, sənaye üçün perspektivli hesab oluna bilər. Mazımçay mis-kolçedan yatağının A-B-C qrupu üzrə ehtiyatı 350 min ton həcmində qiymətləndirilir. İlkin hesablamalara görə bu yataqlardan ildə 25,4 min ton mis, 32,6 min ton qurğuşun, 80 min ton sink, 1,05 ton qızıl, 85 ton gümüş hasil edilə bilər. Ehtiyatlar regionda dağ-mədən və metallurgiya kompleksini yaratmağa imkan verir.

Abşeron yarımadasının göllərində yay aylarında intensiv buxarlanma nəticəsində xörək duzu çökür. Lakin Abşeron göllərindən yığılan duzlar Azərbaycanın xörək duzuna olan ehtiyacının az bir hissəsini ödəyir.

Azərbaycan ərazisi davamlı və uzunmüddətli qızılçıxarma sənayesinin yaradılması üçün böyük perspektivliyə malikdir. Son onilliklər ərzində aşkar edilmiş çoxsaylı qızıl yataqları və təzahürləri (həm məxsusi qızıl, həm də digər metallarla kompleksdə) bunu təsdiq edir, zira onlar potensial filizli regionlarda proqnozlaşdırılan qızıl filizləşməsinin az bir hissəsini təşkil edir. Qızıl yataq və təzahürlərini iki qrupda birləşdirmək olar. Birinci qrupa dağ süxurlarında bilavasitə formalaşma yerində aşkar olunan köklü qızıl yataqları aid edilir. Ikinci qrup köklü qızıl yataqlarının aşınması, çöküntülərin onlardan müxtəlif məsafələrə daşınması nəticəsində əmələ gəlmiş səpinti qızıl yataqlarıdır. Səpinti qızıl yataqlarının işlənməsində əlavə texnoloji emal tələb olunmadığından iqtisadi cəhətdən çox əlverişlidir. 01.01.2006-cı il tarixinə Respublika faydalı qazıntı ehtiyatlarının

dövlət balansında kəşfiyyatı aparılmış və sənaye əhəmiyyətli ehtiyatları təsdiq edilmiş üç məxsusi qızıl yatağının (Qızılbulaq, Vejnəli və Zod (Söyüdlü) ehtiyatları, Filizçay, Katex və Kasdağ polimetal, Qaradağ mis-porfir yataqlarının filizlərində yanaşı komponent kimi hesablanmış və təsdiq olunmuş qızıl ehtiyatları qeydə alınmışdır. Bunlardan əlavə Qoşa, Ağyurd, Pyəzbaşı, Dağkəsəmən, Gədəbəy və Ağduzdağ yataqlarının C2 kateqoriyası ilə qiymətləndirilmiş ehtiyatları sahə balansında qeydə alınmışdır.

Respublikada qızılçıxarma sənayesinin yaradılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının bir sıra qızıl yataqlarının kəşfiyyatı və işlənməsi barədə" 1996-cı il 5 fevral tarixli sərəncamına uyğun olaraq 1997-ci il avqustun 20-də keçmiş "Azərqızıl" DŞ ilə ABŞ-ın "RV Investment Group Sevrvices LLS" arasında Gədəbəy, Qoşa, Ordubad qrupu (Piyəzbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Söyüdlü, Qızılbulaq və Vejnəli perspektivli qızıl yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanmış və 2005-ci ildən ermənilər tərəfindən işğal edilmiş ərazidə yerləşən Söyüdlü (Zod), Qızılbulaq və Vejnəli yataqları istisna olmaqla, digər yataqlarda əlavə öyrənilmə işlərinə başlanılmışdır və bu işlərin 2008-ci ildə başa çatdırılması nəzərdə tutulur.




Aparılan geoloji-kəşfiyyat işləri nəticəsində Respublikanın bir sıra bölgələrində müxtəlif növ qeyri-filiz faydalı-qazıntı və tikinti-inşaat materialları yataqları aşkar edilmişdir.

**Nəticə:** Azərbaycan mürəkkəb geoloji quruluşa malik olduğu üçün Respublikamız faydalı qazıntılarla zəngindir, Azərbaycanın iqtisadiyyatının əsasını faydalı qazıntılar təşkil edir. Lakin bildiyimiz kimi bu sərvətlər tükənən sərvətlərdir bunun üçün bunlardan planlı şəkildə düzgün istifadə etmək lazımdır . Səmərəli şəkildə istifadə bu sərvətlərlərin uzun illər tükənməməsinə kömək edər. Yerləşdiyimiz coğrafi qurşağ, iqlimimiz, təbii sərvətlərimiz, münbit torpaqlarımız ölkəmizin iqtisadiyyatına eləcə də xalqımızın yaşam fəaliyyətinə müsbət təsir edən amillərdir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan respublikasının coğrafiyası. III cild. Regional coğrafiya. Bakı, 2015.
2. B. Budaqov, Y. Qəribli "Azərbaycan Respublikasının fiziki coğrafiyası. 8-ci sinif üçün dərslik. Bakı, 2005.
3. B. Budaqov, Y. Qəribli, Ş. Hümbətova "Azərbaycan Respublikasının fiziki coğrafiyası " 8-ci sinif üçün dərslik. Bakı, 2011.

# AZƏRBAYCANIN İQTİSADİ RAYONLARI

***Tələbə: Quliyev Hüseyn Nadir oğlu (TCM2101B),***
***Elmi rəhbər: m. Sadıqov Əli Bəhrəm oğlu***

Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.
Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır.

Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Azərbaycan 14 iqtisadi-coğrafi rayona ayrılır. Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarpabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Developed by: Ədliyyə Nazirliyinin İnformasiya - kommunikasiya Texnologiyaları İdarəsi.
2. O. Eminov-Azərbaycanın iqtisadi rayonları.

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ EKOLOJİ VƏZİYYƏT

***Tələbə: İsgəndərli Emin Elsəvər oğlu (TCM1901B),***
***Elmi rəhbər: m. Mahmudova Səlminaz Cavanşir qızı***

Qlobal iqlim dəyişikliyi, torpaqların səhralaşması proseslərini və təmiz içməli su çatışmazlığını nəzərə alsaq, bu gün ekologiya bütün dünya ictimaiyyətini narahat edən əsas məsələlərdən biridir.

Bu məsələlər BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) sırasında öz əksini tapmışdır.

Ermənistanın təxminən 30 il davam etmiş və regionun ekoloji vəziyyətinə ciddi ziyan vurmuş işğalçılıq siyasəti nəticəsində, BMT-nin bu Məqsədlərinin 2030-cu ilədək qarşıya qoyduğu hədəflər Cənubi Qafqaz regionunda böyük sual altındadır.

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni fəaliyyət və təbii ehtiyatların istismarı iqtisadi kontekstlə yanaşı, həm də bir sıra ekoloji problemlərə gətirib çıxarmışdır.

Meşələrin qırılması və yandırılması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi, regionda yerin təkinin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulmuşdur. Bu regionda ətraf mühitin deqradasiyası o qədər maneəsiz şəkildə baş verirdi ki, hətta Ermənistanın özündəki ekoloji təşkilatları belə narahat edirdi.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyət" adlı hesabatında ayrıca bir fəsil İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni iqtisadi fəaliyyətin ekoloji nəticələrinə həsr olunmuşdur.

Beynəlxalq qurumların müxtəlif sənədlərində də işğalın ekologiyaya mənfi təsiri barədə qeyd edilmişdir. Məsələn, Asiya İnkişaf Bankının (AİB) Azərbaycan üzrə hesabatlarından birində qeyd edilir ki, təcavüzün nəticəsi həm də torpaq sahələrinin deqradasiyası olub.

"AzerCosmos" dövlət şirkətinin kosmosdan çəkdiyi və "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyət: peyklərdən əldə edilən sübut" adlı hesabata (2019) daxil edilmiş şəkillərdə regiona dəyən ekoloji zərər əyani şəkildə göstərilir. Burada aparılmış qeyri-qanuni iqtisadi fəaliyyətin miqyası bu işlərə böyük beynəlxalq investisiyaların qoyulduğunu sübut edir.

27 sentyabr - 10 noyabr 2020-ci il tarixlərində aparılmış 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı zəfərindən və Dağlıq Qarabağ bölgəsi və ərazi bütövlüyünün bərpasından sonra, işğal illəri ərzində həyat fəaliyyətinin müxtəlif sahələrində, o cümlədən ekoloji sahədə Ermənistanın Azərbaycana vurduğu ziyanın qiymətləndirilməsi prosesinə başlanıldı. Azərbaycan artıq bəyan edib ki, beynəlxalq məhkəmələr vasitəsilə həm Ermənistan, həm də Azərbaycanın əvvəllər işğal olunmuş ərazilərində qeyri-qanuni biznes qurmuş beynəlxalq şirkətlərin təzminat ödəməsini tələb edəcəkdir.

"Bu ərazilərdəki təbii sərvətlərin qeyri-qanuni istismar edildiyi danılmaz faktdır. Bizim əlimizdə şirkətlərin adları var. Qeyd etməliyəm ki, əgər qızıl və digər yataqlarımızı qeyri-qanuni istismar edən bu şirkətlər təzminat ödəməsələr, bu məsələ məhkəməyə veriləcək, orada isə onları biabırçılıq gözləyir", - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin yekunlarına həsr olunmuş 6 yanvar 2021-ci il tarixli müşavirədə belə deyib.

Azərbaycan olduqca rəngarəng təbii və ekoloji şəraitə malikdir, onun hər bir guşəsi biri-birindən kəskin fərqlənir və özünün spesifik xüsusiyyətləri ilə seçilir. Xüsusilə İşğaldan azad olunmuş ərazilərimiz gözəlliyi, müxtəlif və mürəkkəb ekoloji və torpaq-iqlim şəraiti ilə səciyyələnir. Bu da, istər təbii ehtiyatların istifadəsində, istərsə də ümumi təsərrüfatçılıq sisteminin təşkilində daha ehtiyatlı olmağı və düzgün qərar çıxarmağı tələb edir.

Azərbaycanda hazırda ən həssas məqamlardan biri də Ermənistanın hərbi təcavüzü nəticəsində 1988-ci ildən başlayaraq işğal edilən, 2020-ci il sentyabrın 27-dən müzəffər Azərbaycan Ordusunun əks-hücumu nəticəsində qısa müddətdə işğaldan azad olunan torpaqlarımızda kənd təsərrüfatının bərpası ilə bağlıdır.

İşğaldan azad olunmuş ərazilərimizdə erməni vandallarının törətdiyi ekoloji terror su mənbələrimizin korlanması, meşələrimizin qırılması, regionun ekoloji tarazlığının pozulmasına ciddi təsir göstərmişdir.

Döyüş mövqelərində qazılan səngərlər, gündən-günə genişləndirilən əlavə yollar, oyuq və sığınacaq yerləri, mühəndis-istehkam qurğularının inşası bu ekoloji fəlakətin sərhədlərini daha da genişləndirib, torpaq quruluşunda baş verən müəyyən dəyişikliklər isə yağışlı-yağmurlu havalarda sürüşmələrə və erroziyalara gətirib çıxarmışdır. İşğaldan azad olunmuş ərazilərimizdə erməni vandallarının törətdiyi ekoloji terror su mənbələrimizin korlanması, meşələrimizin qırılması, regionun ekoloji tarazlığının pozulmasına ciddi təsir göstərmişdir.

Ermənilərin "təhlükəsizlik zonası" adlandırdıqları Azərbaycan rayonlarının ərazisində 28 illik işğal dövrü ərzində mütəmadi olaraq qəsdən yanğınlar törədilmişdir ki, bu da torpaq və meşə massivlərinin yanaraq kül olmasına gətirib çıxarmışdır.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hesablamalarına görə, əvvəllər işğal olunmuş ərazilərdə qəsdən törədilmiş yanğınlar nəticəsində ümumilikdə 110 min hektardan çox ərazi yanmış və məhv olmuşdur. Yanğın zamanı torpağın münbit yuxarı təbəqələri, ot və kollarla birlikdə bütün canlı orqanizmlər də həlak olur.

44 günlük Vətən müharibəsinin başlamasından əvvəl qəsdən törədilmiş yanğınlar haqqında son məlumatlardan biri 4 avqust 2020-ci il tarixinə aiddir. Həmin vaxt APA xəbər agentliyinin Qarabağ bürosu xəbər verirdi ki, Ermənistan Silahlı Qüvvələrinin bölmələri Ağdam rayonunun Qızıl Kəngərli kəndinin ərazisində yanğın törətmişlər.

Vətən müharibəsi zamanı da bu ekoloji terror davam etmişdir.

Qarabağda və ona bitişik rayonlarda torpaq, meşə və evlərin, habelə infrastrukturun qəsdən yandırılması Rusiya, Azərbaycan və Ermənistan liderlərinin hərbi əməliyyatların tamamilə dayandırılmasına dair 9-10 noyabr 2020-ci il tarixli üçtərəfli sazişə nail olmasından sonra daha geniş miqyas almışdır.

Azərbaycan ərazisindən keçən çayların əksəriyyəti öz başlanğıcını ya Ermənistandan, ya da Qarabağdan götürür. Bu su mənbələri müxtəlif mənşəli tullantılarla çirklənir. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, Araz çayının uzun müddət ərzində çirklənməsi qiymətli balıq növlərinin tükənməsinə və azalmasına gətirib çıxarmışdır.

Əvvəllər ermənilər tərəfindən işğal olunmuş ərazilərdə 10 su anbarı, o cümlədən Tərtər çayı üzərində yerləşən Sərsəng su anbarı (hazırda Rusiya sülhməramlılarının məsuliyyəti zonasındadır) yerləşir. 500 milyon kubmetr tutumu olan Sərsəng su anbarı Aşağı Qarabağ ərazisində 100 min hektar əkin sahəsinin suvarılması üçün nəzərdə tutulmuşdur. Bununla belə, o, uzun müddət texniki

xidmətin göstərilməməsi səbəbindən qəza vəziyyətindədir ki, bu da regionun dağətəyi və mərkəzi Aran ərazilərində yaşayan 400 min sakin üçün təhlükə yaradır.

Azərbaycan tərəfi Sərsəng su anbarının daimi təhlükə, humanitar, ekoloji və texnogen fəlakət mənbəyinə çevrildiyini dəfələrlə bəyan etmişdir.

Sərsəng su anbarının illik su sərfinin 85-90%-nin suyun o qədər də lazım olmadığı bir dövrdə, yəni qış aylarında ermənilər tərəfindən qəsdən buraxılması axınla üzüaşağı yerləşən Azərbaycanın kəndlərini su basması ilə nəticələnir.

Son illərə dair məlumatlar nüvə və radioaktiv materialların, eləcə də nüvə yanacağı tullantılarının qaçaqmalçılığında Ermənistanın rolunun gücləndiyindən xəbər verir ki, bu da radioaktiv tullantıların əvvəllər işğal olunmuş ərazilərdə yaxın vaxtlaradək Azərbaycanın nəzarəti altında olmayan "boz zona"da basdırıldığı ehtimalını gücləndirir.

Azərbaycan olduqca rəngarəng təbii və ekoloji şəraitə malikdir, onun hər bir guşəsi biri-birindən kəskin fərqlənir və özünün spesifik xüsusiyyətləri ilə seçilir. Xüsusilə işğal altında olmuş ərazilərimiz gözəlliyi, müxtəlif və mürəkkəb ekoloji və torpaq-iqlim şəraiti ilə səciyyələnir. Bu da, istər təbii ehtiyatların istifadəsində, istərsə də ümumi təsərrüfatçılıq sisteminin təşkilində daha ehtiyatlı olmağı və düzgün qərar çıxarmağı tələb edir.

İşğaldan azad edilmiş ərazilər öz ekoloji-təbii zənginliyi ilə fərqlənir. Burada çoxlu təbii abidələr, nadir bitki və heyvan növləri geniş yayılmışdır. Bu ərazilərdə 460 növdən artıq yabanı ağac və kol bitkisi bitir. Onlardan 70-dən çoxu endemik növlərdir və dünyanın heç bir yerində təbii halda inkişaf edə bilmir. Meşələrdə geniş yayılmış qaraçöhrə, ayıfındığı, Araz palıdı, Şərq çinarı, Eldar şamı, şümşad, pirkal, meşə üzümü, yalanqoz, adi nar, adi xurma, söyüdyarpaq armud və s. kimi dünya florasının xəzinəsini zənginləşdirən qiymətli ağac növləri bitir. Ancaq bu meşələrin bir qismi düşmən tərəfindən məhv edilib.

Bunlardan başqa bu ərazilərdə Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilmiş məməlilərin 4, quşların 8, balıqların 1, amfibiya və reptililərin 3, həşəratların 8, bitkilərin 27 qiymətli növü məhvə məruz qalıb.

**Nəticə:** Aparılan araşdırmalar göstərir ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın işğal edilmiş ərazilərində olan çoxlu endemik bitki növləri, Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilmiş xeyli heyvan və bitki növləri, geniş əraziyə malik təbiət qoruqları, yasaqlıqları talançılığa və məhvə məruz qalmışdır.

İşğal edilmiş ərazilərdə olan bir çox müxtəlif tərkibli və müalicə əhəmiyyətli mineral su yataqları, suvarma əkinçiliyinin inkişafını təmin edən böyük həcmli su anbarları, suvarma sistemləri və qurğuları dağıdılmışdır.

İşğaldan azad olunmuş ərazilərimizdə erməni vandallarının törətdiyi ekoloji terror su mənbələrimizin korlanması, meşələrimizin qırılması, regionun ekoloji tarazlığının pozulmasına ciddi təsir göstərmişdir.

Bu ərazilər tanınmaz hala salınıb. Döyüş mövqelərində qazılan səngərlər, gündən-günə genişləndirilən əlavə yollar, oyuq və sığınacaq yerləri, mühəndis-istehkam qurğularının inşası bu ekoloji fəlakətin sərhədlərini daha da genişləndirib, torpaq quruluşunda baş verən müəyyən dəyişikliklər isə yağışlı-yağmurlu havalarda sürüşmələrə və erroziyalara gətirib çıxarmışdır.

Ümumiyyətlə, su ehtiyatlarının çirkləndirilməsi, meşələrin yandırılması taktikası Ermənistanın ekoloji terror siyasətinin əsas elementlərindən idi.

Ermənistanın həyata keçirdiyi təcavüz siyasəti nəticəsində işğal olunmuş ərazilərdəki Azərbaycan təbiətinə, bioloji müxtəlifliyinə və bütövlükdə, regionun ekoloji durumuna güclü təsir göstərmişdir.

Ermənistan qəsdən zəhərli, söndürülməsi mümkün olmayan və istifadəsi qadağan olunmuş ağ fosfor bombalarından istifadə etməklə, Şuşa meşələrinə sağalmaz yaralar vurmuşdur.

Uzun müddət işğal altında olmuş kənd təsərrüfatına yararlı torpaqlar istifadəsiz qalması, işğalçılar tərəfindən çirkləndirilməsi, strukturunun dağıdılması nəticəsində tamam yararsız hala düşmüş, kənd təsərrüfatı istehsalında birbaşa istifadəsi mümkünsüz olmuşdur.

Fikrimcə ilk növbədə işğal altında olmuş ərazilərdə kənd təsərrüfatı istehsalında istifadə etmək lazımdır ki, həmin torpaqların mövcud vəziyyəti, relyef xüsusiyyətləri, suvarma imkanları, dəmyə şəraiti əkinçiliyin və ya heyvandarlığın inkişafı üçün nisbətən əlverişli olsun.

İşğalda olmuş ərazilərdəki aşağı keyfiyyətli və şərti yararsız qruplarına daxil olan torpaqlar cəmi 4,2%-ə bərabərdir. Qalanı (24,0%) orta keyfiyyətli torpaqlar qrupuna aiddir.

Hesablamalar göstərir ki, kənd təsərrüfatına yararlı torpaqların istifadəsiz qalması səbəbindən ildə hər hektardan külli miqdarda maliyyə vəsaiti itirilib. Təxmini hesablamalara görə, indiyə kimi istifadə imkanı olmadığından Azərbaycan əkinçilikdə istifadə olunan torpaqlardan 22,4 milyard manat, çoxillik əkmələrin altındakı torpaqlardan 8,4 milyard manat vəsait itirmişdir.

**İstifadə olunmuş ədəbiyyat:**


1. E. Süleymanov, V. Süleymanov – Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı, 2013, 176 s.
2. Dağlıq Qarabağ münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi. Bakı, 2005,378 s.
3. Azərbaycan Respublikasının kənd təsərrüfatına yaralı torpaq sahələrinin təbii-təsərrüfat yerləri üzrə bölgüsünə dair məlumat. Əmlak Məsələləri Dövlət Komitəsi, Bakı, 2020, 4 s.
4. Q.Ş. Məmmədov Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı: "Elm", 2007, 664 s.
5. A.H. Vəliyev Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin tənzimlənməsinin hüquqi-iqtisadi aspektləri. Bakı: "Avropa", 20019, 386 s.
6. Azərbaycan Respublikasının kənd təsərrüfatına yaralı torpaq sahələrinin təbii-təsərrüfat yerıəri üzrə bölgüsünə dair məlumat. Əmlak Məsələləri Dövlət Komitəsi, Bakı, 2019, 4 s.
7. А.А. Эюбов Агроклиматическое районирование Азербайджанской ССР. Баку: "Элм", 1968, 188 с.
8. А.Г. Велиев– Агроэкологические особенности и бонитировка почв агроценозов Ленкоранской области и их рациональное использование. Автореф. дис. канд. с.х. наук. Баку, 1981, 25 с.
9. Г.Ш. Мамедов - Агроэкологическая характеристика и бонитировка пастбищных земель западной части Мильской равнины. Автореф. дис. канд. с.х. наук. Баку, 1978, 28 с.
10. М.Э. Салаев– Почвы Малого Кавказа. Баку, 1966, 329 с.

## "ƏDƏBİYYATŞÜNASLIQ" BÖLMƏSİ

# QARABAĞ ƏDƏBİ MÜHİTİNİN YARANMASI

*Tələbə: Məmmədova Elnarə Eldar qızı (AZD2101B),*
*Elmi rəhbər: f.ü.f.d.,dosent, Allahverdiyev Vaqif Saleh oğlu*

Azərbaycan çox mürəkkəb tarixə malikdir. Təbiidir ki, dövlətdə baş verən tarixi proseslər hər sahəyə öz təsirini göstərir. Bu sahələrdən biri də ədəbi sahədir. Beləki, zaman keçdikcə, tarix dəyişdikcə baş verən proseslər ədəbiyyatımıza və onun inkişafına öz təsirini göstərmiş, ədəbi mühitin inkişafına təsirsiz ötüşməmişdir.

Daxili və xarici müdaxilələr ədəbi mühitin inkişafını istiqamətləndirmişdir. Azərbaycanın müəyyən tarixi dövrlərdə başqa-başqa dövlətlərin işğallarına məruz qalması ədəbiyyata da öz təsirini göstərmişdir. Məsələn, ərəblərin Azərbaycanı işğal etməsi ərəb dilinin ölkə ərazisində qəbul edilməsi və yazılan ədəbiyyat nümunələrinin ərəb dilində yazılmasına, islam dininin qəbul edilməsi ədəbiyyatımızda özünü göstərmişdir. Daha sonra müəyyən dövrlərdə bir-birlərini əvəz edən sülalələr, xanlıqlar olmuşdur ki, sözü gedən dövrlər ədəbiyyata yeni çalarlar gətirmişdir.

XVlll əsrdə yaranmış xanlıqlardan biri də Qarabağ xanlığı idi. Qarabağ Azərbaycana çox böyük dahilər yetişdirmişdir. Təsadüfi deyildir ki Şuşa mədəniyyətin beşiyi sayılır, çünki Şuşa mədəniyyətimizə, incəsənətimizə öz izlərini qoyan şairlər, bəstəkarlar, müğənnilər, yazıçılar yetişdirmişdir.

Qarabağ tariximizə, ədəbiyyatımıza böyük izlər qoyan Xurşidbanu Natəvanı, Molla Pənah Vaqifi, Vidadini və s. Bizə vermişdir. Sözügedən sənətkarların qələminin qüdrəti hər birimizə məlumdur. Biz hələ lap əvvələ- VII əsrə nəzər saldıqda o vaxtdan əlimizdə olan yazılı nümunələr bizə həmin dövrdə yaşayıb yaratmış şair Dəvdəyi təqdim edir. Dəvdək hələki elmə məlum olan ilk Qarabağlı şairdir. Bizə onun yaradıcılığının nümunəsi olaraq Alban-Partav-Bərdə çarı olan Cavanşirin ölümünə həsr edilmiş ağı ilə qarşılaşırıq. Bu yazılı nümunə sübut edir ki, Dəvdək öz dövrünün sayılıb seçilən sənətkarlarından- söz ustalarından olmuşdur. Ağı Cavanşirin erməni keşişlərinin fətvası ilə qətl edilməsinə həsr olunmuşdur. Sözügedən sənətkarlıq nümunəsinin bizə tərcüməsi gəlib çatmışdır. Öz bədii estetikliyi ilə seçilən bu əsər oxuculara şairin qüdrətli sənətkar olmasından xəbər verir.

X-XI əsrlərdə Qarabağda müsəlman Şərqinin görkəmli şəxslərindən olan Səid Əmirül Bərdəyi, Məhəmməd Abdulla Bərdəyi və s. kimi şəxsiyyətlər yaşamışdırlar.

Xl əsrin görkəmli Qarabağlı şairi Məsud Nəmidar "İncili" ərəb, fars və türk dillərinə tərcümə etmiş və bununla da şöhrət qazanmışdır. Bütün bunlar Qarabağda elmin və ədəbiyyatın yüksək inkişaf etdiyindən xəbər verir.

Özündən əvvəlki əsrlərdə olduğu kimi Xll əsrdə də Qarabağda elmi və bədii istedadlarıyla seçilən şəxslər olmuşdur. Bu simalardan biri də Xosrov Dəhləvi tərəfindən yaradıcılığı üstün dəyər görmüş, hətta onun tərəfindən Xəqani Şirvaninin də yaradıcılığından üstün tutulan Müciræddin Beyləqani olmuşdur. O, öz əsrinin ən qüdrətli sənətkarlarından olmuşdur.

Hər birimizə məlumdur ki, tarixdə baş verən proseslər ədəbiyyata təsirsiz ötüşmür, buna nümunə olaraq Xlll əsrdə doğma torpaqlarımızda əsasən ərəb və fars dillərində yazmaq ənənəsi

zəifləmiş və ana dilli ədəbiyyatın əsası qoyulmuşdur. Məhz bu dövrdə öz dövrünün sənətkarları-şair və yazıçıları ana dilində yazmağa başlamışdırlar. Bu sənətkarların sırasına Qarabağlı şair və yazıçılar da daxil idi.

XlV əsrdə yaşayıb yaratmış şairlərdən biri də Tuti Abdulla Qarabaği olmuşdur. Çox təəsüf ki, hələlik onun əsərlərindən heç biri əlimizdə deyil. Amma bəzi mənbələrdə, həmçinin "Həqiqətüs-şüəra" da onun adı böyük hörmətlə qeyd edilir və bu bizə sənətkar haqqında müsbət fikirlər formalaşdırmaq imkanı verir. Dövrünün digər məşhur sənətkarlarından biri də "Gülşəni" təxəllüsü ilə yazıb yaradan Qarabağlı Şeyx İbrahim bin Məhəmməd Şəhabəddin Bərdəi olmuşdur.

Sadəcə bunlar belə Azərbaycan ədəbi mühitinin formalaşmasında Qarabağ ədəbi mühitinin çox böyük rola sahib olduğunu, Qarabağ ədəbi mühitinin Azərbaycan ədəbiyyatına, Azərbaycan ədəbi mühitinə yön verdiyini, ona çox böyük təsir göstərdiyini sübut edir. Qarabağ çox böyük sənətkarlar yetişdirmiş və Azərbaycan ədəbiyyatına böyük incilər bəxş etmişdir. Həmçinin qeyd etməliyik ki, XVlll-XlX əsrlərdə Qarabağ ədəbi mühitinə yeni çalarlar gəlmiş, yeni rənglər qatılmışdır ki, bu da Qarabağ ədəbi mühitinin nəyinki Azərbaycanda, hətta bütün Türk dünyasında böyük şöhrət qazanmasına gətirib çıxarmışdır.

XVl əsrdə yaşayıb yaratmış, Azərbaycan tarixinə həm şair, həm hökmdar kimi öz adını silinməz izlərlə yazan Şah İsmayıl Xətai sarayından olan Aşıq Qurbani, XVlll əsr ustadlarından olan Mirmöhsün Ləmbərani Asəf, Aşıq Əli, Aşıq Valeh, Ziyadi Qarabaği və Azərbaycan ədəbiyyatına böyük incilər bəxş edən Molla Pənah Vaqifin adı Qarabağ ədəbi mühitinin haqqında bizə böyük söz haqqı verir.

Molla Pənah Vaqif ədəbiyyatımıza böyük yeniliklər gətirmiş, həmçinin ədəbiyyatımızın inkişafına yön vermişdir. Molla Pənah Vaqif kimi böyük bir dahinin Qarabağda yazıb yaratması, Qarabağda fəaliyyət göstərməsi, Qarabağ ədəbi mühitinin formalaşmasında böyük rol oynaması əslində Azərbaycan ədəbiyyatında Qarabağ ədəbi mühitinin rolunun danılmaz sübutudur. Çünki tarixən müəyyən şairlər özlərindən sonra elə bir irs, elə bir ədəbi məktəb qoyub getmişdirlər ki, özlərindən sonra gələn şair və yazıçılar onların təsir dairələrindən çıxa bilmir və əsərlərini bu təsirlər altında yazırlar. Belə sənətkarlarımızdan biri də Məhəmməd Füzuli olmuşdur ki, bizim hər birimiz onun sənətkarlıq qabiliyyətləri ilə yaxından tanışıq. Belə ki, Məhəmməd Füzuli təkcə Azərbaycanda deyil, bütün dünyada məşhur olan şairimizdir. Onun bu qədər şöhrət qazanması və mükəmməl işlərlə yadda qalması özündən sonrakı şairlər üçün də bir istiqamət idi. Məhəmməd Füzulidən sonra bir çox şairlərimiz onun təsir dairəsindən çıxa bilmirdilər. Buna nail olmağı bacaran isə məhz Molla Pənah Vaqif olmuşdur. O, ədəbiyyatımıza realizmi gətirmiş və ədəbiyyata yeni rənglər, yeni çalarlar qazandırmışdır.

XVl əsrdə fəaliyyət göstərmiş Məhəmməd Qarabağinin əsərləri bu gün də Qahirə kitabxanasında saxlanılır.

Azərbaycan ədəbiyyatında XVll-XVlll əsrlər həm də orta əsrlər məhəbbət və qəhrəmanlıq dastanlarının formalaşması dövrü kimi də diqqəti cəlb edir. "Aşıq Qərib", "Abbas və Gülgəz", "Əsli və Kərəm" və s. Kimi dastanlar da məhz bu dövrdə formalaşmışdır. Qurbani, Aşıq Abbas Tufarqanlı kimi sənətkarların yaradıcılığı seçilən böyük sənətkarlıq nümunələri idi. Bu dövrdə hələ böyük şair olan Şah İsmayıl Xətai yaradıcılığı vasitəsilə bizə məlum olan şeir şəkillərindən varsağı, qoşma, gəraylı, bayatı və s. Bu dövrdə daha da inkişaf edir, daha da təkmilləşir.

XVlll əsrdə Qarabağda Pənahabad, indiki Şuşa şəhərinin əsası qoyulmuşdur. Bununla da Qarabağ ədəbi mühiti Azərbaycan ədəbi mühitinin ən qaynar mərkəzinə çevrilmiş, Azərbaycan ədəbi mühitinə böyük təsir göstərmişdir. Bir çox xanlıqların siyasi-ictimai istiqamətlərini Qarabağ xanlığı idarə edirdi. Məhz bütün bunlar Qarabağ ədəbi mühitinin inkişaf etməsində böyük rol oynayırdı.

Azərbaycan ədəbiyyatında XIX əsrdə realizm ədəbi metodunun yaranması da məhz XVIII əsrdə Qarabağda ilk realist şeirin əsasının qoyulması ilə bağlıdır. Həmçinin ədəbiyyatımızda XVIII əsrdə yeni milli şeir məktəbinin əsası qoyulmuşdur ki, bu məktəbin yaranması məhz M.P. Vaqifin adı ilə, inkişaf etdirilməsi isə Q. Zakirin adı ilə bağlıdır.

Zakirin və onun çağdaş şairlərinin yaradıcılığın araşdırdığımız zaman qarşımıza belə bir məsələ çıxır ki, həmin vaxtlar Füzuli ənənələri də yeni səviyyədə davam etdirilirmiş. Bu ənənənin davamçılarından ən böyük və ən görkəmli nümayəndələrindən biri də Xurşidbanu Natəvandır. (1830-1897)

X. Natəvan Şuşada fəaliyyət göstərən, poetik məclis olan "Məclisi-üns"ə başçılıq edirdi. Həmçinin X. Natəvan Mir Möhsün Nəvvabın başçılıq etdiyi "Məclisi-Fəramuşan" poetik məclisi ilə də əlaqələr saxlayırdı. Bu məclislərin iştirakçıları bir-birləri ilə şeirlərlə yazışırdılar. Həmin sözü gedən ədəbi məclislər Qarabağ ədəbi mühitinin formalaşmasında çox böyük rola malikdirlər.

Azərbaycanda ədəbi mühitin formalaşmasında, inkişafında ədəbi məclislərin rolu çox böyükdür. Azərbaycanda ədəbi məclislərin formalaşması üçün ən əlverişli mühit XIX əsrdə mövcud olmuşdur. Bu dövrdə Azərbaycanın müxtəlif şəhərlərində ədəbi məclislər yaranmış və öz səs-sədalarını çox geniş əraziyə yaymışdırlar. Bu məclislərin bir-birləri ilə əlaqələri olmuş, şeirlər vasitəsilə bir-birləri ilə yazışmışdırlar.

Azərbaycanın müxtəlif bölgələrində ədəbi məclislər yaranmış və yüksək səviyyədə inkişaf etmişdir. Bunlar Bakıda "Məcməüş-şüəra", Gəncədə "Divani-hikmət", Şamaxıda "Beytüs-səfa", Qubada "Gülüstan", Lənkəranda "Fövcül-füsəha", Qarabağda "Məclisi-üns", "Məclisi-fəramuşan" adlanan ədəbi məclislər idi ki, bu məclislər nəyinki Azərbaycanda, hətta Azərbaycandan kənarda da kifayət qədər çox məşhur idilər.

"Məclisi-üns" ("Dostluq məclisi") 1864-cü ildə Mirzə Rəhim Fənanın başçılığı ilə Şuşada təşkil edilmişdir. Bu məclisin ilk vaxtlar dörd üzvü var idi. Məşğələlər isə şair Hacı Abbas Agahın evində təşkil edilirdi. 1872-ci ildə xanqızı Xurşudbanu Natəvan məclisin himayəsini öz üzərinə götürmüşdür. Bununla da məclisin məşğələləri daha da canlanmışdır. Bunlar həmçinin məclisin məşhurlaşaraq şöhrətinin, səs-sədasının Qarabağ hüquqlarını aşmasına, məclis üzvlərinin sayının artaraq otuza yaxınlaşmasına səbəb olmuşdur.

X.Natəvananın məclisə başçılıq etməsi ədəbi məclisin üzvlərinin sayının artmasına və məclisin nüfuzuna müsbət təsir göstərir və məclisə üzv olan şairlər vaxtlı-vaxtında məclisin maddi ehtiyaclarını qarşılayır və məclisin məşğələlərində daimi iştirak etməklə öz nüfuzlarını da artırmış olurdular.

Məclisə üzv olan şairlərin əsərlərini incələyərkən belə bir məqam diqqəti cəlb edir ki, bu şairlər X.Natəvanın rəsmlərinə şeirlər həsr etmiş, hətta aşiqanə ruhda yazdıqları bəzi şeirlərini məhz Xurşidbanu Natəvana həsr etmişdirlər. Bu heç də təsadüfi deyildi, çünki X.Natəvan ağıllı, ədəbli, uzaqgörən və gözüaçıq qadın idi. Bu xüsusiyyətlər isə başqalarında onunla maraqlanmasına səbəb verirdi. Bu şəxslərdən biri də Mirzə Rəhim Fəna idi. Belə ki, o, yazdığı "Ağlaram" qəzəlini

qəlbində gizli heyranlıq və məhəbbət bəslədiyi Natəvana yazmış, bu qəzəlində onu nəzərdə tutmuşdur.

Hicran edib könlüm evin qarət, ağlaram,
Çün ağlamaq olubdu mənə adət, ağlaram,
Ta var idi fəraqına tabım, səbur idim,
İmdi yoxdu səbr, nedim taqət, ağlaram.
Qəddim fəraqı başıma gəldi qiyaməti,
Ta həşr olunca hər dəmu, hər saat ağlaram.
Zülfü ruxun xəyalına sərf oldu ruzü şəb,
Ömrümdə ruzü şəb olmamışam rahət ağlaram.

Mirzə Rəhim Fəna, Hacı Abbas Agah, Mirzə Ələsgər Növrəs, Mirzə Həsən Yüzbaşov, İsgəndər bəy Rüstəmbəyov, Mirzə Sadiq Piran, Baxış bəy Səbur, İsmayıl bəy Daruğə, Məşədi Nəsir Lövhi və s. bu məclisin tanınmış və sayılıb-seçilən üzvlərindən idilər. Qarabağın məşhur saz söz ustaları, xanəndələri bu məclisdə fəal iştirak edirdilər. Hacı Hüsü, Məşədi İsi, Kaştazlı Haşım və başqa xanəndələr həm bu məclisdə, həm də digər Qarabağ ədəbi məclisləri olan "Məclisi-fəramuşan"da fəaliyyət göstərmişdirlər.

Mirzə Rəhim Fənanın Əlyazmalar İnstitutunda müəyyən xatirələri saxlanılır ki, bunların arasında "Məclisi-üns" haqqında-onun yaranması, məclisin məşğələləri, məclisin üzvləri və digər ədəbi məclislərlə əlaqəsinə aid məlumatlar da var idi. Mirzə Rəhim Fənan ikicildlik "Azərbaycan ədəbiyyatı" əsərində əlavə olaraq "Məclisi-üns" haqqında dəyərli xatirələri də çap olunmuşdur

Bəzi mənbələrdə qeyd edilir ki, Molla Vəli, Molla Abbasqulu, Məşədi Dadaş, Hacı Məmməd Alı oğlu, Muxtar Kərbəlayi Məmməd oğlu, Məhəmməd Qaryağdı oğlu, tarzən Sadıqcan və başqa sənətkarlar bu məclisə çox yaxın olmuşdurlar.

Qarabağda fəaliyyət göstərən ədəbi məclislərin özünə məxsus xüsusiyyətlərindən biri də kişilər və qadınların bir məclisdə fəaliyyət göstərməsi idi. Ümumiyyətlə Qarabağ ədəbi məclislərində gözüaçıq və ağıllı, ədəbli qadınlara böyük hörmət və ehtiram göstərilirdi. Elə buna görə də X.Natəvan və F.Kəminə Qarabağda fəaliyyət göstərən hər iki ədəbi məclisdə yaxından iştirak edirdilər. Onlar təkcə Qarabağda deyil, bütün Azərbaycan şairləri arasında çox böyük hörmət qazanmışdırlar. Ədəbi məclisdə şeirlər, məsnəvilər yazılır, müzakirələr aparılırdı.

Məclisə üzv olan şairlərin şeirlərində dostluq və kin-küdurətdən uzaq olmaq məsləhətləri geniş yer almış və bu artıq ənənə halını almışdı. Təsadüfi deyildir ki, "Məclisi-üns" məhz "dostluq məclisi" demək idi.

Məclisi-ünsdə ədəb-ərkanla davranmağa, etik qaydalara, nizam intizamlı olmağa çox böyük diqqət göstərilir və hamı bu qaydalara əməl edirdi.

1890-cı illərin əvvəllərində Natəvanın həyatında çox böyük və kədərli hallar baş verir və bu da məclisin fəaliyyətinə təsir göstərirdi. Beləki, Natəvanın oğlu Mirabbasın və əri Seyid Hüseynin ölmüş, böyük oğlu Şuşanı tərk edib Rusiyaya getmişdir. Böyük mənəvi sarsıntı keçirən Natəvan artıq məclisin başında əvvəlki kimi dura bilmir, məclisi əvvəlki kimi idarə edə bilmirdi. Artıq Məclisi-ünsdə əvvəlki kimi böyük, maraqlı və qızğın müzakirələr getmir, böyük ustalıq tələb edən şeirlər yazılmırdı. Yazılan şeirlərin çoxu Natəvanın sağalmasının arzu edildiyi ruhda yazılan şeirlər idi. Artıq məclisdə şeir və musiqi mövzusu ilə bağlı müzakirələr yerinə Natəvanın xəstəliyi ilə bağlı söhbətlər edilirdi.

Məclisi -ünsün fəaliyyəti Natəvanın vəfat etməsinə qədər-1897-ci ilə qədər davam etmişdir. Məclisdə fəaliyyət göstərən şairlər məclisin bu halını böyük kədərlə qələmə alaraq bununa bağlı bir çox şeirlər yazmışdırlar.

Qarabağda fəaliyyət göstərən tək ədəbi məclis "Məclisi-üns" deyildi. Beləki, Məclisi-ünsdən səkkiz il sonra Qarabağda-mədəniyyət beşiyində "Məclisi-fəramuşan" adlı ədəbi məclis fəaliyyət göstərməyə başlamışdır. Məclisi-fəramuşan "unudulanlar məclisi" deməkdir. Bu ədəbi məclis ilk olaraq unudulmuş, diqqətdən kənarda qalmış söz sənətkarlarının təşəbbüsü ilə yaradılmışdır. Məclisi-fəramuşan həm də Məclisi-xamuşan da adlandırılırdı. Məclisi-xamuşan isə "dinməz, sakit adamlar məclisi" demək idi. 1872-ci ildə Mir Möhsün Nəvvabın başçılığı ilə Abdulla bəy Asi, Mirzə Əbülhəsən Şəhid, Mirzə Əbdül Şahin, Fatma xanım Kəminə, Həsənəli xan Qaradaği və s. kimi sənətkarlar bu məclisdə toplanmışdırlar. Sözügedən ədəbi məclisin adı ilə bağlı M.M. Nəvvab avtoqraf təzkirəsi yazmışdır. Burada qeyd edilir ki, "Fəramuşan" şairlərin və zəriflərin toplandığı Nəvvabın evinin adıdır. Burdan da məlum olur ki, ədəbi məclisin məşğələləri Nəvvabın evində keçirilmişdir. Təbii ki, digər ədəbi məclislərdə olduğu kimi bu ədəbi məclisdə də iştirak edən şairlərin bir qismi haqqında mənbələrdə elə də çox məlumat yoxdur, məclisdə fəaliyyət göstərən şairlərin adları Şuşa şəhərində yazıb yaradan şairlərin əsərlərində və başqa şəhərlərdə yaşayan şairlərə yazdıqları məktublarda adları məlum olmuşdur.

Mənbələr sübut edir ki, "Məclisi-fəramuşan"ın üzvləri sırasına Məşədi Əyyub Baki, Abdulla bəy Abış, Baxış bəy Səbur, Bəhram bəy Fədai, Mirzə Muxtar, Məşədi Məhəmməd Bülbül, Molla Xəlil Şaki, Mirzə Məhəmməd Katib, Həsən Qara Hadi, Xarrat Qulu Yusifi, Mirzə Hüseyn Salar, Mirzə İsmayıl Məhzun, Mirzə Əli Aşiq, İbrahim bəy Azər, Məşədi İsi, Hacı Hüsü, Sadıqcan və başqa sənətkarlar daxildir. Bunlardan başqa M.M. Nəvvabın farsca yazmış olduğu "Divan"ında Məşədi Cəfərqulu Kərbalayı İbrahim oğlunun, "Tarixi-Qarabağ" əsərinin müəllifi Mirzə Camalın oğlu Mehdi bəy və Hacı Məşədi Əli oğlunun "Məclisi-fəramuşan"ın üzvü olduğunu bildirir. Mir Möhsün Nəvvab həmin "Divan" ında bu şəxslərin ölümlərini də qeyd etmişdir.

Mir Möhsün Nəvvab çox böyük sənətkar idi. Mənbələri araşdırma zamanı müəyyən edilir ki, "Məclisi-fəramuşan"da fəaliyyət göstərən şairlərin bir çoxu öz əsərlərini məhz Nəvvabın təsiri ilə yazmışdırlar. Beləki, onların əsərlərində həm ilahi, həm də dünyəvi eşqin tərənnümü, zəmanədən narazılıq, din xadimlərinin tənqidi və s. kimi məsələlərə rast gəlinir. Amma bu üslub, bu motivlər sözügedən şairlərin yaradıcılığı üçün xarakterik deyildi. Beləki, bu sənətkarların İslam ehkamlarını təhrif edən, dilində dua, qəlbində riya gəzdirən, sözü ilə əməli üst-üstə düşməyən, din pərdəsini gözdən asaraq hər əməli edən ruhaniləri tənqid edirdilər.

Bir çox mənbələrdə göstərilir ki, Qarabağda fəaliyyət göstərən hər iki məclisin- "Məclisi-üns" və "Məclisi-fəramuşan" arasında əvvəllər əlaqə olmuş, hər iki ədəbi məclisin şairləri bir-birləri ilə əlaqə saxlamış, məclis üzvləri bir-birinə qonaq getmiş, yığıncaqlarda, müşavirələrdə birlikdə iştirak etmişdirlər. Başqa şəhərlərdən gələn məktubları, müzakirəyə ehtiyac duyulan məsələləri hər iki məclisdə müzakirə etmişdirlər. Beləki, "Məclisi-üns"ün üzvlərindən Bəhram bəy Fədai, Mirzə Ələsgər Növrəs, Mirzə Cəfər "Məclisi-fəramuşan"da da yaxından iştirak etmişdirlər. M. Möhsün Nəvvab həmişə X. Natəvanın hal-əhvalını soruşmuş, onun səhhəti ilə maraqlanmışdır. Qeyd edilir ki, X. Natəvanın səsi-sorağı gəlməyəndə isə məktub yazaraq bunun səbəbini soruşmuşdur. Daha sonra bu iki ədəbi məclisin bir-birləri ilə olan münasibətləri qırılmışdır. Amma buna baxmayaraq

"Məclisi-üns" ün üzvü olan M.Ə. Növrəslə M.M. Nəvvab bir-birilərinə mənzum məktublar yazılmışdır.

Digər ədəbi məclislərdə olduğu kimi "Məclisi-fəramuşan"ın da üzvləri ancaq klassik üslubda, yəni əruz vəznində yazmaqla kifayətlənməyiblər. Onlar heca vəznində də mükəmməl şeirlər yazıb yaradıblar. Bunu qeyd etmək yerinə düşərdi ki, M. Ə. Növrəslə M. M. Nəvvabın bir-birlərinə yazdıqları mənzum məktubların arasından bəziləri məhz heca vəznində yazılmışdır.

Bu ədəbi məclisdə şairlər müşavirə zamanı deyilən qəzəlləri qəzəlin yazılmış olduğu bəhr və təqtisinə uyğun olaraq oxuyar və həmin ayaqlarını yerə vuraraq ona uyğun səs çıxararmışlar. Məclisdə şairlərlə yanaşı musiqiçilər də fəaliyyət göstərirmişlər. Məşhur Qarabağ xanəndə və tarzanələrindən olan Xarrat Qulu, Mirzə Sadıqcan, Hacı Hüsü, Məşədi İsi "Məclisi-fəramuşan"da iştirak etmiş və məclisə böyük şöhrət qazandırmışdırlar.

Təkcə "Məclisi-fəramuşan" deyil, eləcə də Mir Möhsün Nəvvab Qarabağın ədəbi mühitinin formalaşmasında böyük rola malikdir. Beləki, Mir Möhsün Nəvvab və Hacı Hüsnünün rəhbərliyi ilə "Məclisi-fəramuşan"ın nəzdində "Xanəndələr məclisi" yaradılmışdır. Bu musiqi məclisi idi. Məşədi İsi, Keştazlı Haşım, Hacı Hüsü, İslam Abdullayev, Mirzə Muxtar, Malıbəyli Həmid və başqa xanəndələr bu məclisdə toplanmışdırlar.

"Məclisi-fəramuşan" 1910-cu ilə qədər fəaliyyət göstərmişdir.

"Məclisi -üns" və "Məclisi-fəramuşan" Qarabağ ədəbi mühitinin formalaşmasında çox böyük amil idilər. Hər iki ədəbi məclis nəyinki Azərbaycanda hətta bir çox başqa ölkələrə də səs salmış, kifayət qədər məşhurlaşmışdırlar.

**Nəticə:** Tədqiqat işimin nəticəsində fikrimi belə yekunlaşdırmaq istəyirəm ki, Qarabağ ədəbi mühitinin formalaşmasında Qarabağda fəaliyyət göstərən ədəbi məclislərin rolu çox böyükdür. Beləki, bu ədəbi məclislərdə bir-birindən istedadlı yazıçı və şairlər toplanmış, bir-birindən gözəl əsərlər günümüzə gəlib çatmışdır. Biz tam əminliklə deyə bilərik ki, Qarabağda fəaliyyət göstərən ədəbi məclislər yalnız Qarabağın deyil, həm də bütöv Azərbaycanın ədəbi mühitinin formalaşmasında böyük rol oynamışdır.

**İstifadə edilmiş ədəbiyyatlar:**

1. R. Məmmədli və S. Əhmədova "Tək inci kimi parlayan Xan qızı Xurşidbanu Natəvan". Bakı, 2017.
2. A. Əliyeva və S. Əhmədova "Gözəllik və bilik aşiqi Nəvvab". Bakı, 2018.
3. Ə. Əliyev "Qarabağ ədəbi mühiti və Mir Möhsün Nəvvab". Bakı, 2016.
4. Ə. Səfərli, X. Yusifli "Azərbaycan ədəbiyyatı tarixi". Bakı, 2008.

## RAFİQ YUSİFOĞLU YARADICILĞINDA UŞAQ ƏDƏBİYYATI

*Tələbə: Allahyarova Sevinc Samir qızı (AZD2102B),*
*Elmi rəhbər: f.ü.f.d.,dosent, Allahyverdiyev Vaqif Saleh oğlu*

Müasir dövr böyüməkdə olan yeni nəsli elmə bədii siyasi estetik və əqli cəhətdən sağlam və möhkəm yetişdirməyi tələb edir. Uşaqların mənəvi aləmini zənginləşdirmək müasir cəmiyyətin quruculuğunda fəal iştirak etməyə hazırlamaq kimi xeyirxah və nəcib bir vəzifə məhz uşaq ədəbiyyatının da öhdəsinə düşür. Uşaq ədəbiyyatı yeniyetmələrin dünyagörüşünün inkişafında

onların maraq dairəsinin genişlənməsində böyük rol oynayır. Bu ədəbiyyat kiçik oxucuların zəngin tarixi ənənələr və dövrün tələbləri ruhunda tərbiyə etməyə çalışır.Ona görə də uşaq ədəbiyyatının inkişafına qayğı həmişə diqqət mərkəzində olmuşdur. Bu baxımdan müasir dövr Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi Rafiq Yusifoğlunun yaradıcılığı böyük əhəmiyyət kəsb edir.

R.Yusifoğlu həyatını balalarımızın təlim tərbiyəsi kimi xeyirxah bir işə sərf etmişdir. Uzun illərdir ki o, şair olmaqla bərabər müəllim kimi fəaliyyət göstərir, bir pedaqoq kimi gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Daim məktəblilərlə ünsiyyətdə olan Rafiq müəllim hələ cavan yaşlarında bədii sözün qüdrətinə dərin inam bəsləmir, uşaqların həyatını əks etdirən şeirlər, poemalar yazmağa mənəvi ehtiyac hiss etmişdir.

Onun "Çiçək yağışı" (2000), "Daha uşaq deyiləm" adlı kitabında toplanmış şeirlər müasir uşaq ədəbiyyatımızın ən qiymətli nümunələridir. Həmişə öz qəhrəmanları arasında olduğundan onun şeirlərində həyatın nəfəsi aydın şəkildə duyulmaqdadır. Onun şeirlərində uşaqların həyatı, onların arzu və düşüncələri bu və ya digər dərəcədə öz bədii əksini tapmışdır. O, istəkli, əziz, nəfəsi südlü, şirin balaları heç zaman unutmamış, onlara müraciətlə şeirlər yazdığından xüsusi zövq almışdır:

Ömrümüzü, günümüzü,
Uşaq təbəssümü bəzər,
Uşaqsız ev, uşaqsız el
Susuz dəyirmana bənzər

("Uşaq")

Göründüyü kimi müəllif "uşaqsız ev Susuz dəyirman" el məsəlində istifadə edərək uşaq həyatını, uşaq təbəssümünü mənalandırmışdır. "Sevinir Gündüz bala", "Ana hirslənmə", "Diş niyə bitmir","Küncütlü kökə" və.s. Şeirlərində həssas uşaq qəlbinin çırpıntıları, onların istək və arzuları poetik misralar vasitəsilə oxucularına çatdırılır.

Anam mənə dükandan
Kökə alıb, xala bax!
Sən bir bunun üstünə
Səpələnmiş xala bax!

Onun uşaq şeirlərini oxuduqda hiss olunur ki, şair yaxından görüb duyduğu körpələrin həyatından yazır. Bu təsadüfi deyil. Rafiq müəllim bədii yaradıcılıqdan başqa bütün ömrünü uşaqların və gənclərin təlim tərbiyəsinə həsr etməsi, müasir uşaq ədəbiyyatımızın həyatında mühüm rol oynayan "Göyərçin" jurnalının redaktoru və baş redaktoru işləməsi və "Uşaq ədəbiyyatı" dərsliyinin müəllifi olması ilə bağlıdır. Uşaqların həyatını, onların psixologiyasını nəzəri cəhətdən öyrənən müəllif gündəlik həyatda gördüklərini, uşaqlara olan qayğı və məhəbbətini şeirə gətirmişdir.

Otağa yaz gətirir,
Anamın danışığı.
Körpənin gül üzünə
Düşür layla işığı

Uyuyur mənim balam
Onu yuxu aparır.

Günün qapısı kimi
Kirpikləri qapanır.

R.Yusifoğlunun uşaq şeirlərinin hamısı məhz beləcə yığcam, sadə, aydındır. Çünki, bu şeirlər sinəsi folklor nümunəsi ilə dolu istedadlı bir şairin sinəsindən süzülüb gəlir. Dilimizə, dilimizin sözlərinə məhəbbət, tarixi keçmişimizə, milli adət ənənələrimizə, uşaq oyunlarımıza mövsüm mərasimlərimizə qayğı ilə yanaşmaq, onları yaşatmaq onun şeirlərinin başlıca mövzularındandır

R.Yusifoğlu kiçik yaşlı balalar üçün bir sıra maraqlı poemalar da yazmışdır. "İntiqam", "körpü əfsanəsi", "Bir torba çərdəyin nağılı", "Ördək balaları", "Balıq ovunda", "Sumqayıtın nağılı" və s. Bu əsərlər uşaqlara Azərbaycan xalqının keçmiş günlərindən, bugünkü inkişafımızdan, şəhərimizin tikilib abadlaşmasından söhbət açır.

"İntiqam" poemasında R.Yusifoğlu çox aktual bir mövzuya toxunmuşdur. Kiçikyaşlı uşaqlarda təbiətə, təbiətin canlılarına, xüsusilə quşlara qayğı və məhəbbət hisləri aşılamağa çalışmışdır. Poemada təsvir olunur ki, İsgəndər toyuğun balalarını yeyən boz qarğadan intiqam almaq üçün fürsət gözləyir. Nəhayət bir gün uçub gedən qarğanın yuvasına yaxınlaşır, onun yumurtalarını götürüb suda bişirir və yenidən yuvaya qoyur.

Kürt düşmüş qarğa neçə günlərdir bala yolunu gözləyir, lakin yumurtadan bala çıxmır ki, çıxmır. Bala istəyi qış düşənə kimi qarğanı yumurtanın üstündə yatırdır və qarğa qaxac olub yumurtaların üstündə ölür. Poemanın sonunu şair çox ibrətamiz bir şəkildə belə tamamlayır.

Qış gəlib kəsdi qapını
Qar ələdi düzə, dağa,
Yumurtanın üstündə,
Qaxac olub öldü qarğa.
İsgəndərin gözü doldu,
Düşməni bağışladı.
Yuvasında qaxac olan,
Boz qarğanı alqışladı.
Tutduğuna peşman oldu.
Hey özünü danladı o
Sonsuz bala sevgisinin
Mənasını anladı o.

R. Yusifoğlunun yaradıcılığında alleqorik mənzum nağıllar da əhəmiyyətli yer tutur. Bu nağıllarda şair uşaqlara vətəni sevməyi, ata-ananın qədrini bilməyi tövsiyə edir. Şair təsvir edir ki, balıq tutmağa gedən vaxt tilova bir qutu ilişir. O qutunu açana onun içərisindən bir nağıl kitabı çıxır. Nağılda göstərilir ki, qız balıqla oğlan balığın toyundan sonra onların bir cüt oğlu olur. Ata balıq çox zəhmətlə övladlarını böyüdür. Onlar böyüyüb təhsil almaq üçün dənizə yollanırlar və bir daha geri qayıtmırlar. Onlar hərəsi bir dəniz qızı ilə evlənirlər. Bir gün analarına məktub yazıb onu da dənizə çağırırlar.

Nə görmüsən o çayda
Sən də dənizə köç gəl
Ancaq burda yaşamaq
O qədər asan deyil
Xırdaca balıqları

İri balıqlar yeyir

Ana balıq məktubu aldıqdan sonra oxuyub oğlanların cavab yazır ki, sağ olun sizdən razıyam ancaq mən Bərgüşaddan ayrıla bilmərəm. Atanızın sümüyü bu torpağa qarışıb. Bura mənim üçün çox əzizdir. Qoca vaxtımdan məni vətənimdən ayırmayın. Balıqların dili ilə deyilmiş bu sözlər əlbəttə insanlara məxsusdur. Şair öz elini-obasını, ata-anasını qoyub şəhərlərə gedən və geri qayıtmayan gənclərimizə işarə edərək, ata-baba yurdunu unutmamağı, torpağını sevməyi tövsiyə edir.

Göründüyü kimi ibrətamiz və tərbiyəvi mövzuda yazılmış bu əsər gənclərin tərbiyəsində böyük əhəmiyyətə malikdir.

**Nəticə:** Tədqiqat işimin yekununda bu nəticəyə gəlirəm ki, uşaq ədəbiyyatının məqsədi balacaların qəlbində həyat eşqi yaratmaq, təbiət və cəmiyyətin qanunları ilə onları tanış etmək, pisi yaxşıdan fərqləndirməkdə onlara kömək etməkdir. Bu ədəbiyyatın vəzifəsi isə uşaqların qəlbində işıqlı sabaha böyük gələcəyə inam çırağı yandırmaqdan ibarətdir və R.Yusifoğlu uşaq şeirlərində və poemalarında bunları məharətlə yerinə yetirmişdir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. R.Yusifoğlu. Daha uşaq deyiləm. Bakı, 2001.
2. R.Yusifoğlu. Ayrılığın qəm karvanı. Bakı, 2002.
3. R.Yusifoğlu. Günlərimiz aylarımız. Bakı, 2003.
4. R.Yusifoğlu. Ətirli düymələr. Bakı, 2001.

## KOROĞLU DASTANINDA ŞEİR ŞƏKİLLƏRİ VƏ MƏCAZLAR

***Tələbə: Quluyeva Aytəkin Rizvan qızı (AZD2001B),***
***Elmi rəhbər: f.ü.f.d.,dosent, Allahverdiyev Vaqif Saleh oğlu***

Azərbaycan xalqının yaratdığı möhtəşəm abidələrdən biri də "Koroğlu"dastanıdır. Bu dastanla bağlı düşüncələrimi bölüşməzdən öncə bir məsələni vurğulayaq ki , şərq və türk xalqları arasında "Koroğlu" qədər yayılmış ikinci bir dastan nümunəsi tapmaq çətindir. Dastanlar,dastan düşüncəsi bütünlükdə türkün ruhunun,varlığının daşıdığı başlıca bədii məkandır. Ə. Tanrıverdinin "Koroğlu" dastanı ilə bağlı bir sıra təhlilləri vardır. Ancaq məsələnin mahiyyətinə varmaq üçün alimimizin yaradıcılığının müəyyən tərəflərinə diqqət yetirmək lazımdır. Əlbəttə bütün müstəvilərdə bu ağır işin başlanğıcında genetik yaddaşdan gələn dəyər və düşüncə dayanır. Məsələnin ikinci tərəfində isə həyat və yaradıcılıq yolu dayanır. Müəllifin içindəki nikbin ruh , öyrənmək və öyrətmək sevgisi ona istiqamət vermişdir. Ə. Tanrıverdi "Koroğlunun şeir dili" monoqrafiyasını yazmışdır. Monoqrafiyada mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri Qurbani ilə "Koroğlu"şeirinin poetik sisteminin müqayisəli təhlilidir. Qurbaninin dili üçün səciyyəvi olan söz və ifadələrə "Koroğlu"nun şeir dilində də rast gəlinir. Məsələn "Canım ana" müraciəti ilə başlayan gəraylıya həm Qurbaninin şeirlərində, həm də "Koroğlu" dastanında rast gəlinir.Qurbanidə:

Canım ana, gözüm ana,
Bir dua qıl,mən də gedim.

Sənə qurban özüm,ana,
Bir dua qıl mən də gedim.
Koroğluda:
Canım ana, gözüm ana,
Rüsxət ver,mən gedər oldum .
Sənə qurban özüm, ana,
Rüsxət ver, mən gedər oldum.

"Koroğlu"nun şeir parçaları mövzusuna görə də çox rəngarəngdir. "Koroğlu" eposundakı şeir şəkilləri bənzərsizliyi, zövq oxşaması, poetik silqəti barədə çox yazılıb və bundan sonra da yazılacaq. Çünki bu şeirlərdə Koroğlunun dəli nərəsi, at belində qılınc oynadan dəlilərin düşmənə qan uddurması, ala gözlü Nigarın Koroğluya dərin məhəbbəti, saza vurğunluq, sonsuzluq dərdi, dostluq, qardaşlıq, dağa və ata olan insani münasibət - bir sözlə, hər bir obraz poetik dillə canlandırılıb. Ustad aşıqlar, el sənətkarları bu şeirləri yaradarkən Azərbaycan dilinin zənginliyindən məharətlə, ustalıqla istifadə edib. Bu zənginliyi yaratdıqları şeirlərin ruhuna, canına, qanına elə hopdurublar ki, onların hər biri bu gün təzədir.

Azərbaycan aşıq ədəbiyyatının yüksəliş dövrünün məhsulu olan "Koroğlu" qəhrəmanlıq dastanında xalqımıza xas olan vətənpərvərlik, qəhrəmanlıq, humanizm motivləri ön planda durur. Dastana daxil edilmiş şeir parçaları aşıq şeirinin kamil nümunələridir. Bu şeirlər öz poetik təravəti, məcazlar sisteminin zənginliyi ilə diqqəti cəlb edir. Dastan aşıq ədəbiyyatının oyanış, intibah dövrünün məhsulu olduğu üçün həmin dövrün zəngin ifadə imkanlarınıda özündə əks etdirir.

Aşıq ədəbiyyatının ən geniş yayılmış janırlarından biri də qoşmadır. Hər bəndi dörd misradan və hər misrası on bir hecadan ibarət olan şeir şəklinə qoşma deyilir.

Qoşmanın məzmununa görə növləri: Gözəlləmə, vücudnamə, ustadnamə, qıfılbənd.

Gözəlləmə: gözəllərin vəsfinə həsr edilən aşiqanə məzmunlu qoşmalardır.

Vücudnamə - Qoşmanın məzmununa görə növlərindən biridir. İnsanın beş yaşından ölüm anına qədər olan dövrü sadalanır.

Aşıq ədəbiyyatının geniş yayılmış şeir janrlarından biri də gəraylıdır. Hər bəndi dörd misradır. Hər misrası səkkiz hecadan ibarət olur. Gəraylının ilk bəndində birinci və üçüncü misralar sərbəst olur. İkinci və dördüncü misralar isə bir- biri ilə qafiyələnir:

Gəraylının son bəndində müəllif təxəllüsünü göstərir. Həmin bənd "Möhürbənd" adlanır. Ədəbiyyatşünaslıqda son bəndə bəzən "tapşırma" da deyilir.

Koroğlu dastanında da bir çox gəraylı işlənmişdir.

Əsil poeziyada poetikliyə xidmət etməyən söz və ya ifadə tapmaq çətindir. Əgər şeirdə hər hansı bir söz yerində işlənibsə, eyni zamanda digər sözlərlə assosiativliyi bir başa və ya dolayı şəkildə görünürsə deməli, həmin söz mətndə hərəkətdədir, obrazlılığın, poetikliyin yaranmasında iştirak edir. " Koroğlu" eposundakı şeirlərdə də hər bir kəlmə, hər bir söz yerində, məqamında işlənib. Dastandakı məcaz növlərinin hər birini ayrılıqda təhlil süzgəcindən keçirmək lazımdır.

Epitet: Yunan sözü olub əlavə mənasında işlənir. Təyinedici funksiya daşıyır,bu səbəbdən bədii təyin də deyilir. " Koroğlu" dakı şeir parçalarında zənginliyi və rəngarəngliyi ilə diqqəti cəlb edir.

Təşbeh: Oxşatmaq, bənzətmək mənası verən ərəb sözüdür. Ona görə bəzən bənzətmə deyilir.

Hər hansı bir əşya özündən qüvvətli digər əşyaya bənzədilir. "Koroğlu" nun şeir dilindəki

məcazlar sistemində təşbehlər daha üstün mövqedə durur. Bu mənada “ Koroğlu “ eposu “Kitabi Dədə Qorqud” kitabı ilə bir sırada durur. Hər iki qəhrəmanlıq eposunda çoxlu sayda təşbehə rast gəlinir. “Tərlan kimi süzmək ona yaraşır “, “Ceyrana bənzər qaçışı” və. s.

Metafora: Köçürmə mənasını verən yunan sözüdür. Hər hansı əşyaya məxsus əlamətin digər bir əşyanın üzərinə köçürülməsinə deyilir. “Koroğlu”nun şeir dilində metaforalara az rast gəlinir.

Metanomiya: Addəyişmə mənasını verən yunan sözüdür. Hər hansı bir söz onunla əlaqəsi olan başqa bir sözlə əlaqələnir. “Koroğlu” min şeir dilində metanomiyalar üstün mövqedə çıxış etmir. Amma bunu da inkar etmək olmaz ki, “Koroğlu” nün şeir dilinin zənginliyinin həm də metanomiyalar şərtləndirir. Bu cəhət aşağıdakı nümunələrdə özünü qabarıq şəkildə göstərir.

Mübaliğə: Böyütmək, şişirtmək mənasını verən ərəb sözüdür. “Koroğlu” kimi bir qəhrəmanlıq eposunun şeir dilində qəhrəmanların, eləcədə onlarla bağlı olan əşya və hadisələrin mübağiləli şəkildə verilməsi təbii qarşılanır. Hətta bəzən elə mübağilələrə təsadüf olunur ki, təkcə “Koroğlu” eposu yox, ümumən ədəbiyyatımız üçün zəngin mübaliğələr hesab oluna bilər.

Litota: Kiçiltmə mənasını verən yunan sözüdür. “Azərbaycan ədəbiyyatında mübağiləyə nisbətən litotaya nümunələr azdır.

Antiteza: Bir-birinə zidd iki anlayış və ya vəziyyətin qarşılaşdırılmasıdır.

Anafora: Misranın, cümlənin əvvəlində gələn təkrardır. Ritm və ahəngdarlığın yaradılması, melodiyalılığın təmin olunması, həmçinin poetik mənanın qüvvətləndirilməsində anaforik və epiforik təkarların rolu danılmazdır.

Anaforalar:

Bu söz çıxıb Telli, Nigar dilindən,
Bu qılıqda çodar olmaz,hay olmaz...
Hər iki misranın əvvəlində işlənən bu əvəzliyi anaforadır.
Biri şahin,qənim üstə əsəndi,
Biri qanlı başı tərəkdən asandı...
Bu misralardakı biri sözləri anaforadır.
Səksən min ilxıya, səksən min ata,
Səksən min mahaldan gələn barata,
Səksən min kotana, səksən min cütə,
Səksən min kotallı kala da verme!...

Ədəbiyyatımızdakı ən zəngin, ən təsirli anaforalardan hesab oluna bilər; Qıratın böyüklüyü, bənzərsizliyi anaforalar kontekstində canlandırılıb.

Epiforalar: Misranın, cümlənin sonunda gələn təkrarlardır.

Bolu bəyin məclisində məzəsən,
Məzəsən broy,broy!

İnversiya: Yerdəyişmə deməkdir. “Koroğlu”dakı şeir parçalarında inversiyaya rast gəlinir.

Çoxdur Koroğlunun yaşı,
Qardır Çənlibelin başı.

“Koroğlu” şeir dilində bir sıra frazeoloji vahidlərin inversiya ilə işlənməsi də diqqət çəkən məsələlərdəndir.

Başına dönmək - “Koroğluyam, oğul, dönüm başına”

Sözünü yerə salmaq - “Yerə salma sözüm qəssab, Qoy aparım mən Eyvazı.” və. s. misallarda biz

bunu aydın görürük.

**Nəticə:** Azərbaycan xalqının yaratmış olduğu möhtəşəm abidələrdən olan "Koroğlu" dastanında ahəngdarlığı, şirinliyi, dolğunluğu ilə diqqəti cəlb edən şeir şəkilləri və məcazlar işlənmişdir. Dastanda şeir şəkilləri olaraq: qoşma, gəraylı daha çox diqqəti cəlb edir. Həmçinin əlvan məcazlar sisteminə malik olan dastanda təşbeh, epitet, metanomiya, metafora, təkrir, mübağilə, litota, təzad, bədii sual diqqəti cəlb edir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ə.Tanrıverdi. Koroğlunun şeir dili. Bakı, 2015.
2. Koroğlu. Şərq-Qərb. Bakı, 2005.
3. Koroğlu, Hoydu dəlilərim hoydu. Azərbaycan dövlət nəşəriyyəti. Bakı, 2006.
4. M.Təhmasib. Azərbaycan dastanları. Bakı, 1969.
5. R.Əliyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 2014.
6. Eposşünaslıq: Problemlər, Mülahizələr. Bakı, 2013.

## BƏXTİYAR VAHABZADƏNİN "GÜLÜSTAN" POEMASINDA TARİXİ HADİSƏLƏRİN BƏDİİ ƏKSİ

***Tələbə:* Hüseynova Fidan Namiq qızı (AZD2001B),**
***Elmi rəhbər:* f.ü.f.d.,dosent, Allahverdiyev Vaqif Saleh oğlu**

Poema mənəvi həyatın qatlarını açan, tarixin ibrət dərslərini, insan məişətinin mənəvi-əxlaqi ahəng və təzadlarını, cəmiyyət və təbiət problemlərini geniş epik təfəkkürlə, lirik bir vüsətlə açıqlayan bədii forma kimi ədəbi prosesin maraqlı janrlarındandır. Azərbaycan poeziyasında bu janrın inkişafında xüsusi xidməti olan qüdrətli sənətkarlardan biri də Bəxtiyar Vahabzadədir.

Böyük sənətkar üslub orijinallığı ilə seçilən, obrazların zənginliyi, insan xarakterlərinin dərin təhlili baxımından sanballı, ədəbi ictimaiyyətin həmişə diqqətini cəlb edən poemalar yazmışdır.

Lirik təfəkkür tərzi, lirik duyum B.Vahabzadənin sənətkar özünəməxsusluğunu şərtləndirən cəhətlərdəndir. Onun yaradıcılığının başlıca ideya-mənəvi mündəricəsi, poetik-fəlsəfi düşüncələri daha çox lirik əsərlərində dolğun və çoxmənalı əksini tapmışdır. Ancaq bununla yanaşı, digər şairlərdə olduğu kimi, B.Vahabzadənin də poeziyasında poema janrı təbii qanunauyğun hadisə kimi səciyyəvidir. Öncə o səbəbdən ki, onun lirikası və epik əsərləri həm mövzu, ideya-fəlsəfi istiqamət, həm də forma-üslub baxımından yaxındır, digər tərəfdən müəllifin lirik məzmundakı ideya-mənəvi axtarışları, insan və zamanla bağlı düşüncələrinin yetkin inkişafı, dolğun ifadəsi poemalarında tamamlanır. Poema janrını şairin yaradıcılığında lirikanın daha yetkin və daha çox inkişaf etmiş mərhələsi kimi dəyərləndirmək lazım gəlir.60-80-ci illər yaradıcılığı, həmçinin bu tarixdən sonrakı illərdə də poemanın mövqeyi şairin yaradıcılığında davam etməkdədir. Bu zamanlarda B.Vahabzadənin poeziyasında lirika və epos bütövlükdə vahid pafosla-ahəngdar, çoxcəhətli şəxsiyyət konsepsiyası sahəsindəki axtarışlarla aşılanır və bu cəhətlər onun yaradıcılığında lirik və epik formanın vahid məcrada inkişafını şərtləndirən xüsusiyyət kimi önəm kəsb edir.

B.Vahabzadənin yaradıcılığında 60-80-ci illərdə poema janrı təkcə epik formada, təhkiyə ciddiyəti üslubunda deyil, daha çox poema-konsersiya, poema-düşüncə, zəngin lirik təhkiyə

formasında çıxış edir. Belə dolğun, səmimi və müfəssəl lirik üslubun, təhkiyənin mərkəzində, kökündə məhz dəyərli və müdrik, əzəmətli və böyük şəxsiyyətlərin obrazları, həqiqət axtarışları, dərin və mənalı düşüncələri qərar tutmuşdur.

Bədii yaradıcılığa 1943-cü ildə "Ana və şəkil" adlı ilk şeirini çap etdirdikdən sonra başlamışdır. O zamandan dövri-qədim mətbuatda şeirləri, elmi məqalələri, rəyləri müntəzəm çap olunur. "Mənim dostlarım" adlı ilk kitabında toplanmış lirik şeirlərdə faşizmə qarşı mübarizədə qalib çıxmış xalqın duyğu və düşüncələri əksini tapmışdır. Onun lirik şeir və poemalarında, mənzum pyeslərində müasir dövrün problemləri lirik-fəlsəfi planda, yeni əlvan boyalarla təsvir edilir. "İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" və "Rəqabət" (1960–2003) pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. Tənqidçi-ədəbiyyatşünas kimi də fəaliyyət göstərmişdir. "Səməd Vurğunun həyat və yaradıcılığı" mövzusunda doktorluq disertasiyası müdafiə etmişdir (1964).B.Vahabzadə 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi publisist kitabın və yüzlərlə məqalənin, eləcə də tarixi və müasir mövzuda 20-dən artıq iri həcmli poemanın müəllifidir. Şairin əsərləri – şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən ingilis, fransız, alman, fars, türk, polyak, ispan, macar, keçmiş Sovetlər Birliyi xalqlarının dillərinə tərcümə edilmişdir.

Xalqı oyandırmaq məqsədiylə əsərlərini qələmə alan Bəxtiyar Vahabzadə şeirlərində; vətən, millət, ailə, təbiət, dil, azadlıq həsrəti kimi mövzuları ən güclü və dərin məzmunlarla izah etmişdir.

Vahabzadənin şeirlərinə baxdığımızda gözə dəyən ilk mövzu vətən sevgisi olmaqdadır.

Şairin müxtəlif vaxtlarda qələmə aldığı bir sıra poemalar vardır ki, bunlar yalnız onun yaradıcılığı çərçivəsində deyil, ümumiyyətlə müasir Azərbaycan poeziyası miqyasında önəmli ədəbi hadisələr kimi zəngin səciyyəyə malikdirlər. Müəllifin bu səpkili poemaları sırasında "Sadə adamlar" (1954), "İztirabın sonu" (1956), "Şəbi-hicran" (1958), "Gülüstan"(1959), "Etifar" (1961), "Yollar, oğullar" (1963), "Həyat-ölüm" (1965), "416" (1967). "Muğam" (1974), "Ağlar-güləyən" (1962), "Təzadlar" (1966-1967), "Qiymət" (1970), "Atılmışlar" (1978), "İki qorxu" (1988), "Ikinci ömür" (1971), "Salam" (1971), "Qəm içində sevinc" (1966), "Vətən mənəm, mən vətənəm" (1972) "Amerika gözəli" (1983), "Şəhidlər" (1990) və s. kimi əsərlərin adlarını qeyd etmək olar. Bu poemalarda şairin həyatı və insanları kəskin dramatik konfliktlər mühitində, realist psixoloji aspektdən əks etdirmək, həmçinin canlandırmaq məharəti və imkanları sənətkarlıq keyfiyyəti kimi diqqəti cəlb edir.

B.Vahabzadə yaradıcılığında poemadan müasir insanın obrazını geniş, əhatəli şəkildə əks etdirməyə, onun xarakterinin təşəkkülünü göstərməyə münasib bir janr kimi istifadə olunur.

Onun poemaları yüksək ideya xüsusiyyətlərinə, kalorit gözəlliyinə, daxili dinamika və dramatizminə görə diqqətəlayiqdir. Poema universal janr olduğuna görə, şairin yaradıcılığında müşahidə edilən başqa ədəbi növlərə məxsus ən yaxşı keyfiyyətləri, sənətkarlıq komponentlərini özündə cəmləşdirə bilir və onun həm lirik, həm epik, həm də publisistik üslubu imkanlarının bir janr daxilində vəhdətini, sintezini ortaya qoyur.

B.Vahabzadənin poemaları humanitar fəlsəfi ənənələrin təkamülü zəminində yeni ideyalar və sənətkarlıq təcrübəsi ilə zənginləşərək milli oyanış, milli-mənəvi dirçəlişin amili və stimuluna çevrilmişdir.

Yaradıcılığı mövzuca zəngin olsa da, onu gənc yaşlarından xalqa tanıdan və sevdirən "Gülüstan" (1958) poeması olmuşdur. Milli azadlıq və müstəqillik ideyaları aşılayan bu əsər ilk dəfə Şəkinin "İpəkçi" qəzetində nəşr olunmuş və qısa zaman ərzində əlyazma şəklində əldən-ələ gəzərək geniş oxucu kütləsinin dərin rəğbətini qazanmışdır. Əsərin az zaman kəsimində belə sevilməsinin bir səbəbi qadağan olunmuş mövzunun cəsarətlə işlənməsi idisə, digər səbəbi onun bədii cəhətdən dolğun olması, yüksək sənətkarlıqla yazılması idi. Poema vahid süjet xəttinə malik deyil. Cəmi 52 bənddən ibarətdir. Məlumdur ki, 1804-cü ildən etibarən Rusiya Azərbaycan xanlıqları arasındakı ixtilafdan istifadə edərək xanlıqları bir-bir zəbt etməyə başlamış və nəhayət, 1813-cü ildə Gülüstan kəndində Rusiya və İran arasında Azərbaycan torpaqları bahasına sülh sazişi imzalanmış, nəticədə Azərbaycan ikiyə bölünərək, bir hissəsi Rusiyanın ixtiyarına keçmiş, digər hissəsi İranın tərkibində qalmışdır. "Gülüstan" poemasında bu ədalətsiz tarixi hadisənin şairdə doğurduğu qəzəb və nifrət ifadə olunmuşdur. Sovet dövründə Azərbaycanın ikiyə bölünməsi və ya gələcək birliyi barədə danışmaq qadağan idi. Bu poemaya görə 1962-ci ildə şair çoxsaylı təqiblərə məruz qalmış, "millətçi" damğası ilə damğalanmış, işlədiyi universitetdən kənarlaşdırılmışdır. Bəxtiyar Vahabzadə "Gülüstan" poemasını Azərbaycanın birliyi və istiqlalı uğrunda çarpışan Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin əziz xatirəsinə ithaf etmişdir.

Vahid süjet xəttinə malik olmayan poema əslində tarixi mövzulu bir əsər olmaqla bərabər, Azərbaycanın Sovet imperiyası tərkibində olmasına sərt bədii etiraz idi.

"Gülüstan" poeması yalnız B.Vahabzadənin fərdi yaradıcılığının, həmçinin ədəbiyyatımızın hadisəsi deyil, bütövlükdə milli-mənəvi düşüncəmizin, milli mənlik şüurunun, milli özünüdərkin intişar tapdığı çox dəyərli sənət hadisəsi kimi səciyyəvidir. Bu əsərdə ikiyə bölünmüş xalqımızın, vətənimizin tarixi faciəsi yüksək vətənpərvərlik hissi və cəsarəti ilə əks olunmuşdur. Şair tarixi faciəmizin baş verdiyi səhnəni sənətkar-vətəndaş ağrısı ilə canlandırır.

İpək yaylığıyla o, asta-asta,
Silib eynəyini gözünə taxdı.
Ayılıb yavaşca masanın üstə
Bir möhüra baxdı, bir qola baxdı.

Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək.
Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınc tək.

Bu misraların ruhunda vətəninin, xalqının, taleyi üçün ağrıyan bir şair-vətəndaşın harayını eşidirik. Sənətkar məharəti ilə qələmə alınmış misralarda şairin kədər dolu səsində bir poetik etiraz notu duyulur.

Öz sivri ucuyla bu lələk qələm,
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı,
Ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın.
O güldü, kağıza qol çəkən zaman,

Qıydı ürəklərin hicran səsinə.
O güldü haqq üçün daim çarpışan
Bir xalqın tarixi faciəsinə.

Öz xalqının tarixi faciəsini bədii sənət müstəvisində böyük cəsarətlə canlandıran şair, ilk dəfə olaraq ədəbiyyatımızda milli düşüncənin, milli özünüdərkin təməlini qoydu.

B.Vahabzadə əllinci illərin axırlarından başlayaraq mübariz ruhda, vətənpərvərlik duyğularıyla millət sevgisini təbliğ edən qabaqcıl və aktiv düşüncə sahibi kimi, görkəmli şair kimi xalqın diqqəti və məhəbbətini qazanmışdır. Həmin dövrdə millətpərəstlik sovet ideyalarına çox əks bir ideologiya kimi rədd edilir, onun tərəfdarları ciddi təqib olunur, bəzən ağır cəzalandırılırdılar. Mənsub olduğu xalqı, milləti sevmək, onun taleyində baş verən ədalətsizlikləri cahana yaymaq, milli düşüncənin, milli şüurun inkişafına xidmət edən fikirləri təbliğ etmək millətçilik hesab olunurdu.

Sovet imperiyasının, kommunist rejiminin at oynatdığı, siyasi senzuranın tüğyan etdiyi bir dövrdə öz xalqının, vətəninin ağrı dolu taleyini qələmə alaraq, işğalçıya, yadelliyə kəskin nifrət hissini bədii sənət dili ilə ifadə etmək süräti böyük qəhrəmanlığa bərabər idisə, digər tərəfdən şairin şəxsi taleyi üçün ağır fəlakət sayılırdı. B.Vahabzadə 1959-cu ildə qələmə aldığı "Gülüstan" poemasını "Şəki fəhləsi" qəzetində dərc etdirdikdən sonra imperiyanın əlaqədar təşkilatlarının qəzəbinə tuş gəlir. Poemada şair etirazının qaynaqlandığı məsələnin kökünə diqqət edək.

1813-cü ildə Rusiya və İran arasında bağlanan "Gülüstan müqaviləsində İran dövləti Gəncə, Şəki, Şirvan, Quba, Qarabağ, Talış və Bakı xanlıqlarından, həmçinin Dağıstan və Şərqi Gürcüstan ərazilərinin Rusiyaya verilməsini rəsmi olaraq qəbul etdi. Bununla da rus imperiyası öz işğalçılıq siyasətini rəsmiləşdirməyə nail oldu.

B.Vahabzadənin "Gülüstan" poeması qeyrətli şairvətəndaşın bədii etirazı və poetik "üsyanı" idi.

Əyləşib kənarda topasaqqal ağa,
Hərdən mütərcimə suallar verir.
Çevrilir gah sola, baxır gah sağa,
Başını çevirib təsbeh çevirir.

Qoyulan şərtlərə razıyıq deyə,
Tərəflər qol çəkdi müahidəyə.
Tərəflər kim idi?!
Hər ikisi yad!

Çar Rusiyası ve Iran dövləti poemanın ifşa hədəfi olaraq şair tərəfindən kəskin hiddətlə lənətləndirilir. Poemanın hər misrası sanki yadelliyə, işğalçıya qarşı atılan mərmiyə bənzəyir. Bu misralarda xalqın ərən oğullarının etiraz harayı duyulur.

Yadlarmı edəcək bu xalqa imdad?!
Qoy qalxsın ayağa ruhu Tomrisin.
Babəkin qılıncı parlasın yenə
Onlar bu şərtlərə sözünü desin.

Şair “bu şərtlərə” ifadəsi ilə parçalanmış, həmçinin ilhaq olunmuş torpaqlarımızı nəzərdə tutaraq, buna Babək qılıncının müdaxiləsini təbliğ edir. Həm də “vətənin mərd oğulları”nın “bərələri, yolları” açmaq cürəti arzulayır, onlara ulu babaların əzəmətini, hünərini xatırladır.

Bəs hanı bu əsrin öz Koroğlusu –
Qılınc Koroğlusu, söz Koroğlusu?
Babaların şəni, şərəfi, əlbət ,
Bizə əmanətdir, böyük əmanət...

Əsər bədii-publisistik dildə yazılsa da, şairin poetik məramı, bədii niyyəti yığcam, lakonik və kəskindir. O, xalqımızın, millətimizin taleyinə qəsd edənlərin, millətin, yurdun ikiyə bölünməsinin səbəkarlarını casarətlə, ifşaedici şəkildə əks etdirmişdir.

Atıb imzasını hər kəs varağa,
Əyləşir sakitcə keçir yerinə.
Eynəkli cavanla, təsbehli ağa
Qalxıb əl də verir biri-birinə.

Burada “eynəkli canab” rusların, “təsbehli ağa” isə farsların nümayəndəsi kimi nifrətlə təsvir olunmuşdur. Daha sonra şair bu nümayəndələrin mənsub olduqları hakimiyyətlər tərəfindən Azərbaycana qarşı törədilən ədalətsizliklərin, mənəvi və fiziki əzabların bədii-psixoloji mənzərəsini canlandırmışdır.

Min ləkə vurdular şərəfimizə,
Verdik, sahibimiz yenə “ver”- dedi.
Lap yaxşı eyləyib doğrudan, bizə
Biri “baran” dedi, biri “xər” dedi.

Şairin bu əsərdə bədii dillə ifadə etdiyi ittihamlar senzuranı möhkəm diksindirmişdi. Buna görə də əlaqədar təşkilatlar məxsusi cəza mexanizmini işə saldılar. Amansız təqiblərə baxmayaraq, xalqının qəlbində cəsarətli şair oğluna tükənməz və əbədi məhəbbət doğuldu. Təsadüfi deyildi ki, qadağan olunmuş bu əsər xalqın vətənpərvər övladları tərəfindən əzbərlənir, üzü, köçürülərək gizli surətdə əldən-ələ gəzirdi.

İctimai-siyasi, həmçinin vətəndaşlıq poeziyasının dəyərli nümunələrindən biri olan “Gülüstan” poemasında mövzunun ideya-məzmunu, həmçinin etik-əxlaqi və bədii-fəlsəfi düşüncələr aləmi zəngindir.

B.Vahabzadənin vətəndaşlıq lirikası yalnız vətənin, yurdun tərənnümündən ibarət deyil, ümumxalq miqyaslı mühüm problemlər, əxlaqi və mənəvi düşüncələr onun vətəndaşlıq lirikasının ideya və məzmununu ifadə edir. Məhz bu baxımdan “Gülüstan” poemasında şair ictimai laqeydliyi, həqiqət və ədalət uğrunda mübarizədən uzaq durmağı, xalqın dərdinə, iztirabına, ədalətin tapdanmasına biganə və soyuqqanlı olmağı əxlaqi-mənəvi, həmçinin milli özünüdərk aspektindən mühakimə edərək dəyərli bədii-fəlsəfi ümumiləşdirmə yaradır.

Dolandı zamana, döndü qərinə,
Şairlar od tökdü yenə dilindən.
Vurğunun o həsrət nəğmələrinə
Şəhriyar səs verdi Təbriz elindən.
Bir uçaydım bu çırpınan yelinən,
Qovuşaydım dağdan aşan selinən.

Ağlasaydım uzaq düşən elinən
Bir görəydim ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı".

Şairin poemanı Şəhriyarın məşhur "Heydar baba" poemasının haray dolu misraları ilə tamamlamasının səbəbi, məhz xalqın ruhunun, məhəbbətinin həmişə bütöv olmasını, bədii fakt və dərin poetik-fəlsəfi niyyət kimi ümumiləşdirməsidir.

"Gülüstan" poeması B.Vahabzada yaradıcılığının milli zirvəsidir. Əsərin bədii-publisist notlarla yazılması, ciddi ittiham va qaynaqların, həmçinin sərt həqiqətlərin dolğun ifadə olunmasına vəsilə olmuşdur. Poema həm də bədii təsvir və ifadə əlvanlığı, zəngin təzadlarla diqqəti cəlb edir. Bu da şairin yüksək sənətkarlıq məziyyətlərinin təsdiqidi.

B.Vahabzadə "Gülüstan" poeması ilə başlanan və həqiqi şair-vətəndaş qayəsi ilə daim yaşayan sənətkar olduğu üçün ədəbi düşüncəmizdə "milli birliyin, vahid Azərbaycanlığın" öncülünə çevrildi. Görkəmli tənqidçi Vaqif Yusifli onu belə səciyyələndirir: "...Onun poeziya tarixində xidmətlərini şişirtmək niyyətində deyilik. Ancaq fakt burasındadır ki, milli bilik, Azarbaycanı vahid görmək ideyası sovet dönəmində Baxtiyar Vahabzadədən başlayır".

B.Vahabzadənin poemasında dili, torpağı bütöv bir xalqın bu şəkildə parçalanması yalnız tarixin acı və ədalətsiz faktı olaraq qeyd olunmur, həm də aydın dərk olunmuş, yaranmış bir ağrı hissi kimi ifadəsini tapır. Lakin bu kədər nə qədər ağır olsa da, xalqın mənəvi bütövlüyü, səbatı, birlik ruhu bu iztiraba dözür. Şair bu ağır faciəni əks etdirməklə bahəm, həm də xalqın milli bütövlüyünə inam hissini, gələcək qalibiyyətə ümid duyğusunu da ifadə etməyi öz şəxsi cəsarəti ilə göstərir.

**Nəticə:** Tariximizi öyrənmək və xalqımızın başına gətirilmiş dəhşətli faciələri öyrənmək baxımından Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasının əhəmiyyətinin daha böyük olduğunu və gənclərimizdə vətənpərvərlik hissinin aşılanması, düşmənə qarşı barışmaz mövqe və onlarda qəhrəmanlıq hissinin aşılanması məsələsini ön plana çəkərək tədqiqat işimin nəticə hissəsində qeyd etmişəm.

**İstifadə olunmuş ədəbiyyat:**

1. B. Vahabzadənin seçilmiş əsərləri. II cild. Bakı, 2004.
2. H. Həsənov. Azərbaycanın Bəxtiyarı yaxud "Gülüstan"dan "Şəhidlərə gedən yol". Bakı, 2009.
3. Türk dünyasının Bəxtiyarı, 2 hissədə. Bakı, 2002.
4. V. Yusifli. Poeziyanın yolları və illəri. Bakı, 2009.
5. V. Yusifli. Poeziyamızın Bəxtiyarı. Bakı, 2010.
6. V. Allahverdiyev. Bəxtiyar Vahabzadə yaradıcılığında milli özünüdərkin bədii-fəlsəfi ifadəsi. Bakı, 2011.

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏ MAARİFÇİ-REALİST KONSEPSİYANIN BANİSİ KİMİ

***Tələbə: İmanova Könül Vüqar qızı (AZD2102B),***
***Elmi rəhbər: b/m. Rzayeva Qərənfil Zeyqəm qızı***

Mirzə Fətəli Axundzadə Azərbaycan xalqının əsrlər boyu yaratdığı böyük mədəniyyətin məntiqi, qanunauyğun bəhrəsi kimi meydana gəlmiş, əldə edilmiş nailiyyətlər, mütərəqqi ideyalar onun ictimai-siyasi və fəlsəfi görüşlərinin, həmçinin sənətə baxışının təşəkkülündə mühüm rol oynamışdır. M.F.Axundzadənin maarifçi-realist konsepsiyası, ictimai fikir və fəlsəfi düşüncəsi insanlığın şüurunda kök salmış cəhalətə, dini fanatizmə nəinki şübhə toxumu səpmiş, həmçinin geriliyin müdafiəçisi olan mövcud cəmiyyətin dayaqlarına öldürücü zərbə endirmişdir. O cəmiyyətə ki, tarixdə görünməmiş qanunlar yazır, insanlığın mənəvi məhvi üçün bütün üsul və vasitələrini səfərbər edirdi.

M.F.Axundzadə mütərəqqi Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, ictimai-siyasi, fəlsəfi fikrinin inkişafında əvəzsiz xidmətləri olan bir sənətkardır.

O, 1812-ci ildə Nuxa şəhərində anadan olmuşdur. Onun atası Təbriz vilayətinin Xamnə qəsəbəsindən, anası isə Şəkidəndir. Mirzə Fətəli ilk təhsilə hələ Xamnədə - mollaxanada başlamışdır. Lakin o, mollaxana təhsilinin sərt qayda-qanunlarına tab gətirməyib, məktəbdən qaçmışdı. Belə olduğu halda Hacı Ələsgər kiçik Fətəlinin istedadlı uşaq olduğunu görür və onun təlim-tərbiyəsi ilə şəxsən özü məşğul olmağa başlayır. Hacı Ələsgər öz dövrünün savadlı, gözüaçıq, alicənab və böyük hörmət sahibi olan ruhanilərindən idi. Mirzə Fətəli yenə "Tərcümeyi-hal"ında onu istər "farsca, istərsə də ərəbcə bütün islami elmlər" sahəsində mükəmməl məlumatı olan "nadir bir alim" kimi təqdim edirdi. Axund Hacı Ələsgər kiçik Fətəliyə dini təhsil verir, fars və ərəb dillərini öyrədir, Şərq ədəbiyyatı klassiklərinin əsərləri ilə tanış etməyə başlayır.

M.F.Axundzadə Tiflisdə gözəl və mənalı bir ədəbi mühitə düşür; 30-40-cı illərdə görkəmli Azərbaycan yazıçıları A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazeh və Q.Zakirlə, Qafqazda sürgündə olan dekabrist yazıçı A. A. Bestujev-Marlinski və başqa bu kimi dövrün qabaqcıl dünyagörüşlü ziyalıları ilə əlaqə saxlamış və onların ədəbi-nəzəri fikirlərindən bəhrələnmişdir.

M.F.Axundzadə Tiflisdə öz bilik dairəsini genişləndirməyə xüsusi diqqət yetirmiş, böyük həvəs və ehtirasla dünya mədəniyyətinin nailiyyətlərinə yiyələnmişdir. O, klassik Azərbaycan və Şərq ədəbiyyatını, Firdovsi, Nizami, Hafiz, Cami, Sədi, İbn Sina, Şeyx Mahmud Şəbüstəri, Vaqif, Vazeh, Zakir və A. Bakıxanovun yaradıcılığına dərindən bələd olmuşdu. O, təkcə bunlarla kifayətlənməyib, eyni zamanda rus ədəbi və ictimai fikrinin görkəmli nümayəndələrinin – Lomonosov, Derjavin, Karamzin, Qriboyedov, Puşkin, Lermontov, Qoqol, Belinski, Çernışevski, Dobrolyubov və b. rus yazıçıları, tənqidçi və mütəfəkkirlərinin əsərləri ilə tanış olmuş, rus mədəniyyətinin mütərəqqi ideyalarına yiyələnmişdi. O, rus dili vasitəsilə Qərbi Avropa ədəbi, ictimai-siyasi, fəlsəfi və elmi fikri sahəsində geniş, hərtərəfli və mükəmməl məlumat əldə etmişdir.

XIX əsr Azərbaycan ədəbiyyatında maarifçilik ideyalarının inkişafından danışarkən, bu sahədə misilsiz xidməti olan, maarifçi-realist konsepsiyanın banisi Mirzə Fətəli Axundzadənin adı xüsusilə qeyd edilməlidir.

Mirzə Fətəli Axundzadə tarixi dövrün yetişdirdiyi nəhəng şəxsiyyət idi. O, dövrün yaradıcı insanlardan tələbini aydın bildiyi üçündür ki, özünə qədərki fikri cərəyanları, mütərəqqi ideyaları mənimsəməklə kifayətlənmədi, onları daha da inkişaf etdirərək, Azərbaycanda qabaqcıl ideologiyanın bayraqdarı səviyyəsinə yüksəldi.

M. F.Axundzadə Azərbaycan xalqının əsrlər boyu yaratdığı böyük mədəniyyətin məntiqi, qanunauyğun bəhrəsi kimi meydana gəlmiş, əldə edilmiş nailiyyətlər, mütərəqqi ideyalar onun ictimai-siyasi və fəlsəfi görüşlərinin, həmçinin sənətə baxışının təşəkkülündə mühüm rol oynamışdı. Qeyd edək ki, M.F. Axundzadənin ictimai-siyasi və fəlsəfi fikirlərinin ideya zəminində milli və beynəlmiləl mənbələrin vəhdəti dayanır. O, öz elmi, ədəbi yaradıcılıq ənənələrini ancaq milli ənənələrlə məhdudlaşdırmır, əksinə, bu çərçivəni cəsarətlə qırmağa çalışaraq, müasir dünya mədəniyyəti səviyyəsinə yüksəltmək yollarını axtarırdı. Beləliklə, mütəfəkkir sənətkarın dünyagörüşü zəngin milli fikrin zəminində, onunla möhkəm daxili əlaqələri olan ümumşərq kontekstində təşəkkül tapmış, rus və Avropa mənbələri isə ona professional Azərbaycan tənqidi və estetikasını yeni dövrün ümumi tələbləri səviyyəsinə yüksəltmək üçün geniş imkanlar açmışdı.

Azərbaycan ədəbiyyatı tarixində dramaturgiyanın və realist bədii nəsrin, fəlsəfi publisistikanın banisi kimi şöhrət qazanan Mirzə Fətəli Axundzadə eyni zamanda, müasir tipli ədəbi tənqidin də banisidir. "O, ədəbi tənqidin mahiyyəti, funksiyası, bədii tərəqqidə və ictimai fikrin inkişafında rolu haqda söz açan, onun xeyrini və gözəlliyini müasirlərinə başa salan birinci mütəfəkkirdir. Əlbəttə, Azərbaycan nəzəri-estetik fikir tarixində Mirzə Fətəliyə qədər bədii sözün, ədəbiyyatın ictimai funksiyası haqqında fikir söyləyən sənətkarlar çox olub. Lakin bizim ədəbi fikir və dil tariximizdə "kritika" və "tənqid" sözlərinə ilk dəfə M.F. Axundzadənin leksikasında təsadüf edilir".

M.F. Axundzadə tənqidinin və estetikasının başlıca problemi olan realizm onun sənət nəzəriyyəsinin əsasını təşkil edir. Yazıçının fikrincə, sənət əsərində "xilafi-vaqe", yəni real həyata zidd bir şey, anti-realizm olmamalıdır, bunun əvəzində sənətdə "mütabiqi-hal" təzahür etməlidir.

Mirzə Fətəli Axundzadənin ədəbi-tənqidi irsini araşdıran K.Talıbzadəyə görə, yazıçı bu metodun ayrı-ayrı prinsiplərini vahid bir konsepsiya əsasında şərh etmiş, öz realist nəzəriyyəsində maarifçi realizm mövqeyində dayanmış, bu məsələnin həlli uğrunda ardıcıl mübarizə aparmışdır. Gerçəkliyi sənətin əsas təsvir obyekti hesab edən Axundzadəyə görə hər hansı bir təsvir ağlın tələblərinə uyğun olmalıdır. O, məhz bu tezisdən çıxış edərək realizmin prinsiplərini müəyyənləşdirməyə çalışmışdır.

Mirzə Fətəlinin tənqid nəzəriyyəsi, onun özünüdərki milli ədəbiyyatımızda XX əsrin əvvəllərində tamamilə yeni mərhələyə qədəm qoymuşdu və bu dövrün ədəbi-ictimai fikri məhz M.F.Axundzadəni ilk Azərbaycan tənqidçisi kimi tanımış, ona rəğbət bəsləmişdir. "Beləliklə, ədəbi tənqid öz inkişafının yeni və mürəkkəb bir mərhələsinə – milli intibah, inqilab və təbəddülatlar dövrü olan XX əsrə Axundovun realist tənqidi ənənələri ilə gəlmişdi".

M.F.Axundzadə hələ XIX əsrdə Azərbaycan mədəniyyətinin, azərbaycançılıq ideologiyasının inkişafında mühüm xidməti olan şəxsiyyətlərdən biri kimi də tanınır. O, bu dövrdə Azərbaycan xalqının mütərəqqi ideallara inteqrasiyası baxımından əhəmiyyətli xidmət göstərmiş, yeni, Avropa tipli ədəbiyyatın dram, bədii nəsr, ədəbi tənqid, publisistika kimi janrlarını anadilli ədəbiyyatımıza daxil etməklə, xalqla ünsiyyətin yeni üsullarını tapmış və xalqını zamanın tələbinə uyğun düşünməyə, fəaliyyət göstərməyə səsləmişdir.

"Axundov öz komediyalarında milli həyatımızın gerçəkliklərini, adət-ənələrini, ictimai davranış normalarını güzgü kimi əks etdirir, bu həyatın gerilikçi tərəflərini tənqid etməkdən çəkinmir, xalqa şirin yalanlar söyləməkdənsə, əsil maariflƏndirmə - acı gerçəkləri göstərmək yolunu tuturdu".

Türk-müsəlman xalqlarının dünya sivilizasiyasının müasir dəyərlərinə qovuşmaq məqsədi ilə latın qrafikalı yeni əlifba uğrunda qoşulduğu mübariz hərəkatı da, öncə Mirzə Fətəli Axundzadə başlatmışdı.

Akademik F.Qasımzadənin fikrincə, 50-60-cı illərin maarifçiliyi əvvəlki maarifçilikdən özünün daha mübariz və təsirli olması ilə, demokratik ideyalarla daha çox çulğaşıb qarışması ilə, nəhayət, azadlıq hərəkatı ilə bilavasitə bağlı olması ilə seçilir. Bu sonrakı, kamil maarifçiliyin əsas fərqləndirici cəhətidir ki, öz əksini daha dolğun şəkildə M.F. Axundzadənin yaradıcılığında tapmışdır.

XIX əsrin 50-60-cı illərində feodalizmin dağılması prosesinin sürətlənməsi, xalq azadlıq hərəkatının genişlənməsi realist ədəbiyyatın inkişafını sürətləndirirdi. Xalqın millətə çevrilməsi prosesi başlamışdı. Xalq şüuru inkişaf edib milli şüura çevrilirdi. Milli şüurda ictimai həyata qarşı oyanan fəal münasibətin getdikcə artması ədəbiyyatın həyatla olan əlaqəsini möhkəmləndirdi. Ədəbiyyat həyat həqiqətini nisbətən daha geniş və dərindən əks etdirməyə başladı, mövzu və məndəricəsi əhəmiyyətli dərəcədə dəyişərək ictimailəşdi. Feodal-patriarxal cəmiyyətin yaratdığı ətalət və süstlük, cəhalət və nadanlıq, mədəni gerilik, zorakılıq əleyhinə mübarizə ədəbiyyatın aktual mövzularına çevrildi ki, bu da milli şüurun dirçəlişinə gətirib çıxardı. M. F. Axundzadə bədii sənətin amalından danışarkən təxminən belə bir fikir ifadə edirdi ki, burada məqsəd xalqın tərəqqisinə, elmə, mədəniyyətə qovuşmasına nail olmaqdır.

Xalqının taleyini düşünən M.F. Axundzadənin ideya mübarizəsinin əsas qayəsi azadlıq və ədalət bayrağını yüksəklərə qaldırmaqda, öz yaşayışını dinc yolla qurmaqda, xoşbəxt və firavan həyata qovuşmaq arzusunda olan xalqına yol göstərmək olmuşdur. O, milli şüurun oyanmasına əngəl olan zülm evinin – despotik cəmiyyət quruluşunun dağılmasının tərəfində idi. Mütəfəkkir-alim, dövlət məsələlərində islahatlar yolu ilə əldə edilmiş xalq hakimiyyətinin və parlament yaratmağın tərəfində idi. "Azadlıq və demokratiyanı anlamaqda Axundzadə sonralar daha da irəli getmiş və bunların baş tutmasının yalnız mövcud quruluşu dəyişməklə, cəmiyyətin əsaslarını köklü surətdə dağıtmaq və yeniləşdirmək yolu ilə mümkün olacağını dərk etmişdir".

Axundzadənin fikrincə, cəmiyyət quruluşunda lazımi islahatlar aparılarsa, xalq cismani və mənəvi azadlığa qovuşarsa, onu elm və mədəniyyətin nailiyyətləri ilə tanış etmək, kütləni savadlandırmaq, tərəqqiyə çatdırmaq mümkün olar və bu da öz növbəsində milli şüurun dirçəlməsinə, xalqın gələcəkdə öz müqəddəratını təyin edə bilmək bacarığının formalaşmasına gətirib çıxara bilər.

Əgər diqqət etsək görərik ki, M.F.Axundzadə "Aldanmış kəvakib" povestində oxucusuna mütərəqqi, ədalətli hökmdar kimi təqdim etdiyi Yusif Sərracı "hakimiyyətə gətirməklə" cəmiyyəti islahatlar yolu ilə dəyişdirmək ideyasını irəli sürmüş və xalq hakimiyyətinin tərəfində olduğunu yaratdığı obraza, onun əməllərinə münasibətində ifadə etmişdir. "M.F.Axundov Yusif Sərracı hakimiyyət başına tez gətirmək seçimində təsadüfiliyə yol verməmişdir – hərçənd belə nəticə çıxaran ədəbiyyatçılar, oxucular istisna deyil. Yazıçı dünyagörüşünün demokratik və məntiqi idi ki, hakimiyyət başına gələn siniflərdən yalnız fəhlə sinfinin əxlaqi illüziyalara, riyakarlığa ehtiyacı

olmur. Ona görə ki, bu sinfin azadolma şəraiti eyni zamanda bütün cəmiyyətin istismardan, zülmdən qurtulması deməkdir ".

Demokratik fikirli mütəfəkkir-alim, insan ağlının hər cür ətalət və süstlükdən, cəhalət və mürtəce quruluşun mövcud buxovlarından azad olması ideyasını irəli sürür, Avropa və Asiyada, o cümlədən bütün dünyada insan ağlının əbədi məhbusluqdan tamamilə azad olmasını bəşəriyyətin xoşbəxt yaşayışının açarı hesab edirdi. M. F. Axundzadə bu barədə yazır: "Bəşəriyyətin xoşbəxtlik və səadəti o vaxt mümkün olacaqdır ki, istər Asiyada və istərsə Avropada insan əqli əbədi həbsdən tamam qurtaracaq, işlərdə və fikirlərdə yalnız insan əqli sənəd və dəlil hesab edilib, hakimi mütləq olacaqdır".

Zaman keçdikcə M.F.Axundzadənin ictimai-siyasi, fəlsəfi dünyabaxışında ciddi dəyişikliklər yaranmış, "Aldanmış kəvakib"də irəli sürdüyü siyasi fikirlər "Kəmalüddövlə"də inkişaf etdirilərək daha yetkin şəkildə ifadə olunmuşdur.

"70-ci illərdə onun dünyagörüşünün inkişafı öz yetkin və kamil həddinə çatır və inqilabçı-demokrat səviyyəsinə yüksəlir; o, bütün Yaxın Şərq ölkələrində azadlıq ideyalarının carçısı olur.

Azərbaycan xalqının mənəvi mədəniyyətinin inkişafında bütöv bir xətt onun adı ilə bağlıdır.

M.F.Axundzadə görkəmli maarifçi-demokrat, feodal quruluşu və islam dini- mistik ideologiyasının qatı əleyhdarıdır. O, ilk dəfə olaraq, ərəb əlifbasının latın əlifbası ilə əvəz olunmasını irəli sürmüşdür, dini fanatizmə və Şərq despotizminə qarşı öz güclü səsini qaldırmışdır". Ş.Məmmədovun fikrincə, M.F.Axundzadənin fəlsəfi-siyasi ideyaları Azərbaycan və İranın ictimai və fəlsəfi fikrinin sonrakı inkişafına daha güclü təsir göstərmişdir.

**Nəticə:** Nəticə etibarilə deyə bilərik ki, vaxtilə bəşər mədəniyyəti tarixinin parlaq səhifələrinin yarandığı Azərbaycanda, ümumiyyətlə müsəlman Şərqi ölkələrində xurafat və cəhalətin inkarı olaraq maarifçiliyin özünə yer tapması təbii və qanunauyğun bir hadisə idi. Qərbdən gələn təsirin nəticəsində XIX əsrin əvvəllərindən təşəkkül tapan Azərbaycan maarifçiliyi, əsrin sonlarınadək böyük bir yol qət etdi və XIX əsr Azərbaycan insanının düşüncəsində, həyata baxışında, yaşam tərzində ciddi dəyişikliklər yaratdı. Əsrlərdən bəri düşüncələrə hakim kəsilmiş "susmaq fəlsəfəsi"nə, zülmə boyun əymək, hər şeyi "təqdiri-ilahi"dən bilmək, bir qarın çörək üçün ağa, mülkədar qapısında böyun bükmək kimi feodal dünyasının qeyri-insani adət-ənənələrinə dünya maarifçilik ideologiyası və Azərbaycan maarifçiliyi birdəfəlik son qoydu. Abbasqulu ağa Bakıxanovun dünyaya baxışında formalaşan maarifçilik ideyaları Mirzə Fətəli Axundzadənin tənqidi təfəkkürünün süzgəcindən keçərək özünün yetkin mərhələsinə çatdı.

M.F.Axundzadənin maarifçi-realist konsepsiyası, ictimai fikir və fəlsəfi düşüncəsi insanlığın şüurunda kök salmış cəhalətə, dini fanatizmə nəinki şübhə toxumu səpmiş, həmçinin geriliyin müdafiəçisi olan mövcud cəmiyyətin dayaqlarına öldürücü zərbə endirmişdir. O cəmiyyətə ki, tarixdə görünməmiş qanunlar yazır, insanlığın mənəvi məhvi üçün bütün üsul və vasitələrini səfərbər edirdi.

Böyük tənqidci, ictimai-siyasi xadim, sözün əsl mənasında vətəndaş-sənətkar olan M.F. Axundzadənin apardığı ədəbi, ictimai-siyasi mübarizə layiqli bəhrəsini verdi. XX əsr Azərbaycan ədəbiyyatında yetişən ədəbi simalar, məhz onun tənqidi-realizmindən bəhrələnərək dövrün acı həqiqətlərinə ayna tuta bildi. Görkəmli dramaturq, nasir, publisist və pedaqoq Cəlil Məmmədquluzadə məşhur "Ölülər" əsərini yazdı. O, bu əsəri ilə mənən ölü Azərbaycan insanının

ruhuna can verdi. "Ölülər" ölü canların dirçəlməsinə, xalq kütlələrinin şüurunda baş verən köklü dəyişiklik, İsgəndərin xəyal belə etmədiyi cəmiyyətin yaranmasına gətirib çıxardı. Ölkəmizdəki azad cəmiyyət quruluşu, insanın fikir, söz azadlığı, sahib olduğu haqları tanıması və öz müqəddəratını təyin etmək üçün müstəqil qərarlar qəbul etməsi faktı, heç şübhəsiz, qaynağını məhz XIX əsr maarifçilərinin ideya mübarizəsindən alır.

**İstifadə olunmuş ədəbiyyat:**


1. M.F. Axundzadə. Əsərləri, II cild. Bakı, Şərq-Qərb, 2005.
2. F. Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1966.
3. M.F. Axundzadə. Əsərləri, III cilddə. Bakı, Şərq-Qərb, 2005.
4. Z.Əsgərli. Mirzə Fətəli və Füzuli. "Ədəbiyyat"qəzeti, 21 dekabr, 2012.
5. http//www//googl/com//…
6. Ş.Salmanov. Akademik Kamal Talıbzadə. Bakı, "Ozan", 1998.
7. T.Rəhimli. Ədəbiyyat və tənqidin yaradıcılıq problemləri. Bakı, "Avropa", 2009.
8. V.Ömərov. Axundzadənin əsərlərində azərbaycançılıq ideyaları. "Səs", 8 mart, 2012.
9. A.Eminov, N.Məmmədli. M.F. Axundovun obrazları və dilçilik görüşləri. Bakı, "Elm və təhsil", 2012.
10. Ş.Məmmədov. M.F.Axundovun dünyagörüşü. Bakı, 1962.


## VƏTƏN MÜHARİBƏSİNDƏ DÖYÜŞÇÜ - ŞAİR OBRAZI

***Tələbə: Nəbizadə Sürəyya Seymur qızı (AZD2101B),***
***Elmi rəhbər: b/m. Məhərrəmova Sevinc Ziyad qızı***

Vətən müharibəsi başlanan ilk gündən xalqımızın mərd oğulları vətənin azadlığı üçün döyüşə atıldılar. Bu vətən sevdalılarının içərisində qələmlərini silahla əvəzləyib şeirlərini qanları ilə ürəklərinə yazan gənc yazar və şairlərimiz də var idi.

Bu qurd ürəkli şairlərimizə Emin Piri, Oğuz Alparslan, Elvin İntiqamoğlu Eyvaz Əyyub, Həsən Kür, Səbuhi Qurbanov, Cavid Əlioğlu və başqalarını nümunə göstərmək olar.

Minlərlə Azərbaycan oğlu kimi bu şairləri də odlu-alovlu döyüş meydanına atan işğal altında inləyən Vətən torpağı, bu torpaq yolunda şəhid olan əsgərlərin, işgəncələrə və təhqirlərə məruz qalan qadınların, süd qoxulu körpələrin, ömrünün ahıl çağında işgəncə verilərək öldürülən qocaların əzab çəkən ruhları, alınmamış qisasları idi.

Hələ müharibəyə getməzdən əvvəl şəhidlər xiyabanında yaşca özündən kiçik, şəhid olan əsgərləri görüb xəcalət çəkən Emin Piri "Baş daşları utandırdı məni" şeirində yazırdı:

Məndən kiçikdi hələ
Məndən öncə doğulanlar
Əmi deyib üstümə qaçır baş daşları

Emin Piri torpağı uğrunda canlarından keçən bu əsgərlərin qanı yerdə qaldığı, torpaqlarımızın düşmən tapdağı altında olduğu üçün xəcalət çəkirdi:

Şəhid məzarlarını
mərmərə bükdük,

daş qoyduq başlarına
qalxa bilməsinlər
üzümüzə tüpürməyə.

Əslində Emin Pirinin poetik şəkildə təqdim etdiyi bu hiss hər bir azərbaycanlı gəncin düşüncəsi idi. Onlar bu intiqamın alınacağı günü o qədər həsrətlə gözləyirdilər ki, hətta bəzən dözməyib Ramil Səfərova, Mübariz İbrahimova çevrilirdilər.

Xocalı faciəsini iliklərinə qədər yaşayan, bu faciənin ağırlığı altında əzilən, faciəli şəkildə öldürülən insanların intiqamını almağa and içən Oğuz Alparslan da cəbhəyə getməmişdən əvvəl yazdığı "Türkəm mən" şeirində deyirdi:

Bozqurdam sözümün ağasıyam mən,
Şimşək tək gurlayıb, çaxasıyam mən,
Dönüb Qarabağın yanan köksünə,
Yurdum Xocalıya yağasıyam mən.

Vətən Müharibəsi iştirakçısı olan Həsən Kürün döyüşlərdə qəhrəmancasına şəhid olan dostlarına həsr etdiyi "Döyüşə kimlər gedir?" misrası ilə başlayan şeirinin qəhrəmanlarını da elə bu intiqam hissi, vətən sevgisi hərbi kömisarlığa gətirmişdi.

Əlim silah tutmasa
Çiynimdəki rütbəylə
Fərəhlənə bilmərəm.

Məni döyüşə göndər!- deyən bu oğullar vətəni düşmən tapdağından azad etmək üçün can atır, bu yolda ölümdən belə çəkinməyərək "təki vətən sağ olsun" deyirlər.

Bu şeirlər zəfərə gedən yolun başlanğıcı idi. Bu yolun özü isə qanlı savaşlardan, şəhid olan döyüş yoldaşlarının itkisindən doğan kədərə qarışan qarış-qarış geri qaytarılan Vətən torpağının sevincindən və Emin Pirinin poetizmi ilə desək "formamda şair qardaşlarımın qanı, gözlərimdə 44 günlük gecənin yuxusuzluğu"ndan keçirdi. Bir də əsir düşmək qorxusundan...

Qələmini silah ilə əvəzləyən şairlərimizdən Elvin İntiqamoğlunun "Mühasirə" şeirində bir günlük müharibə həqiqətlərinin real yaşantılarını görürük.

...Ölüm qorxusu deyil,
əsir düşmək qorxusudur qorxusuz müharibənin dərd tərəfi...

Əsir düşəcəkləri halda onları nəyin gözlədiyini bilən əsgər "etibarsız çıxan rabitə daşf"ndan sonra kömək çağıra bilməyəcəyini anlayaraq son çarəni ölümdə görür. Lakin təəssüf etmir, "təki Vətən sağ olsun" deyərək son gülləyə tərif verir.

Təki Vətən sağ olsun,
Çıxarın daraqları,
İçindən hərə bir güllə götürsün atsın cibə:
Ola bilsin oldu bizlər üçün son müharibə:
Mən onda bildim güllənin tərifini
Bir dəqiqəlik sükut,
Bir ömürlük göz yaşı.

Elvin İntiqamoğlu "Yağış suyu" şeirində isə döyüşçünün hissləri elə səmimi və içdən ifadə edilib ki, onun Allaha etdiyi duaları həyəcansız dinləmək olmur.

İlahi, bizi Sən qorudun,

yenə qoru - qoyma suya uduzaq,
əlinlə sıx, suyunu çıxart buludun...

Döyüşçü şairlərimiz ön cəbhədə yaşadıqları həqiqətləri təsvir etməklə yanaşı şəhid olmuş cəbhə yoldaşlarının ailə üzvlərinin yaşantılarını da poetik şəkildə əks etdirmişlər. Müharibənin yarımçıq qoyduğu arzular, övlad itirən atalar və analar, nişanlısının, həyat yoldaşının bir daha geri dönməyəcəyini bilən qadınlar, atasının niyə evə gəlmədiyini anlamayıb oyuncaq yolu gözləyən uşaqlar görünür bu şeirlərin misralarında.

Elvin İntiqamoğlunun "Şəhid qızı" şeirində şəhid olmuş əsgərin həyat yoldaşının və qızının yaşantıları əks olunub. Atasının evə qayıtmasını, ona oyuncaq almasını həsrətlə gözləyən uşağa söylədiyi yalanlar anaya əzab versə də qızı xoşbəxt edir. Bu mənzərəni təsvir edən şair də o ananın, o qızın halına yanır. Bu yalanların bir gün bitəcəyini, kiçik qızın atasını bir daha görməyəcəyini anlayacağını düşünərək kədərlənir. Ən qəribəsi isə bir uşağın, bir qadının həyatını alt-üst edən bu müharibədən şanlı zəfər tariximiz olaraq danışmaq məcburiyyətində qalmasıdır.

Anan yalan danışır
Yalanlar da atan kimi bir gün yoxa çıxacaq
Sinif yoldaşların sənə "şəhid qızı" deyəcək
Bilirsənmi nədi ən qəribəsi?
Tarix dərsində ağlaya-ağlaya
Yazacaqsan lövhəyə
"İkinci Qarabağ müharibəsi"

Döyüşçü şairlərimiz müharibə ilə yanaşı zəfər sevincimizi, vətənə qayıdış sevincimizi də öz şeirlərində əks etdiriblər.

Qələbə sevinci ilə Vətənə dönən döyüşçü şair Oğuz Alparslanın Xocalı faciəsində erməni vəhşiliyinə məruz qalan körpə qızcığazla dərdləşir. Döyüşçü şairin bu zəfərdən sonra bir az da olsa vicdanı rahatlıq tapdığı məlum olur.

Yaddaşımın qan yeri
Oyan! Qaldır üzünü...!
Bax... Sökülür dan yeri
"Otuz illik" yaddaşına bir daş at,
Xocalının dəhşətini yaşayan,
Erməni nifrətini öz bədənində daşıyan,
O balaca qızcığazın ağrıları dindimi?

Oğuz Alparslan bu şeirində az da olsa düşməndən intiqamını alan bir döyüşçüdür. Xocalıdan danışsam ağrın dinərmi bir az?" deyərkən hiss olunur ki, əslində o, illərdir ki, bu əzabı öz qəlbində daşıyır. Bu gün isə ədalətin bərpası ilə, torpaqlarımızın geri qaytarılması ilə az da olsa təskinlik tapır.

Qələbə sevincini əks etdirən ən gözəl şeirlərdən biri də Emin Pirinin yazdığı "Sən azadsan" şeiridir. Anasına Füzulidən, Cəbrayıldan, Şuşadan səslənməyin sevincini yaşayır. Soyuq noyabr gecəsində Şuşanın "imisti ana qucağına" sığınır, formasındakı şəhid qanı, gözlərində 44 gecənin yuxuzusuzluğu ilə "Sən azadsan" - deyə hayqırır.

Noyabrın dağ soyuğu,

Bumbuz olmuş bədənim, barmağımda titrəyən tətiyim və bizi qızınmağa çağırır Şuşanın

imisti ana qucağı. Formamda şəhid qardaşlarımın qanı, gözlərimdə 44 gecənin yuxusuzluğu, bir az həyəcan, bir az da sevinc tərinə qarışan geyimim, təqvimdəki "8 noyabr"

Qarabağ torpağıyla, palçığıyla büsbütün vətənləşən bədənimiz və bizi gözləyən Azərbaycan meydanlarda, ürəklərdə, gözləriylə hayqırır;

Sən azadsan!

Sən azadsan!

Yurda qayıdış sevincini yaşayan və misralarında əks etdirən döyüşçü şairlərimizdən biri də Eyvaz Əyyubdur. Qəhraman döyüşçü şairimiz vətənə qayıdış sevincini ən gözəl şəkildə öz şeirində əks etdirib.

Salam ay ellərin həsrəti Salam
Bizsiz darıxmısan? Hövsələn darmı?
Salam ev içində bitən gül-çiçək
Bizi kənd etməyə həvəsin varmı?

Salam ana yurdum, ata ocağım
İllərin həsrəti bitdi, gəlirik.
Sən bizsiz, biz sənsiz çox darıxmışıq
Vüsal həsrətinə yetdi, gəlirik.

**Nəticə:** İllərdir hər kəsin qəlbində vətən həsrəti var idi. Xalqımızın yaşadığı faciə hər bir Azərbaycan oğlunu əzir, qürurunu qırırdı. Vətən sevdası ilə ürəyi döyünən oğullarımız torpaqlarımızın düşmən tapdağı altında olmasından xəcalət çəkirdilər. Elə bu xəcalət Vətən sevdalı oğullarımızı döyüş meydanına atdı. Torpaqlarımızın azadlığı və şəhidlərimizin qisasının alınması onların tək amalı oldu. Elə buna görə də Vətənimizi darda görən kimi qələmi silah ilə dəyişdilər. Müharibəni iliklərinə qədər yaşayan şairlərimiz müharibənin dəhşətini, ağrılı-acılı günlərini, müharibənin əsil üzünü qələmə aldılar. Onların şeirlərindəki döyüşçü sadəcə obraz deyildi, real döyüşçü idi. Hər zərrəsinə qədər müharibə dəhşətini yaşayan real döyüşçü. Qəlblərində nisgil, gözlərində kədər və xəcalətlə şeirlər yazan şairlərimiz artıq başı dik, alnı açıq və qürurla şeirlər yazırlar. Çünki artıq qisas alınmış, ədalət bərpa olunmuşdur.

**İstifadə olunmuş ədəbiyyat:**

1. https://manera.az › ...

## CƏLİL MƏMMƏDQULUZADƏ HƏYAT VƏ YARADICILIĞINA QISA BİR BAXIŞ

***Tələbə: İsmayılova Aynur Kamran qızı (AZD2001B),***
***Elmi rəhbər: m. Abdullayeva Maya Mirzə qızı***

Cəlil Məmmədquluzadə 22 fevral 1869-cu ildə Naxçıvan şəhərində kiçik tacir ailəsində anadan olmuşdur. Ədibin babası daşyonan, bənna Məşədi Hüseynqulu İran Azərbaycanın Xoy şəhərindən olub, sonralar Naxçıvana köçmüşdür. Atası Məmmədqulu Məşədi (1840-1905) ibtidai səviyyədə savadı olan dindar biri olmuşdur. Naxçıvan şəhər üçsinifli məktəbində aldığı ibtidai təhsil, burada keçirilən dünyəvi fənlər, dərs deyən savadlı, təcrübəli müəllimlər, həyata keçirilən

maraqlı tədbirlər onun ideya-mənəvi təkamülündə dərin izlər buraxmışdır. Xüsusən, Naxçıvan şəhər üçsinifli ibtidai məktəbinin müdiri, Qori Müəllimlər Seminariyasını əla qiymətlərlə bitirmiş Əliməmməd Xəlilov, ana dili və şəriət müəllimi, teatr həvəskarı Mirze Sadiq Qulubəyov və başqaları sayəsində Cəlil Məmmədquluzadənin həyat və cəmiyyət barədə təsəvvürləri xeyli dərinləşmişdir. Ona görə də ibtidai təhsil illəri Cəlil Məmmədquluzadə üçün "işıqlı aləmə ilk addım" kimi dəyərləndirilmişdir. Cəlil Məmmədquluzadə 1887-1897-ci illər arasında Naxçıvanda pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, 1887-ci ilin sentyabr - oktyabr aylarında İrəvan quberniyasının Uluxanlı kənd ibtidai məktəbində müəllimlik etmişdir. Baş Noraşen məktəbinin müdiri Əliməmməd Xəlilovun köməyi ilə 13 oktyabr 1887-ci il tarixdən bu təhsil ocağına dəyişilən cavan pedaqoq, xalq arasında nüfuzlu müəllim kimi hörmət qazanmışdır. Bədii yaradıcılığa Baş Noraşendə ikən başlayan Cəlil Məmmədquluzadə 1889-cu ildə burada ilk qələm təcrübəsi olan "Çay dəsgahı" alleqorik dramını yazmışdır. "Çay dəsgahı" dramı elə həmin ildə Baş Noraşen ibtidai məktəbində müəllim və tələbələrin iştirakı ilə tamaşaya qoyulmuşdur. Daha sonra Nehrəm kənd ikisinifli məktəbində pedaqoji fəaliyyətini davam etdirən Mirzə Cəlil bu mərhələdə (1890- 1897) əsil xalq müəllimi kimi tanınmışdır. Cəlil Məmmədquluzadə 1907-ci ildə Qarabağın məşhur xanlarından olan Əhmədbəy Cavanşirin qızı, tanınmış qadın ziyalı Həmidə xanım Cavanşir ilə ailə həyatı qurmuşdur. O, ömrünü yoxsulluqla keçirmiş, elmə, maarifə rəğbət bəsləmişdir. Böyük ədibin həyat yolu kimi, yaradıcılığı da mürəkkəb, çoxcəhətli olmuşdur. O, bir müddət gərginideya-yaradıcılıq axtarışları aparmış, ədəbiyyatla bərabər teatr və mətbuata da meyl göstərmiş, Naxçıvanda və İrəvanda çox da ürəyindən olmayan inzibati işdə xidmət etmişdir.Yalnız illər uzunu davam edən zehni əmək sayəsində kasıb bir naxçıvanlının oğlu artıq doxsanıncı illərdə xalqının dərin zəkalı, geniş məlumatlı vətənpərvər simaları cərgəsinə keçməkdəydi. O, sonralar yazırdı: "Hər nə işə gedirdimsə, gərək bir yekə kağız əlimə alıb, hekayədən, nağıldan cızma- qaralayaydım".

Deməli, hələ ilk cavanlıq illərində onun yazıçılığa böyük meyli varmış.Bununla belə, dram əsərləri yazıçının yaradıcılığının mühüm bir hissəsini təşkil edir. Cəlil Məmmədquluzadə yalnız adi dram əsərləri yazmayıb. Onun müxtəlif mövzulu pyesləri forma və məzmun xüsusiyyətlərinə, estetik səciyyələrinə, xarakterlərinin əlvanlığına və bədii kamilliyinə görə milli dramaturgiya tariximizdə mühüm yer tutur. Ədibin teatr və dramaturgiya sahəsindəki fəaliyyəti də ona geniş şöhrət qazandırmış, xüsusən, məşhur "Ölülər" tragikomediyasının yazılması (1909) və Bakıda uğurla tamaşaya qoyulması (1916) onun ədəbi şöhrətini artırmışdır. "Kamança" (1920) və "Anamın kitabı" (1920) pyesləri ilə o, Azərbaycan dramaturgiyasını zənginləşdirmişdir. Cəlil Məmmədquluzada ədəbi yaradıcılığa pyeslə başlayıb.

Bu yaradıcılıq şərti olaraq iki dövrə bölünür.

I dövr: 1889-1906 cillər;

II dövr: 1909-1928-ci illər.

Onun ilk qələm məhsulu "Çay dəsgahı" (1889) alleqorik dramıdır. Əsər birpərdəlidir və nəzmlə yazılıb, süjeti sadədir, dramatik mübarizə bəsit şəkildədir. Bu pyes milli dramaturgiyamızda alleqorik janrda yazılmış İlk səhnə əsəridir. Bəlkə də bunun üçün müəllifin eyhamlardan, rəmzi işarələrdən istifadə etməsinə baxmayaraq, dramın janr xüsusiyyətləri cəhətdən bədii zəiflikləri vardır. Əsərin qüsurlarını hiss edən dramaturq onu çapa verməyib. Müəllif hadisələri Samovar, Padnos, Çaynik, İstəkan, Nəlbəki, Qaşıq, Maşa, Turpa, Nökər obrazları əsasında qurub. Mükaliməşəklində qələmə alınmış təmsili də xatırladır.

C.Məmmədquluzadənin təhkiyə üslubu, ilk növbədə, səmimiyyət va təbiliyi ila diqqəti cəlb edir. Alleqorik obrazlar özlərinin asil-nacabatlari ila fərz etməklə, günahkar olmadıqlarını sübuta yetirməyi bədii ifadə vasitələrinin köməyilə, bu keyfiyyətlərdən məhrum olan nökəri güdaza vermək məqsədini güdürlər. Yumoristik planda işlənmiş Nökər Əli də öz davranışı və danışığı ilə onların bu məqsədlərinin gerçəkləşməsinə şərait yaradır. Məsələn, Əli sadəlövlüklə etiraf edir ki, samovarda suyun qaynayıb Qaynamadığını yoxlamaq üçün özünəməxsus "orjinal" üsuldan istifadə edir:

Bilmədim qaynadı, ya qaynamadı,
Çünki hər vaxt qaydam belədi
Açıram mən sudan bir az əlimə,
Su əgər təsir eylədi dərimə,
Mən həmən vaxt çayı dəmləyirəm.

"Ölülər" dramı pyes milli dramaturgiyamızda ilk tragikomediya janrlı əsərdir. Dörd pərdədən ibarət olan "Ölülər" dramı 1909-cu ildə yazılıb. Xurafata, nadanlığa, rəzilliyə, mənəvi naqisliyin zehniyyəatdə yaratdığı faciələrə, mövhumat dələduzlarının ifşasına həsr edilmiş dram əsərləri içərisində "Ölülər" tragikomediyasına (daha çox satirik komediyadır) tay ola biləcək pyes yoxdur. Camaatın nadanlığından istifadə edərək və dini əldə dəstavüz tutaraq məzlumların başına müsibətlər gətirən fırıldaqçı Şeyx Nəsrulla, onun köməkçisi Şeyx Əhməd cəmiyyətin bütün rəzilliklərini görən və onların səbəblərini anlayan kefli İsgəndər, ölü dirilərmi? xofunda çaş-baş qalmış Hacı Həsən ağa Azərbaycan dramaturgiyasında yeni tipli bədii personajlardır, ümumiləşdirilmiş tipik xarakterlərdir. Qəbiristanlıq səhnəsi, yəni Şeyx Nəsrullanın "ölü diriltmə epizodu dünya dramaturgiyasında analoqu olmayan bədii ifadə vasitəsidir.

Həmidə Məmmədquluzadə yazır ki, Mirzə Cəlilin dediyinə görə, şeyxin ölüləri diriltməsi əhvalatı əsla uydurma deyil. Bir vaxtlar İrəvan quberniyasında belə bir hadisə baş vermişdi. Pyesin bütün tipləri Naxçıvan camaatından götürülmüşdür.

Cəlil Məmmədquluzadə publisistikası, nəsr və dram əsərləri ilə Azərbaycan ədəbiyyatını həm məzmunca, həm də formaca da zənginləşdirmişdir. Onun 1920-ci ildə qələmə aldığı "Anamın kitabı" dram əsərini oxuyan oxucu XX əsrin əvvəllərindəki Azərbaycan cəmiyyətindəki vətənə, xalqa, ana dilinə olan laqeydliyi açıq bir şəkildə görür. Bu laqeydliyin Azərbaycan ziyalılarında daha çox olması ziyalıların səhv yol tutduqlarının başlıca göstəricisi idi. Cəlil Məmmədquluzadə bu laqeydliyi tənqid etməkdən heç vaxt əsla çəkinməmişdir. Ədib "Anamın kitabı" dram əsərində xalqın nicat yolunu milli kimlikdə, vahid, azad Vətən ideyası ətrafında birləşməkdə görür.

Cəlil Məmmədquluzadə 1921-ci ildə" Danabaş kəndinin məktəbi "pyesini yazıb. Bilirik ki, nəinki Azərbaycanın bir parçası olmuş İrəvan quberniyasında, hətta cəmi məmləkətimizdə Danabaş kəndi adlı məkan olmayıb. Mirzə Cəlilin qənaətində bu ad rəmzi məna daşıyır və nadanlığın, geriliyin, dar düşüncənin, kütbeyinliyin, əbləhliyin toplumu kimi verilib.

Cəlil Məmmədquluzadənin yaradıcılığında xüsusi yer tutan "Dəli yığıncağı" tragikomediyası (1926) xalqın dilini, milli psixologiyasını, adət-ənənəsini bilməyən, Həzrəti Əşrəf kimi mərkəzdən göndərilərək idarə olunan yadelli hakimlərin və Lalbyuz kimi yabançı həkimlərin buxovundan azad edilməsini gündəliyə çıxaran, bir sözlə, böyük vətəndaşlıq cəsarətilə yazılmış qiymətli əsərdir. Hadisələr zaman və məkan etibarilə dəyişilərsə, belə düşünmək olar ki, guya XIX əsr İran Azərbaycanını əhatə etsə də, əslində "Dəli yığıncağı" tragikomediyasında keçən əsrin 20-ci illərində

Şura Azərbaycanında baş vermiş proseslər əhatə edilmiş, bütövlükdə yeni qurulmuş cəmiyyət "dəli yığıncağı" adlandırılmışdır.

**Nəticə:** Mirzə Cəlil ənənəvi ədəbi inkişafın meyarlarını dəyişdi. O hətta klassik Azərbaycan ədəbiyyatına yeni düşüncə tərzi gətirdi, ədəbi bədii şüurda islahatlar apardı. Ədəbiyyatımızın lirik qəhramanlar, epik qəhramanlar, dramatik qəhramanlar mənzərəsi dəyişdi. Satira məktəbi bütövlükdə ədəbiyyatımızın inkişafının təməlində dayandı. Mirzə Fətəli Axundovun yaradıcılığında, realizm var idi. Onun yaradıcılığı ilə başlayan maarifçi realizm Cəlil Məmmədquluzadənin, Molla Nəsrəddinçilərin fəaliyyəti ilə bütövlükdə tənqidi realizm səciyyəsinə yüksələ bildi. Onlar nəinki real olanları göstərdilər, həmdə bunu olduğu kimi təsvir edirdilər. Yəni ancaq göstərmirdilər, gördüklərini dəyişdirməyə, yeniləşdirməyə çalışırdılar. Bu mənada Mirzə Cəlil ədəbiyyatımızda islahatçı, yazıçı kimi mühüm yer tutur. Klassik Azərbaycan ədəbiyyatının bir çox qəhrəmanları, lirik qəhrəmanlar ümumiyyətlə ədəbi qəhramanlar al yanaqlı, bal dodaqlı, kipriyi ox, sərvi boylu gözəllər idi. Bunların hamısı bədii yalanlar idi ve real insan sürətlərinin yaranması vacib idi. Bizlə, cəmiyyətimizlə həmnəfəs olan insanların ədəbiyyata gəlməsi çox vacib idi. Gerçək insanların iztirablarının, əzablarının, gələcək haqqında düşüncələrinin ədəbiyyata gəlişi bütünlüklə bunların söyləməsi böyük hünər tələb edirdi. Bu hünəri Cəlil Məmmədquluzadə göstərdi, bunları ədəbiyyata gətirdi, bununlada yeni forma, yeni metod formalaşdı. Mirzə Cəlil bəzən ictimai həyatımız və siyasi gerçəklik üçün qadağan olunmuş senzuradan keçməyəcək sözləri də kinayə, istehza ilə üstüörtülü qaydada deyə bildi. Bu bir yenilik idi, realizm ədəbiyyatın millətə özünü tanıtmasına səbəb oldu. Öz-özünü tanıyan, öz -özünü tənqid eden millət özünü yenidən qurmağı da bacardi. Millət yeni həyat tərzinə, azadlıq uğurunda mübarizəyə qoşuldu və Azərbaycan xalq Cümhuriyyəti yarada bildi. Bu ictimai mədəni həyatımız baxımından yenilik oldu. Ədəbiyyatımızda, dramaturgiyamizda, bədii yaradıcılıqda, jurnalistikada bütövlükdə yeni janrların, yeni formalı yazı nümunələrinin ortaya çıxması Mirzə Cəlilin sözün əsil mənasında islahatçı ədib olmasını təsdiqlədi. C. Məmmədquluzadə və onun yaratdığı bədii obrazlar bu gün də son dərəcə aktualdır. Çünki onun tənqid etdiyi tiplər içimizdə yenə də qalmaqdadırlar. Cəmiyyətin islaha ehtiyacı olduğu müddətcə C. Məmmədquluzadə müasirimiz olaraq qalacaqdır. Azərbaycand ədəbiyyatinda tənqidi fikrin görkəmli nümayəndələrindən biri olan Cəlil Məmmədquluzadənin yaradıcılığı öz orijinallığı və dilinin aydınlığı ilə diqqəti cəlb edir. Ədibin yaradıcılığındakı əsas məsələlər insanların cahilliyi, soy kökündən uzaq düşmək, nadanlığı, qadın azadlığı və s. məsələləridir.Yazıçı bu cür məsələləri öz əsərlərində də açıq aydın göstərmişdi, o təkcə sürətlərin xarakterini açıb göstərmir o dövürdə Azərbaycan kəndlərindəki vəziyəti də açıb göstərir. Onun yaradıcılığını digər yazıçıların yaradıcılığı ilə müqayisə etdikdə görürük ki, onun əsərlərindəki obrazlar daha canlı boyalarla əks olunub, onun əsərlərinə nəzər saldıqda oradakı obrazlar sanki bizə doğmadır, biz sanki həmin obrazları tanıyırıq müəllif sadə dillə obrazların iç dünyasını açmışdır.

**İstifadə olunmuş ədəbiyyat:**

1.C. Məmmədquluzadə. Seçilmiş əsərləri. Bakı, 2004.
2.M. Cəlal və F.Hüseynov XX əsr Azərbaycan ədəbiyyatı Bakı, 2019.
3.C. Məmmədquluzadə həyat və yaradıcılığı. Bakı, 1974.
4. M.Vəliyev. Cəlil Məmmədquluzadənin dramaturgiyası. Bakı, 1954.
5. İ. Həbibbəyli. C.Məmmədquluzadə, mühiti və müasirləri. Naxçıvan, 2009.
6. H. Məmmədquluzadə. Mirzə Cəlil haqqında xatirələrim, Bakı, 1981

## "DİLÇİLİK" BÖLMƏSİ

### DƏLİ KÜRÜN DİLİ

***Tələbə: Abışova Ağca İsrail qızı (AZD2101B),***
***Elmi rəhbər: dos. Fərzəliyeva Mətanət Çərkəz qızı***

Şıxlının bir ədəbiyyatçı kimi ədəbiyyat tarixində mühüm yer tutan romanlarının yazıldığı dövr ədəbi dilin milli dil əsasında inkişaf etdiyi dövrə düşür. XX əsrdə həmin üslub fərqləri artıq aradan qalxır və İsmayıl Şıxlının daxil olduğu orta nəsil yazıçılarının üslubunda çox qabarıq şəkildə üslub fərqi axtarmaq lazım gəlmir.

Dəli Kürün dili adlanır:

a) Əsərdə şivə sözlərinin işlənməsi

b) Əsərdə məhdud ərazi ünsiyyətinə xidmət edən sözlərin işlənməsi;

Məhdud ərazidə yaşayanların məişətində elə əşya və hadisə olur ki, onların ümumxalq dildə qarşılığı olmur: suvadaq (çay kənarında əhalinin içmək üçün su götürdüyü yer) və s.

Müəllifin bədii dili adlanır;

a) Yazıçının ədəbi dili zənginləşdirmə meyli

b) Romanda arxaik sözlərin işlənməsi;

Romanda elə sözlər vardır ki, ədəbi dildə onların sinonimləri yoxdur. Bu yazıçının ədəbi dili zənginləşdirmə meylindən irəli gəlir: Təngildəmək (qəfil büdrəyib Yıxılmaq).

Əsərdə bir çox arxaik sözlər var: uruşlu, çılğı, dazımaq və s.

**Nəticə:** İsmayıl Şıxlı öz əsərlərinin dili üzərində çox işləməyi sevən və yaradıcılıq boyu buna praktik şəkildə əməl edən yazıçılarımızdandır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Azərbaycan SSR EA nəşriyyatı. Bakı, 1964.
2. Ə. Dəmircizadə Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962.
3. Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri. I cild. EA nəşri. Bakı, 1967.
4. Q. Kazımov. Sənət düşüncələri. Bakı, 1997.
5. İ. Şıxlı. Dəli Kür. Bakı, 1967.

### AĞCABƏDİ TOPONİMLƏRİ (KÜRDLƏR, QARADOLAQ, YUXARI QİYAMADINLI, ARAZBAR, SARVANLILAR*)*

***Tələbə: Orucova Gülşən Hafiz qızı (AZD2101B)***
***Elmi rəhbər: dos. Məmmədov Sabir Rüstəm oğlu***

Ağcabədi toponimi - "Ağcabədi" toponimi Türk dilli tayfaların Ağcabədi ərazisinə Köç eləməsiylə ortaya çıxır. Onlar böyük tayfayla Köç edərkən, dəstədəki atlılar su istəyirlər və yaxında bir göl görürlər, yaxınlaşdıqda isə onun göl deyil də şoran bir torpağ olduğunu görürlər və buradan Bəd anlayışı formalaşır. Və Ağcabədi deyə yaranır. Ağcabədidə arxoloji abidlər buranın tarixinin nə qədər qədim olduğunu bir daha sübut edir. Məsələn, Sarcalı kənd yaxınlığında "Səngərtəpə" yaşayış məntəqəsi, Poladlı kənd yaxınlığında tunc dövrünə aid "Gavurtəpə" yaşayış yeri. Dəmir dövrünə

aid Yolçəkəntəpə kurqanları, və bir çoxları. Bunların hamısı Ağcabədi rayonunu nə qədər qədim tarixinin olduğunu görsədir.

"Kürdlər" ─ kürdlər toponimi musanlı tayfasının burada məskunlaşmasıyla formalaşmağ başlamışdır. Kürdlər kürmancı qədim yezid irandilli tayfalardır. Kürdlər çox - çox əvvəl İranın qərb sahilində yerləşmişlər. Kürdlər buradan təfdricən Türkiyənin vilayətlətinə Ürmiyaya və Azərbaycana köç eləməyə başlamışlar. Azərbaycanda olan kürdlər Ağcabədi rayonunda məskunlaşmışlar və Qonşuluqda yaşayan kənd sakinləri kürdlər buraya gələndən etibarən "Kürdlərin düşdüyü yer" demişdilər.

"Qaradolaq" - Qaradolaq toponimi qara və dolaq sözlərindən əmələ gəlib. Kənd sakinlərinin dediyinə görə Qaradolaqlar çox-çox əvvəl başlarına və qollarına qara dolaq bağlayırmışlar. Bu onları digər tayfalardan fərqləndirirmiş. Elə bu səbəbdən onlara Qaradolaq deyirdilər. Qaradolaqlar Qarabağa gələndə təkcə Qaradolaq adlanırdı, lakin burada məskunlaşandan sonra yeni oykonim olarağ "Yeni Qaradolaqda".

"Yuxarı Qıyamaddınlı" - Kəndin adı Heyvandarlıqla məşğul olan Qiyamaddınlı tayfasından gəlir. Kənd camaatı Nadir şahın köçürəmə siyasəti ilə əlaqədər Cənubi Azərbaycandan köçürülən tayfalardan biri olmuşdular. Aşağı və Yuxarı Qiyammadınlı kəndləri Səfaralı və Hümbətalı Bəylərin təşəbbüsü ilə yaradılmışdır. Onlar vaxtilə Cənubi Azərbaycanda yaşamış və oradan da Qarabağ ərazisinə köç eləmişdilər. Yuxarı Qiyamaddınlı kəndinin əhalisi əvvəlcə Qalaçatəpə yaşayış məntəqəsində yaşamış daha sonradan burada məskunlaşmışlar.

"Arazbar" - Yerli əhali içərisində tələffüz forması Arasbar olmuş və Qarabağda formalaşmışlar. Eyni zamanda bir oyamağ adı olmuşdur. Orta əsrlərdə Arazbar mahal adı kimi də qeyd olunmuşdur. Arazbar adı ilk dəfə orta əsrlərdə XIII əsirdə məlum olmuşdur. Bu kəndə Pənah xanın malqarasının saxlandığı yer.

"Sarvanlılar" - Sarvanlılar oykonimi Sar, van və lar kompunetindən əmələ gəlmişdir. İran mənşəli sar sözü "Dəvə" mənasında işlənir. Toponimin tərkibindəki van komponenti mühafizə edən, qoruyan mənasında işlənir. Sarvan sözü "Dəvə saxlayan", "Dəvə başı tutan" mənalarında işlənir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan milli Eniskolopediyası.
2.T. Əhmədov. Azərbaycan toponimlərinin əsasları.

## ŞAMAXI TOPONİMLƏRİ (ACIDƏRƏ, ADNALI VƏ AVAXIL, BÖYÜK XINISLI, MƏLHƏM)

***Tələbə: Şirinova Nəzrin Arif qızı ( AZD2101B),***
***Elmi rəhbər: Məmmədov Sabir Rüstəm oğlu***

Şamaxı rayonu - Baş qafqaz silsiləsinin cənub-şərq ələklərində Azərbaycan respublikanın paytaxtından 118 km məsafədə mövcud olan, ən qədim tarixə malik şəhərlərdən biridir. Təbii ki, bu fikri təsdiqləyən bir çox tarixi mənbə və qaynaqlar mövcuddur.

Şəhərin adı tarixi qaynaqlarda "Kamaxeya", "Şamaxeya". "Yczdiwə" "Manaxeya" və ya "Əl yasidi" kimi də xatırlanır. Adımın mənası "Şah"-"Əzi" ("Şahın Qardaşı¨"), "Şah" -"mahalı" yəni Şah şəhəri kimi yazırlar.

Tarixdə Azərbaycana paytaxtlıq edən Şamaxını ən böyük elm ocaqlarından biri olmuşdur.

Burada mədrəsələr, məscidlər və elm ocaqları çoxdur. Elm ocaqları yerlə yeksan olsa belə, hələ də onların qalıntıları gözlə görünəcək qədər asandır. Mədəniyyəti heç təsəvvür edilməyəcək qədər zəngindir.

Şamaxı Ptolomeydə rast gəlinən qədim Mamamya (Mamexiya) sözündəndir, bu xalis Azərbaycan sözüdür.

Dəniz səviyyəsindən təxminən 749 metr hündürlükdə yerləşən Şamaxını şərqdən Pirsaat çayı, şimal və şimal qərbdən Pirdirəki və Qız qalası dağları ilə, qərbdən Xumuslu kəndi və Meysni dağı, cənubdan Zoğalavay çayı əhatə edir. 1610 km sahəyə malik olan bu şəhər 40° 38' şimal enliyində və 48° 38' şərq uzunluğunda yerləşməkdədir. Səthi, əsasən, Baş qafqaz silsiləsinin cənub yamacı, Niyaldağ və Ləngəbiz silsilələri ilə əhatə olunduğu üçün dağlıqdır. Ərazisinin maksimum hündürlüyü 2500-metrə çatır. Ərazisində palçıq vulkanları, Yura-Antropogen çöküntüləri yayılmışdır. Mineral bulaqları mövcuddur. İqlimi əsasən mülayim istidir. Rayonun ərazisindən Pirsaat və s. çayları axmaqdadır. Çimli dağ-çəmən, qonur dağ-meşə, şabalıdı, boz-qonur və s. torpaqlar yayılmışdır. Kənd təsərrüfatının əsasını taxılçılıq, meyvəçilik, tərəvəzçilik, üzümçülük təşkil edir. Şamaxı uzun illər ərəb xilafətinin tərkibində olmuşdur. Xilafət zəiflədikdən sonra Şamaxıda feodal dövləti yəni Şirvanşahlar dövləti yaranmışdır. Bu zaman Şamaxı şəhəri paytaxt olduğu üçün həm iqtisadi həm də, mədəni cəhətdən inkişaf etmişdir. Lakin 1192-ci ildə burada baş verən böyük zəlzələ nəticəsində paytaxt buradan köçürüldü. Zəlzələlər səhəri tamamilə dağıtmışdır. Bu səbəbdən də şəhərdə qədim tarixi abidələri demək olar ki, qalmamışdır. Burdada 1918-ci ilin 31 martında ermənilər burada da öz vəhşiliklərini göstərib.

1930-cu ildə buraya Şamaxı rayonu status verilmişdir.

Acıdərə toponimi– Azərbaycan Respublikasının Şamaxı rayonunun Göylər inzibati ərazisi dairəsində kənddir. Rayon mərkəzindən 25 km cənubunda yerləşir. Azərbaycanın əhalisinin sayına görə ən kiçik kəndidir. Ağdərə çayının sahilində, Ləngəbiz silsiləsindədir. Kəndin ərazisi keçmişdə Şamaxı qəzasında yaşamış çıraqlı tayfasının qışlaq yeri olmuşdur. Yaşayış məntəqəsi yerləşdiyi ərazinin adı ilə adlandırılmışdır.

Adnalı toponimi– Azərbaycan respublikasının Şamaxı rayonunun inzibati ərazi vahidində kənddir. Kənd Ələt-Ləngəbiz silsiləsinin şimal yamacında, rayon mərkəzindən 7.5 km cənub-qərbdə yerləşir. Kəndin əhalisi 941 nəfərdir ki, onun da 467 nəfəri kişi, 471 nəfəri isə qadınlar təşkil edir.

Avaxıl toponimi – Avaxıl çayını (Ağsu çayının mənbəyi) sahilindədir. Yaşayış məntəqəsinin adı ərazisindəki mineral bulağın adından götürülüb. Yerli toponimikada hava axan, havası bol olan yer və s. mənada izahları vardır. Kənddə XI,X əsrə aid məscid binası və hələ tam öyrənilməmiş qədim qəbiristanlıqlar, o cümlədən Ömər Sultan Xəlvəti Avaxili, Əhməd Rəvani, qəbiristanlıqları və Pir qulu, Murad piri, Feyzulla piri, Alçalı pir, Pir Hüseyn, Pir Hacı, Dünya nənə və başqa ziyarətgahlar mövcuddur. Ümumiyyətlə kənd ərazisinin bəzi yerlərindən saxsı qırıqları, kəhrizlər və başqa maraq doğuran tapıntılara rast gəlinsə də heç zaman tarixi – arxeoloji tədqiqatlar aparılmamışdır. Kənd dəniz səviyyəsindən 1386 metr hündürlükdə, rayonun inzibati mərkəzi Şamaxı şəhərindən 29 km uzaqlıqda yerləşir. Ərazisində onlarla şirin su mənbələri, gözəl aşyalı bulaqlar, o cümlədən müalicə əhəmiyyətli "İlisu" suyu var.

Böyük Xınıslı toponimi– Böyük Xınıslı Şamaxı rayonunun Şamaxı şəhər inzibati ərazi vahidində kənddir. Xınıslı çayının (Zoğalçay çayının c sahilində, Meysəri silsiləsinin ətəyindədir.

Əvvəllər rayonun ərazisində Kiçik Xıms.. (və ya Dərə Xınıslı) kəndi də olmuşdur, indiki bu kənd Şamaxı şəhərinin bir məhəlləsidir. Orta əsrlərdə Türkiyədə Xınıslı adlı şəhər və vilayət olmuşdur. Səlcuqilər, Səfəvilər dövlətlərinin siyasi həyatında mühim rol oynamış xıımuslar - adlarını daşıyır.Etnoponimdir.

Xınıslı kəndinin tarixi IV əsrlərə qədər gedib çıxır. Adı ərəb tarixçilərinin və səyahətçilərinin əsərlərində Şamaxı yaxınlığında olan yaşayış məntəqəsi kimi keçir. Kənd Gülüstan dağının ətəyindədir.

Məlhəm toponimi– Şamaxının ən qədim kəndlərindən biridir. Məlhəm kəndi əsasən Azərbaycanda elm ocağı kimi tanınır. Burada yetişən saysız alimlər, şairlər və elm adamları saymaqla bitməyəcək qədər çoxdur. Burada yetişən ən bövük şairlər; Əfzələddin Xəqanini rahatlıqla göstərə bilərik. Hal-hazırda Şamaxının Məlhəm Nəndi ən qədim kəndlərdən hesab olunur. Tarixdə Azərbaycana paytaxtlıq edən Şamaxını ən böyük elm ocaqlarından biri olmuşdur. Burada mədrəsələr, məscidlər və elm ocaqları çoxdur. Elm ocaqları yerlə yeksan olsa belə, hələ onların qalıntıları gözlə görünəcək qədər asandır. Mədəniyyəti heç təsəvvür edilməyəcək qədər zəngindir.

**Nəticə:** Beləliklə, Dəniz səviyyəsindən təxminən 749 metr hündürlükdə yerləşən Şamaxını şərqdən Pirsaat çayı, şimal və şimal qərbdən Pirdirəki və Qız qalası dağları ilə, qərbdən Xumuslu kəndi və Meysni dağı, cənubdan Zoğalavay çayı əhatə edir.

Şamaxı şəhərinin kənd təsərrüfatının əsasını taxılçılıq, meyvəçilik, tərəvəzçilik, üzümçülük təşkil edir. Şamaxı uzun illər ərəb xilafətinin tərkibində olmuşdur. Xilafət zəifllədikdən sonra Şamaxıda feodal dövləti yəni Şirvanşahlar dövləti yaranmışdır. Bu zaman Şamaxı şəhəri paytaxt olduğu üçün həm iqtisadi həm də, mədəni cəhətdən inkişaf etmişdir. Lakin 1192-ci ildə burada baş verən böyük zəlzələ nəticəsində paytaxt buradan köçürüldü. Tez-tez baş verən zəlzələlər şəhəri tamamilə dağıtmışdır. Bu səbəbdən də şəhərdə qədim tarixi abidələri demək olar ki, qalmamışdır. Burdada 1918-ci ilin 31 martında ermənilər burada da öz vəhşiliklərini törətmiş, "Mart Soyqırı"mını da yaşatmışlar.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan Milli Ensiklopediyası, I cild, Bakı, 2009. 96, s.
2. "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti", I cild, Bakı, "Şərq-Qərb", 2007.
3. N. Bəndəliyev "Dağlıq Şirvanın toponimləri". Bakı, "Elm", s.86.


## DİL QURUCULUĞUNUN BƏZİ MƏQAMLARI, ONOMASTİKANIN DÜNƏNİ VƏ BU GÜNÜ

*Tələbə: Hünbətova Ayişə Pəhləvan qızı ( İBT2001B),*
*Elmi rəhbər: f.ü.f.d.,b/m. Əliyev Əli Umud oğlu*

Müəyyən yanlışlıq baxımından, ya da dərk etməmək baxımından elə söz və ifadələr vardır ki, mənasını bilmirik, amma deyirik. Nitqimizdə həmin sözü, söz birləşməsini, atalar sözü və məsəlləri işlədirik ki, belə sözlərin şərhinə bu gün çox böyük ehtiyac vardır. Odur ki, bu baxımdan "Bilməyirik, amma deyirik" mövzusu aktuallığı ilə diqqət çəkir.

Babalarımız qısa və yığcam sözlə həmişə dərin məna və fəlsəfi hikmət dolu söz hörgüsü nəqş

etmişlər. Odur ki, hikmətli deyimlərə məntiqi prizmadan yanaşıb real anlam əldə etmək lazımdı. Bu günümüzə qədər uzun illərin sınağından keçib gələn bəzi söz, ifadə və cümlələrdə müyyən yanlışlığa rast gəlirik ki, bunlar da müasir yanaşma kifayət qədərdir. Bu baxımdan folklor dərin fəlsəfi duyuma və elmi məntiqə söykənir. Məntiqə söykənməyən sözün mənası olmaz. Odur ki, əşyalara ad verən Dədə Qorqud bəzən yanıldığını etiraf etmiş, sözün məna yükünün onun məzmunu ilə vəhdət təşkil etdiyini nəzərə alaraq belə söyləmişdir:

Gəlinə ayıran demədim, mən Dədə Qorqud,
Ayrana doyuran demədim, mən Dədə Qorqud,
İynəyə tikən demədim, mən Dədə Qorqud,
Tikənə sökən demədim, mən Dədə Qorqud.

Forma məzmun vəhdətinin, sözün daxili yükünün onun məna çaları ilə uyğun gəlməsini XVI əsrdə dahi Füzuli də qeyd etmişdir:

Söz mənadan asılıdır, məna sözdən hər zaman,
Bir-birindən asılıdır necə ki, cism ilə can.

Sözün məna anlamının müxtəlifliyi və işlənmə məqamlarının münasibliyi X-XI əsr ədəbi nəzəri fikrində də öz əksini tapmışdır. "Qabusnamə" əsərində belə bir deyim diqqəti cəlb edir: "...söz dörd cürdür: birini nə bilərlər, nə deyərlər, birini həm bilərlər, həm də deyərlər, birini deyərlər, lakin bilməzlər, birini bilərlər, lakin deməzlər. Bu dörd növ sözün hərəsinin iki üzü vardır: biri gözəl, biri çirkin" .

Doğrudan da maraqlıdır bu dörd cür olan sözlər hansı sözlərdir?! Birinci qrup sözlər aydındır ki, bilmədiyin sözü demək olmaz, ikinci qrup sözlər isə ümumişlək sözlərdir ki, bilərlər və deyərlər, üçüncü qrup sözlər isə dilimizin genefondunda olan və işlənmə məqamını bildiyimiz, işlətdiyimiz halda mənasını tam anlamadan, tam dərk etmədən mexaniki olaraq nitq prosesində işlətdiyimiz sözlərdir ki, belə sözlərin məna açımını məntiqi düşüncəyə və elmi araşdırmaya əsaslanaraq dəqiqləşdirmək mümkündür. Məsələn, belə sözlərdən bir neçəsinə diqqət yetirək: başına kül; başına daş; ətini yeyər, sümüyünü atmaz; dovşanı araba ilə tutarlar; ağ meydan; ağ eləmisən; əliallahi uşaq; allah vara, nə olur olsun; o qara bir daşdır, onu götürən də peşimandır, qoyan da; Araz aşığımdandır, Kür topuğumdan; onun dərdi Novruz dərdidir və s.

Nəhayət, dördüncü qrup sözlər isə deyilməsi qəbahət sayılan tabulardır ki, hamı o sözləri bilir, lakin şüurlu surətdə nitqlərində işlətmirlər. Belə sözlərə tabu sözlər deyilir.

Məlumdur ki, hər bir sözün, ifadənin, məsəlin, bu və ya digər formada müəyyən deyimin yaranma tarixi, məna yükü vardır.

Toy mərasimi xalqımızın ən qədim adətlərindən biridir. Toy mərasimi mövsüm mərasimi olan Novruz bayramı ilə sıx bağlı olmuşdur. 'Kitabi-Dədə Qorqud"da belə bir bilgi var: "Bayındır xanın bir buğası vardı, bır dəxi buğrası vardı. Ol buğa qatı daşa buynuz ursa un kimi üyüdərdi. Bir yazın, bir küzin buğayla buğrayı savaşdırarlardı. Bayındır xan qalın Oğuz bəyləri ilə tamaşaya baxardı, təvərrüc edərdi. Məgər, sultanım yenə yazın buğayı saraydan çıxardılar. Üç kişi sağ yanında, üç kişi sol yanında dəmir zəncir ilə buğayı tutmuşlardı. Gəlib, meydan ortasında qoyu verdilər. Məgər, sultanım Dirsə xanın oğlancığı, üç dəxi ordu uşağı (meydanda) aşıq oynarlardı. Buğayı qoy verdilər, oğlancıqlara "qaç" dedilər. Ol üç oğlan qaçdı. Dirsə xanın oğlancığı qaçmadı. Ağ meydanın ortasında baxdı durdu".

Bu sitatdan göründüyü kimi Ağ meydana camaat bir yazda, bir də payızda toplaşarmışlar. Ağ

meydan dedikdə arzuların reallaşdığı, həqiqətə çevrildiyi məkan nəzərdə tutulur. Hər hansı bir iş ciddiləşib reallığa çevrilərkən — sən bu işi, məsələni, ağ etmisən — deyrlər, yəni reallığa çevirmisən. Bir daha aydın olur ki, Ağ meydan küsülülərin barışdığı, sevgilərin reallaşıb bir-birinə qovuşduğu gündür. Bu gün toy- düyün günü, yeni həyatın başlanğıc günü olduğu üçün yeni günə — Novruz bayramına təsadüf olunur. Xan tamaşalara baxıb fərəhlənir, uşaqlar aşıq-aşıq oynayır, kəbin kəsilir toy edirlər. Novruz bayramında qırmızı boyamaq, qırmızı asmaq toy mərasiminin rəmzi dir. Hətta xalq arasında eşqə düşən, sevən adama — "bunun dərdi Novruz dərdi" dir — deyirlər.

Ağ sözü ucalıq, alilik, soy kökü kimi anlamlarda da işlənir. Xalqımızın tarixi mənəviyyat muzeyi adlandırdığımıız "Kitabi-Dədə Qorqud" dastanında Qazan bəy öz soyunu belə bəyan edir:

Ağ qayanın qaplanının erkəyində bir köküm var,
Ortac qırda sizin keyikləriniz, durğurmaya.
Ağ sazın aslanında bir köküm var,
Qaz alaca yündünü durğurmaya,
Ağ sunqur quşu erkəyində bir köküm var,
Ala ördək, qara qazın uçurtmaya.

Sitatdan da göründüyü kimi Qazan bəy öz soyunun ulu, müqəddəs olduğunu bildirmək üçün ağ sözündən istifadə etməklə ağ qayanı, ağ sazı, ağ sunqur quşunun müqəddəsliyini diqqətə çatdırmışdır. Ağ sözü isə gerçəklik, ucalıq, alilik anlamında işlənmişdir. Bu anlamlar bu gün də dilimizdə işlənməkdədir. Məsələn; dilimizdə işlənən "ağ yalan ifadəsində "ağ" sözü doğru, gerçək anlamını verir, yəni doğru yalan, gerçək yalan mənasında işlənir. Olmuş iş haqqında yalan danışmaq ağ yalan sayılmır, bu doğrunu inkar etmək, yalan danışmaq sayılır, amma olmamış, hətta olması mümkün olmayan bir iş haqqında söylənmiş yalan "ağ yalan" adlandırılır. Buna "xalis yalan" da demək olar. Bəzən də belə deyilir ki, ağ eləmisən. Bu o deməkdir ki, bəlli, aşikar edib gerçəkləmişsən. Yenə də ağ sözü doğruluq, gerçəklik anlamını verir.

O, qara bir daşdır, onu götürən də peşimandır, qoyan da. Bu fikrin dəymədüşər adamlar üçün, yəni xarakteri bir anın içində yüz dəfə dəyişən adamlar üçün deyirlər. O, adamlar üçün deyirlər ki, bilmirsən, hə deyəsən yaxşı olasan yoxsa, yox deyəsən yaxşı olasan. Bu fikir Makedoniyalı İsgəndər dövründən formalaşmağa başlayıb. Belə ki, dirilik suyu axtaran İsgəndər başının dəstəsi ilə qaranlıq dünyaya daxil olur. Görürlər ki, ətraf qara daşlarla doludur. Kimi bu qara daşlardan nümunə üçün götürür, kimi əlinə alıb yerə tullayır, işıqlı dünyaya çıxdıqda görürlər ki, götürülmüş qara daş deyil, ləldir. Ona görə də götürən də peşiman olur ki, niyə çox götürmədim, tullayan da peşiman olur ki, niyə götürmədim. Odur ki, deyirlər: "O, zülmətin qara daşıdır, onu götürən də peşimandır, götürməyən də." Bu məzmun Nizami Gəncəvinin "İsgəndərnamə" əsərində poetik dillə qələmə alınmışdır.

Araz aşığımdandır, Kür topuğumdan. Mirəli Seyidovun "Azərbaycan mifik təfəkkürünün qaynaqları" kitabında belə bir əfsanə ilə tanış oluruq: "Uzaq keçmişdə burada nəhəng adamlar yaşayırmış. Onlardan Uğuz adlı birisi Kür çayından 40-50 km aralı yaşasa da əyilib bu çaydan su içə bilərmiş. Bunun üçün o bir ayağını Sac dağına, o biri ayağını Çoban dağına qoyub döşü ilə yaylacığa söykənərək, başını Kür çayına uzadarmış. Uğuz Kürü ən dərin çay sayarmış. Kür Uğuzun topuğundan imiş".

Məncə, Araz aşığımdandır, Kür topuğumdan ifadəsi bu əfsanə əsasında formalaşmışdır.

Onun dərdi Novruz dərdidir fikri eşqə düşən, sevən adamlara deyirlər. Qədim zamanlarda il

boyu hazırlıq işləri görərmişlər, toy isə yazda, Novruz bayramında olarmış. Odur ki, Novruz dərdi toy ilə bağlı deyilən söz kimi başa düşülür. Başqa bir ehtimal isə Novruz və Qəndab dastanı ilə bağlıdır ki, Novruz eşqə mübtəla olduğu üçün eşq onun dərdi sayılır. Bu gün eşqə düçar olanlara "onun dərdi Novruz dərdidir— deyirlər.

"Düz düzdə qalar" deyirlər. Əslində bu deyim düzgün məntiqi məna ifadə etmir, düz təbliğ olunmur, əyri, oğru təbliğ olunur. Bu heç də o demək deyildir ki, atalar səhf demişdir. Atalar doğru demiş, biz isə səhf ifadə edib, səhf anlamışıq. Doğru deyim belədir:

"Düz düz də qalar". Yəni düzə zaval yoxdur, həmişə düz olaraq qalacaqdır.

Başqa bir deyim də var ki, düz əyrini kəsər. Bu da düzün düz olaraq qaldığını sübut edir.

"Yeməkdən sonra qırx tikə pendir yeyərlər" - deyiblər. Çünki pendir həzm prosesini nizamlayır. Amma elə bir adam tapmaq olmaz ki, yeməkdən sonra qırx tikə pendir yeyə bilsin, bu mümkün deyildir. Odur ki, doğru deyim belədir: "Yeməkdən sonra qırıx tikə pendir yeyərlər".

Nümunələrdən də göründüyü kimi səhv deyim yalnış fikir formalaşdırır. Belə yalnışlıqlara elmi-bədii ədəbiyyatlarda da rast gəlirik:

Yük üstündə cücü var,
Cücünün qırx ucu var.
Al edib, qız aldınız,
Sizdə bəylik gücü var.

Əslində isə bu mərasim deyimini xalq belə formalaşdırmışdır.

Yük üstündə kücü var,
Küçünün qırx ucu var.
Al edib, qız aldınız,
Sizdə bəylik gücü var.

Dil quruculuğu, onomastikanın bəzi məsələləri baxımından nomastikanın dünəninə və bu gününə nəzər salaq.

1968-ci il İnzibatı ərazi bölgüsünə görə keçmiş, yəni əvvəlki adı dəyişdirilərək yeni redaktədə təqdim olunan adların siyahısı. (Azərbaycan SSR İnzibatı Ərazi Bölgüsü 1968.)

| **Keçmiş adlar** | **Yeni adlar** | **Rayonu** | **Fərmanın tarixi** | **Rayonun adı** |
|---|---|---|---|---|
| Abdallar k. | Laçın ş. | Laçın | 1923 | Laçın |
| Annino k. | Şamxor ş. | Şamxor | 8.9.1938 | Şəmkir |
| Astraxanbazar ş. | Cəlilabad ş. | Cəlilabad | 5.6.1967 | Cəlilabad |
| Aşağı Ağcakənd k. | Şaumyan k. | Şaumyan | 8.9.1938 | Ağdərə |
| Biləsuvar rayonu | Puşkin rayonu | Puşkin | 19.7.1938 | Biləsuvar |
| Battili k. | Yeniabad k. | Şamxor | 30.6.1964 | Şəmkir |
| Bərkədüz rayonu | Yardımlı rayonu | Yardımlı | 19.7.1938 | Yardımlı |
| Qaradonlu rayonu | İmişli rayonu | İmişli | 19.7.1938 | İmişli |

| | | | | |
|---|---|---|---|---|
| Qaraçuxur ştq. | Serebrovski ştq. | Bakı ş. Orcanikidze | 26.5.1964 | |
| Qaryagin rayonu | Füzuli rayonu | Füzuli | 2.4.1959 | Füzuli |
| Qaryagin ş. | Füzuli ş. | Füzuli | 2.4.1959 | Füzuli |
| Qızılburun ştq. | Siyəzən ş. | Dəvəçi | 28.7.1954 | Şabran |
| Dəvəçibazar k | Dəvəçi ştq. | Dəvəçi | 2.8.1944 | Şabran |
| Dəstəfur rayonu | Daşkəsən rayonu | Daşkəsən | 2.4.1956 | Daşkəsən |
| Dizaq rayonu | Hadrut rayonu | Hadrut | 17.9.1939 | Hadrut |
| Zubovka k. | Əli Bayramlı ş. | Əli Bayramlı | 8.9.1938 | Şirvan |
| Zuvand rayonu | Lerik rayonu | Lerik | 19.7.1938 | Lerik |
| Yeienendorf k. | Xanlar ş. | Xanlar | 19.7.1938 | Göygöl |
| Yuxarı Daşkəsən k | Daşkəsən rayonu | Daşkəsən | 16.3.1948 | Daşkəsən |
| Keşlə rayonu | Nərimanov | Bakı ş. | 29.8.1957 | Nizami |
| Gəncə ş. | Kirovabad ş. | Kirovabad | 20.2.1935 | Gəncə |
| Goranboy k. | Qasım İsmayılov ş. | Qasım İsmayılov | 8.9.1938 | Goranboy |
| Grünfeld k. | Kalininkənd k. | Qazax | 26.6.1942 | Qazax |
| Leninfeld k. | Leninkənd k. | Şamxor | 26.6.1942 | |
| Marquşevan k. | Leninavan k. | Mardakerd | 30.6.1954 | Ağdərə |
| Məşədilər k. | Əfətli k. | Ağdam | 30.6.1954 | Ağdam |
| Mil qruppasmın 5N«-li sovxozu | Jdanov ştq | Jdanov | 24.1.1939 | Beyləqan |
| Neftçala ştq. | 26 Bakı komissarları ştq. | Salyan | 7.10.1952 | Salyan |
| Nijni Qaranluq k. | Martuni ştq. | Martuni | | Xocavənd |
| Noraşen ştq. | İliç ştq. | Nax. MSSR İliç | 25.4.1964 | Şərur |
| Nuxa ş. | Şəki ş. | Şəki | 15.3.1968 | Şəki |
| Pervoe maya k. | Bir May k. | İmişli | 30.6.1954 | İmişli |
| Petropavlovka k. | Sabirabad ş. | Sabirabad | 7.10.1931 | Sabirabad |
| Pirçivan k. | Zəngilan | Zəngilan | 31.8.1957 | Zəngilan |
| Sara adası ştq. | Nərimanabad ştq- | Lənkəran | 19.2.1957 | Lənkəran |

| | | | | |
|---|---|---|---|---|
| Tərtər ştq. | Mirbəşir ştq. | Mirbəşir | 5.8.1949 | Tərtər |
| Traybenfeld k. | Yenikənd k. | Tovuz | 26.6.1942 | Tovuz |
| Trest qəsəbə | Neftçala ş. | Salyan | 7.10.1952 | Salyan |
| Xankəndi k. | Stepanakert ş. | Stepanakert ş. | 10.8.1923 | Xankəndi |
| Xanoba k | Zeyxuroba k. | Xaçmaz | 30.6.1954 | Xaçmaz |
| Hacıqabul ş. | Qaztməmməd | Əli bayramlı ş. | 24.1.1939 | Hacıqabul |
| Hacıələkbərli k. | Dəllər Cırdaxan k | Şamxor | 30.6.1954 | Şəmkir |
| Hacışen k. | Kamo k. | Xanlar | 16.4.1939 | Göygöl |
| Hil rayonu | Qusar rayonu | Qusar | 19.7.1938 | Qusar |
| Cərabert rayonu | Mardakert rayonu | Mardakert | 17.9.1939 | Ağdərə |
| Şıxova k. | Xanlar ştq. | Bakı ş. 26 Bakı Komissarları adına | 14.7.1939 | |

onomastik vahidlər üzrə araşdırmalar aparıb, müəyyən nəticəyə gəlmək fikrindəyik. Belə ki, müasir dövrdə onomastik vahidlərə yanaşmalar laqeydlik, biganəlik baxımından çox acınacaqlı durumdadır. Yeni yaradılan onomastik vahidlər milli genə uyğun olmur, ya da bayağı mənaya uyğunlaşdırılır.

**Nəticə:** Mənəviyyat muzeyimizin daşlaşmış eksponat yaddaşı olan onomastik vahidlərin təhrif olunması milli genimizə vurulan zərbədir. Çünki bu adlar soykökə, ulu yaddaşa, milli anlama bağlıdır. Burada zəncirin qırılması dərin zülmət quyuya yuvarlanmaq deməkdir. Bu zənciri ermənilər hər an qırmağa çalışırlar, amma biz özümüz qırırıqsa, buna nə ad vermək olar?! Bu məsələ barədə obyektiv və real nəticə çıxarıb, düzgün qiymət verən, doğru təklif irəli sürən damarlarından milli qan axan, milli genə mənsub. Dədə Qorqud soylu və Dədə Qorqud xislətli xalqın qeyrətli oğullarına güvənirik.

Belə deyimlərin tapılıb ortaya çıxarılması, müasir müstəvidə şərh edilməsi araşdırma tələb olunan tədqiqat işi, dilə yaradıcı yanaşmadır. Bəzən belə deyirlər ki, yanlışlıq da bir naxışdır. Amma məntiqi məna anlamı prizmasından yanaşdıqda görürük ki, yanlışlıq naxış deyil, ən qüsurlu baxışdır və nöqsanlı yanaşmadır.

Yuxarıda verilmiş şərhlər, izah və ehtimallar ana dilimizin çox böyük və dərin məntiqi məna yükünə, incə çalarlara malik olduğunu şərtləndirir. "Minlərlə söz ─ minlərlə sənəddir. Bu sənədləri oxuya bilməklə ─ sözün arxeoloqu olmaqla elmi daha da zənginləşdirmək, tarixi saxtalaşdırmalardan xilas etmək olar. Hər bir söz daxili "yükə"─ məzmuna malikdir; sözə yaraşıqlıq verən onun "bətndəki yükdür". Söz məhz öz daxili yükünün "nüvəsindəki yüklü hissəciyin" hesabına yaranmışdır" (Əjdər Fərzəli Qorqud, 1999: s. 315-325).

Yuxarıda verilmiş izahat və şərhlərə əsaslanaraq bu nəticəyə gəlmək olar ki, dil quruculuğu xalqın uzun əsrlər boyunca formalaşdırıb, bu günümüzə çatdırdığı və göz bəbəyi kimi qoruduğu qiymətli inci, ünsiyyət xəzinəsidir. Misallardan göründüyü kimi adi bir səs yanlışlığı bu incini, qiymətli dil xəzinəsini məhv edə bilər. Odur ki, biz - insanlar dilə incəliklə yanaşmalı və xalqın milli sərvətini qorumalıyıq.

**İstifadə olunmuş ədəbiyyat:**

1. "Qabusnamə", Bakı, 2006.
2. Kitabi-Dədə Qorqud. Bakı, 2004.
3. N. Gəncəvi. "İsgəndəmamə".
4. M. Seyidov. Azərbaycan mifik təfəkkürünün qaynaqları, Bakı, 15
5. Y. Yusifov. Qədim Şərq tarixi, Bakı, 2007.
6. Azərbaycan dilinin izahlı lüğəti, dörd cilddə, III cild, Bakı, 2006.
7. İ. Cəfərsoy. İber və hay folklorunda türk mifik təfəkkürünün iz 2014.
8. N. Gəncəvi. Sirlər xəzinəsi, Bakı, 1981.
9. X. Cabbarov. Dil quruculuğu və nitq mədəniyyəti, Bakı, 1996.
10. Azərbaycan SSR. İnzibati Ərazi Bögüsü, Azəməşr, 1968.
11. Ə. Fərzəli Qorqud. Dədə Qorqud spzü, Bakı, 1999.

## AZƏRBAYCAN DİLİNDƏ AD VƏ SOYADLARIN YARANMASI VƏ İNKİŞAFI

***Tələbə: Məhərrəmova Minarə Səyavuş qızı (İBT2102B),***
***Elmi rəhbər: b/m. Mikayılova Fəridə Mürşüd qızı***

Onomalogiya Azərbaycan dilçiliyinin gənc sahəsidir və dilimizin onomastik sistemi dil faktları ilə olduqca zəngindir. Burada əsas yerlərdən birini antroponimlər tutur desək, səhv etmərik. Antroponimlərin hər biri xüsusi sosial işarədir. Onların öyrənilməsi, tədqiq edilməsi xalqın tarixinin araşdırılması baxımından hazırda ən aktual məsələlərdəndir.

Onommastikanın bir qrupunu təşkil edən antroponimlərə şəxs adları, soyad, familiya, təxəllüs və ləqəblər daxildir. Dünyada elə xalqlar var ki, məsələn islandlar familiya işlətmirlər, yaxud çexlər, polyaklar, bolqarlar ata adındanistifadə etmirlər.

Müasir Azərbaycan dilində isə antroponimik vahidlərin dörd formalı formasından istifadə olunur.

Türk dilli xalqların möhtəşəm ortaq abidəsi, "Kitabi - Dədə Qorqud" dastanındakı antroponimlər göstərir ki, türk xalqlarında adlar şəxsin igidliyi, mərdliyi, mübarizliyi, gücü ilə əlaqədar verilirdi və el arasında onun həm də fəxri adı hesab olunurdu, onun cəmiyyətdəki mövqeyini əks etdirirdi. Buna misal olaraq Qazan, Ərək, Uluğ, Aruz Qoca, Dəli Dondar, Dəmir Donlu, Səlcuq və s. adlarını göstərə bilərik.

"Kitabi-Dədə Qorqud" əsərindəki çəkilən antroponimlər məhz belə ad vermə modelinin bariz

nümənisidir. Əsərdə Dədə Qorqudun dilindən onun əşya və məfhumların adlandırılmasında uyğunsuzluğa yol verdiyi də söylənilir.

Gəlinə ayran demədim, mən Dədə Qorqud
Ayrana doyuran demədim, mən Dədə Qorqud
İynəyə tikən demədim, mən Dədə Qorqud
Tikənə sökən demədim, mən Dədə Qorqud

Koroğlu dastanında da dəlilərin adı onların xasiyyətlərinə, davranış və igidliklərinə görə aldıqları elə adların mənasından məlum olur. Halaypozan, Topdağıdan, Dilbilməz, Tanrıtanımaz, Toxmaqvuran, Qorxuqanmaz,və s.

Səfəvilər, Əfşarlar, Qacarlar dövründə isə hökümdarlar öz adları ilə bərabər şah titulunu da (Şah İsmayıl, Şah Abbas, Nadir Şah, Şah Qacar) daşıması ilə əlaqədar şəxs adlarının ya əvvəlinə, ya da sonuna şah sözü artırılaraq Şahlar, Şahsevən, Şahverdi, Şahhüseyn, Şahbəyim, Şahsənəm və s. adları meydana çıxmağa başladı.

VII əsrdən başlayaraq İslam dininin yaranması və Azərbaycanda da qəbul olunması ilə əlaqədar ərəb mənşəli dini adlar hakim mövqe tutmağa başladı.

Məhəmməd, Əli, Məhəmmədəli, Abbas, Hüseyn, Həsən, Əliabbas, İsmayıl, Fatimə, Xədicə, Oruc, Namaz, Allahverdi, Əliverdi, İmamverdi, Zəhra, Ömər adlarının körpələrə verilməsi kütləvi hal aldı. Dini adlar qədim türk mənşəli adları sıradan çıxarmaqla, həm də bizi xalq olaraq kökdən uzaqlaşdırdı. Dini adların geniş yayılması ilə bərabər eyni zamanda igidlik, gözəllik simvolu olaraq heyvan adları da körpələrə verilirdi ki, bu proses indi də davam etməkdədir.

Aslan, Şiraslan, Tovuz Göyərçin, Şahin və s.

Bildiyimiz kimi 1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyəti 23 aydan sonra süqut edərək Şura hökuməti quruldu. Bu dəyişiklik xalqın ictimai həyatında köklü fərqliliyə gətirib çıxarması ilə bərabər şəxs adlarında da özünü göstərməyə başladı. Beləki, Sovet, Şura, Şaumyan, Marks, Kombayn, Kolxoz, Traktor, Kommunal adları yayılmağa başladı.

Azərbaycanda yeni adların yaranmasında dramaturq C. Cabbarlı inqilab etdi desək yanılmarıq. Onun əsərlərindəki obrazların adları xalq arasında sevilərək körpələrə verilirdi ki, bu adlar indi də ön sıralardan birini tutur. Sevil, Sevər, Gülüş, Gündüz, Aydın, Oqtay, Solmaz Almaz, Gültəkin və s.

Adlarla bağlı bir nüansa da nəzər yetirək. Bəzən valideynlər körpələrə ad verərkən onun məktəbdə, ictimai yerlərdə, bir sözlə gələcək həyatında adı ilə bağlı rastlaşacağı psixoloji vəziyyəti nəzərə almırlar. Daha çox nənə-baba adlarını yaşatmaq məqsədiylə Şirastan, Qırımxan, Qara, Sarı, Seyrək, Səviyyə, Kimya, Dayandur, Tapdıq, Qələm, Yaşasın, Şəkər, Nabat, Püstə. Daha çox Bakı kəndləri üçün xarakterik iki komponentli Xırdaxanım, Böyükxanım, Püstəxanım, Ağaverdi, Pirqulu, Ağababa və s. kimi adlar hələ kiçik yaşlardan şəxsin məktəbdə gülüş mənbəyinə çevrilməsinə, özünə qapanmasına və cəmiyyətdən təcrid olunmasına səbəb olur. Bu da ciddi psixoloji travmaya gətirib çıxarır.

Soyad – bir insanın ümumi əcdaddan başlayaraq bir nəslə, yaxud daha dar mənada bir ailəyə mənsubluğunu göstərən irsi ata adı.

Hazırda Azərbaycan vətəndaşlarının çoxunun soyadı "ev, ov" və "yev" şəkilçiləri ilə bitir. Bəzi soyadlar -zadə sonluğu ilə bitir. "ev, ov" və "yev" rus mənşəli, "zadə" isə fars mənşəlidir.

Soyadların Azərbaycan dilinə uyğunlaşdırılması Azərbaycan müstəqil olduqdan sonra irəli sürülən siyasətdir. 1993-cü ildə Milli Məclisin qəbul etdiyi qərara görə "-ov" "-yev", sonluqlu soyadlarını "-lı" (sözün kökündən asılı olaraq "-li", "-lu", "-lü"), "-zadə", "-oğlu", "-qızı" sonluqlu və ya sonluqsuz ifadə formaları ilə əvəz edə bilərlər. Hal-hazırda ata adı da soyadla birlikdə rəsmi sənədlərdə verilir. Məsələn, Məmməd Bağırovun tam adı "Məmməd Səməd oğlu Bağırov" olur. Milli Məclisin Mədəniyyət komitəsinin sədri Nizami Cəfərova görə, 2010-cu ildə Azərbaycanda mövcud olan soyadlar sonluğu 80 faizə qədəri "-ov", "-yev", 10 faizə qədəri "-li", "-lu", "-lü", 10 faizə qədəri isə "-zadə" ilə qurtarır.

Azərbaycanda familiyaların XVIII əsr artıq formalaşıb işlədilməsi, əslində familiyaların götürülmə tarixinin daha əvvələ təsadüf etdiyini deməyə əsas verir.

Q. Zakirin: O kəslər ki, tanımazdıq övladın indi familiylə çağırdır adın.

Misralarından aydın olur ki, XVIII əsrdə Azərbaycanda familiyalar formalaşmış, XIX əsrdə artıq kütləvi şəkildə işlənmişdir.

Rus antroponimiyasında türk xalqlarından fərqli olaraq qeyri-ciddi məna verən familiyaların bu gün də mövcudluğu, onlarda familiyaların ləqəblərdən yarandığının bariz nümunəsidir. Lisev (Tülküyev), Zaytsev (Dovşanov), Volkov (Canavarov), Medvedyev (Ayıyev), Dvornikov (Dalandarov) və s. Azərbaycan türklərində soyadlar tarixən toponimlərdən yaranmışdır, hətta tayfa adları onların yaşadığı əraziyə verilmiş toponimə çevrilmişdir. Belə ki, eyni yer adlarının müxtəlif ərazilərdə mövcud olması bunu sübut edir. Məsələn, həm Ağdam, həm də Goranboy rayonunda Xanqərvənd, Qərvənd eləcə də Ağdam və Beyləqan rayonu ərazisində Çəmənli toponiminə rast gəlinməsi təsadüfi hesab edilə bilməz. Tarixən Hay tayfa kimi mövcud olan ermənilərə 1920-ci ildə Sovet hökuməti tərəfindən qərbi Azərbaycan torpaqları hesabına Ermənistan Respublikası yaradılaraq hədiyyə edildi. Onların ilk işi qədim Azərbaycan türklərinin toponimlərinin adını dəyişdirmək oldu. Dərələyəz, Zəngəzur, Xanabad, Göycə adları, eləcə də məskunlaşdırdıqları Qarabağda Xankəndi–Stepanakert, Şuşa–Şuşi, Ağdərə–Mardakert, Xocavənd–Martuni kimi dəyişdirildi. Bu ənənə çar Rusiyasının siyasətinin davamıydı. Hazırda Füzuli rayonu qədim türk toponimi kimi Qarabulaq rayonu rus generalının şərəfinə Karyagin, Beyləqan rayonu Jdanov, Gəncə Yelizavetpol, sovet dövründə isə S. M. Kirovun şərəfinə Kirovabad adlandırılırdı. Bütün bu işlər məkirli siyasətin nəticəsi idi.

Azərbaycanın müstəqilliyindən 1 mart 2022-ci il tarixinə qədər 1 milyon 200 minə yaxın şəxsin soyad sonluğu dəyişdirilib. 2022-ci ilin ilk 2 ayında isə 8 minə yaxın şəxsin soyad sonluğu milliləşdirilib.

**İstifadə olunan ədəbiyyat:**

1. A. Qurbanov, Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003.
2. A. Hacıyev, Azərbaycan dilinin onomastik sistemi. Bakı, 1993.
3. N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti.
4. Azərbaycan onomastik Problemlərinə həsr olunmuş IV Elmi konfransın materialları. Bakı, 1992.

## M.FÜZULİNİN "LEYLİ VƏ MƏCNUN" POEMASININ İNTERPERETASİYASI

***Tələbə: Rəhimli Elza Adil qızı (AZD2001B),***
***Elmi rəhbər: b/m. Əliyeva Tərlan Əliş qızı***

M. Füzuli orta əsr Azərbaycan şairi, mütəfəkkir, filosof kimi Azərbaycan ədəbiyyat tarixinin məhşur simasıdır. M. Füzuli 1494-cü ildə Bağdadın yaxınlığında yerləşən Kərbəlada dünyaya gəlib. M. Füzuli əsərlərini üç Azərbaycan, ərəb və fars dillərində yazıb. Onun yaradıcılığı zəngin irsə malikdir. Füzulinin yaradıcılığında insana, şeirə, sənətə münasibəti bu sözlərlə əsaslanır: "Əşyanın keyfiyyətini təhqiq üçün fərasət gözümü açdım. Aləm sədəfində insandan dəyərli göhvər görmədim. Insan göhvərində sözdən şərəfli cöhvər tapmadım" deyirdi. Şairdən bizə qalan zəngin bədii irs aşağıdakılardan ibarətdir: Azərbaycan türkcəsində divan, fars dilində divan, ana dilində, farsca və ərəbcə yazılmış qəsidələrdən ibarət divan qəsidələr divanı. Azərbaycan dilində yazılmış poemalar: "Leyli və Məcnun", "Bəngü badə", "Söhbətül-əsmar". Fars dilində poema: "Həft cam". Azərbaycan türkcəsində nəsr əsərləri: "Hədiqətüs-süəda", nəsrlə məktublar. Fars dilində nəsr əsərləri*:* "Rindü Zahid", "Səhhət və Mərəz". Ərəb dilində elmi-fəlsəfi əsər: "Mətləül-etiqad". Fars dilindən tərcümə: "Hədisi- ərbəin". Daha çox lirik şair kimi tanınan və sevilən Füzuli klassik şeirin qəzəl, qəsidə, mürəbbe, müxəmməs, müsəddəs, təxmis, qitə, rübai və s. janrlarına müraciət etmiş və hər birində böyük uğur qazanmışdır. Füzulinin yaradıcılığında poema xüsusi yer tutur. "Leyli və Məcnun", "Söhbətül-əsmar", "Bəngü badə", "Həft cam" adlı poemaları var. "Leyli və Məcnun"u çıxmaqla qalan üç poema alleqorik səciyyəlidir.

M. Füzuli "Leyli və Məcnun" poemasını 1537-ci ildə qələmə almışdır. Şairin yaradıcılığının zirvəsi olan "Leyli və Məcnun" poeması Azərbaycan eləcə də, Şərq poeziyasının nadir incilərindən sayılır. Füzulinin Azərbaycan türkcəsində yaratdığı əsər orjinallığı ilə bu mövzuda əvəllər yazılmış poemalardan seçilir. Bu qədim tarixə malik rəvayət haqqında ilk irihəcimli əsər Nizami Gəncəvi tərəfindən qələmə alınmışdır. Əsərin yazılmasında Nizami Gəncəvinin eyniadlı poeması əsas götürülmüşdür. "Leyli və Məcnun" ənənəvi olaraq Nizami poemalarında gördüyümüz rəsmi girişlə başlayır. Burada həm tanrıya, həm də Peyğəmbərə mədhiyyə, həm də islam Peyğəmbərinin meracı verilir. Poema rum zəriflərinin xahişi ilə yazılmışdır. Füzuli bu poemanı yazmaqla heç də yalnız məhəbbət poeması yazmaq istəməmişdir. Adət-ənənələr insanın əlxsüsda qadının daxili azadlığını pozurdu. Müəllif bu məsələləri qabardaraq dövrünün şəxsiyyət azadlığına qarşı çıxan, insan talelərini qıran, faciələrə səbəb olan zərərli baxışları tənqid etmişdir.

Şərq aləmində əsl eşq fədailəri kimi qəbul olunan Leyli və Məcnun haqqında geniş yayılmış məhəbbət əfsanəsindən götürülmüşdür.

Əsər poema janrında məsnəvi şəklindədir. Əruz vəznin həcəz bəhrində məfUlü, məfAikün, fəUlün ölçüsündə qələmə alınmışdır.

Məcnun–əsərin əsas və mərkəzi surətidir. O varlı, qəbilə başçısının oğludur. O dünyaya gəlməmişdən qabaq rahat həyatı təmin olunur. Lakin bu həyat ona qismət olmur. Məcnun düşüncə tərzi, həyata, zəmanəsinin əxlaq və davranış normalarına baxışı fərqlidir. Ətrafındakılar, ata-anası Qeysin mənəvi azadlığ istədiyini anlamır. Leylini dəlicəsinə sevdiyi üçün cəmiyyət tərəfindən Məcnun (dəli) adlandırılır. Cəmiyyət tərəfindən bu cür qəbul olunan Qeys rahatlığı təbiətin qoynunda tapır. Leyli ilə səhrada qarşılaşdıqda onu tanımadığını, onun xəyalı ilə yaşamaq istədiyini

söyləyir.

Leyli—poemanın ikinci baş qəhrəmanıdır. Leylinin vəziyyəti Məcnundan da dözülməzdir. Çünki Məcnun cəmiyyətdəki çürük adət-ənənlərə öz etiraz hissini bildirirdisə Leyli bu imkandan məhrum idi. Leyli Qeys adlı nurun işığında azad nəfəs alaraq sevir. Ancaq insana zidd qanunlar anasının əli və dili ilə formal olsada boynunda çıxardığı zənciri yenidən boynuna keçirməyə məcbur edir. Leyli zahirən hüquqsuz qadına, daxilən isə sevən, dərk edən, qanunlara boyun əyməyən çevrilir. Leyli öz arzu və istəklərini heç kimlə hətta anası ilə də bölüşmür. Çünki bilir ki, desə onu heç kim anlamayacaq. Buna görə də o istəklərini şam, çıraq, pərvanə, ay ilə bölüşür. Özünü haqlı olaraq ərdə deyil qəbirdə sayır, geydiyi al pərdəni isə kəfən hesab edir.

Leyli dövrünün qayda-qanunlarına tabe olmur, mənəvi gözəlliyini qoruyub saxlayır, saf eşqinə ölüncə sadiq qalır.

Köməkçi surətlər—Məcnun ata və anası, Leylinin ata və anası, Ibn Səlam, Zeyd, Nofəldi. Onlar dövrün qayda-qanunlarına kor-koranə əməl edirlər. Müstəqil düşüncə, fərqli davranış, şəxsiyyət azadlığı onların həyata baxışlarında yer alır, hər şey adət-ənənəyə, qayda-qanunlara uyğun olmalıdır.

Məcnun atası—Məcnunu dərin bir məhəbbətlə sevən atası onu anlamır, onun məhəbbətinə dəyər verə bilmir. Çıxış yolunu yeganə oğlunun "xəstəliyinə" çarə tapmaqda görür.

Məcnun anası—Məcnun Leyliyə aşiq olduğunu eşidən anası oğlunu bu yoldan çəkindirməyə çalışır, çünki bu onun ailəsi üçün el içində böyük xəcalət idi.

Leylinin anası—Leylinin anası qızını Məcnuna olan məhəbbəti ilə bağlı yayılan xəbəri qorxu və təlaş içində qarşılayır. Bunu yas tutan ana ailənin namusuna ləkə gələcəyindən qorxuya düşür.

Göründüyü kimi həm Məcnun, həm də Leylinin anası övladlarının davranışında dövrün qayda-qanunlarından kənaraçıxma hadisəsi gördüyü üçün narahat olur, təşvişə düşürlər.

Leylinin atası—bu obrazlar içərisində Leylinin atası müəyyən mənfi çaları ilə seçilsə də, zəmanənin, mövcud cəmiyyətin əxlaq və təfəkkür normalarını ifadə edir. Bu mənada o heç də nə qızının, nə Qeysin düşməni deyildir, zəmanə adamıdır. Leylinin atası qızını bir şərtlə verməyə razıdır ki, o sevgidən (məcnunluqdan) əl çəksin. Sonrakı səhnələrdə qızını İbn Səlama verməyə razı olan ata dövrün tələbinə görə qızının razılığını soruşmağı belə ağlına gətirmir.

İbn Səlam—O, orta əsr qanunlarının mücəssəməsidir. O da Leylini sevir. Onun sevgisi Leylinin zahiri gözəlliyinə aiddir. O, dövrünün oğlu kimi çoxlu mal verib Leylini satın alır, Leyli "gül istər ikən xarə" qismət olur. Dünya mal üçün canından keçən İbn Səlam eşq yolunda fədakarlıq göstərə bilməz, onun sevgilisi, cananı özüdür, dünya nemətləridir, onun tutduğu iş, getdiyi yol şərdir. Ibn Səlam Leylini sevməmiş, sevməyədə qadir deyil. Zahiri gözəllik, Leyli adı onu aldatmış, Leylinin hissləri, duyğuları etibarilə Məcnun olduğunu anlamamışdır.

Nofəl—Sərkərdədir. O, əsərdə Məcnun haqqında eşidərək onu vüsala çatdırmağa can atan, ancaq buna nail olmayan bir obraz kimi təsvir edilir. Nofəl dünyəvi düşüncələrlə yaşayır. Və məsələni bu məcrada da həll etmək istəyir. Göstərmək istədiyi xeyirxahlıq həm də şan-şöhrət həvəsi ilə bağlıdır. O öz əməl və fəaliyyətində sərvətə və qılınca arxalanır. Leylinin atasına qızı Məcnuna verməsi üçün iki vasitə təklif edir: Birincisi, sərvət; ikincisi, döyüş. Təklif edir ki, nə qədər mal-pul istəyirsən, verə bilərəm. Bu şərtlə ki, qızı verəsən. Yox əgər razı olmasan, müharibəyə hazır ol.

Göründüyü kimi, hər iki yol fiziki aləmin məqsədə çatma vasitələridir. Bu vasitələrlə ilahi aləmə yetişmək mümkün deyildir. Beləliklə, Nofəl sufi-fəlsəfi və simvolik anlamda zoru, gücü və

var-dövləti təmsil edir. Bunlar isə yalnız maddi eşq sahiblərini qovuşdurmaqdan ötrü yetərlidir. Nofəl süjetə gec daxil olub konkret epizodlarda iştirak edir və tez də səhnədən çıxır. Bununla belə onun əsərdəki mövqeyi və funksiyası tutumlu, vacib və yaddaqalandır. Zeyd-Məcnun yaxın dostudur. Həmişə ona yardım etməyə çalışır, onu baş verənlərdən xəbərdar edir.

Leyli və Məcnun poemasının əsasını iki ideologiyanın toqquşması təşkil edir. Hakim feodal ideologiyası ilə onun içərisində yaranan yeni humanist ideologiyası üzbəüz gələrək ölüm-dirim mübarizəsinə girişir. Ancaq bu ideologiyanın hər ikisi də öz istəyinə nail olmur, faciəli şəkildə məhv olur. Lakin öz mövqeyini tərk etmir. İki ideologiyanın üz-üzə gəlməsinin səbəbi də məhəbbət, məhəbbətə olan münasibətdir. Iki varlı qəbilə başıçılarının övladları məktəbə gedib bir-birlərinə vurulurlar, Qeys Leyliyə, Leylidə Qeysə aşiq olur. Bütün feodal cəmiyyət bu xəbəri eşidəndə dəhşətə gəlir, haray qoparır. Sanki bir cinayət olmuş kimi ayağa qalxır. Leyli susdurulur. Anası qorxu içində onu sorğu-suala tutub bunun doğru olub-olmadığını soruşur. Ananın narahatlığında bütün cəmiyyətin həyəcanı, təşvişi duyulur. Sanki dünya alt-üst olmuş ən müqəddəs qanunlar tapdalanmışdı.Cəmiyyət insana, övlada ən ağır zərbəni endirmişdi. Bunu heç kəs bağışlaya, güzəştə gedə bilməzdi. Anada buna görə narahat idi. Ananın nəsihətlərində, suallarında cəmiyyətin məhəbbətə münasibəti bütün dəhşəti ilə ifadə olunmuşdur. Ana yaxşı başa düşür ki, sevmək namsuzluq, yaxşı adı itirmək, camaat arasında dili gödək olmaq deməkdir. Leyli adını, namusunu, ailəsinin şərəfini qorumaq xatirinə qəlbindəki sevgi tufanını danır. Məcnunla cəmiyyətin münasibəti daha açıqdır. Məcnun eşqini gizləmir. Məcnunu zaman və cəmiyyət bağışlamır, səhralara düşən Qeysi Məcnun, Dəli adlandırırlar. Bunun səbəbi isə insan haqqında yazılmış və ya yazılmamış qanunlara daban-dabana zidd olmasıdır. Sevmək ata hüququna müdaxilə etmək deməkdir, sevmək müstəqil düşünmək deməkdir, sevmək qul kimi alıb- satmağı inkar etmək deməkdir, sevmək insanın qüdrətini, gözəlliyini etiraf etmək deməkdir, sevmək göydəki ilahi qüvvəni yerə endirmək, Allahı insanla əvəz etmək deməkdir. Burda orta əsr ideologiyasına zidd idi.

Dövrün şəxsiyyət və qadın azadlığına, azad sevgiyə qarşı çıxan, insan talelərini qıran, faciələrə səbəb olan zərərli baxışların tənqidi.

XXI əsrdə olmamıza baxmayaraq hələ də şəxsiyyət azadlığına, azad sevgiyə, qadın azadlığına qarşı çıxan insanlarda var. Məsələn, hələ də azda olsa qadınların hüququ tapdalanır, müəyyən məqamlarda ona söz haqqı verilmir, susdurulur. Onların istəyi belə soruşulmadan az yaşda evləndirilir və bu onun ailəsinin dağılmasına, həyatının cəhənnəmə çevrilməsinə səbəb olur.

**Nəticə:** Mən bunlara əsasən belə bir nəticəyə gəlirəm ki, demək, cəmiyyət insanı sevməyi cinayət hesab edir. Insana qul kimi yanaşmaq, almaq, satmaq olar, amma sevmək olmaz. Bu cəmiyyətin insanın məhəbbətinə məntiqsizliyi, gülünclüyü ortaya çıxır. Əgər Məcnun sevməkdən əl çəksə, bu xəstəlikdən xilas olsa Leyli ilə evlənməyin nə mənası ola bilərdi? Məcnun böyüklüyü ondadır ki, o insanlığın nə olduğunu anlayır, sevgisiz evlənməyi rədd edir. Cəmiyyət Məcnundan qorxur, çünki Məcnun bu dünyanın sonu deməkdir. Füzulinin dediyi kimi desək "Zülmət içrə nurdur". Zülmət nurdan qorxur, nur onu yoxa çıxarır, məhv edir. Cəmiyyətin qayda-qanunları onları cismən ayırsada, mənən, ruhən ayıra bilmir. Onlar ölümdən sonra əbədi olaraq birləşirlər, onlar sevgisini bu kirli dünyada yox, təmiz, saf olan əbədi dünyada yaşayırlar.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ə. Səfərli, X.Yusifli. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi, Bakı,1982, 1998, 2008.
2. H. Araslı. Böyük Azərbaycan şairi Füzuli, Bakı,1958.

3. M. Cəlal. Füzuli sənətkarlığı. Bakı,1994.
4. M. Füzulinin əsərləri. I-V cildlər. Bakı, 1958,1985.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ

***Tələbə: Mahmudova Lalə Ramiz qızı (AZD2202B),***
***Elmi rəhbər: b/m. Rzayeva Leyla Musa qızı***

**"Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam".**

Bu sözləri, noyabrın 9-da adı, dünyanın hər yerində uca tutulan, böyük siyasətçi Heydər Əliyevin dilindən, dünya azərbaycanlılarının I qurultayında eşidərkən, ruhum, qəlbim elə qanadlandı ki, həmin an xəyalən da olsa Yer kürəsinin hər yerinə yayılmış soydaşlarımızı bağrıma basmaq istədim. Düşündüm ki, biz dünyanın ən xoşbəxt insanları olmağa layiq bir millətik.

Dünyanın 36 ölkəsindən 403 nümayəndənin təşrif buyurduğu Dünya azərbaycanlılarının I qurultayı qədim və zəngin tarixə malik olan xalqımızın həyatında, çox şərəfli bir səhifə açdı.

Azərbaycan Prezidenti, möhtərəm Heydər Əliyevin qurultayda çox dəyərli nitqi, Respublika sarayının möhtəşəm salonuna toplaşan hər bir insanın, eləcə də ruhu bu torpağa bağlı olan hər bir qeyrətli soydaşımızın qəlbində, hədsiz qürur və iftixar hissi doğurdu.

Dünya azərbaycanlılarının ali məclisi, azərbaycançılıq ideyalarının və milli həmrəyliyin təntənəsi oldu.

Cənab Prezident qurultayda xüsusi vurğuladı ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi, həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur.

Müdrik dövlət başçımızın təxbirincə, azərbaycançılıq bəşəri dəyərlərdən bəhrələnməklə, öz milli mənəvi dəyərlərimizi qoruyub saxlamaq deməkdir.

Respulikamızda azərbaycançılıq məfkurəsinin və milli ruhun yüksəlişi, məhz möhtərəm Heydər Əliyevin 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Azərbaycana rəhbərlik etdiyi zaman böyük vüsət almışdır.

1991-ci il oktyabrın 18-də Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, o, çox ağır və çətin tarixi sınaqlarla üzləşdi. Ermənistan silahlı qüvvələrinin qədim Azərbaycan torpaqlarını ələ keçirmək məqsədi ilə ölkəmizə hücumu, ölkə daxili çəkişmələr, ayrı-ayrı siyasi qüvvələrə məxsus silahlı dəstələr, xalqın birliyini zəiflətdi və 1993-cü ildə hətta Azərbaycanın milli varlığı, təhlükə ilə üzləşdi.

Lakin, Azərbaycan xalqı öz müdrik, seçimini etdi. Vətənini və millətini tükənməz məhəbbətlə sevən, onu bütün hayatı boyu sədaqətlə xidmət edən, çox zəngin siyasi təcrübəyə və böyük idarəetmə mədəniyyətinə yiyələnmiş tarixi şəxsiyyət Heydər Əliyev, xalqın inadlı təkidi ilə yenidən Azərbaycanın siyasi rəhbər oldu. Bu qayıdış əslində azərbaycanlıların milli qurtuluşu demək idi. Azərbaycan torpaqlarını müdafiə etmək üçün bütün qüvvələr səfərbər oldu. Ali baş komandan Heydər Əliyev tez-tez cəbhələrdə əsgər və zabitlərlə görüşür, onlarla söhbət edib onları ruhlandıraraq qələbəyə inam yaradırdı.

1991-ci ilin mayında gənc və müstəqil Azərbaycanın taleyi üçün böyük əhəmiyyəti olan atəşkəs haqqında razılıq əldə olundu.

Milli dövlətçiliyimizin böyük memarı olan Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda siyasi və iqtisadi islahatlar keçirildi.

Azərbaycan, tarixində ilk dəfə özünün milli Konstitutsiyasını qəbul etdi, milli parlament seçildi, bütün xalqın iştirakçı ilə birbaşa və tam demokratik prezident seçkiləri keçirildi. Ölkədə insan hüquqlarının qorunması, söz, mətbuat vicdan azadlıqlarının, həyata keçirilməsi istiqamətində böyük işlər görüldü.

Müstəqil Azərbaycanın varlığı milli həmrəyliyimizin inkişafının əsasıdır.

Bütün dünya Azərbaycanlılarının bir-biri ilə pozulmaz tellərlə bağlayan əbədi qüvvə, şübhəsiz doğma Azərbaycan dilidir.

Dünya Azərbaycanlılarını birləşdirən milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimiz və milli mədəniyyətimizdir. Bütün dünyada yaşayan Azərbaycanlılar milli köklərinə sadiq olmalıdırlar. Azərbaycanın çırağı heç vaxt sönməyəcək, çünki bu məşəl daim azərbaycançılıq məfkurəsindən, milli özünüdərkdən bəhrələnir.

Azərbaycanın bu günkü həyatı, önümüzdə olan gələcəyi yalnız ulu öndərin ideyalarına bağlıdır. Dahi lider bütün mənalı həyatını öz doğma Azərbaycan xalqına həsr edib. Ulu öndər ömrünün həftələrini, aylarını, hətta saatlarını bir an belə əsirgəmədən doğma xalqımıza, müstəqil Azərbaycanımızın çiçəklənməsinə, xalqımızın müstəqil yaşamasına sərf edib. Heydər Əliyev nadir şəxsiyyətlərdən biridir ki, yalnız bir amal uğrunda – doğma Azərbaycan uğrunda, bu torpağın müstəqilliyi və müstəqilliyinin əbədiliyi uğrunda bütün həyatını sərf edib.

Bugünkü müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir. Bu kəlam təsadüfi bir kəlam deyil. Bu fikir mənim Heydər Əliyevin fəaliyyətinə bələd olduğum ilk illərdən bu yana gəldiyim ən yüksək nəticədir.

Milli liderimiz Heydər Əliyevin siyasi kursunun davamçısı olan Ali baş komandan, cənab İlham Əliyevə bu yolda uğurlar və can sağlığı arzulayırıq.

**Yaşasın doğma Azərbaycanımız!**

**Nəticə:** Tarixdə Azərbaycançılıq ideyasını irəli sürən görkəmli şəxsiyyətlərdən biri də Heydər Əliyev olmuşdur. Milli dövlətçiliyimizin böyük memarı olan Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda siyasi və iqtisadi islahatlar keçirildi. Azərbaycan, tarixində ilk dəfə özünün milli Konstitutsiyasını qəbul etdi, milli parlament seçildi, bütün xalqın iştirakçı ilə birbaşa və tam demokratik prezident seçkiləri keçirildi. Ölkədə insan hüquqlarının qorunması, söz, mətbuat vicdan azadlıqlarının, həyata keçirilməsi istiqamətində böyük işlər görüldü. Heydər Əliyev nadir şəxsiyyətlərdən biridir ki, yalnız bir amal uğrunda – doğma Azərbaycan uğrunda, bu torpağın müstəqilliyi və müstəqilliyinin əbədiliyi uğrunda bütün həyatını sərf edib.

**İstifadə olunmuş ədəbiyyat:**

1. T. Rzayev. "Azərbaycançılıq və Milli birlik". "Xalq" qəzet, 2001.
2. A. Naxçıvanlı. "Müdriklik zirvəsi". Bakı, "Yazıçı" nəşriyyatı, 2011.
3. F. Əhmədov."Heydər Əliyev dövlətçiliyimizin dayağıdır". Bakı, "Nurlan" nəşriyyatı-2003.

## "XARİCİ DİL" BÖLMƏSİ

# İNGİLTƏRƏDƏ TƏHSİL SİSTEMİ

***Tələbə: Mamedova Aytac Əkbər qızı (XDM2101B),***
***Elmi rəhbər: b/m Mahmudzadə Səfurə Novruz qızı***

İngiltərədə təhsilə Böyük Britaniyanın Təhsil Departamenti nəzarət edir. Yerli hökumət orqanları yerli səviyyədə dövlət təhsili və dövlət tərəfindən maliyyələşdirilən məktəblər üçün siyasətin həyata keçirilməsinə cavabdehdirlər.

Böyük Britaniyada təhsil sistemi dörd əsas hissəyə bölünür: ibtidai təhsil, orta təhsil, əlavə təhsil və ali təhsil.

İngiltərədəki təhsil sistemi də aşağıdakı kimi bölünən "əsas mərhələlərə" bölünür:

Əsas Mərhələ 1: 5-7 yaş
Əsas Mərhələ 2: 7-11 yaş
Əsas Mərhələ 3: 11-14 yaş
Əsas Mərhələ 4: 14-16 yaş

İbtidai təhsil Böyük Britaniyada 5 yaşında başlayır və 11 yaşa qədər davam edir, Böyük Britaniya təhsil sistemi üzrə birinci və ikinci əsas mərhələləri əhatə edir.

11 yaşdan 16 yaşa qədər tələbələr üçüncü və dördüncü əsas mərhələlər üçün orta məktəbə daxil olacaq və GCSE-nin qəbuluna doğru hərəkətə başlayacaqlar. Böyük Britaniyada ibtidai və orta təhsil məcburidir; 16 yaşından sonra təhsil istəyə bağlıdır.

Tələbə orta təhsili bitirdikdən sonra A-Levels, GNVQ, BTEC və ya digər bu kimi ixtisasları almaq üçün əlavə təhsilə davam etmək imkanı var. Kollecə və ya universitetə getməyi planlaşdıran Böyük Britaniya tələbələri əlavə təhsili başa vurmalıdırlar.

Əksər beynəlxalq tələbələr öz ölkələrinin Böyük Britaniyanın "əlavə təhsili"nə bərabər olan təhsilini başa vurduqdan sonra birbaşa Böyük Britaniya ali təhsil sisteminə daxil olacaqlar.

**İstifadə olunmuş ədəbiyyat:**

1. https://en.m.wikipedia.org/wiki/Education_in_the_United_Kingdom
2. www.britannica.com.
3. www.brightworldguardianships.com.
4. www.internationalstudents.
5. www.britishcouncil.com

# İNGİLİS DİLİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏ, VƏ ONUN AZARBAYCAN DİLİNDƏ QARŞILIQİ MÜQAYİSƏSİ

***Tələbə: Abdüləzimova Fidan Vüqar (AZD2202B),***
***Elmi rəhbər: b/m. Rzayeva Leyla Musa qızı***

Dilin əsas vahidi sözdür. Ayrılıqda nitq hissəsi olan sözlər müəyyən leksik və qrammatik əlaqəyə girərək söz birləşmələri və cümlələr əmələ gətirir.

Cümlə bitmiş bir fikir ifadə edən söz və ya söz birləşməsinə deyilir.

Cümlədə hər hansı bir suala cavab verən söz və ya söz birləşməsinə cümlə üzvü (the parts of the sentence) deyilir.

Cümlə üzvü 2 yerə bölünür:

1. Cümlənin baş üzvləri mübtəda ( the subject).

(the principal parts of speech)-xəbər (the predicate).

2. Cümlənin ikinci dərəcəli üzvləri-tamamlıq (the object).

(ikinci dərəcəli nitq hissələri)-təyin (sifət) Zərflik (zərf dəyişikliyi).

I. Məqsədinə görə cümlə aşağıdakı qruplara bölünür:

1. Nəqli cümlələr (the declarative sentence)
2. Sual cümlələri (the interagative sentence)
3. Nida cümlələri (the exclamatory sentence)
4. Əmr cümlələri (the imperative sentence)

II. Quruluşuna görə cümlənin ingilis dilində aşağıdakı növləri var:

1. Səda cümlələr (the simple sentence)
2. Mürəkkəb cümlələr (the composite sentence)

Sadə cümlələr özüdə 2 yerə bölünür:

a) Sadə müxtəsər (simple unextended sentence)
b) Sadə geniş cümlələr ( simple Extended sentence)

a) Sadə müxtəsər cümlələr, mübtəda və xəbərdən, yəni əsas cümlə üzvlərindən ibarət olur.

Məs: we read or we are reading.

l am ll teacher.

Bu cümlədə bir mübtəda və xəbər vardır.

İngilis dilindən fərqli olaraq Azərbaycan dilində şəkilçi sözdən sonra gəlib bitişik yazıldığı halda ingilis dilində tam əksinədir, yəni şəkilçisi aid olduğu sözdən əvvəl gəlib ayrı yazılır. Məs: I am a teacher cümləsində də I mübtəda am şəkilçi teacher asas sözdür. Azərbaycan dilində bir sözlə bir bitmiş fikir ifadə edə bilərik. Məs: istidir, səhərdir, günəşlidir. İngilis dilində isə bu belə ifadə olunmur: It is hot, It morning, It is Mine, It is light.

Bu cümlələrdə həm nitq hissəsi kimi isim sifət, say və əvəzlik işlənmişdir. Azərbaycan dilində eynidir. Fərq ondadır ki, biz Azərbaycan dilində dediyimiz bir sözdən ibarət cümlədə nitq hissələri ilə bərabər xəbər şəkilçisi olan -dır-dən istifadə edirik və şəkilçi aid olduğu sözdən sonra gələr və bitişik yazılır. Amma ingilis dilində bu cümləni əmələ gətirmək üçün mütləq formal mübtədadan yəni "it" şəxs əvəzliyindən istifadə etməliyik və xəbər şəkilçisi olan "is" yanidir-aid olduğu sözdən əvvəl gəlib ayrı yazılır.

Məs. It is hot-istidir.

Bu cümlədə Azərbaycan dilindəki cümlə kimi eyni tərcümə olunur, yəni "istidir" "It" əvəzliyi mübtəda yerində işlədilsə də formaldır, yəni tərcümə olunmur. Yəni Azərbaycan dilində tərcümədə "bu istidir" yox "istidir" kimi tərcümə olunur.

Biz deyirik ki, Azərbaycan dilində nitq köməkçi nitq hissələridir. Amma Azərbaycan dilindən fərqli olaraq ingilis dilində nida əsas nitq hissəsi hesab olunur, yəni hər hansı bir hiss, həyəcan bildirən bir səslə biz bitmiş bir fikri ifadə edə bilərik.

Məs:oh, of, ah, uh, və.s kimi hiss həyəcan bildirən ifadələrdən hər hansı bir kədər, qorxu, sevgi hissi ifadə olunur.

b) Sadə geniş cümlələrdə isə həm cümlənin baş həm də ikinci dərəcəli üzvləri iştirak edir.

Məs: I am writing a litter-mən məktub yazıram.

Bu cümlənin həm mübtədası, xəbəri həm də tamamlığı var.

Bunu da qeyd edim ki, ingilis dilindəki cümlədə söz sırası Azərbaycan dilində olan söz sırası ilə fərqlidir. İngilis dilində mübtədanın yeri Azərbaycan dilindəki kimi sabitdir, yəni hər iki dildə mübtəda birinci yerdə işlənir. Amma ingilis dilində cümlədə mübtədan sonra xəbər sonra isə cümlənin ikinci dərəcəli üzvlərindən biri işlənir. Zaman zərfi ilə yer zərfinin yeri fərqlidir. Azərbaycan dilində zaman zərfi əvvəl sonra yer zərfi gəlir, xəbər isə cümlənin sonunda işlənir.

Məs: Mən yayda çimərliyə gedirəm.

l go to the beach in summer.

İngilis dilində isə əvvəl yer zərfi, sonra zaman zərfi işlənir.

l go to the beach in summer.

11. Mürəkkəb cümlələr (the compasite sentence)

İki və daha artıq sadə cümlənin birləşməsindən əmələ gələn cümlə mürəkkəb adlanır. Mürəkkəb cümlə də öz növbəsində iki yerə bölünür:

a) tabesiz mürəkkəb cümlə

b) tabeli mürəkkəb cümlə

a) iki və daha artıq müstəqil cümlədən ibarət olan mürəkkəb cümləyə tabesiz mürəkkəb cümlə (the compaund sentence) deyilir. Bu cümlələr arasında əlaqələr: and, or, but, either...or, neither...nor, still, yet, for, so, not only... but (also), have ever və s. bağlayıcılar vasitəsi ilə bildirilir.

Məs: It was a lovely day and we went to the siaside.

Gözəl bir gün idi və biz dəniz kənarına getdik.

Olabilər ki, bu əlaqələr bağlayıcısız da, yəni intonasiya ilə yaransın.

b)Tabeli mürəkkəb cümlə bir müstəqil baş cümlədən, digəri ondan asılı olan budaq cümlədən ibarət olarsa onda bu cümlələr arasındakı əlaqə tabelilik əlaqəsi adlanır. Bu növ mürəkkəb cümləyə tabeli mürəkkəb cümlə (the complex sentence) deyilir. Baş cümlə müstəqil olur, barəsində danışan hərəkəti ifadə edir, budaq cümlə baş cümləyə tabe olur və baş cümləni müəyyən mənada tamamlayır. Azərbaycan dilindən fərqli olaraq ingilis dilində həm baş cümlədə, həmdə budaq cümlədə mübtəda və xəbərin olması mütləqdir.

Məs: l looked where he pointed.

Mən onun işarə etdiyi yerə baxdım.

-Budaq cümlə baş cümləyə bağlayıcılarla ( if, so, that, as, because, that ) bağlanır,

Everything was ready till he came.

O gələnə kimi hərşey hazır idi.

Bağlayıcı sözlərə, zərflərə, nisbi bağlayıcı əvəzliklərə: who, whom, whose, what, whide, how və s. Lakin bağlayıcı işlənməyədə bilər. Məs: The mon who is talking to your father is my uncle. −Atanla söhbət edən kişi mənim əmimdir.

We don't know why he went away.

Onun nə üçün getdiyini bilmirik.

l hope all our wish come true.

Mən bütün arzularımızın həqiqətə çevrilməsini ümid edirəm.

1-ci cümlədə nisbi əvəzlik who, 2-ci cümlədə səbəb zərfliyi why işlədilmişdir. 3-cü cümlədə isə bağlayıcı işlədilməmişdir.

−İngilis dilindən fərqli olaraq Azərbaycan dilində nisbi əvəzliklər tərcümə olunmur.

Məs: l enjoyed the film which l watched yesterday.

Dünən tamaşa etdiyim filmdən həzz aldım.

İngilis dilindən tərcümədə isə belə tərcümə olunur:

Mən filmdən həzz aldım hansı ki, dünən tamaşa etdim.

−Azərbaycan dilindən fərqli olaraq ingilis dilində budaq cümlə baş cümlədən əvvəl, sonra və ya ortasından gələ bilər.

1)−Budaq cümlə baş cümlədən əvvəl gələrsə qalxan tonla, baş cümlə düşən tonla deyilir və hər iki cümlə arasında vergül qoyulur.

2) −Budaq cümlə baş cümlədən sonra gələrsə, həm baş həm də budaq cümlə düşən tonla deyilir və vergül işarəsi qoyulur.

3) −Budaq cümlə baş cümlənin ortasında gələrsə budaq cümlədən həm əvvəl, həm də sonra vergül qoyulur.

Məs:The man, who is standing at the door, is my father.

Qapının yanında duran kişi atamdır. Baş cümlə ilə budaq cümləni bir-birindən ayırmaq üçün nələri bilmək lazımdır?

1. Əgər baş cümlə budaq cümlədən əvvəl gələrsə budaq cümlənin baş cümlə ilə bağlayan bağlayıcıdan ayırd etmək olar.

l went the place where he liked

Mən o yaşadığı yerə getdim.

Bu cümlədə baş cümlədən əvvəl, budaq cümlə isə sonra işlədilir. Baş cümlə where bağlayıcısına qədər olan cümlədir.Where bağlayıcısından sonra işlənən cümlə isə budaq cümlədir.

2.Əgər budaq cümlə baş cümlədən əvvəl gələrsə onda hər iki cümlə arasında vergül işarəsi qoyulur.

Məs: if the weather is fine, we shall go to picnic.

Hava yaxşı olsa biz gəzintiyə gedəcəyik.

3. Ola bilərki baş cümlə ilə budaq cümlə arasında heç vergül işarəsi qoyulmasın. Bəs onda budaq cümlə ilə baş cümləni necə ayırd etmək olar?

Yuxarıda qeyd etdiyimiz kimi bunu hər iki cümlədə olan mübtəda və xəbərdən ayırd etmək olar. Ingilis dilində budaq cümlə baş cümləni tamamladığına və müxtəlif funksiya daşıdığına görə aşağıdakı qruplara bölünür:

1. Mübtəda budaq cümləsi – the subject clause.

2. Xəbər budaq cümləsi – the predictive clause.
3. Tamamlıq budaq cümləsi – the object clause.
4. Təyin budaq cümləsi – the attributiv clause.
5. Zərflik budaq cümləsi – the adverbial clauses.

Zərflik budaq cümləsi də öz növbəsində aşağıdakı qruplara bölünür:

Zaman budaq cümləsi –The adverbial clause of Time
Yer budaq cümləsi – The adverbial clause of Place
Səbəb budaq cümləsi– The adverbial clause of Cause
Məqsəd budaq cümləsi -The adverbial clause of Purpose
Nəticə budaq cümləsi – The adverbial clause of Result
Müqayisə budaq cümləsi – The adverbial caluse of Comparison
Güzəşt budaq cümləsi – The adverbial clause of Concession
Tərzi hərəkət budaq cümləsi – The adverbial clause of Manner
Şərt budaq cümləsi – The adverbial clause of Condition

Budaq cümlələr funksiyasını yerinə yetirdikləri cümlə üzvlərinin sualına cavab verib və baş cümlə və bağlayıcılar vasitəsi ilə bağlanırlar. Lakin bağlayıcıların müxtəlif budaq cümlələrdə işlədilməsinə görə bəzi vaxtlar cümlənin növünü aydınlaşdırmaq mümkün olmur.

**Qeyd:** İngilis dilində olan cümlələri Azərbaycan dilinə tam dolğun şəkildə budaq cümlənin növünü aydınlaşdırmaq olar.

## İNGİLİS DİLİNDƏ NİTQ HİSSƏLƏRİ, ONLARIN BÖLGÜSÜ, CÜMLƏDƏ YERİ VƏ FUNKSİYALARI

***Tələbə: Səlimova Gülər Mahir qızı (XDM2201B),***
***Elmi rəhbər: b/m. Əhmədova Lətifə Kərəm qızı***

Dildə mövcud olan sözlər həm numerativ baxımdan, həm də qrammatik baxımdan çox mənalı ola bilir. Sözlər leksik mənalarına, morfoloji əlamətlərinə, sintaktik funksiyalarına, başqa sözlərlə əlaqəyə girmə xüsüsiyyətlərinə və əsas düzəltmə əlamətinə görə müyyən qruplara bölünür ki, bunlara nitq hissələri deyilir. Azərbaycan dilində nitq hissələri iki qrupa bölünür: Əsas nitq hissələrinə isim, sifət, say, əvəzlik, feil və zərf, köməkçi nitq hissələrinə isə ədat, bağlayıcı, modal sözlər, nida, qoşma daxildir. İngilis dilində isə nitq hissələrinin bölgüsü bir az fərqlidir. Azərbaycan dilində 11 nitq hissəsi olmasına baxmayaraq, İngilis dilində 13 nitq hissəsi vardır.
Bunlar 3 qrupa bölünür:

1) Əsas nitq hissələri
2) Sərbəst nitq hissələri
3) Köməkçi nitq hissələri

Əsas nitq hissələrinə isim, sifət, say, əvəzlik, feil və zərf aiddir. Sərbəst nitq hissələrinə vəziyyət bildirən sözlər, modal sözlər, köməkçi nitq hissələrinə isə nida, artikl, sözönü, bağlayıcı və ədat daxildir.

İsim (The Noun)

İsim əsas nitq hissəsi olub əşyalıq bildirir. Müasir ingilis dilində bir neçə qrammatik ələmətlərə malikdir.

1 )isim -er(or), -ness,-ment, -hood, -ism,-ance,-ing for example:

Build-building, move-movement-teach-teach etc.

2: İsim qarşısında adətən ya qeyri-müəyyənlik (a, an) ya da müyyənlik (the) artikili işlənir. For example a girl the girl a table, the table etc. İngilis dilində isimlərin sonu –s,- ss,- x,- sh,- ch,- tch şəkilçiləri ilə bitərsə, cəm forma düzəldərkən –es şəkilçisi əlavə edirik. Box-boxes, glass-glasses

3) İsim əşya bildirdiyi üçün qarşısında əlamət və ya keyfiyyət bidirən təyin işlənə bilir. For example; a deep lake, a kind man etc.

4) İsim sayıla bilən, tək və cəm formada işlənə bilər: for example: a table-tables, a box-baxes.

5) İsim cümlədə sözönü ilə işlənə bilir, for example: of the garden, to the park etc.

6) İsim cümlədə mübtəda, tamamlıq, predikativ, təyin və əvəzlik (sözönü ilə birlikdə) funksiyasında işlənə bilir.

İsimlərin təsnifi ( Classification of Nouns)

Morfoloji quruluşlarına görə ingilis dilində isimlər Azərbaycan türkcəsində olduğu kimi müəyyən qruplara bölünür.

1) Sadə isimlər (The Simple Nouns)

Yalnız bir kökdən ibarət olan isimlərə ,deyilir: a girl, a city, a bird etc.

2) Düzəltmə isimlər (The Derivative Nouns) - Kök və affixdən- ibarət olan isimlərə deyilir. Friendship ,freedom,a teacher etc.

3) Mürəkkəb isimlər (compound nouns)-iki və daha artıq kökdən ibarət olan isimlərə deyilir .a bluebell, an english-man etc.

Sifət ( The Adjective)

Azərbaycan dilində olduğu kimi ingilis dilində də şəxs və ya əşyanın əlamətini, keyfiyyətini və vəziyyətini bildirən sözlərə sifət deyilir a modern city, a fresh fruit etc.

Sifətlər qurluşuna görə 3 qrupa bölünür.

1) Sadə
2) Düzəltmə
3) Mürəkkəb

İngilis dilində sifət düzəldən şəkilçilər bunlardır:

-Less,--like,--ish,--ed (d),-ful,--ible,--able,-ant,-ent,-en,-ous,-some,etc.

İngilis dilində ön şəkilçilər bunlardır: un-, pre-,im--,in-

Müasir ingilis dilində sifətlər dərəcəsinə görə 3 yerə bölünür.

1) Adi dərəcə (The Positive Degree)
2) Müqayisə dərəcəsi (The Comparative Degree)
3) Üstünlük dərəcəsi. ( The Superlative Degree)

Sifətlər adi dərəcədə as...as, not so.....as işlənərkən müqayisə olunan şəxs və ya əşyaların eyni dərəcəli keyfiyyətə, əhəmiyyətə malik olduğunu bildirir.

For example: My brother is as strong as yours.
My room is not so large as his.

Bir hecalı sifətlərin müqayisə dərəcəsini düzəltmək üçün onların sonuna –er, üstünlük dərəcəsini düzəltmək üçün isə -est əlavə edilir.

Strong- stronger-the strongest

İki və daha artıq hecalı sıfətlərın müqayisə dərəcəsini düzəltmək üçün more,üstünlük dərəcəsini düzəltmək üçün isə the most əlavə etmək lazımdır.

Important-more important- the most important.

Bir çox dillərdə olduğu kimi sifət cinsə, kəmiyyətə və şəxsə görə uzlaşmır.

The Numeral (say)

Azərbaycan dilində olduğu kimi müasir ingilis dilində də saylar əşyaların miqdarını və ya sırasını bıldirir. Saylar ifadə etdikləri mənaya görə 3 qrupa bölünür.

1) Mıqdar sayları (Cardinal numeral)

2) Sıra sayları (Ordinal numeral)

3) Kəsr sayları (Fractional numeral)

Miqdar sayları-cümlədə mübtəda funksiyasinda, predikative funksiyasında, tamamlıq və təyin funksıyasında işlənə bilər.

İngilis dilində ayın tarixi sıra sayı ilə ifadə olunur.1 of May, 1975 (The first of May, nineteen saventy-five), yaxud May1, 1975(May the first, nineteen seventy-five)

Əvəzlik(The Pronoun)

Azərbaycan dilində oiduğu kimi ingilis dilində də şəxsləri, əşyaları və ya onlara xas olan əlamət və keyfiyyətləri adlandırmadan bildirən nitq hissəsinə əvəzlik deyilir.

Müasir ingilis dilində əvəzliklər aşağıdakı kimi təsnif olunur:

1) Şəxs əvəzlikləri(personal pronouns)- you, he, she, they, I və s.

2) Yiyəlik əvəzlikləri (possessive pronouns)- my, your, their, mine, theirs və s.

3) Qayıdış əvəzlikləri (reflexive pronouns)- myself, yourself, himself və s.

4) Qarşılıq əvəzlikləri (reciprocal pronouns)- each other,one another.

5) İşarə əvəzlikləri (demonstrative pronouns) This, that, those, these, same, such,

6) Sual əvəzlikləri (interrogative pronouns) who, whose, which,what,

7) Nisbi əvəzlikləri (relative pronouns) who, which, Whose, that.

8) Bağlayıcı əvəzlikləri (conjunctive pronouns)-who ,what, whose, which.

9) Təyin əvəzlikləri (defining pronouns) all each every other either everyone və s.

10) Qeyri-müəyyən əvəzlikləri (indefinite pronouns) - some, any, somebody, many, much, little, few və s.

11) İnkar əvəzlikləri(negative pronouns)-no, none, neither, no one və s.

Zərf (The Adverb)

Zərf feili cümlədə ifadə etdiyi hərəkətə və ifadə etdiyi mənaya müvafiq olaraq How –necə?, nə cür?, Why-nə üçün?, nəyə görə?, When-nə vaxt, nə zaman?, Where-haraya? harada? suallarından birinə cavab verir.

1) How could they cross the bridge in such weather?

2) Why has she got so excited?

Müasir ingilis dilində zərflər iki baximdan təsnif edilir

1) morfoloji baxımdan

2) mənalarına görə

İngilis dilində zərflər mənalarına görə aşağıdakı qruplara bölünür.

1) Hərəkətin zamanını bildirən zərflər

Today, tomorrow, before, after.

2) Hərəkətin yerini bildirən zərflər.

Here, there, insidi, outsidi.

3) Hərəkətin səbəbini və nəticəsini bildirən zərflər

Therefore, because, since, as.

4) Hərəkətin tərzini necə baş verdiyini bildirən zərflər slowly, quickly, fast, hard.

5) Hərəkətin təkrarını bildirən zərflər.

Often, seldom, sometimes, every day/ week/year.

6)Hərəkətin dərəcəsini ölçüsünü bildirən zərflər.

Very, enough, litle, too, much, nearly

Zərfin dərəcə kateqoriya formaları,sifətlərdə olduğu kimi üsulla düzəldilir.

1) Sintetik üsulla: yəni zərfin sonuna şəkilçi əlavə etməklə

2) Analitik üsulla: yəni zərfin əvəllinə köməkçi əlavə etməklə.

Soon—sooner—soonest.

Fast-faster—fastest

Feil(The Verb)

Azərbaycan dilində olduğu kimi ingilis dilində də iş, hərəkət və ya hal-vəziyyət bildirən sözlərə feil deyilir. Müasir ingilis dilində feil şəxs, kəmiyyət, zaman, növ, tərz və forma kateqoriyalarına daxildir. Həmin kateqoriyalar bir halda sintetik üsulla, yəni şəkilçilər vasitəsilə, digər hallarda analitik üsulla, yəni köməkçi sözlər (köməkçi feillər) ilə ifadə edilir

Müasir ingilis dilində feillər morfoloji quruluşlarina görə aşağıdakı qruplara bölünür.

1) sadə feillər-to go, to write, to speak

2) düzəltmə feillər-kök və affiksdən ibarət olan feillərə deyilir –to disappear, to recognize.

3) mürəkkəb feillər-iki kökdən ibarət olan feillərə deyilir.

4) tərkibi feillər-iki kökdən biri feil və bir zərfdən törəmiş qoşmadan ibarət olan feillərə deyilir. For example: to take off, to go away/

Müasir ingilis dilində məlum növdə 16 zaman forması mövcuddur. Məchul növdə 10 zaman forması vardır. Müasir ingilis dilində feili xəbər şəklinin

4 zaman forması var

1) İndiki zamanın qeyri-müəyyən forması

(The Present İndefinite Tense Form)

2) Keçmiş zamanın qeyri- müəyyən forması

(The Past İndefinite Tense Form)

3) Gələcək zamanın qeyri-müəyyən forması)

(The Future İndefinite Tense Form)

4) Keçmişə nəzərən gələcək zamanın qeyri-müəyyən forması

(The Future İndefinite in the Past Tense Form).

Sərbəst nitq hissələri ( Free Parts of Speech)

Modal sözlər (Modal words)

Modallar kateqoriyasının müasir ingilis dilində bir sıra ifadə vasitələri mövcuddur. Bunlardan biri də modal sözlərdir.(Modal sözlər aşağıdakılar kimi xarakterizə edilə bilər)

Leksik-qrammatik mənalarına görə aşağıdakı qruplara bölünür.

1) Əminlik bildirən modal sözlər –certainly, sure.

2) Güman-şüphə bildirən—perhaps, naybe.

3) Arzu istək ifadə edən—happily, fortunately. Vəziyyət bildirən sözlər.

(The words of the category of state)

Azərbaycan dilindən fərqli olaraq ingilis dilində vəziyyət bildirən sözlər adlanan nitq hissəsi mövcuddur .Bura aşağıdakı sözlər daxildir.

Asleep, afraid, awake, alive, alone, ashamed, afloat, aflami, ablusv, abloom, afire, afoot, alike, ablaze və s.

Bu qrupa daxil olan sözlər həm nominativ məna həm də qrammatik səciyyə baxımından xüsusiyyət təşkil edir :onlar şəxs və ya əşyaların müvəqqəti vəziyyətini bildirir, a—prefiksinə malik olur.

Vəziyyət bildirən sözlər bu xüsusiyyətlərə malikdir.

1) Vəziyyət bildirən sözlər cümlədə əsasən predikativ funkisiyasında işlənir.

He felt afraid of him,and ashamed of being afraid

2) Vəziyyət bildirən sözlər zərflə təyin oluna bilər.

The child was fas asleep

2) Vəziyyət bildirən sözlər bəzən təyin funkusiyasında işlənə bilir. Bu növ təyin bir qayda olaraq təyin olunan sözdən sonra gəlir.

She left the child asleep.

4)Vəziyyət bildirən sözlər özündən sonra sözönülü tamamlıq qəbul edə bilir.

Really I am ashamed of you.

Nida(The İnterjection)

Azərbaycan dilində olduğu kimi ingilis dilində də hiss, həyacan bildirən nitq hissəsinə nida deyilir.

Nida bir nitq hissəsi kimi aşağıdakı kimi, səciyyələndirilir

1) Nida ayrıca cümlə üzvü ola bilmir

2) Nida cümlə üzvləri ilə sintaktik əlaqəyə girə bilmir

3) Nida heç bir sözdüzəldici şəkilçiyə malik deyil

4) Nidanın heç bir qrammatik kateqoriyası yoxdur

Müasir ingilis dilində nidaları iki qrupa bölmək olar

1) Hiss-həyacan ifadə edən; ah!, oh!, ugh! və s.

2) Əmr-təkid, razılıq və s.ifadə edən nidalar hey!.ssh!, here!, why! və s.

Köməkçi nitq hissələri: (Strructural Parts of Speech)

Artikl (The Article)

Azərbaycan dilindən fərqli olaraq ingilis dilində artikl adlanan köməkçi nitq hissəsi mövcuddur. Artikl isim əlamətidir. Artiklin nitqdə başlıca vəzifəsi ismə xas olan qeyri-müəyyənlik və müəyyənlik kateqoriyalarını ifadə etməkdən ibarətdir.Büna görə də ingilis dilində iki artikl vardır.

1) qeyri-müəyyənlik artikli a/an

2) müəyyənlik artikli the

Qeyri – müəyyənlik artikli bir qayda olaraq sayıla bilən tək isimlərlə işlədilir. Cəmdə ismin qarşısında qeyri –müəyyənlik artikli işlənmir. A girl-girls, a box-boxes

Müəyyənlik artikli qədim ingilis dilində mövcud olmuş "se" işarə əvəzliyindən əmələ gəlmişdir. "Se" işarə əvəzliyi qədim ingilis dilində həm də artikl vəzifəsini daşımışdır. Müasir ingilis dilində işlənən müəyyənlik artikli bu gün də ona tarixən xas olan işarə etmə mənasını bəzi hallarda saxlamaqdadır.

the table –the tables

the boy-the boys

Sözönü (The Preposition)

Azərbaycan dılından fərqli olaraq müasir ingilis dılində sözönü adlanan köməkçi nitq hissəsi vardır.

Müasir ingilis dilində hal kateqoriyası zəif olduğundan cümlədə isim ilə digər nitq hissələri arasında olan mövcud əlaqələr müxtəlif sözönü vasitəsilə ifadə edilir, məsələn, the name of the boy.

Morfoloji quruluşlarına görə müasir ingilis dili sözönləri aşağıdakı qruplara bölünür.

1) Sadə sözönləri-ancaq bir kökdən ibarət olan sözönlərinə deyilir, məsələn, on,in, at, of, with, for, past və s.

2) Düzəltmə sözönləri –kök,prefix və suffikslərdən ibarət olan sözönlərinə deyilir, məsələn, behind, across, along, among və s.

3) Mürəkkəb sözönləri-İki kökdən ibarət olan sözönlərinə deyilir, məsələn, upon, without, inside, into və s.

4) Tərkibi sözönləri-İki və daha artıq komponomentdən ibarət olan və ayrı yazılan sözönlərınə deyilir, məsələn-because of, in front of, out of, with regard of və s.

İfadə etdikləri qrammatik mənalarina görə sözönlərini aşağıdakı qruplara bölmək olar;

1)Məkan bildirən sözönləri;

In, at,on,in front of,between,under və s.

3) İstiqamət bildirən sözönləri;

To,into,towards,along,from və s.

4) Zaman bildirən sözönlərı

for, in, on, at, after, before, within və s.

5) Mücərrəd əlaqələr ifadə edən sözönləri

with, by, about, because of və s.

Bağlayıcı (The Conjunction)

Dildə mövcud olan sözlər müəyyən və konkret fıkır ifadə etmək üçün hökmən bir – biri ilə əlaqəyə girməli, söz birləşməsi və dərin məna ifadə etmək üçün ayrı-ayrı söz birləşmələrinin və cümlələrinin bir vahıd halında birləşdirilməsi zərurəti çıxır. Bu hallarda sözlərin, söz birləşmələrinin və eləcə də ayrı-ayrı cümlələrinin arasında əlaqə yaratmaq üçün bir sıra vasitələrdən-söz formalarından, intonasiyadan,sözlərin sırasından və köməkçi sözlərdənistifadə edilir.Həmin məqsədlə işlədilən köməkçi sözlərdən biri də bağlayicidir.

Digər köməkçi nitq hissələri kimi, bağlayıcı da heç bir qrammatik kateqoriyaya malik olmur, cümlədə müstəqil sinktaktik funksiya daşıya bilmir. Onun başlıca vəzifəsi sözlər, söz birləşmələri və ya müstəqil cümlələr, habelə budaq cümlə ilə baş cümlə arasındakı əlaqələri ifadə etməkdən ibarətdir.

# THE NOUN

***Tələbə: İsmayılova Ləman Hasil qızı ( TSPX2101B),***
***Elmi rəhbər: m.Cəfərova Sevil Musa qızı***

İngilis dilində morfologiyanın əsas mövzusu nitq hissələridir. Morfologiyada sözlər nitq hissələri kimi öyrənilir, onların quruluşu və dəyişmə qaydaları araşdırılır. İngilis dilində isim (the Noun) obyektlərin, canlıların, mücərrəd anlayışların, müxtəlif hadisələrin adını bildirir. İsim ingilis dili morfologiyasının ən böyük və ən əhəmiyyətli hissələrindən biridir. İngilis dilində isim uzun illər dilçilər tərəfindən morfologiyanın bir hissəsi kimi araşdırılmış və daimi olaraq elmi işlərə tədqiqat obyekti kimi götürülmüşdür.

1. İsim əsas nitq hissəsi olub, əşyalıq bildirir. Ümumilikdə, isim canlı və cansız əşyaların adını bildirən əsas nitq hissəsidir. Leksik-morfoloji quruluşuna görə isimlər 3 yerə bölünür: sadə, düzəltmə və mürəkkəb. Sadə isimlər (the simple nouns) bir kökdən ibarət olan isimlərdir. Bu isimlər insan,yer və ya əşya adı ola bilər.Məsələn: *man, woman, home, office, book, pen* və s.

Düzəltmə isimlər (the derivative nouns) bir kök və şəkilçidən ibarət olur. Bunun üçün xüsusi isim düzəldən şəkilçilər mövcuddur. Şəkilçilər mövqe baxımından suffiks (sona qoşulan) və prefikslərə (önə qoşulan) bölünürlər.

Suffikslər aşağıdakılardır:
-er,or : feildən isim düzəldir: teacher, worker, writer...
-ness : sifətdən isim düzəldir: happiness, kindness, darkness...
-ment : feildən isim düzəldir: development, department...
-hood : childhood, brotherhood, neighbourhood...
-ism : heroism, communism...
-ship : leadership ,friendship...
Prefikslər isə bunlardır:
-anti : anti-virus
-auto : autobiography
-bi : bicycle
-ex : ex-husband

Mürəkkəb isimlər (the compound nouns) 2 və ya daha artıq sözün birləşməsindən yaranır. Mürəkkəb isimlərin necə yazılmasına aid xüsusi bir qayda olmasa da, adətən 3 cür yazılır.

1.bitişik – *butterfly, classmate, greenhouse*
2.defislə – *baby-sitter, mother-in-law*
3.ayrı – *ice cream, bus stop, living room*

2. Leksik mənasına görə isimlər 2 yerə bölünür:
1.Ümumi isimlər – the Common nouns
2.Xüsusi isimlər – the Proper nouns

Ümumi isimlər (the common nouns) aid olduğu bütöv bir sinfi, eyni qəbildən olan əşyaların adını bildirən isimlərdir. Məsələn: *city, town, country, lake, sea* və s.

Ümumi isimlər də öz növbəsində 2 yerə ayrılır:
1.Konkret isimlər – the Concrete nouns
2 .Mücərrəd isimlər – the Abstract nouns

Konkret isimlər ( the concrete nouns) gözlə görülən, toxunulan, dadılan və konkret bir əşyanın adını bildirən isimlərdir. Məsələn: *pen, bread, bed, computer* və s.

Konkret isimlər özləri də 2 qrupa bölünür :

1.Sayılan isimlər – Countable nouns

2.Sayılmayan isimlər – Uncountable nouns

Adından da göründüyü kimi sayılan isimləri saymaq olar. Ümumiyyətlə, onlar görə, hiss edə və ya toxuna biləcəyimiz əşya və ya obyektlərdir. Məsələn, *fruits, vegetables, toys, cars, books, countries, oceans, days, rooms, friends, stars* hamısı "sayılan" isimlərdir. Sayılmayan isimlər sayıla bilməyən, daha doğrusu, rəqəmlərlə birbaşa ifadə edilə bilməyən isimlərdir. Məsələn, *sunshine, information, travel, work, time, money* və *magic* hamısı sayılmayan isimlərdir. Adətən, sayılmayan isimlər happiness, jealousy, justice, advice, luck və sair kimi mücərrəd isimlərdir. Məsələn: *We all seek happiness in our lives.* Sayılan və sayılmayan isimlərlə bağlı müəyyən qaydalar da vardır. Məsələn, bəzi isimlər yalnız bir söz olsalar da, sayılıb sayılmadıqları cümlədə işlədilən mənalarına görə müəyyənləşir.

Hair ismi saç mənasında sayılmır, lakin tük mənasında işlədilərsə o zaman sayılır:

*Her hair is white.*

*There are 5 hairs on his pillow.*

Xüsusi isimlər (the proper nouns) deyəndə isə ümumi isimlərdən hər hansı birini digərlərindən fərqləndirmək üçün verilən adı nəzərdə tuturuq. Xüsusi isimlərə insan adları, coğrafi adlar, ölkə və millət adları, gəmi, meydan, klub, teatr, jurnal adları və Azərbaycan dilindən fərqli olaraq ayların və həftənin günlərinin adları da xüsusi isimlərdir. Məsələn: *Koreans are people I'm familiar with.*

Ümumi isimlərin digər növü olan mücərrəd isimlər (the abstract nouns) isə gözlə görülə bilməyən, toxunula bilməyən və dadıla bilməyən isimlərdir. Məsələn: *love, truth, honesty, honour, hate.*

3. Azərbaycan dilində olduğu kimi ingilis dilində də isimlərin tək və cəm forması olur.Tək isimlər (the singular nouns) yalnız bir şəxsə, yerə, əşyaya və ya fikrə aid olan isimlərdir. Tək isimlər adından da göründüyü kimi təkliyi bildirdikləri üçün heç bir şəkilçi ilə işlənmirlər. Məsələn: *The boy had a baseball in his hand.*

Cəm isimlər isə (the plural nouns) birdən çox şəxsin ,heyvanın, yerin, əşyanın və ya fikrin olduğunu bildirən isimlərdir. Bu isimlər adından da göründüyü kimi cəmliyi, yəni çoxluğu bildirdikləri üçün şəkilçilər ilə işlənirlər.İngilis dilində əksər tək ismin cəm formasını düzəlmək üçün onun sonuna -s şəkilçisini artırmaq lazım gəlir. Lakin bu bütün isimlərə aid edilmir.İsmin cəm formasının düzəldilməsi üçün müəyyən qaydalar mövcuddur:

1. s; ss; sh; ch; tch; x; o hərfləri ilə bitən isimlərin sonuna -es şəkilçisi əlavə olunur. Ancaq sonu "o" ilə bitən bəzi alınma isimlər var ki, onlar istisnadır və sonuna "s" artırmaqla düzəlir. Məsələn: *zero; kilo; solo; kimono; radio; photo; piano; video; studio*

2. F/Fe ilə bitən isimlər isə f və fe atılır "ves" əlavə edilir. Bu isimlər istisnadır: *roof, chief, cliff, muff, cuff, safe, belief.* Bu isimlər isə hər iki yolla düzəlir: *Hoof-Dırnaq; Wharf- Sahil; Scarf-Şarf.* Məsələn: *Hoof-Hoofs* və ya *Hooves.*

3. Sonluğu -ics şəkilçisi ilə bitən elm, fənn adları sonunda -s olmağına baxmayaraq, hansı ki bu -s hərfinin cəm şəkilçisi ilə əlaqəsi yoxdur, hər zaman təkdə olur. Məsələn: *politics, physics, athletics, mathematics, gymnastics.*

4. Sonu -y hərfi ilə bitən isimlərin cəmlənməsində 2 formanı unutmaq olmaz: əgər -y hərfindən əvvəl sait gələrsə həmin sözlərin sonuna sadəcə -s əlavə edilir. Məsələn: *boy-boys, toy-toys, day-days, key-keys.*Əgər -y hərfindən əvvəl samit gələrsə -y hərfi -i hərfi ilə əvəz olunur və həmin ismin sonuna -es əlavə olunur. Məsələn: *city-cities, baby-babies, lady-ladies, fly-flies.*

4. İngilis dilində də isimlər hallana bilirlər, lakin isimlərin 2 hal forması mövcuddur:

1.The Common Case (Adlıq hal, ümumi hal)

2.The Genitive Case (Yiyəlik hal)

Müasir ingilis dilində ismin ümumi halda olduğunu bildirən xüsusi şəkilçi yoxdur.Bu halda ismi morfoloji baxımdan səciyyələndirən formal əlamət onun şəkilçisizliyi hesab edilə bilər. Məsələn:*a table, a bag, a bench, water, love, darkness* və s.

Ingilis dilində ismin yiyəlik halı əsasən şəxs və əşya arasında mövcud olan yiyəlik, sahiblik əlaqəsini ifadə edir.Bu və ya digər əşyanın kimə məxsus olduğunu bildirir. Məsələn*: the boy's name, the worker's tools, the doctors' advice* və s.Müasir ingilis dilində ismin yiyəlik halı tək isimlərdə 's, cəm isimlərdə isə apostrof (') vasitəsilə düzəldilir. Məsələn: *The girl's mother didn't go to work today*.

Eyni bir predmet iki və daha çox şəxsə məxsus olduqda, yiyəlik hal şəkilçisi axırıncı ismə əlavə edilir, məsələn: *Tom and Nick's father*. Lakin eyni bir predmet ayrı-ayrı şəxslərə məxsus olarsa o zaman yiyəlik hal şəkilçisi hər iki ismə əlavə olunur və predmetin sonuna cəm şəkilçisi artırılır. Məsələn: *Tom's and Nick's fathers.* Cansız əşyaların yiyəlik hal forması adətən *of* sözönü ilə işlənir. Məsələn: *The window of the room, the tables of the classroom*

5. İsim cümlənin istər baş üzvləri, istərsə də ikinci dərəcəli üzvləri vəzifəsində çıxış edə bilir:

mübtəda: *The teacher* ( kim?) *explained the new rule* – Müəllim yeni qaydanı izah etdi.

xəbər: *My elder brother is a doctor* (nəçidir?) – Mənim böyük qardaşım həkimdir.

tamamlıq: *The students translated the text* ( nəyi?) *in time* – Tələbələr mətni vaxtında tərcümə etdilər.

təyin: *There are computer* (hansı?) *classes in our school* – Məktəbimizdə kompüter otaqları var.

zərflik: yer zərfliyi: *We shall be in Baku* (harada?) *soon* – Biz tezliklə Bakıda olacağıq.

zaman zərfliyi: *Children rest in different places in summer* (nə vaxt?) – Uşaqlar yayda müxtəlif yerlərdə dincəlirlər.

**Nəticə:** Bu tədqiqat işinin sonunda belə bir nəticəyə gəldim ki, isim dilçiliyin ən əhəmiyyətli bölmələrindən biridir. İsim ingilis dilində cümlənin qurulması baxımından böyük önəm daşıyır.Hər nə qədər geniş və detallı bir mövzu olsa da, ismin bütün xüsusiyyətləri cümlədə öz yerinə görə fərqlənir və cümləni isimsiz təsəvvür etmək mümkün deyildir.İsim sözdüzəldən şəkilçiləri, quruluşca növləri, leksik mənasına görə növləri, halları, cümlədə yerinə görə digər nitq hissələrindən böyük ölçüdə fərqlənir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. O. Musayev. İngilis dilinin qrammatikası, Bakı, 2007.
2. D.A.Yunusov. Guide to English Grammar, Baku, 2004.

3. G. Mammadova. English Grammar Rules and Exercises, Baku, 2020.
4. G. Mammadova. English Grammar Rules and Exercises-2, Baku, 2022.
5. https://language.az/052618023.html
6. http://anglo-saxonworld.blogspot.com/2018/06/the-nounisim-3.html
7. https://kayzen.az/blog/ingilis-dili/160/ismin-hallar%C4%B1.html

# DISCRIMINATION AGAINST AFRICAN-AMERICANS

***Tələbə: Hüseynova Səadət Ədalət qızı (Qrup XDM2101B),***
***Elmi rəhbər: m.Bünyadzadə Gülnar Bakir qızı***

## CHAPTER I
## IDENTIFYING THE HUMAN RIGHTS

### 1.1 Human rights in practice

''Where, after all, do universal human rights begin? In small places, close to home - so close and so small that they cannot be seen on any maps of the world. ... Such are the places where every man, woman and child seeks equal justice, equal opportunity, equal dignity without discrimination. Unless these rights have meaning there, they have little meaning anywhere." - Eleanor Roosevelt (Eleanor Roosevelt was the First Lady of the United States from 1933 to 1945. During this time, she was a keen activist and campaigner for social justice. her husband, Franklin D. Roosevelt, was the President of the United States).

Human rights are the basic rights and freedoms that people have the right to have ". The essence of human rights is that all people should have the same rights, and these rights apply to everyone without the need for explanation. Everyone has inviolable, inalienable rights and freedoms from the moment of birth. These rights and freedoms include a person's responsibility and duties towards society and other people. The rights of a citizen are related to a person's belonging to a certain state. They are protected by the state. Human rights as a means of control over government is a limiter of the unlimited power of the state, which should not exceed the limits of freedom defined by human rights. Human rights are accepted by almost all countries of the world. The universality of this issue is often used to put military and economic pressure on these or other states based on human rights abuses. With the help of fundamental rights in constitutions and international agreements, human rights have been accepted as an inalienable right. In the international world, human rights are legalized by the UN declaration . The human rights and freedom of everyone should be ensured regardless of race, gender, language, religion, political and other beliefs, national and social origin, property, origin and other circumstances. [7] Without enforcement, universal human rights are just a concept. Instruments like treaties and laws are necessary to ensure everyone's human rights are protected. Human rights lawyers, advocates, and other defenders of human rights pressure governments, companies, and individuals to uphold the law, create new laws, and hold violators accountable. The Universal Declaration of Human Rights enshrines the right to be free from discrimination. It's also protected in the International Covenant on Civil and Political Rights, the International Covenant on Economic, Social, and Cultural Rights, and other human

rights laws. Anti-discrimination legislation works to prevent discrimination against certain groups of people, who are often referred to as "protected groups" or "protected classes." Human rights are rights inherent to all human beings, regardless of race, sex, nationality, ethnicity, language, religion, or any other status. Human rights include the right to life and liberty, freedom from slavery and torture, freedom of opinion and expression, the right to work and education, and many more. Everyone is entitled to these rights, without discrimination.

The human rights include:

- The right to freedom of opinion and expression can be found in Article 19 of the UDHR. It includes the right to "hold opinions without interference." Freedom of expression is often threatened by the powers that be in the name of national security or religion. While governments do have a duty to prohibit hate speech, that authority can be abused to squash activists, journalists, and NGOs.

-People with disabilities endure significant barriers and discrimination. Their human rights are often violated because they require more accommodations than able-bodied or neurotypical people.

- Women's rights and gender equality

Women's rights and gender equality are major areas of humans rights law. While universal human rights (such as the right to life, work, freedom from discrimination, etc) apply to all people, women have not historically enjoyed equal rights. In 1979, the General Assembly adopted the Convention on the Elimination of All Forms of Discrimination against Women, acknowledging that while other instruments exist, women still don't have the same rights as men. Depending on the region, significant violations of women's rights are commonplace. This includes discrimination in the workplace, barriers to education and healthcare access, and other structural problems.

- Domestic violence is often grouped with women's rights because it mostly affects women. In the United Nations Declaration on the Elimination of Violence Against Women (1993), the document stated that "violence against women is one of the crucial social mechanisms" that keeps women lower on the social ladder. Domestic violence also has a significant impact on children. While less prevalent, men can also be affected by domestic violence, so human rights laws need to include them. Laws on domestic violence vary by country.

- Displaced people are owed human rights like everyone else. They are also uniquely vulnerable because of why they were displaced (which includes conflict, food insecurity, climate change and more) and the stigma placed on them as they seek a new home. The Office of the United Nations High Commissioner for Refugees has a mandate to provide international protection. International instruments include the 1954 Convention Relating to the Status of Stateless Persons and the 1961 Convention on the Reduction of Statelessness.

- The right to education is found in the Universal Declaration of Human Rights and other international instruments. It's considered crucial because of its effect on other human rights. Research shows that if all adults completed secondary education, poverty rates significantly go down. Education also narrows the gender gap. The right to education includes universal and free primary education, accessible secondary education, and accessible higher education. Human rights defenders focus on challenges to the right to education, such as migration and displacement,

financing, and discrimination. Various international human rights instruments provide a framework for the right to education, so the countries that ratify these treaties need to be held accountable.

1.2. Discrimination and its types

Discrimination - in all its possible forms and expressions - is one of the most widespread forms of human rights violations and exploitation. Millions of people are discriminated against every day and it is one of the most difficult problems to identify. Discrimination and intolerance are closely related concepts.

Discrimination is the act of making distinctions between people based on the groups, classes, or other categories to which they belong or are perceived to belong that are disadvantageous. People may be discriminated on the basis of race, gender identity, age, religion, disability, or sexual orientation, as well as other categories. Discrimination especially occurs when individuals or groups are unfairly treated in a way which is worse than other people are treated, on the basis of their actual or perceived membership in certain groups or social categories. It involves restricting members of one group from opportunities or privileges that are available to members of another group.[8]

Discriminatory traditions, policies, ideas, practices and laws exist in many countries and institutions in all parts of the world, including territories where discrimination is generally looked down upon. In some places, attempts such as quotas have been used to benefit those who are believed to be current or past victims of discrimination. These attempts have often been met with controversy, and have sometimes been called reverse discrimination. There are several types of discrimination:

- Ageism or age discrimination is discrimination and stereotyping based on the grounds of someone's age. It is a set of beliefs, norms, and values which used to justify discrimination or subordination based on a person's age.Ageism is most often directed toward elderly people, or adolescents and children

- Discrimination against people with disabilities in favor of people who are not is called ableism or disablism. Disability discrimination, which treats non-disabled individuals as the standard of 'normal living', results in public and private places and services, educational settings, and social services that are built to serve 'standard' people, thereby excluding those with various disabilities. Disabled people not only need employment in order to be provided with the opportunity to earn a living but they also need employment in order to sustain their mental health and well-being. Work fulfils a number of basic needs for an individual such as collective purpose, social contact, status, and activity.A person with a disability is often found to be socially isolated and work is one way to reduce his or her isolation.

- Linguistic discrimination is unfair treatment of people which is based on their use of language and the characteristics of their speech, including their first language, their accent, the perceived size of their vocabulary their modality, and their syntax.For example, an Occitan speaker in France will probably be treated differently from a French speaker. Based on a difference in use of language, a person may automatically form judgments about another person's wealth, education, social status, character or other traits, which may lead to discrimination.

- Discrimination on the basis of nationality is usually included in employment laws. It is sometimes referred to as bound together with racial discrimination although it can be separate. It

may vary from laws that stop refusals of hiring based on nationality, asking questions regarding origin, to prohibitions of firing, forced retirement, compensation and pay, etc., based on nationality.[9]

- Religious discrimination is valuing or treating people or groups differently because of what they do or do not believe in or because of their feelings towards a given religion. For instance, the Jewish population of Germany, and indeed a large portion of Europe, was subjected to discrimination under Adolf Hitler and his Nazi party between 1933 and 1945. They were forced to live in ghettos, wear an identifying star of David on their clothes, and sent to concentration and death camps in rural Germany and Poland, where they were to be tortured and killed, all because of their Jewish religion. Many laws separated those of Jewish faith as supposedly inferior to the Christian population.

- Sexism is a form of discrimination based on gender. It has been linked to stereotypes and gender roles, and may include the belief that one gender is intrinsically superior to another. Gender discrimination may encompass sexism and is discrimination toward people based on their gender identity or their gender differences. Gender discrimination is especially defined in terms of workplace inequality. It may arise from social or cultural customs and norms.

- Reverse discrimination is discrimination against members of a dominant or majority group, in favor of members of a minority or historically disadvantaged group. Groups may be defined in terms of disability, ethnicity, family status, gender identity, nationality, race, religion, gender or other factors. This discrimination may seek to redress social inequalities under which minority groups have had less access to privileges enjoyed by the majority group. In such cases it is intended to remove discrimination that minority groups may already face.

- Racial and ethnic discrimination differentiates individuals on the basis of real and perceived racial and ethnic differences and leads to various forms of the ethnic penalty. It can also refer to the belief that groups of humans possess different behavioral traits corresponding to physical appearance and can be divided based on the superiority of one race over another. It may also mean prejudice, discrimination, or antagonism directed against other people because they are of a different race or ethnicity. Modern variants of racism are often based in social perceptions of biological differences between peoples. These views can take the form of social actions, practices or beliefs, or political systems in which different races are ranked as inherently superior or inferior to each other, based on presumed shared inheritable traits, abilities, or qualities.

Every person should know their rights and be able to fight for their rights by demanding their rights when their rights are violated.

*"We must take sides. Neutrality helps the oppressor, never the victim. Silence encourages the tormentor, never the tormented. Sometimes we must interfere. When human lives are endangered, when human dignity is in jeopardy, national borders and sensitivities become irrelevant." - Elie Wiesel*

## CHAPTER II
## INEQUALITY AND DISCRIMINATION IN AMERICA

### 2.1 Historical Roots of American Racism

Racism is a feeling of hatred and superiority directed to a person or a group of community because of colour, national origin or ethnicity.

It may portrayed in through verbal harassment, jokes,or racial names calling or through excluding people from certain public places or workplaces due to their colour or nationality. Racism can also be portrayed through opinions , behaviours of people . It can also be shown in official institutions , public places and even in parliamentary legislations and amendments .However racism is not often explicit but it may be hidden and implied ,to name just a few examples ,in schools, universities ,and in applications for careers and promotions where people are treated and dealt with according to their social position and surnames .Not only blacks and other people of colour are treated racially but also white people are affected by racism when dealt with racially when they are constituting minority in certain community .Racism is very sensitive, serious and dangerous issue in this world and it created a problem many centuries ago.

America is one of the countries with the highest level of racism. In America, African Americans were discriminated against because of their race. Racism in America has a very long history.

Despite that the United States built on the rubric all people without any exception have equal birth but the fact is that it was constituted basically on the policy and strategy of genocide of the regional people and depredation their lands, then America blossomed and flourished economically, on the accounts of the Africans labours who were enslaved mercilessly. In the United States racism is formed since its birth. Racism increased hastily and skilfully to be the efficient instrument of the monstrosity and the new continent of the European migrators who settled in the east shore of the new land after 1600. The story of race and racism in America began in 1661 when the first African reached from the Africa to the new land in Virginia and in 1619 a Portuguese boat with nineteen slaves Came from Angola, south of Africa to Virginia to work in the farms of tobacco there. The procedures of employing blacks was continued and developed. According to the legislation of Virginia in 1662 that identified that the situation of the African child pursued the situation of its mother which meant that the enslaved mother gave birth generations of black babies who were considered as commodities who were submitted to, exploited, sold and bought. The black emigrants endured a lot. The history reveals that those African were dealt with either as servants or slaves who can have their freedom only if that they convert their religion to Christianity or if they work for their lords for one year. In the initial formation of the American colonies the exploitation and oppression of black people as slaves increased firmly. The law that associated with slavery developed rapidly for the purpose of achieving and fulfilling the expectations and needs of the white settlers. They were aiming to institute their territorial invasion with the simple and minimum expenditures. While slaves multiplied in numbers, the makers of the laws of the colonies sensed the demand to adjust the situations and terms of slavery without regarding the rights of slaves for contracting or owning any property and refusing their civil rights.

In all circumstances weather those African people were regarded as or servants or slaves, it is easily to see how mercilessly they were dehumanized as there was no any other choice and even if they fulfil the conditions, there will be many restrictions and obstacles in front of their lords to sign for their freedom were full of oppression, intolerance and prejudice because converting to Christianity is one way to forget everything associated to their heritage, roots, culture and identity. The second condition involves to work ,suffer and struggle for not less than one year

forgetting anything about their human feelings and dignity. Above all it is considerable to be mentioned that though these conditions were inhuman and oppressive but they were regarded as the best choices for them during the history of slavery because with the increasing of slaves number in America the white Americans called for new ideologies and mechanisms to fulfil their expectations denying any human any rights, feelings, and dignity; therefore the laws of the colonies altered to suit and meet the interests and utilities of whites and in case that any slave dreams to get his freedom he should please and have the approval of his lord which is depended and conditioned on a very complicated and abusive procedures.

Black propel were exploited and treated mercilessly by the whites. They were considered no more than baggage to be bought or sold in return for some articles having no any civil or human rights.

The concept "race" is not modern. It is used since the beginning of the sixteenth century to describe a group of people who share a kinship. The terms "slave" "white " and "race" were developed and grown by the European in the 1400s, they took these terms with them in their migration to America but the recent application of the concept race is considerably different as it is used to identify people on the basis of certain features which are basically colour skin, genetic heredity besides physical features but biologically the word race is not suitable.

The term "White" first adopted in colonial legislation in the late 1600s. After 1790, people were asked to mention their race in the census of 1826.

Though there are clearly biological and genetic differences among races like, eye shape, hair texture and skin colour in addition to traits like, mathematical ability and athleticism, sexuality is constructed socially and not biologically and all the features like hair texture or skinned colour are regarded superficial and external which associated and affected with the geographical adaptations and the concept "people of colour" is not reveal or identified biological features and never links to scientific characteristics. People of colour are those who undergone the experience of iniquity and oppression and racism that basically work on remaining people of colour isolated and divided. Huge number of people believe only of their ethnic or racial group when dealing with inequity or the importance to construct their political power without giving any necessity to the need to construct relationships with the rest categories of colour. Great number of people think only of their own racial or ethnic group when discussing inequity or the necessity to build their political power neglecting the need to build connections with the rest denominations of colour.

Racism at the beginning of the 18th century there was a declination to be in harmoniously and adaptation with the nature and that influenced and increased the concept of rationality and race. They had have classificatory manner and concentrated on subjects that questioned whether all human beings were returning to one species. There were many significant and influential classificatory systems in the 18th century particularly the system by the scientists "Swedish Carl Linnaeus" in his book "System Nature" in which he brilliantly classified creatures into animals and planets then he classified humans as part of the animals category then he sub divided humans into four sorts:

1.Americans (red, erect and choleric).

2.Asians: (yellow, inflexible and melancholic).

3.European:( as white and the other kind are muscular)

4.African (as phlegmatic and the other sort is indulgent).

The policy of the United States which is entirely classificatory kept on its ideology and the classification's system of people according to their races before the civil war regarded the white as superior, outstanding and the most deserving of political and economic rights.

The Virginia legislature in 1705 barred criminals, blacks, mulattos and Indian Americans, criminals from holding any ecclesiastical, military, or civil, office, or of being in any position of public trust power.

The classificatory system "of ranking human race continued and developed in the 19th century. Many, anthropologists ,scientists and thinkers contributed in developing that system like the anthropologist, philosopher and scientist; W. Winnowed Reed, who published in 1846, his book the "Savage Africa", in this book he introduced his racial predictions that is filled with genocide intentions and expectations when he said that Britain and France would dominate and control Africa and the African people will drill the moats and would equip the deserts with water and that mission would be very difficult and because of that the Africans would possibly be extinct. He mentioned the beneficences rule which is part of the "the law of nature" adding that the weak people must be devoured and preyed on at the hands of those who are strong.

"In the 19th century there emerged a whole range of theories that explained all human variation on the basis of innate racial characteristics" .

Most views of the scientists of race in the 19th century are united by many assumptions, including the theories of the scientist Robert Knox who wrote in his book "The Races of Men" published in 1850 that "race is everything" and the French scientist Count Arthur de Gatineau in his essay published in 1854 "Essay on the Inequality of Human Races" ;these assumptions identified firstly, that human beings could be classified into finite number of permanent and distinct races. Secondly, there were notable physical features that characterized the various races mainly skin colour, texture of hair, shape and size of skulls, and facial features. Thirdly, that every race innately related to notable social features, moral and cultural traits Fourthly, that those races could be grouped hierarchy of beauty, latent, with white people at the top while black people at the bottom.

Darwin published his famous theory in 1859 on the sources of species. He documented the process of evolution and explained his beliefs and views of order of nature and its relation with the evolution of spices. He wrote his view that the weak species dies while the strong one survives.

Despite the fact that Darwin's theory of evolution is not racist, many social thinkers and scientists employed this theory in pseudoscientific policy to justify their disgusting aims of genocide and racial discrimination. This method of thinking that had merciless inclusions and connotations is called later "Special Darwinism".

Racism acts in America started to have new forms and directions. It is rooted out in the minds and beliefs of new generations and filled many sides of life even the idea of aesthetic was linked deeply with whiteness and ugliness was linked with blackness to create this impression in the minds of generations. Since the formal emancipation of racism was declared in America in 1865 with the exception of criminals which produced a legal gap that permitted for exploitation black people under the title of law which caused to arrest many African Americans for unmentionable reasons like meandering and above all after arresting those black peoples were forced to work for

reconstruction and refreshing the American economy and building the country. Despite law of abolishing slavery in the United States in the nineteenth century but in fact racial discrimination was not substantially cancelled instead another form of racism was starting to appear which is more subtle, more tricky and more dangerous than the old form.

Jim Crow laws:

Jim Crow laws discriminated whites from blacks in schools, public transportation, universities, hospitals, restaurants orphanages, public places and even death doesn't finish did not this segregation. Black people had isolated funeral homes and even separate cemeteries .

The term "Jim Crow" refers to a series laws and ordinances passed by Southern states and municipalities between 1877 and 1965 legalizing segregation (the physical separation of individuals based on race, gender, religion, or class) within their boundaries. It also refers to an entire way of life in which whites and blacks lived in two vastly unequal communities in the South. One of them the white had all the power, wealth, and privileges while the other the black faced daily, seemingly unending incidents of terror and humiliation, with hardly any freedom, very little wealth, and absolutely no justice.

After 1920African American began their decampment to the large and industrial cities to compensate the shortage of employees. The scenario of discrimination and segregation didn't and rather blacks and other people of minority continued to suffer and struggle. They encountered exclusion and discrimination in every aspect of life particularly in getting opportunities for work and also in their political, social rights, including and the right of vote chiefly in the southern states.

"The inequitable treatment of blacks in public accommodations, housing, employment, government services, and criminal justice. This inequitable treatment, in turn, further separated blacks and made them easier targets for continued victimization, propelling the cycle of inequality. The open, systematic separation of blacks would come to be known as "Jim Crow," and it flourished insidiously throughout the 20th century".

Racism now is patronised through policy, law and practices more than in individual discrimination, prejudice or bias. Everyday racism is common, ordinary expo for people of colour in the United States.

*"Prejudice is a burden that confuses the past, threatens the future, and renders the present inaccessible"-Maya Angelou*

2.2 The impact of Discrimination and the struggles against it

"No one is born hating another person because of the color of his skin, or his background, or his religion. People must learn to hate, and if they can learn to hate, they can be taught to love, for love comes more naturally to the human heart than its opposite" Nelson Mandela.

Racism is largely the result of interest convergence, sometimes referred to as material determinism. Race is socially constructed. Racism often takes the form of differential radicalisation. Everyone's identity is a product of intersectionality. The experiences of racial minorities have given them what might be called a unique voice of colour.

Studies reveal that Latinos and blacks who seek jobs, apartments and loans are much more appropriate than their white counterparts to experience rejections, often for spurious and ambiguous reasons. Moreover, blacks and Latino executives and lawyers always attract suspicion while driving or riding a train earlier to their offices. The population of the prisons is largely browns or blacks;

senators, chief executive, officers, university presidents and surgeons are roughly all whites. Recently, nearly all Oscar winning actors ,stars and directors have been whites. Poverty in America has brown or black face. Studies show that the average of assets for black families is only one thirteenth as compared with their white counterparts. The families of Blacks and other minorities have to pay more for products, shopping, services like hiring cars .Most people of colour live shorter lives, got worse medical care, spend less years at school and occupy more niggling jobs than white people.

As we know, discrimination has existed throughout history (race, religion, gender, nationality, etc.) and has become one of the biggest problems of humanity. And many people have fought against this injustice. One of the leaders of this struggle was Martin Luther King. From the very beginning of his career, Martin Luther King advocated for the civil rights of Black Americans through peaceful protests and speeches. He also worked hard to pass legislation that outlawed discrimination on the basis of race, color, religion, or national origin. He fought for the Voting Rights Act of 1965, which helped ensure that all Black Americans could vote. Dr. King also played a vital role in planning and executing the March on Washington in 1963.

Dr. Martin Luther King, Jr. impacted society by helping end racial segregation and discrimination through speeches, protests, and legislation. He also inspired a new generation of civil rights activists and helped make the United States a less unequal nation. Most of the human rights in the US at the time applied to white citizens only. Martin Luther King fought for racial equality using nonviolent methods, such as protests, marches, and speeches. His work helped bring about major changes in the laws that discriminated against Black people. In addition, his inspirational words and actions motivated many people to stand up for their own rights and fight for a more just society.

*The civil rights movement*

The overall goal of the Civil Rights Movement was to achieve equal rights for African Americans because many state laws allowed discrimination against them. The leaders of the movement reached this goal through peaceful protests and through voicing their opinions on the necessity for equality in America.

*"To bring about change, you must not be afraid to take the first step. We will fail when we fail to try"-Rosa Parks*

*Rosa Parks and the Montgomery bus boycott, 1955–1956*

On December 1, 1955 nine months after a 15-year-old high school student, Claudette Colvin, refused to give up her seat to a white passenger on a public bus in Montgomery, Alabama, and was arrested, Rosa Parks did the same thing.

The civil rights movement was a nonviolent social movement and campaign from 1954 to 1968 in the United States to abolish legalized racial segregation, discrimination, and disenfranchisement throughout the United States. The movement had its origins in the Reconstruction era during the late 19th century, although it made its largest legislative gains in the 1960s after years of direct actions and grassroots protests. The social movement's major nonviolent resistance and civil disobedience campaigns eventually secured new protections in federal law for the civil rights of all Americans. After the American Civil War and the subsequent abolition of slavery in the 1860s, the Reconstruction Amendments to the United States Constitution granted

emancipation and constitutional rights of citizenship to all African Americans, most of whom had recently been enslaved. For a short period of time, African-American men voted and held political office, but as time went on they were increasingly deprived of civil rights, often under the racist Jim Crow laws, and African Americans were subjected to discrimination and sustained violence by white supremacists in the South. Over the following century, various efforts were made by African Americans to secure their legal and civil rights, such as the civil rights movement (1865–1896) and the civil rights movement (1896–1954). The movement was characterized by nonviolent mass protests and civil disobedience following highly publicized events such as the lynching of Emmett Till. These included boycotts such as the Montgomery bus boycott, "sit-ins" in Greensboro and Nashville, a series of protests during the Birmingham campaign, and a march from Selma to Montgomery.

At the culmination of a legal strategy pursued by African Americans, in 1954 the Supreme Court struck down many of the laws that had allowed racial segregation and discrimination to be legal in the United States as unconstitutional. The Warren Court made a series of landmark rulings against racist discrimination, including the separate but equal doctrine, such as Brown v. Board of Education (1954), Heart of Atlanta Motel, Inc. v. United States (1964), and Loving v. Virginia (1967) which banned segregation in public schools and public accommodations, and struck down all state laws banning interracial marriage. The rulings played a crucial role in bringing an end to the segregationist Jim Crow laws prevalent in the Southern states. In the 1960s, moderates in the movement worked with the United States Congress to achieve the passage of several significant pieces of federal legislation that authorized oversight and enforcement of civil rights laws. The Civil Rights Act of 1964 explicitly banned all discrimination based on race, including racial segregation in schools, businesses, and in public accommodations. The Voting Rights Act of 1965 restored and protected voting rights by authorizing federal oversight of registration and elections in areas with historic under-representation of minority voters. The Fair Housing Act of 1968 banned discrimination in the sale or rental of housing.

African Americans re-entered politics in the South, and young people across the country began to take action. From 1964 through 1970, a wave of riots and protests in black communities dampened support from the white middle class, but increased support from private foundations. The emergence of the Black Power movement, which lasted from 1965 to 1975, challenged Black leaders of the movement for its cooperative attitude and its adherence to legalism and nonviolence. Its leaders demanded not only legal equality, but also economic self-sufficiency for the community. Support for the Black Power movement came from African Americans who had seen little material improvement since the civil rights movement's peak in the mid-1960s, and still faced discrimination in jobs, housing, education and politics. Martin Luther King Jr. was the most visible leader of the movement. However, some scholars note that the movement was too diverse to be credited to any particular person, organization, or strategy.

The Civil Rights Act of 1964 hastened the end of legal Jim Crow. It secured African Americans equal access to restaurants, transportation, and other public facilities. It enabled blacks, women, and other minorities to break down barriers in the workplace.

By the way Barack Obama is the first black president of America. In 2009 Barack Obama the son of an American father from Kenya and a White mother from Cansas became president of

United States. He moved into the White House which had been built by slaves in the U.S. capital that was principially segregated in 1961 the year he was born. There is still a lot to do make the lives of blacks and whites truly equal lives of blacks and whites truly equal. Today the fight of civil rights movement lives on in organizations such as black lives matter.

## CONCLUSION

The extent of reported discrimination across several areas of life suggests a broad pattern of discrimination against blacks in America, beyond isolated experiences. Black-white disparities exist on nearly all dimensions of experiences with public and private institutions, including health care and the police. Evidence of systemic discrimination suggests a need for more active institutional interventions to address racism in policy and practice.

The present study has empirically demonstrated the protective power that racial socialization can provide for African Americans. As long as racism and discrimination continue to exist, African American families will have the task of combating the negative messages that their children receive from the broader society. This process is both a

direct and indirect part of African American culture and may be essential to mental and physical health of African Americans. If we are to understand what can be done to prevent the negative consequences of racial inequality for our African American youth,

we will need to further explore what has contributed to the positive outcomes of resilient African Americans.

## REFERENCE


1. Tyson, Lois. Critical Theory Today: A user Friendly Guide,2015, Gate Britain, New York.
2. Rattans Ali. (2007). Racism a very Short Introduction. Oxford University Press. New York.
3. Tischauser, Lesilie V (2012). Jim Crow Laws. Santa Barbara. California.
4. Fremon David, K (2000). The Jim Crow Laws and Racism in the United States History, Library of Congress, the United States of America.
5. Higginbotham, F. Michael. (2013). Ghosts of Jim Crow Ending Racism in Post Racial America. Library of Congress. New York.
6. Sunnemark, Fredrik. Ring out Freedom: The Voice of Martin Luther King. (2004). Indiana University Press. The United States of America.
7. https://az.m.wikipedia.org/wiki/%C4%B0nsan_h%C3%BCquqlar%C4%B1
8. https://en.m.wikipedia.org/wiki/Discrimination
9. http://www.koningjilek.com/discrimination.html
10. https://en.m.wikipedia.org/wiki/Civil_rights_movement
11. https://en.m.wikipedia.org/wiki/Rosa_Parks

# MƏNƏVİ TƏRBİYƏ İŞİNDƏ VƏTƏNPƏRVƏRLİK NÜMUNƏLƏRİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Tələbə: Məhərrəmova Lamiyə Bəxtiyar qızı (AZD2101B*),**
***Elmi rəhbər: p.ü.f.d.,b/m. Kərimli Tahir Mehdixan oğlu***

Ulu öndərimiz Heydər Əliyev gənclərin mənəvi tərbiyəsi haqqında Birinci Ümumrespublika Forumundakı nitqində qeyd etmişdir: "Xalqımızın tarixinin əsasını təşkil edən bütün mərhələlərdə keçmiş əsrlərdən bəri yüksək mənəviyyat olmuşdur. Məhz keçmiş əsrlərdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri də mənəvi tərbiyə məsələsidir. Mənəvi tərbiyəni daim aparmaq lazımdır. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Gənclərimiz milli-mənəvi ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".

Gənc nəslin təlim tərbiyəsinin qayğısına qalan Ulu Öndərimiz başqa bir çıxışında qeyd etmişdir ki: "Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məvhumdur. Vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq-budur vətənpərvərlik.

Vətənpərvərlik anlayışın mahiyyəti:

Mənəvi tərbiyənin bir hissəsi də məhz vətənpərvərlik tərbiyəsidir, Ulu Öndərin də qeyd etdiyi kimi vətəni sevmək, el-obaya bağlı olmaq bu tərbiyənin əsasını təşkil edir. Uşaq və yeniyetmələrin, oğlan və qızların vətənsevərlik ruhunda indi həmişəkindən daha artıq qayğı göstərilməlidir. Çünki müstəqillik yolunda qətiyyətlə addımlayan vətənimizin gələcəyi və bugünkü taleyi gənc nəslin hansı ruhda tərbiyə olunmasından asılıdır.

Tərbiyənin mənbəyi ailədir.Vətənpərvərlik tərbiyəsinin də əsası ailədə qoyulur. Burada uşaqlara hər şeydən əvvəl vətənin coğrafiyası, milli adət-ənənələri, mədəniyyəti, tarixi öyrədilir, vətəni sevmək öyrədilir ancaq vətənpərvərlik ancaq vətəni sevmək deyildir, həmdə vətən naminə çalışmağa hər an hazır olmaq, vətəni qorumaq, vətənin uğuruna sevinməkdir. Bu hisslər də insanda anadangəlmə olsa digər bütün hisslər kimi tərbiyəyə möhtacdır.

Vətənpərvərlik-öz doğma vətəninə, ölkəsinə, diyarına məhəbbət, onun düşmənlərinə qarşı barışmazlıq ifadə edən mənəvi keyfiyyətlərdəndir.Vətənpərvərlik bir əxlaqi keyfiyyət olub digər əxlaqi keyfiyyətlərin əsasını qoyur, belə ki hər bir müsbət əxlaqi keyfiyyətin əsasını öz millətinə, vətəninə, xalqına, doğma, kiçik kəndinə məhəbbət təşkil edir.Vətənpərvərlik tərbiyəsi insanın yaşadığı mikro mühitdən, doğma ata yurdunu, kəndini, küçə və şəhərini sevməkdən başlayır. Bu məhəbbət böyük vətənə, onu qoruyan dövlətə yaradılacaq məhəbbətin əsasını təşkil edir.Vətən uğrunda canını fəda edən nə qədər igidlərimiz, milli qəhrəmanlarımız var. Xalqımız demiş: "Vətəndən əziz birdə vətəndir, Vətəni sevmək imandandır" yaxud "Bayraqları bayraq yapan üstündəki qandır; Torpaq əgər uğrunda ölən varsa vətəndir" demişlər.

Vətənpərvərlik hissini şagirdlərə aşılamaq üçün bədii ədəbiyyat nümunələrinə müraciət etmək də böyük əhəmiyyət kəsb edir. Tarixi yaddaşımızı göz bəbəyi kimi qoruyub-saxlamaq

vətənpərvərlik əzmini gənclərdə artırmaq üçün "Doğma yurd şirin olur", "Vətən viran olsa da cənnətdir" kimi atalar sözləri yaxud da Səməd Vurğunun "Yurdunu atana dünya dar olsun" kəlamı tez-tez səslənməli və şagirdlərdə bu hislər tərbiyə olunmalıdır.

Dahi klassiklərinizə də müraciət etmək də fayda verər. XXII əsr Azərbaycan ədəbiyatının görkəmli şairi olan dahi Nizami Gəncəviyə müraciət edək: O şagirdlərdə vətənpərvərlik hissinin aşılanmasında müəllim əməyinə düzgün qiymət vermişdir:

Bağlı bir qapıya açar axtarsan
Ancaq alimlərdə axtar, taparsan
Mərdlərin qan tökən qılıncı bəli
Alim tədbirilə olar kəsərli

Vətənin müdafiəsində daim həmrəy olmaq da önəmli məsələlərdəndir. Bu barədə Bəxtiyar Vahabzadənin də qeyd etdiyi kimi:

Vətən silkələndi, səfərbər oldu
Böyük bir məmləkət bir nəfər oldu.

Bu barədə hətta uzaq keçmişdə Məhəmməd Peyğəmbər demişdir: "Millərin içində xəyanət olmasa düşmən qarşımızda tab gətirə bilməz.

Dahi şair Səməd Vurğun da bu dünyada Ananın və vətənin hər şeydən əziz, önəmli olmasını kiçik bir şeir parçası ilə özünəməxsus şəkildə ifadə etmişdir:

Burda yolum oldu tən
Varmı bu yoldan ötən?
Bu dünyada şirin şey
Bir anadır, bir vətən

O, "Balalarımız üçün gözəl əsərlər yaradaq "adlı əsərində yazırdı ki: "İnsan hissləri içərisində ən müqəddəs, ədəbi tərəqqi və inkişafa təkan verən amillərdən biri bəlkə də ən mühümü vətənsevərlikdir.Vətən məhəbbəti insanən ən böyük zinəti, onu yaşadan ən qadir qüvvə vətənsevərlik hissidir, bu hiss bugünkü körpə nəslinin təlim və tərbiyəsinin əsas ruhu, çarpan ürəyi, düşünən beyni olmalıdır".

Şairlərimiz doğma Azərbaycanın gözəl təbiətini öz əsərlərində o qədər gözəl tərənnüm etmişdir ki, bu şeirləri oxuyan oxucu şairin elinə, obasına bağlı bir vətəndaş olduğunu anlayır

Vətənimin seyrinə çağırıram elləri
Sərvət görmək istəyən Azərbaycana gəlsin
Bəzənib başdan-başa şəhərləri,kəndləri
Cənnət görmək istəyən Azərbaycana gəlsin

Sonuncu misra ilə şair öz vətənini yer üzərindəki Cənnətə bənzədir.

İngilis alimi Con Lokk hakim siniflərə müraciətində demişdir: "Uşaqlarınıza yumşaq çarpayıda yatmağa alışdırmayın, əksinə onları elə tərbiyə edin ki, vətənin müdafiəsində iştirak edən zaman onun hər daşını, hər qayasını yumşaq çarpayı etməyi bacarsınlar"

Vətənsevərlik hissinin aşılanması zamanı qorxaqların, satqınların, xainlərin aqibəti də şagirdlərə məlum olmalıdır. Bilməlidir ki xalq xəyanətkarları, satqınları bağışlamır.

Bu cür mənfi xüsusiyyətləri pisləmək üçün

Sürü tapar qurdunu
İgid sevər yurdunu

Bir xain birdə qorxaq
Batırar bir ordunu

kimi el sözlərindən istifadə edilməlidir.

Vətənə məhəbbət, onun düşmənlərinə nifrət həmişə vətənsevərlik hissinin tərbiyə olunmasında başlıca mövzu olmuşdur. Tarixən Azərbaycan torpaqları bölüşdürülmüş, həmvətənlər bir-birindən ayrı düşmüşdür. Seyid Məhəmmədhüseyn Şəhriyarın da qeyd etdiyi kimi:

Heydərbaba, göylər bütün dumandı
Günlərimiz bir-birindən yamandı
Bir-birindən ayrılmayın amandı
Yaxşılığı əlimizdən alıblar
Yaxşı bizi yaman günə salıblar

**Nəticə:** Vətənpərvərlik tərbiyəsi ümumi tərbiyə işinin elə sahəsidir ki, insanlarda "ayın görünməyən tərəfi" təsəvvürünü yaradır. O sanki kül içində gizlədilmiş oda bənzəyir. Külək əsdikcə, külü sovurduqca od şölələnən kimi vətənpərvərlik tərbiyəsi də vətən üzərində ölüm küləkləri əsəndə, yağı düşmən torpaqlarımıza ayaq basanda beləcə şölələnir, alovlanır, insanları səfərbər edir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. F. Rüstəmov və Ə. Paşayev. "Pedaqokia" Bakı, 2002.
2. A. Muxtarova. "Mlli mənəvi tərbiyənin təşəkkülündə humanitar fənlərin imknaları".
3. N. Kazımov "Məktəb pedaqogikası" Bakı, 2009.
4. A. Həsənov, Ə. Ağayev. "Pedaqogika" Bakı, 2007.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ ŞUŞA ŞƏHƏRİNDƏ MƏDƏNİ İRSİN QORUNMASI

***Tələbə: Həsənzadə Mələkxanım Zöhrab qızı ( AZD2201B)***
***Elmi rəhbər: p.ü.f.d.,b/m. Kərimli Tahir Mehdixan oğlu***

Bildiyimiz kimi Heydər Əliyev və Azərbaycan mədəniyyəti problemi geniş bir sahəni əhatə edir. Bu elmi tədqiqat işində də əsas məqsəd Heydər Əliyev və Azərbaycan mədəniyyəti problemini öyrənmək, bununla yanaşı Heydər Əliyevin Azərbaycan mədəniyyətinə göstərdiyi diqqət və qayğı, mədəniyyətimizin və incəsənətimizin tanınmış nümayəndələrinin xatirəsini əbədiləşdirmək naminə xeyli faydalı işlər görməsindən bəhs olunur. Həmçinin Heydər Şuşa şəhərinin abadlaşdırılması və mədəniyyətinin dirçəldilməsi üçün yorulmaz fəaliyyət göstərmişdir. Şuşa şəhərində bir çox dövlət və mədəniyyət xadimlərimizin ev-muzeylərini açmış , abidələrin ucaltmışdır. Hətta özü şəxsən Şuşaya gedərək bir sıra abidələrin açılışında iştirak etmişdir. Bu mövzuda həmçinin Şuşa mədəniyyətindən, oranın görüləsi yerlərindən bəhs olunur. Ulu öndər Heydər Əliyevdən bizə iki miras qalmışdır. Bunlardan biri Azərbaycan xalqının müstəqilliyi, digəri isə Heydər Əliyevin davamçısı və övladı olan İlham Əliyevdir. Bunlarla yanaşı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin verdiyi iki əsas sərəncamdan bəhs olunur. Sərəncamlar bunlardır:

1. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət Paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 7 may 2021.

2. 2023 – cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı. Bakı 29 sentyabr 2022.

Xalqımızın ümummilli lideri, bütün əsrlər üçün canlı klassik olan dahi şəxsiyyət Heydər Əliyevin belə bir müdrik kəlamı var: "Mədəniyyəti inkişaf etdirmək üçün milli ruhu yaşatmaq lazımdır". Bütün qaynar fəaliyyəti dövrü bu sağlam əxlaqi-etik və estetik prinsiplə yaşayan Ulu Öndər həmişə xalqın mədəni dəyərlərini və milli sərvətlərini qorumaq üçün mübarizə aparmışdır. 1969- cu ildən bəri mədəniyyətimiz, bir sözlə, milli mənəvi dəyərlərimiz, soykökümüz özümüzə qayıdıb. Ulu Öndər Heydər Əliyev daima mədəniyyətimiz, ədəbiyyatımız, milli dəyərlərimizin inkişafı üçün böyük danılmaz xidməti olmuşdur. Heydər Əliyevin dövrü Azərbaycan mədəniyyətinin intibah dövrüdür. Mədəniyyətimiz və incəsənətimizin tanınmış nümayəndələrinin xatirəsini əbədiləşdirmək naminə xeyli faydalı işlər gördü. Paytaxt şəhərimizdə və respublikanın ayrı-ayrı bölgələrində əzəmətli abidələr ucaldıldı. İmadəddin Nəsimi, Cəfər Cabbarlı, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Mehdi Hüseynzadə, Hüseyn Cavid və başqalarının abidələri şəhərimizin ümumi görkəminə xüsusi gözəllik verir. Heydər Əliyevin rəhbərliyi ilə Üzeyir Hacıbəylinin, Cəlil Məmmədquluzadənin, Niyazinin, Bülbülün və başqa mədəniyyət xadimlərinin ev muzeyləri açılmışdır. Azərbaycan mədəniyyəti və incəsənəti daim Ulu Öndər Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Məhəmməd Füzulinin 500, Nəsiminin 600, " Kitabi- Dədə Qorqud " dastanlarının 1300 illik yubileylərinin beynəlxalq aləmdə təntənəli surətdə keçirilməsi məhz dahi şəxsiyyətin fədakar əməyinə nəticəsində həyata vəsiqə almışdır. Heydər Əliyevin rəhbərliyi ilə bir çox mədəniyyət xadimlərinin illik yubileyləri keçirildi. Buda milli mədəniyyətimizə göstərilən diqqət və qayğının parlaq təzahürüdür. Ulu Öndər yaradıcı gənclərə xüsusi diqqət göstərirdi. Belə ki, o, 1996- cı il iyunun 22-də ölkəmizdə gənc istedadların "Qızıl kitabı" , " Gənc istedadlar fondu", " Azərbaycanda gənc istedadlara dövlət qayğısı adlı sərəncamlar imzalanmışdır. Dahi şəxsiyyət gənclərin milli ruhda, bizim milli mənəvi dəyərlərin əsasında tərbiyə olunmasının vacibliyini hər zaman vurğulamışdır. Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Heydər Əliyev XX əsrin 70-ci illərində Şuşa şəhərində Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə göstəriş vermişdir.

Heydər Əliyev eyni zamanda Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdur. Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərində bir neçə xüsusi qərarlar qəbul edildi. Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. 1997-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə " Şuşa şəhərinin tarixi hissəsini tarixi-memarlıq qoruğu elan etmək haqqında "qərar qəbul edilmişdir. Heydər Əliyevində dediyi kimi Şuşa abidələr şəhəridir. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981- ci illərdə abidə , məqbərə tikilmiş və 1982-ci il yanvar ayının 14-də yağan güclü qarın altında Heydər Əliyev Şuşada şairin böyük təntənə ilə açmışdır. Şuşaya səfər zamanı Heydər Əliyev Şuşada Poeziya evini açaraq, Vaqif Poeziya Günlərində iştirak etdi. 1982-ci il iyulun 29-dan avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu.

Ümummilli lider Heydər Əliyev hər kəsə Şuşaya tez-tez səfər etmələrini tövsiyyə edir. Şuşa şəhərində görüləsi yerlər çoxdur, məsələn, Topxana meşəsi, Cıdır düzü, Yuxarı və Aşağı Gövhər ağa məscidləri, Şuşa mağarası, Molla Pənah Vaqif məqbərəsi, Xurşidbanu Natəvan ev muzeyi və başqa görüləsi yerlər vardır.

Ulu Öndər Heydər Əliyevin mədəniyyət sahəsindəki siyasətini onun davamçısı olan İlham Əliyev davam etdirdi . Bildiyimiz kimi Şuşa şəhəri 1992-ci il mayın 8-də erməni vandalları tərəfindən işğal edildi. Heydər Əliyev son nəfəsinə kimi Şuşanı azad etmək istədi, amma ölüm bu arzunu gerçəkləşdirməyə imkan vermədi. Bu arzunu Heydər Əliyevin oğlu və Azərbaycan Respublikası prezidenti İlham Əliyev gerçəkləşdirdi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri rəşadətli Azərbaycan Ordusu tərəfindən şücaətlə işğaldan azad edildi. İlham Əliyevin 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhəri Azərbaycan mədəniyyətinin paytaxtı elan edildi. Azərbaycan Respublikasının Prezidentinin başqa bir sərəncamı ilə 2023 -cü il "Heydər Əliyev ili "elan olundu.

**Nəticə:** Bu mövzudan aldığımız məlumatlara əsasən aşağıdakı nəticəyə gəldik:

1. Ulu Öndərimiz Heydər Əliyev mədəniyyət sahələrində çox böyük işlər görmüş, mədəniyyət xadimlərimizin xatirəsini əbədiləşdirmək üçün respublikamızın ayrı-ayrı bölgələrində onların əzəmətli abidələrini ucaltmış, həmçinin ev muzeylərini də açmışdır;
2. Ulu Öndərimiz Heydər Əliyevin Şuşa mədəniyyətinə göstərdiyi qayğı və geniş quruculuq işlərindən danışılmışdır. Həmçinin Şuşa mədəniyyətinin incisi olan Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, Yuxarı və Aşağı Gövhər ağa məscidləri, Cıdır düzü , Şuşa mağarası və s. haqqında məlumat verilmişdir;
3. Şuşa şəhərinin işğal edilməsi və Ali Baş Komandanımızın əmri ilə rəşadətli Azərbaycan ordusu tərəfindən şücaətlə azad edilməsi haqqında məlumat verilir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Şuşa Azərbaycanın tarixi və strateji əhəmiyyətli paytaxtı kitabı
2. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı. Biblioqrafiya
3. https://nuhcivan.az/news/medeniyyet-turizm/74317-heyder-eliyev-ve-azerbaycan-medeniyyeti

## XURŞUDBANU NATƏVANIN MAARİFÇİLİK FƏALİYYƏTİ

***Tələbə: Salahzadə Aysel Faiq qızı (MQT1901B),***
***Elmi rəhbər: p.ü.f.d.,b/m. Nəcəfov Əlizadə Şəmil oğlu***

Xurşidbanu Natəvan – Vətən aşiqi, Xurşidbanu Natəvan – şair, Xurşidbanu Natəvan – fədakar, qayğıkeş ana, Xurşidbanu Natəvan – sənətkar, Xurşidbanu Natəvan – rəssam, Xurşidbanu Natəvan – xeyriyyəçi və s. Bu mənada, Xurşidbanu Natəvan Şərq aləmində ilk qadın şairdir ki, 1960-cı ildə Bakıda heykəli, 1982-ci ildə isə ulu öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılıb.

Zəmanəsinin qabaqcıl ziyalısı, maarifçisi sayılan Xurşidbanu Natəvan XIX əsrdə nəinki Qarabağda və ya Azərbaycanda, onun hüdudlarından kənarda da sadə və səmimi lirik şeirləri ilə pedaqoji fikrin inkişafı tarixini zənginləşdirib, həmçinin biri-birindən gözəl rəsm və qiymətli sənət nümunələri, xeyriyyəçi işləri ilə özünə ölməz abidə ucaldıbdır. Xurşidbanu Natəvanın lirik

şeirlərində elə xüsusiyyətlər vardır ki, bunlar onun yaradıcılığını başqalarının şeirlərindən fərqləndirir, özünü tanıtdırır. Bu kimi xüsusiyyətə xüsusi obrazla ifadə vermək istəsək onu, ancaq sadəlik adlandıra bilərik.

Xurşidbanu Natəvanın şeirlərinə hopan bu gözəllik xalq pedaqogikasından, islami dəyər və prinsiplərdən, Nizami, Füzuli, Cami, Vaqif və digər klassiklərin poeziya nümunələrindən gəlib desək, heç də yanılmarıq. Xurşidbanu Natəvan bu kimi böyük korifeylərin incə lirik şeirləri ilə öz bədii zövqünü təkmilləşdiribdir.

Həyatı, insanların daxili aləmini, fəaliyyət və mübarizəsini bütün mürəkkəbliyi ilə düzgün, dolğun əks etdirən realist yaradıcılıq şəxsiyyətin psixologiyası üçün zəngin mənbədir. Bu baxımdan Xurşidbanu Natəvanın yaradıcılığı xüsusilə əhəmiyyətlidir. Əlbəttə, belə bir fikir səhv olardı ki, sənətkar psixologiyanı, onun əsas müddəalarını öyrənib və onları yeri gəldikcə öz yaradıcılığında tətbiq edib. Pedaqoji-psixoloji bilik şairin insanları dərindən və dəqiq müşahidə edib topladığı faktları təfəkkür süzgəcindən keçirməklə, ümumiləşdirmələr vasitəsilə unudulmaz xarakterlər yaratmasına müsbət təsir göstərsə də, heç vaxt yaradıcılıq istedadını əvəz edə bilməz. Yüksək istedad və gərgin yaradıcı əmək məhsulu olan realist əsər pedaqoji psixologiyanın müddəalarına uyğun gəlir, onları təsdiq və təsbib edir. Xurşidbanu Natəvanın zəngin irsini bu cəhətdən öyrəndikdə orada ciddi elmi əhəmiyyətə malik material tapırıq. Bu böyük şairimizi, həm də sözün geniş mənasında, psixoloq adlandırmaq üçün əsas verir.

El arasında "Xan qızı", sarayda isə "Dürrü yekta" (tək inci) kimi tanınan Xurşidbanu Natəvan "islam carçıları" sayılan klerikallar və ya yalançı din adamlarının təsir imkanlarına məhəl qoymayaraq aşiqanə hisslərdə ictimai məna daşıyan şeirlər yazmış, rəsm çəkmiş və musiqidən həzz almışdır. Naqis baxışlara baxmayaraq təşkil etdiyi "Məclisi-üns" adlı şeir məclisində öz şeirlərini, qəzəllərini uca səslə, avazla oxumuşdur.

Şuri-eşqin başıma axırı sövda gətirir,
Bu müşəxxəsdi ki, eşq aşiqə qovğa gətirir.

...Gül üzün görmək əgər mümkün olaydı bir dəm,
Hər zaman görmək onu nuri-mücəlla gətirir.

Yaxud:

...Sidqi-qəlb ilə nisar etmiş idin can nəqdin,
Natəvan, müjdə bu gün, qətlinə fərma gətirir.

Hicran ilə kim, dəməni-qəm dəstrəsimdir,
Şadəm ki, xəyalın, gözəlim, həmnəfəsimdir.

…Görmək üzünü qayəti-hər fikrü xəyalım,
Öpmək ayağın, mayeyi-şövqü həvəsimdir.

Xurşidə yetər başım əgər, çakərin olsam,
Bu rütbə ilə aləm ərə fəxr bəsimdir.

Yaxud da:

Eşq sultanı mənim qətlimə fərman gətirib,

Etmədim tərki-vəfa, taəti-fərman etdim.

…Ya təbib, adını tərk eylə, təbabət etmə!
Ya mənim dərdimi tap, gör niyə tüğyan etdim?!

Yoxdu bir kimsə məgər dərdimi bilsin, Ya Rəb!
Ki, mən öz qanım ilə dərdimə dərman etdim.

Natəvanşünas Bəylər Məmmədovun sözləri ilə desək, Xurşidbanu Natəvan bu kimi qəzəllər yazarkən "o zamankı şəraitdə qadının öz məhəbbətini izhar etməsinin necə qarşılanacağını yaxşı bilirdi". "Desəm, öldürərlər, deməsəm, ölləm" aforizm deyişindən baxsaq, əgər "zəmanəsinin möhnətü-məlalından sinədağlı lalə" olmuş Natəvana yazmaq nə qədər çətin idisə, yazmamaq da bir o qədər qeyri-mümkün idi. Qeyd etdiyimiz kimi dilinin sadəliyi, qəzəllərinin orijinallığı ilə öz müasirlərindən fərqlənən Natəvanın hər bir şeiri Qarabağ, Şirvan, Bakı, Şəki, Naxçıvan (Ordubad) şairlərinin qəlbini dilləndirmiş, onların məhəbbət tellərini ehtizaza gətirmişdir.

Xurşidbanu Natəvanın poetik misralar və ya söhbət arasında dediyi hikmətli kəlamlar, müdrik sözlər vardır ki, bunlardan bəziləri bu gün də xalq arasında aforizm kimi səslənməkdədir. Oğlu Mehdiqulu xan məzuniyyətə Şuşaya gələrkən, anası boynuna sarılıb, qədd-qamətini oxşayaraq kontrastlı ifadələrlə oğlunu aşağıdakı kimi vəsf etmişdir:

Fəda o qamətinə kim, qəza nə xoş çəkmiş,
Qədər büküb belimi, eyləyib kəman, ölürəm!

Məzuniyyəti bitdiyi zaman Şuşadan qayıdanda isə:

Nə böylə vəslin olaydı, nə də öylə hicranın – demişdir.

Xalq arasında belə bir məsəl var: "Olan oldu, torba da doldu". Xurşidbanu Natəvan oğlu Mir Abbasın ölümü münasibətilə başsağlığı, təsəlli verənlərə "Öldü bülbül, soldu gül – istər ağla, istər gül!" sözləri deyilən məsəlin ən gözəl poetik variantı səviyyəsinə qaldırmışdır.

Qeyd etdiyimiz kimi Xurşidbanu Natəvanın şeirlərindəki dərin məna, təravət, üslub aydınlığı və səmimilik o qədər güclü olmuşdur ki, şeirləri el arasında əldən-ələ ötürülərək yayılmış, məğarlarda keçirilən toy şənliklərində, məclislərdə xanəndələr qəzəllərini mahur, şur, təsnif muğamları üzərində oxumuş, həmçinin şeir və qəzəllərinə çoxlu nəzirələr yazılmışdır.

Nə mən olaydım, İlahi, nə də bu aləm olaydı!
Nə də bu aləm əra dil müqəyyədi-qəm olaydı!

Həmçinin

Varımdı sinəmdə dərdü qəmi-nəhan, ölürəm,
Fəda olum sənə, gəl eylə imtəhan, ölürəm.

– misrası ilə başlanan qəzəllər bizə onu deməyə əsas verir ki, bu qəzəllərdən görkəmli pedaqoq-alim Hüseyn Cavid və həmçinin pedaqoq-alim, musiqişünas Üzeyir Hacıbəyov da çox təsirlənmişlər. Hüseyn Cavidin "Şeyx Sənan" faciəsindəki ikinci kor ərəbin:

Nə eşq olaydı, nə aşiq, nə nazlı afət olaydı,
Nə xəlq olaydı, nə xaliq, nə əşki-həsrət olaydı

– sözləri arasındakı məna oxşarlığı və ya məna yaxınlığı hər bir oxucunun diqqətini cəlb edir. Üzeyir Hacıbəyov da "Leyli və Məcnun" adlı operasında Leylinin ölüm anında dediyi "Ölürəm" qəzəlini Məhəmməd Füzulinin qəzəli ilə deyil, Natəvanın qəzəlinin dili ilə verməsi

fikirlərimizə əyani sübutdur. Təbii ki, operada Füzuli əsərinin ruhu ilə Natəvan qəzəllərinin ruhundakı, ahəngindəki xallar biri-birini tamamlayır. Yeri gəlmişkən, buradan bir haşiyə də çıxaraq qeyd edək ki, Üzeyir Hacıbəyov 1896-cı ildə Qori Seminariyasında təhsil almağa gedərkən Xan qızından xeyir-dua almağa gəlmiş, Xan qızı da müqəddəs Quran kitabından ayələr oxuyaraq Üzeyir bəyə xeyir-dua vermişdir. Bu da onu deməyə əsas verir ki, Üzeyir Hacıbəyov sonralar Xurşidbanu Natəvanın yaradıcılığına dərindən bələd olmuşdur. Xalq rəssamı Mikayıl Abdullayevin "Xeyir-dua" adlı gözəl sənət əsərinin repreduksiyası bu gün də Üzeyir Hacıbəyovun ev muzeyində qorunub saxlanılmaqdadır.

Xurşidbanu Natəvanı xalqa sevdirən bir cəhət də Azərbaycan cəmiyyətinin ən müxtəlif sahəsində göstərdiyi təmənnasız qayğı və münasibət olmuşdur. Xan qızının xeyriyyə dolu işlərindən "Tərcüman", "Qafqaz", "Kaspi" və başqa qəzetlər də geniş bəhs etmişlər. Hələ 1856-cı ildə "Qafqaz" qəzeti 44-cü nömrəsində Xurşidbanu Natəvanın anası Bədircahan Bəyimin xeyriyyəçi bir qadın olmasından yazır. Oxuyuruq ki, Bədircahan Bəyim Şamaxıda açılan "Müqəddəs Nina" qız məktəbinə 1000 manat ianə vermişdir. Bu da ümumilikdə bu ailənin mədəni həyatdakı maarifçi xidmətindən xəbər verir.

1897-ci ilin 42-44-cü nömrələrində "Tərcüman" qəzeti Xurşidbanu Natəvanın şəxsiyyəti və xidmətləri ilə bağlı geniş bəhs etmişdir: "Xurşidbanu xanım xan zamanında doğulub Rusiya zamanında yaşamış bir vücud idi. İki zamanın ara yerində qalmış xanım əhvalə görə bir tərz məişət qurub etiqad və adəti-milliyəsini mühafizə etməklə bərabər zəmani-cədidin iqtizasına görə hərəkət edərdi... Müsəlmanların maarifinə dəxi həmiyyəti və müavinəti az deyil idi. Qarabağın rus və milli məktəblərinə və şagirdlərə ianəsi çox idi". Krımda çıxan "Tərcüman" qəzetinin yazdıqlarından məlum olur ki, "elmü mərifət sahibəsi" Xurşidbanu Natəvan müasir mədəniyyətə yiyələnmiş, zəmanəsinin dünyagörüşlü qabaqcıl adamları ilə bir sırada getmişdir. Bir daha göründüyü kimi, Natəvan təkcə incə təbli şeirləri ilə deyil, həm də dövrünün qabaqcıl meylləri ilə bağlı olması, maarifpərvərliyi, xeyirxahlığı, səxavətliyi, açıq qapısı və qüvvətli nüfuzu sayəsində şöhrət qazanmışdır. 1872-ci ildə altı kilometrlik məsafədən Şuşaya ilk su kəməri çəkdirmişdir. Həmin su kəməri indi də "Xan qızı bulağı" adlanır. Araz çayından Ağcabədiyə qədər su arxı, Bakıdan Şıx kəndinə yol çəkdirmişdir.

Xurşidbanu Natəvan onlarla gəncin mədəni şəhərlərdə təhsilini davam etdirməsinə maddi yardım göstərməklə yanaşı, Qarabağın bir çox tanınmış bəy və şairlərinin də o cümlədən Qasım Bəy Zakirin, Molla İbrahim Qarabağinin, Mirzə Ələsgər Növrəsin və digərlərinin maddi ehtiyac keçirdiyi vaxtlarda onlara kömək əlini uzatmış, maddi yardım göstərmişdir. Qasım Bəy Zakir Xurşidbanu Natəvanın insaniyyət və insansevərliyini yüksək dəyərləndirərək Natəvanın təmənnasız etdiyi yaxşılıqları başa düşməyəni verdiyi çörək kor edər, zəlil edər deyir.

Şikəstə Zakirə veribsiz əmək,
Əmək bilməyəni kor etsin nəmək,
Necə ki, baqidir həyatı, gərək
Unutmaya xeyir-duadan səni.

Xurşidbanu Natəvan Qarabağda atçılığın inkişafı üçün də çox mühüm işlər görmüşdür. Onun məşhur cins atları ilə tanınmış ilxısı nəinki Azərbaycanda, 1867-ci ildə Parisdə açılmış ümumdünya sərgisində, 1869-cu ildə Moskvada kənd təsərrüfatı sərgisində, 1882-ci ildə isə Tiflisdə nümayiş etdirilmiş və hər bir yarışmada da birinci yeri tutaraq qızıl medallar, fəxri fərmanlar

qazanmışdır. Qarabağda yaranan at zavoduna iyirmiyə yaxın gözəl madyan atı və həm də dillərdə gəzən "Ceyran" adlı ayğırını zavoda bağışlamışdır.

Qeyd etdik ki, Xurşidbanu Natəvan bir rəssam kimi təsviri və tətbiqi sənətə də dərindən yiyələnmişdir. Yazdığı şeirlərin çoxu itib-batdığı kimi, çəkdiyi şəkillərin, əl işlərinin də əksəriyyəti təəssüf ki, çağdaş dövrümüzə qədər gəlib çatmamışdır. Xan qızı Natəvanın məlum olan "Gül dəftəri" adlı bir albomu var ki, o albom da hazırda Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar fondunda saxlanılır. Xan qızının yüksək estetik zövqünü göstərən rəsmlər – qərənfil, süsən, bənövşə, yasəmən, qızılgül etüdlərindən, Bakı, Şuşa, Tiflis peyzajlarından Kür qırağının, Metex qalasının, "Narınqala"nın və çay körpülərinin mənzərələri və təbiət lövhələrindən ibarətdir. Qara karandaşla işlənmiş bu şəkillər incəliyi və bədiiliyi ilə adamı valeh edir. Albomun cildində rəngli saplarla toxuduğu qızılgül və qovaq ağacı, habelə sürahiyyə müxtəlif muncuqlarla tikdiyi örtük incəsənət xəzinəmizə qiymətli hədiyyədir. Əşyaları təbii, inandırıcı lövhələrlə əks etdirən, heç vaxt xarici effektə uymayan Natəvanın incə əl işləri fransız səyyah və yazıçı Aleksandr Dümanın da diqqətini çəkmiş, "Qafqaz" adlı əsərində Xurşidbanu Natəvanı və birinci həyat yoldaşı Xasay xan Usmiyevi hörmət və ehtiramla yad etmişdir. Xurşidbanu Natəvanın milli heysiyyəti, incə lirizm yaradıcılığı, xeyriyyəçi görüşləri sağlığında və ölümündən sonra da qədirbilən xalqın görkəmli tənqidçi, şair, mütəfəkkir, musiqiçi, rəssam, ictimai-siyasi xadimləri tərəfindən (Firidun Bəy Köçərli, Salman Mümtaz, Hənəfi Zeynallı, Üzeyir Hacıbəyov, Səməd Vurğun, Məmməd Rahim, Əliağa Kürçaylı, Əzizə Cəfərzadə, İlyas Əfəndiyev, Hökumə Billuri, Hüseyn Arif, Əkbər Məftun, Şövkət Məmmədova, Bəylər Məmmədov, bəstəkar Vasif Adıgözəlov, Rauf Adıgözəlov, heykəltaraş Eldar Ömərov, Elcan Şamilov, rəssam Altay Hacıyev, Mikayıl Abdullayev, Oqtay Sadıqzadə və b.) araşdırılmış, şeirlər, poemalar, romanslar, operalar yazılmış, büstlər, heykəllər ucaldılmış, rəsm əsərləri və filmoqrafiyalar çəkilmişdir.

**Nəticə:** Qarabağ üçün əziz və qiymətli sima olan Xurşidbanu Natəvan hələ balaca yaşlarından ana dili ilə yanaşı, ərəb və fars dillərini mükəmməl bilmişdir. Xan qızı Natəvan xalq pedaqogikasını, islami dəyərləri və klassik Şərq ədəbiyyatına dərindən bələd olmuşdur. Xurşidbanu Natəvan yaradıcılığında milli adət və ənənələri, mənəvi-əxlaqi, psixoloji xüsusiyyətləri ictimai-mədəni şəraitlə düzgün səciyyələndirmişdir. Mənəvi-əxlaqi kamilliyə və insani davranışa çağırış, mədəni vərdişlər, müsbət əxlaqi normalar aşılamaq yollarının üsul, vasitə və tərzləri Xurşidbanu Natəvan yaradıcılığının əsas leytmotivini təşkil etmişdir. Xurşidbanu Natəvanın şeirlərinin leytmotivini təşkil edən ictimai məna öz anlaşıqlığı, forma sadəliyi ilə mənanın gözəlliyini qüvvətləndirmişdir. Şirin poetik misraları və ya söhbətləri hikmətli kəlam, müdrik söz kimi bu gün də xalq arasında aforizm kimi səslənməkdədir. Xan qızı Natəvanın milli heysiyyəti, incə lirizm yaradıcılığı, xeyriyyəçi görüşləri "Tərcüman", "Qafqaz", "Kaspi", "Nor-dar" və başqa qəzetlərdə geniş təhlil obyektinə çevrilmişdir. Xurşidbanunun qəzəllərini el şənliklərində və məclislərdə Şuşa xanəndələri Seyid Şuşinski, Hacı Hüsü, Məşədi İsi, Məşədi Dadaş, Cabbar Qaryağdıoğlu və başqaları öz məlahətli səsləri ilə oxumuşlar. Xurşidbanu Natəvan milli təfəkkürün inkişafında yorulmadan çalışmış, milli oyanışın təbliğatçısı olmuşdur. Azərbaycan məktəb və pedaqoji fikrinin inkişafı tarixində Xurşidbanu Natəvanın maarifçilik ideyalarının öyrənilməsi və təbliğ edilməsi qarşıda dayanan əsas prioritetdir.

**İstifadə olunmuş ədəbiyyat:**

1.İnternet mənbələri

2. İ. Əfəndiyev. Xurşudbanu Natəvan. Azərbaycan, 1985.
3. M. Əlioğlu. Natəvan kədəri. Təhsil, 2009.
4. H. Əliyeva. Natəvanın tikmələri.
5. B. Məmmədov. Xurşudbanu Natəvan
6. Natəvanın şair qohumları. Azərnəşr, 1989.

## ƏTRAF MÜHİTİN ÇİRKLƏNMƏSİ

***Tələbə: Cəfərzadə Səadət Sahib qızı (İBT1901B),***
***Elmi rəhbər: b/m. Quliyeva Ülviyyə İnqilab qızı***

Sağlam həyat yaşamaq üçün yaxşı mühit yaratmaq gərəkdir. "Başqa planetlərdə və Ayda nə üçün insan yaşamır?" sualını verdikdə belə cavab alırıq: "Orada canlıların Yaşaması üçün lazımi mühit yoxdur" mühit nə deməkdir? Mühit dedikdə ilk öncə su, hava, isti, işıq və qida başa düşülür. Ancaq insanın normal yaşaması üçün bunlar kifayət eləmir. Gərək su, hava, qida və s. təmiz olsun. Ekoloji problemlərin yaranmasına nə səbəb olur? Bu sualın olduqca çox cavabı var. Son zamanlar vulkan püskürmələri, zəlzələlər hamını təşvişə salır. Təbiətin qəzəbi iqtisadiyyata mənfi təsirini göstərir. İnsan əlləri ilə əkib-becərilən kənd təsərrüfatı məhsulları təbii fəlakətlərin qurbanına çevrilir, dağıntıya məruz qalır. Buna səbəb təbiətin öz məhsullarını əlində saxlaya bilməməsidir. Təbiətdə gedən insan tərəfindən aparılan dəyişikliklər həm insanlara həm də ekologiyaya təsir edir. Ətraf mühitin çirklənməsi - antropogen fəaliyyət prosesində müxtəlif maddələr və birləşmələrin atılması nəticəsində onun xüsusiyyətlərinin zərərli istiqamətdə dəyişməsidir. Təbii mühitin çirklənməsinin əsas mənbəyi istehsal və cəmiyyətin həyat fəaliyyəti prosesində əmələ gələn külli miqdarda tullantıların atılmasıdır. Çirkləndirici elementlərə bərk, maye və qaz şəkilli maddələr, zıyanlı radiasiya və səs-küy daxildir. Ağır metallar (civə, qurğuşun, kadmium), fosfat, nitrat, kükürd oksidi, bitki və heyvan ziyanverici və xəstəliklərilə mübarizədə istifadə olunan zəhərli kimyəvi maddələr (DDT, aldrin və ş). ionlaşdırıcı radiasiya, radioizotoplar, sənaye və nəqliyyat səs-küyü daha çox ziyanlıdır. Yuxarıda sadalanan maddələrin bəziləri mutagen və kanserogen olub teratogen mutasiya və xərçəng xəstəliklərinin çoxalmasına səbəb ola bilər.

Hava bizim yaşamamız üçün vacib komponentdir. İnsan 5 həftə qidasız, 5 sutka susuz, 5 dəqiqə havasız yaşaya bilər. Buna beşliklərin üçlüyü qanunu deyilir. İnsanların təsərrüfat fəaliyyətləri nəticəsində hava mühiti müxtəlif maddələrlə çirklənmiş olur:

- Müxtəlif qazlar, bunlar arasında karbon oksid daha çoxdur.
- Karbohidrat və turşu buxarları.
- Metallar, üzvi və qeyri - üzvi mənşəli müxtəlif tozlar.

Zəhərli maddələr, çirklənmiş hava insanların səhhətinə təsir edir ki, bu təsiri biz birdən- birə hiss etmirik. Buna misal olaraq karbon oksidi göstərmək olar. O, iysiz, rəngsiz və dadsız qaz olub yüksək dozalarda ağır nəticələrə gətirib çıxarır, və ya civə buxarları bilavasitə tənəffüs edəndə hiss olunmasa da, mərkəzi sinir sisteminin və böyrəklərin işini pozur. Avtomobil vasitələrinin havaya buraxdığı qurğuşun birləşmələri də insan sağlamlığına təsir edir, sinir pozğunluğuna, qanazlığına, yaddaşsızlıq və korluğa səbəb olur. Hava çirklənmələrinin ən ağır formalarından biri də turşulu yağışlardır. Kükürd birləşmələri atmosferdə toplanıb sulfat turşusu yaradır. Buna görə kimyəvi

zavodlar, istilik stansiyalarının ətrafında olan rayonlara turşulu yağışlar yağır ki, nəticədə bitki örtüyü məhv olur, yeraltı və yerüstü sular çirklənir. Mənzillərdə olan hava da insan sağlamlığı üçün az zərər törətmir. Tədqiqatçıların verdiyi məlumata görə mənzillərimizdə olan hava ümumi şəhər havasından 4-6 dəfə çirklidir, 8-10 dəfə toksikdir. Bəs bizim mənzillərimizi nə çirkləndirir? Əlbəttə ki, qurğuşunlu boyalar, linoleum, sintetik liflərlə olan plastik xalçalar, yuyucu tozlar və s. Amma mənzillərimizdə olan çirkli havanın çox hissəsi müasir mebellərlə əlaqəlidir. Mebellərin ağac-yonğar lövhələrində çoxlu miqdarda yapışdırıcı vasitələrdən istifadə edilir. Bundan başqa polimerlər, boyalar, laklar da havanı toksiki kimyəvi maddələrlə çirkləndirir. Otaq havasının çirklənməsi birbaşa səhhətimizə təsir etmir. Əvvəlcə özümüzü pis hiss edirik, sonra baş ağrıları, yuxusuzluq, əsəbilik, yorğunluq yaranır. Gündəlik həyatımızda havada olan toksik maddələrin zərərli təsirini necə zəiflədə bilərik? Bunun üçün bəzi qaydalara əməl etmək lazımdır. Hər şeydən öncə burnunuzla nəfəs almağı öyrənin. Burunun selikli qişasında çoxlu kiprikciklər olduğu üçün nəm şotka kimi zərərli tozların, mikrobların çox hissəsini özündə toplayır. Tez-tez burnunuzu təmizləyin. Avtomagistralların, zavodların yaxınlığında dərindən tənəffüs etməyin.

Atmosferin çirklənməsi və onun fəsadları bütün bəşəriyyəti dərindən narahat edən problemlərdəndir. Hazırda atmosferi çirkləndirən əsas mənbələr təbii və antropogen olaraq qruplaşdırılır. Təbii çirklənmə adətən vulkan püskürməsi və sair üzündən, antropogen çirklənmə isə müxtəlif sənaye sahələrinin, o cümlədən, avtomobil nəqliyyatının havaya buraxdığı zərərli qazlar zamanı baş verir. Avtonəqliyyat vasitələrinin işləməsindən havanı çirkləndirən əsas tullantılara dəm qazı, karbohidrogenlər, azot oksidləridir. Araşdırmalara görə, 20 min kilometr məsafə qət etmiş avtomobil havaya 0,775 kiloqram qurğuşun, 40,75 kiloqram azot oksidləri, 234 kiloqram karbohidrogen və 765 kiloqram dəm qazı buraxır. Günəş işığının təsirindən həmin zərərli tullantılar kimyəvi dəyişikliyə məruz qalır onların siyahısı aşağısəviyyəli, troposferli ozonla və fotokimyəvi mənşəli müxtəlif toksinlərlə zənginləşir. Nəticədə həmin toksiki maddələr insan həyatı üçün təhlükəli və idarə edilməsi mümkün olmayan fəsadlar yaradır. Mütəxəssislər hesab edirlər ki, havanın çirklənməsinin ən təhlükəlisi və xoşagəlməyəni qaz, tüstü, duman və toz qarışığı olan smoqdur. Su buxarlarının kondensasiyası zamanı kiçik tüstü hissəcikləri ətrafında toplanmasından əmələ gələn smoq, xüsusilə, böyük sənaye şəhərlərində nəqliyyat vasitələrinin çox sıx olduğu ərazilər üçün xarakterikdir. Smoqun tərkibində olan ən zəhərli qaz avtomobillərin buraxdığı dəm qazı hesab olunur. Smoq zamanı havada zərərli maddələrin şiddətli konsentrasiyası yaranır ki, bu da bəzən ölümlə nəticələnir. 1952-ci ildə Londonda baş vermiş smoq nəticəsində 4000 nəfər, 1984-cü ildə Hindistanın Bxopol şəhərində 2500 nəfər vəfat edib. Smoq, həmçinin, minlərlə insanın ağır xəstələnməsinə səbəb olub. Onun bütün növləri görməni azaldır və tənəffüs sistemini qıcıqlandırır.

Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva deyir ki, atmosfer havasının vəziyyəti həm ətraf mühitə atılan tullantılardan, həm də sinoptik-meteoroloji şəraitdən asılıdır: "Belə ki, durğun anomal isti hava şəraitində, zəif cənub, cənub-şərq küləyinin üstünlüyü zamanı çirkləndirici maddələrin toplanmasına şərait yaranır. Bu il isə iyunun anomal isti keçməsinə baxmayaraq, iyulda nisbətən sərin və küləkli hava şəraitinin üstünlüyü bu durğunluğun yaranmasının qarşısını alıb. Eyni zamanda, bunu müvafiq dövlət qurumları tərəfindən nəzarətin gücləndirilməsi və havanın çirklənməsinə görə məsul olan sahələrin bu məsələnin vacibliyini başa düşərək müəyyən tədbirlər görmələri ilə izah etmək olar. Lakin bu istiqamətdə hələ də bir çox həll

olunmamış problemlər var. Xüsusi narahatlıq avtonəqliyyat vasitələrinin sıxlığı, eyni zamanda, ölkəyə gətirilən istismar müddəti keçmiş avtomobillərin istifadəsi ilə bağlıdır". Bu gün ölkədə atmosfer çirklənməsinin qarşısının alınması, ətraf mühitin mühafizəsinin gücləndirilməsi, ekoloji tarazlığın qorunması üçün müvafiq tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"nın icrası ilə əlaqədar atmosfer havasının nəqliyyat vasitələrindən atılan zərərli tullantılarla çirkləndirilməsinin qarşısının alınması işinin səmərəli aparılması üçün DİN-in Baş Dövlət Yol Polisi İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə hər il "Təmiz hava" aylığı keçirirlər. "Təmiz hava" aylığının əsas məqsədi atmosfer havasının avtomobillərin ixrac qazlarının tərkibində olan zərərli maddələrlə çirkləndirilməsinin qarşısının alınmasıdır. Bunun üçün avtomobil nəqliyyatı vasitələrinin mühərriklərinin ixrac etdiyi qazların tərkibi yoxlanılır, onların normaya uyğun olmasına nəzarət gücləndirilir, mühərrikləri normadan artıq qaz ixrac edən avtomobillər aşkar edilərək onların yol hərəkətindən kənarlaşdırılması üçün müvafiq tədbirlər görülür.

Suyun çirklənməsi insanın üzləşdiyi ən böyük problemlərdən biridir. İnsan fəaliyyəti su çirkliliyinə ciddi təsir göstərir. Hal -hazırda dünyada təxminən 5 milyon insan çirklənmiş su içməkdən ölür. Əsas səbəblər bunlardır:

Sənaye tullantısı: sənaye çirklənməsinə səbəb olan əsas amillərdən biridir. Təəssüf ki, minlərlə şirkət hələ də bu mənbədən düzgün istifadə edilməli olduğunu bilmir və sənaye proseslərindən çox miqdarda çirkləndirici məhsul buraxır. Çaylar və kanallar bu pis əməllərdən ən çox təsirlənirlər.

Temperaturun artması: Görünməsə də, qlobal istiləşmə suyun çirklənməsinə də təsir edir. Ekosistemin temperaturu normaldan daha yüksək olduqda, su mənbəyi oksigenin miqdarını azaldır və suyun tərkibində dəyişiklik yaradır.

Kənd təsərrüfatında zəhərli pestisidlərin istifadəsi: dövrümüzün kənd təsərrüfatı proseslərinin böyük əksəriyyəti əkin və qida istehsalı üçün gübrə və kimyəvi maddələrdən istifadə edir. Yaxşı ki, bu məhsullar yeraltı kanallardan süzülür və əksər hallarda bu kanallar nəticədə istehlak üçün su təchizatı şəbəkəmizə daxil olacaq. Bu su demək olar ki, heç vaxt təmizlənmir və istehlak üçün uyğun bir kanala qaytarılır.

Meşələrin qırılması: həddindən artıq ağac kəsilməsi çayların, göllərin və digər su mənbələrinin qurumasına səbəb ola bilər. Bundan əlavə, meşələrin qırılması bütün hallarda ağacların köklərinin çay sahillərindən çıxarılmasını əhatə etmir, bu da çöküntülərin və bakteriyaların yer altında görünməsinə və bu qiymətli mənbəni çirkləndirməsinə səbəb ola bilər.

Neft dağılması nəhayət, ənənəvi olaraq dünyanın müxtəlif yerlərində suyun çirklənməsinə səbəb olan bir praktikanı unutmamalıyıq: neft dağılması və onun törəmələri. Bu sızmalar, neftin zəif daşınması, benzin və digər məhsulların sızması nəticəsində yaranır. Bu məhsullar ümumiyyətlə yeraltı saxlama tanklarında saxlanılır; Bir çox hallarda, su anbarı sızacaq və maddələr ətrafdakı bədənə sızacaq, o cümlədən insan istehlakı üçün uyğun su mənbələri.

Dünyada suyun çirklənməsi nəticəsində yaranan müxtəlif mənfi nəticələr var. Bu səbəbləri insan və ətraf mühitə ayıra bilərik. Onların nə olduğunu görək:

Xəstəliklər: Çirkli su içmək və ya şəxsi gigiyena və ətraf mühitin təmizlənməsi üçün istifadə etmək bir çox xəstəliyə bağlıdır. Dünya Səhiyyə Təşkilatı ishal, vəba, hepatit A, dizenteriya,

poliomielit və tifo qızdırması haqqında danışır. Qarşısının alınması, təchizat, sanitariya və şəxsi gigiyena infrastrukturunu yaxşılaşdırmaqla, qida və məişət gigiyenası üçün təmiz suyun istifadəsini təşviq edir.

Ölüm: təəssüf ki, çirkli su daha yüksək riskə malikdir. Dünya Səhiyyə Təşkilatının məlumatına görə, ishal xəstəlikləri hər il 1,5 milyon insanın ölümünə səbəb olur. Bunlardan 840.000 mindən çoxu təmiz suyun olmaması və şəxsi gigiyena və sanitariya vasitələrinin qeyri -kafi olması səbəbindən baş verir. Əllərinizi sabunlu su ilə yumaq və ya bir stəkan təmiz su içmək kimi sadə, gündəlik işlər ölümcül xəstəliklərin yayılmasının qarşısını ala bilər. Su, gigiyena və sanitariya olmadan sağlamlıq riskə atılır. Yetkinlik yaşına çatmayanların ölümlərinin 40% -i pis vəziyyətdə olan su istehlakından və ya təcili vəziyyətdə gigiyena qaydalarına riayət edilməməsindən qaynaqlanır.

Qidalanma: pəhriz, sağlamlıq və qayğı arasındakı əlaqə səbəbiylə qidalanma qeyri -kafi bəslənmə və yoluxucu xəstəliklərlə əlaqədardır. Bu şəkildə sağlam bir pəhriz qida ehtiyaclarını ödəyir, eyni zamanda içməli suyun vacib olduğu sağlamlıq xidmətləri, sanitariya qurğuları və adekvat sanitariya tədbirləri təmin edən uyğun bir mühit tələb edir.

Ekosistemlər: Təmiz suyun ətraf mühitə ciddi təsirləri var, çünki su biomüxtəlifliyinin itirilməsinə səbəb olan yaşayış sahələrinə təsir edir və zərərli yosunların və ya evtrofikasiyanın çiçəklənməsini asanlaşdırır. Su çirkliliyini aradan qaldırmaq və ya azaltmaq üçün çoxlu vərdişlər və yaxşı təcrübələr var:

Evdəki təmizlik məhsullarına diqqət yetirin: daha az məişət təmizləyici vasitələrdən istifadə etməyə çalışın və çox çirkləndirməyin.

Hər bir qalığı müvafiq yerə qoyun: geri dönüşüm, məişət tullantıları ilə su çirkliliyini azalda biləcək bir şeydir.

Paltarlarınızı yaxşı seçin: ətraf mühitə zərər verməyənləri istifadə edin və ya təkrar istifadə edin.

İştirak edin: ətraf könüllülük kampaniyalarına qatılın.

Oğul və qızlarınıza dəniz çirkliliyinin nə olduğunu izah edin: Gələcək nəsillərin ətraf mühiti qoruya bilməsi üçün ekoloji təhsil əsasdır.

Kənd təsərrüfatında, şəhərlərdə, məişət və sənayedə suya tələbat getdimə artır. Buna görə də şirin suya ehtiyac hər il daha çox hiss olunmaqdadır. Hazırda dünya əhalisinin 1/3 hissəsinin içməli suya ehtiyacı vardır. Hazırda suyu zərərsizləşdirmək üçün atomar oksigendən istifadə etmək daha müasir və daha sərfəli üsul hesab olunur. Bu üsulda oksigen molekulları xüsusi qurğuda atomlara çevrilir, əmələ gəlmiş oksigen atomları sudaki bakteriyaları, yosunları, kif göbələklərini və virusları məhv edir. Bununla da açıq su hövzələrinin çirklənmədən qorunması təmin olunur. Atomar oksigen, həmçinin bir çox üzvi və qeyri-üzvi birləşmələri asanlıqla oksidləşdirərək zərərsiz maddələrə çevirir.

Torpaq yerin bitki bitən qatıdır. Bizim istifadə etdiyimiz ərzağın hamısı torpaqdan alınır. Torpağa gübrəni çox vermək olmaz. Gübrənin tərkibində çoxlu zərərli maddələr də var.

Bu maddələr torpağın məhsuldarlığını çoxaltsa da, onu çirkləndirir.

Torpağı çirkləndirən təkcə gübrələr deyil. İri zavodların ətrafında da torpaqlar çox çirklənir. Gəncə aliminium zavodunun ətrafında çoxlu çirklənmiş torpaq var. Zavodun borularından çıxan zəhərli maddələr yavaş-yavaş ətrafa çökür. Bu torpaqlarda heç nə bitmir. Bakının neft mədənlərində

isə torpaqlar neftlə çirklənir. Son illər plastik qablardan çox istifadə olunması da torpaqların çirklənməsinə səbəb olur. Plastik tullantılar heç vaxt çürümür və daim torpaqda qalır.

Bu gün bütün insanlar torpaqlarının çirklənməsinin qarşısını almaq üçün yollar axtarırlar. Alimlər zəhərli gübrələri əvəz edə bilən təmiz gübrə növləri tapmaq istəyirlər. Hələ 1896 - cı ildə İsveç alimi Arrenius hesab edirdi ki, havada zəhərli qazların çoxalması havanın temperaturunu artıra bilər.

Gəncə aliminium zavodunun ətrafında qırmızı rəngli ərazi görünür. Bu, çirklənmiş torpaq sahəsidir. Əslində, zavodun tullantıları çox - çox uzaqlarda da torpağı çirkləndirir.

İnsan fəaliyyəti müəyyən tullantılar əmələ gətirəndə və ya kimyəvi maddələrlə töküləndə torpağı çirkləndirə bilər. Bu maddələr torpağın tərkibini və quruluşunu dəyişdirir. Bunun edəcəyi şey, torpağın qida maddələrini və münbit olma qabiliyyətini itirməsidir. Yer qatının içərisində yaşayan canlılar və orada böyüyən bütün bitki örtüyü təsirlənir. Bu hallar bir çox növün yaşayış yeri olan ekosistemlərdə real fəlakətlərə səbəb ola bilər.

Torpağın çirklənməsinin mənşəyindən asılı olaraq müxtəlif növləri vardır:

Təbii kimyəvi elementləri yer üzünə yuyan və süzən bəzi hadisələr baş verdikdə də torpaq təbii olaraq çirklənə bilər. Bu kimyəvi maddələrin təbiətə görə torpağa verilməsi, bu kimyəvi maddələrin torpağın münbit qalması üçün çox yüksək bir konsentrasiyaya səbəb olması ilə nəticələnir.

Təbii çirklənmənin bəzi nümunələri atmosferə zərərli qazların konsentrasiyasını yayan vulkanik püskürmələr, yanğınlar və turşu yağışlarıdır. Yağıntı olduqda, zəhərli qazlar su damlaları ilə çökür və torpağı süzgəcdən keçir. Bu toksinlər torpağın məhsuldarlığını və keyfiyyətini itirməyə səbəb olur. Torpağın çirklənməsinin əsas səbəbinin insanların olduğunu düşünmək məntiqlidir. İnsan fəaliyyəti ilə təbiətə kimyəvi mənşəli çirkləndirici maddələr də təqdim edirik. Məsələn, vasitəmizi hər dəfə istifadə etdiyimiz zaman atmosferi çirkləndiririk. Daha əvvəl də qeyd etdiyimiz kimi, bu qazlar su damlaları ilə birlikdə çökərək karbon qazı kimi istixana qazlarının torpağa axmasına səbəb olur. Öz növbəsində, kənd təsərrüfatında istismar da bitkilərin böyüməsi üçün gübrə kimi istifadə olunan azotlu çirkləndiricilərin müəyyən hissəsini əmələ gətirir. Bu azot gübrələri bunlar təkcə torpağa və tərkibinə təsir göstərmir, həm də yerüstü və yeraltı suları çirkləndirir. Həm də bu çirkləndiricilərə çox istifadə olunan və ətraf mühitə mənfi təsir göstərən pestisidləri, herbisidləri, karbohidrogen həllediciləri əlavə etməliyik. Torpaq bir ekosistemdə çirkləndikdə, adətən problemlərin qalan hissəsi üçün növlərin qarşılıqlı təsirləri arasında ekoloji tarazlıq yaradır. Bunun bariz nümunəsi çirklənmiş torpaqları olan bitkilərin bəsləyə və inkişaf edə bilmədiyi bir meşədir və buna görə də ot yeyənlərdən başlayaraq bütün qida zəncirinin qidalanmasına təsir göstərir.

**İstifadə olunmuş ədəbiyyat:**

1.İnternet mənbələri

# OĞUZNAMƏLƏRDƏ TƏRBİYƏ MƏSƏLƏSİ

***Tələbə: Qaraşova Günay Binyamin qızı ( RİN200IB),***
***Elmi rəhbər: b/m. b/m Məmmədova Sara Muradxan qızı***

Tərbiyənin necə əmələ gəlməsi haqqında məsələni aydınlaşdırmaq çox mühümdür. İnsan cəmiyyətinin ilkin inkişaf dövrü - ibtidai icma cəmiyyətində yazılı mənbələrin olmaması bu dövr tərbiyə sisteminin öyrənilməsində bir sıra çətinliklər yaradır. Ancaq maddi və mənəvi mədəniyyət abidələrinin, dil və şifahi xalq ədəbiyyatının öyrənilməsi insanın yarandığı ilk çağlarda tərbiyənin meydana gəlişi ilə bağlı müəyyən fikirlər irəli sürməyə imkan verir. İbtidailiyini indi də mühafizə edib saxlayan qəbilələrin həyatı haqqında etnoqrafik məlumatlar (əmək və məişət əşyaları, qayaüstü rəsmlər və s.) ibtidai icma dövründə tərbiyənin necə yarandığını təsəvvür etməyə imkan yaradır. XTI-XVI11 əsrlərdə alim və səyyahların Avstraliya, Afrika, Polineziya, Sibir və Cənubi Amerikanın hələ də ibtidai inkişaf dövrünü yaşayan aborigenlərin həyatını təsvir edən əsərləri də böyük maraq doğurur.

İlk pedaqoji təsəvvürlərin təşəkkülü ayrı-ayrı xalqların, o cümlədən Azərbaycan xalqının qədim adət və ənənələri, mərasim və ayinləri, əyləncə və oyunları ilə bağlı olmuşdur. Kökləri əsrlərin dərinliklərinə gedib çıxan xalqın həyat müşahidələrinin məhsulu olan atalar sözləri, zərb-məsəllər, mərasimlər, xalq oyunları, əyləncələr qədim insanların tərbiyəsi ilə bağlı fikirlərinə parlaq sübutdur. 20 insanın mənşəyilə bağlı konsepsiya düzgün müəyyən! əşdirilmədiyindən tərbiyənin yaranması haqqında bir neçə müddəa mövcuddur. Ənənəvi müddəalar arasında Ş.Leturno, J.Simpson, A.Espinas və başqalarının təmsil etdikləri təkamül və P.Monronun asasını qoyduğu psixoloji nəzəriyyələr mühüm yer tutur. Təkamül - bioloji nəzəriyyənin müəlliflərinin fikrinə görə ibtidai insanların tərbiyəvi fəaliyyətləri adi heyvanların öz balalarına göstərdikləri instinktə əsaslanan qayğıya bənzəyir.

Tərbiyə mənəvi istehsal sahəsinə aid olan məfhumdur. Tərbiyənin xüsusi fəaliyyət növü kimi meydana gəlməsi 35-40 min il əvvələ təsadüf edir.

Prof. R.I.Hüseynzadə yazır: "Xalq insanlarının təlim-tərbiyəsi, təhsili ilə bağlı söylədiyi müdrik fikirlər daha çox atalar sözləri və zərbül-məsəllərdə, nağıllarda, dastanlarda toplanmışdır ki, bu barədə xeyli əsərlər yazılmış, dissertasiyalar müdafiə edilmişdir. Amma, xalqımızın müdrik fikirlərinin bir çoxu "Oğuznamə" lərdə toplanmışdır ki, bu qiymətli əsərin ilk dəfə pedaqoji yöndən tədqiqi və əsərin mənəvi- əxlaqi cəhətlərinin təhlili onu göstərir ki, "Oğuznamə"lər xalqın müdriklik xəzinəsi, insanlara ibrətamiz öyüd və nəsihətlərdir". Görkəmli alim Əmin Abid yazırdı ki, azərbaycanlıların ən qədim ədəbiyyatı xalq ədəbiyyatıdır ki, bu da "Oğuznamə"lərdir. "Oğuznamə"lər miladi tariximizin ilk əsrlərindən başlayaraq XVIII əsrə qədər gəlmişdir.

Azərbaycanın Oğuz elinə daxil olması tarixi faktlardan məlumdur. Bir çox alimlər oğuzların Azərbaycanda, Anadoluda eradan çox-çox əvvəllər yaşadıqlarını qeyd etmişlər. Faruq Sümərin "Oğuzlar" əsərində deyilir: "Oğuzlar azərbaycanlıların əcdadlarıdır... Oğuzlar Türkiyə türkləri, Azərbaycan türkləri, İran və Türkmənistan türklərinin atalarıdır".

Bizə məlum olan bir neçə "Oğuznamə" mövcuddur. Daha qədim, daha geniş yayılmış və dərin məzmunlu "Oğuznamə"ni ilk dəfə olaraq XIX əsrin əvvəllərində alman alimi F. Dits bəzi hissələrini almancaya tərcümə edib 1815-ci ildə Berlində nəşr elmişdir. Oğuz xanın tarixi-əfsanəvi

şəxsiyyət olması haqqında, onun yüksək qəhrəmanlığı, şücaəti, əxlaqi-mənəvi keyfiyyətlərə sahib olması haqqında Yazıçıoğlu Əlinin "Səlcuqnamə"sində də, "Oğuznamə" parçalarında da görmək olar.

Daha bir "Oğuznamə" haqqqında XIV əsrin tarixçisi Əbubəkr İbn Abdulla İbn Aybək əd-Dəvadari məlumat vermişdir. Dəvadari X əsrə qədər Azərbaycan tarixində baş vermiş hadisələr haqqında yazdığı kitabında "Oğuznamə"nin adını çəkir. Təəssüf ki, adını çəkdiyi kitab hələ tapılmamışdır. Amma, başqa mənbələrdən məlum olur ki, bizə gəlib çatmayan həmin "Oğuznamə"də Təpəgöz haqqında danışılır ki, bu da Dədə QorquddakıTəpəgöz sərgüzəştlərindən bir qədər fərqlidir. Belə ki, Təpəgöz əcaib, nəhəng bir məxluq imiş, təpəsində bir göz varmış. Anası böyiik dənizin cinlərindən, atası nəhəng bir adam olmuşdur. O, məmləkəti dağıdır, insanları öldürür, yeyirdi. Nəhayət Oğuzların içindən yetişən Ərs (Aruz) oğlu Büsat adında bir qəhrəman Təpəgözü öldürmüşdür. Bu hadisə belə olmuşdur: Bir qız varmış, onu yenən adama gedəcəyini bildirmişdir. Büsat bu qızı yendi və bu qızla bərabər atasının yanma gəldi, qıza yendiyini bildirdi. Atası da cavab olaraq bildirdi ki, mən elə sandım ki, Təpəgözü öldürmüşsən. Büsat bu sözün üzərinə həmən getdi və Təpəgözü əqlin qəbul etmədiyi bir yolla öldürdü. Əmin Abid bu məlumatdan çıxış edərək yazır ki, "Oğuznamə" lər V-VII əsrlərə aiddir.

"Oğuznamə"lər yetişən gənc nəslimizdə milli mənlik, milli özünüdərk, milli müstəqillik təfəkkürünü və şüuru formalaşdırır, insanlarımızda milli dövlətçilik, vətən, millət sevgisi, böyüklərimizə, ulularımıza hörmət tələb edir. "Oğuznamə" lərdə ulu babalarımızın həyat tərzi, adət-ənənələri, Oğuz xaqanı və Oğuz bəylərinin qəhrəmanlıq səhifələri əks etdirilmişdir. Bu mənəvi abidə qədim və erkən orta əsrlər dövrünə aid olub nəsillərin təlim və tərbiyəsində, yaşayış tərzində, ədəb-ərkanında mühüm rol oynamış və ümumtürk pedaqoji fikrinin formalaşmasına, inkişafına qüvvətli təsir göstərmişdir".

Mənəvi abidələrimiz sırasında, pedaqoji fikrin inkişafında xalqımızın ən qədim mənəvi abidəsi olan "Kitabi-Dədə Qorqud"un son dərəcə əvəzsiz yeri vardır. Müstəqillik qazanmış Azərbaycanımızda milli-mənəvi şüurun yüksəlişində, soykökümüzə qayıdışın dərinləşməsində "Kitabi-Dədə Qorqud" dastanlarının oyada biləcəyi təsiri əvəz edən yazılı və ya şifahi ədəbi abidə tapmaq çətindir.

Azərbaycan Respublikasının dahi şəxsiyyəti, türk dünyasının böyük oğlu, ümummilli liderimiz H. Əliyevin "Kitabi-Dədə Qorqud"un 1300 illiyini qeyd etmək
barədə 20 aprel 1997- ci il tarixli fərmanı tariximizə, mədəni irsimizə göstərilən böyük qayğı və diqqətin parlaq nümunəsidir. Fərmanda deyilir: "Oğuz türklərinin tarixini əks etdirən "Kitabi-Dədə Qorqud" yüksək bəşəri ideallar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur".

Dastanda əxlaq tərbiyəsinin mühüm tərkib hissəsi olan vətənpərvərlik, yurd sevgisi əsərin əsas ideyasını təşkil edir. Bu ideya isə qədim oğuz türklərinin qəhrəmanlıq şücaətlərindən süzülüb gəlməkdədir. Dastanda yetişən nəsildə vətənə məhəbbət tərbiyəsi üçün ilk növbədə onlara vətəni tanıtmağa və sevdirməyə yön verilir.

Dastanda gənclərə döyüşmək qaydaları, döyüş, zəfər taktikası öyrədilir. Dastanda göstərilir ki, Bayandır xanın bir buğası bir də buğrası vardı. Bir yazda, bir payızda onları meydana buraxırdılar. Bayandır xan oğuz bəyləri ilə tamaşaya baxırdı. Bu, əslində sadəcə "tamaşa", "əyləncə" deyildi, əvvəlcədən düşünülmüş, təşkil edilmiş bir məşğələ idi. Oğuz ərənlərini, xüsusilə

gənclərini yetişdirmək, güclü, qüdrətli etmək üçün təlim, tərbiyə növlərindən biri idi.

Dastanda oğuzlar həyatın bütün sahələrində əxlaqi davranış və rəftarlarında igidlik, qorxmazlıq, cəsurluq və düzlük nümayiş etdirirlər. Belə ki, böyük miqdarda silahlı düşmən Qaraca Çobanın üzərinə gəldikdə o qorxmur, özünü itirmir. O, düşməni görərkən dərhal qərar çıxarır,vəziyyətin çox qorxulu olmasına baxmayaraq, düşmənlə çarpışmağı qərara alır.

"Kitabi-Dədə Qorqud"un hər bir boyu elə-obaya, ata-anaya, qardaş-bacıya ülvi məhəbbətin canlı səlnaməsidir. Burada ailə şərəfini, namusunu qorumaq, ocağa dərin bağlılıq, ana və qadın ləyaqətinə dərin hörmət, ata ehtiramını saxlamaq, ailə tərbiyəsi ilə bağlı çox qiymətli, ibrətamiz nümunələr və ifadələr vardır. Dastanda "Ana haqqı" "Tanrı haqqı" kimi qəbul olunur. Bu da Məhəmməd Peyğəmbərin (s.ə.s) "cənnət anaların ayaqları altındadır" kəlamı ilə səsləşir. Oğuzlarda anaya məhəbbət tərbiyəsi ən müqəddəs iş hesab edilmişdir. Dastanın boylarında ana haqqı tanrı haqqı ilə bərabər tutulur. Qadınlar qəhrəmanlıq göstərərək ərlərinin, qızlar isə nişanlılarının yolunda fədakarlıqlar göstərərdilər.

Dastanlarda cəmiyyətin inkişafına təkan verən üç mühüm tərbiyə amili öz bədii ifadəsini tapmışdır: 1) Qurulan ailənin məhsulu - oğlu, qızı olmalıdır; 2) Oğul-qız sağlam, güclü, qüdrətli yetişməlidir; 3) Ailə kin-küdurətdən uzaq olmalı, övladın təlim tərbiyəsi ilk növbədə ana telinə bağlıdır.

Oğuz elində əxlaq, tərbiyə, ədəb-ərkan, böyük-kiçik münasibətləri ali insani keyfiyyətlər, mənəvi mədəniyyətdir. Bütün dastan boyu əxlaqi keyfiyyətlərin təntənəsi müşahidə edilir. Yaşlı nəsil - ulular da, atalar da, gənclər də, yeniyetmələr də yüksək əxlaqi üstünlüyə malikdir, bunun üçün cəmiyyətdə bütün imkanlar var: ənənəvi davam edib gələn qayda-qanunlar, azad sevgi, sevib-sevilmək, axtarıb bəyənmək, seçmək, sınaqdan keçirmək - hər şey yüksək insani səciyyədir.

Dastanların pedaqoji təhlilindən aydın olur ki, oğuzlar mərdlik, igidlik, cəsurluq, kişilik kimi keyfiyyətlərə çox böyük önəm vermişlər, hər bir oğuzun ən yüksək səviyyəsini bu keyfiyyətlər ilə müəyyənləşdirirlər, həyata gözlərini açandan bu hisslər, duyğular və təsəvvürlər ilə yaşayır və tərbiyə edilirlər.

Dastanda estetik tərbiyə, bədii zövqə malik olmaq kamil insan olmağın mühüm şərtlərindən sayılır. Dastandakı ideyaya görə, fiziki və əqli cəhətdən inkişaf etmiş şəxs - yəni qüvvə kamal sahibi, eyni zamanda, camal sahibi olmalı, estetik gözəlliyi ilə xoş təsir bağışlamalıdır.

**Nəticə:** Yüksək mənəvi dəyərlərə, əxlaqi keyfiyyətlərə malik Azərbaycan xalqının, onun böyük alimlərinin gənc nəslin təlimi və tərbiyəsi haqqında kamil, hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyətin yetişdirilməsi haqqında çox əsrlik pedaqoji fikir və düşüncələri bu gün də aktual və əhəmiyyətlidir.

Bu gün yeni məzmunlu, milli zəminə əsaslanan təhsil sistemimizin qurulmasında, yeni pedaqoji təfəkkürün yaradılmasında, təhsil islahatlarının uğurla yerinə yetirilməsində, təhsilimizin dünya təhsil sistemi ilə bir sırada addımlamasında heç şübhəsiz klassik pedaqoji irsimizə, onun ən yaxşı ənənələrinə, erkən orta əsrlər Azərbaycan pedaqoji fikrinə, fəlsəfəsinə müraciət edilməlidir. Uzun illərin sınaqlarından çıxmış Azərbaycan məktəbinin təcrübəsindən, mütəfəkkirlərimizin zəngin pedaqoji irsindən, dövrün mütərəqqi tərbiyə, təhsil nümunələrindən bəhrələnmədən, onlara əsaslanmadan bu günün pedaqoji problemlərini uğurla həll edə bilmərik.

Yüksək mənəvi, əxlaqi dəyərlərə malik müdrik xalq pedaqogikamız bütün dövrlərdə

nəsillərin tərbiyəsində ən yaxşı müəllim-tərbiyəçi olmuşdur. Bu müdriklik xəzinəsindən hər kəs öz payını götürmüşdür. Milli ruhlu gənclərimizin tərbiyə və təhsilində, milli- mənəvi dəyərlərə malik, vətənpərvər, öz soykökünə bağlı övladlarımızın yetişdirilməsində tükənməz el xəzinəsindən, Dədə Qorqud pedaqogikasından, Oğuz dastanlarından, milli adət və ənənələrimizdən, müqəddəs dinimizin hökmlərindən, klassik ədəbiyyatımızdan, tarixi şəxsiyyətlərimizin nümunəsindən, dövlətçilik ənənələrimizdən geniş istifadə etməliyik.

**İstifadə olunmuş ədəbiyyat:**

1. F. Sadıqov. Azərbaycan xalq pedaqogikası. Bakı, 1993.
2. R. Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif. 1992.
3. Ə. Həşimov. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı, 1994.

## TEXNOLOGİYA DƏRSLƏRİNDƏ İNTERAKTİV TƏLİM, PEDAQOJİ TEXNOLOGİYALAR

***Tələbə: Ataşova Əfruzə Elxan qızı (İBT1901B),***
***Elmi rəhbər: b/m. Cəfərova Sevil Rafiq qızı***

Azərbaycan Respublikasında mədəniyyətlərin qovuşması və müasir iqtisadi yüksəlişlərin fonunda təhsil, tərbiyə və mədəni inkişaf sahəsində uğurlu nailiyyətlər əldə edilmişdir. Bu nailiyyətlərin əsası ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın öz müstəqilliyini əldə etməsi ilə qoyulmuşdur. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi ilə təhsil sahəsində bir sıra mütərəqqi yeniliklər həyata keçirildi. Təhsilin mövcud struktur, forma və məzmun məsələləri bir də nəzərdən keçirildi. Tədris fənlərinin bəzilərinin adı və məzmunu dəyişdirildi və dərs saatları yenidən formalaşdırıldı. Həyata keçirilən yenilənmə prosesləri zamanı dərsdə istifadə olunan tədris metod və formaları da dəqiqləşdirildi və yeni optimal metodların istifadəsinə rəvac verildi.

Azərbaycan Respublikasında mədəniyyətlərin qovuşması və müasir iqtisadi yüksəlişlərin fonunda təhsil, tərbiyə və mədəni inkişaf sahəsində uğurlu nailiyyətlər əldə edilmişdir. Bu nailiyyətlərin əsası ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın öz müstəqilliyini əldə etməsi ilə qoyulmuşdur. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi ilə təhsil sahəsində bir sıra mütərəqqi yeniliklər həyata keçirildi. Təhsilin mövcud struktur, forma və məzmun məsələləri bir də nəzərdən keçirildi.

Tədris fənlərinin bəzilərinin adı və məzmunu dəyişdirildi və dərs saatları yenidən formalaşdırıldı. Həyata keçirilən yenilənmə prosesləri zamanı dərsdə istifadə olunan tədris metod və formaları da dəqiqləşdirildi və yeni optimal metodların istifadəsinə rəvac verildi.

**Fəal-interaktiv** təlim-təlim prosesinin elə təşkili formasıdır ki, burada müəllim bilikləri ötürən rolundan imtina etməklə yeni bir vəzifəni - bələdçi (fasilitator) vəzifəsini öz üzərinə götürmüş olur. Burada biliyin qrup və cütlərlə iş formalarından müntəzəm şəkildə istifadə etməklə axtarılıb tapılması ön plana çəkilir. Bu cür təlim texnologiyası ilə təşkil olunan dərslərdə Əvvəlcə problemə istiqamət verəcək motivasiya yaradılır. Motivasiya problemə çıxaracaq məsələnin qoyulmasıdır.

Onun nəticəsi tədqiqat sualı olur. Həmin tədqiqat sualı problemin həlli yollarına dair ilkin fərziyyələrin irəli sürülməsinə şərait yaradır. Sonra həmin problemin araşdırılması üçün qrup işləri təşkil olunur. Hər qrup irəli sürülmüş fərziyyələrin doğruluğunu isbat etmək üçün mətn üzərində, bilik mənbələrinə nəzər salmaqla tədqiqat işlərinə cəlb olunurlar. Alınan nəticələr işçi vərəqlərində qeyd olunur. İşçi vərəqlərində işlər tamamlandıqdan sonra təqdimat mərhələsi gəlir. Hər qrup öz tədqiqatlarının yekunları ilə auditoriyanı tanış edirlər. Sonra təqdim olunan bütün işlər arasında rabitə, əlaqələr yaradılır. Məlumatlar sistemə salınaraq ümumiləşdirilir. Həmin ümumiləşmələr ilkin fərziyyələrlə müqayisə olunur və nəticələr çıxarılır. Bundan sonra biliyin tətbiqi mərhələsi gəlir. İşin gedişindən aydın olduğu kimi, fəal-interaktiv təlimdə şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafı qayğısına qalınır, təlim prosesinə tədqiqat xarakteri verilir.

İnteraktiv təlim, idraki və kommunikativ fəaliyyətin elə bir formasıdır ki, tədris olunan mövzunun mənimsənilməsinə proses iştirakçılarının hər biri öz töhfəsini verir. Bu prosesdə yalnız müəllimlə şagirdlər deyil, həm də şagirdlər öz aralarında söhbət və dialoq rejimində fəaliyyət göstərirlər.

İnteraktiv metodlar biliklərin şagirdlərə hazır şəkildə verilməsini deyil, bu bilikləri daha çox onların özlərinin birlikdə axtarıb tapmalarına yardımı nəzərdə tutduğundan təlim prosesində müəllim təşkiledici, əlaqələndirici, istiqamətverici və məsləhətverici, şagirdlər isə təcrübəçi, tədqiqatçı və yaradıcı subyektlər kimi fəaliyyət göstərirlər. Burada biliyin qrup və cütlərlə iş formalarından müntəzəm şəkildə istifadə etməklə axtarılıb tapılması ön plana çəkilir. Bu cür təlim texnologiyası ilə təşkil olunan dərslərdə əvvəlcə problemə istiqamət verəcək motivasiya yaradılır. Motivasiya problemə çıxaracaq məsələnin qoyulmasıdır.

Dərs təlim prosesində mühüm yer tutur. Bilik, bacarıq və vərdişlər əsasən dərsdə verilir, şəxsiyyətin ahəngdar tərbiyəsinin də əsası (zehni, ideya-mənəvi, estetik, əmək, fiziki və b.) dərslərdə qoyulur. Buna görə də dərs təlimin və tərbiyənin əsas təşkili forması sayılır. Günəş bir damla suda əks olunduğu kimi, təlimin bütün cəhətləri də dərsdə əks olunur deyənlər haqlıdırlar. Buna görə də müəllim dərsin nəzəriyyəsi və təcrübəsinə yaxşı yiyələnməli, onu müasir tələblər əsasında qurmağa çalışmalıdır. Dərs təlimin digər formaları üçün bünövrə təşkil edir. Dərsdə material nə qədər yaxşı mənimsənilərsə, digər formaların (ev tapşırıqları, seminar məşğələləri, əlavə məşğələlər və s.) da səmərəsi yüksək olar.

Dərsi lazımi səviyyədə qurmaq üçün onun tiplərini bilmək və düzgün təşkil etmək lazımdır. Dərsin tipləri dərsdə yerinə yetirilən əsas didaktik məqsədə görə müəyyən olunur. Hazırda dərsin dörd tipi fərqləndirilir: Yeni bilik verən dərs; Tətbiqetmə (və ya çalışma) dərsi; Möhkəmlətmə dərsi; Yoxlama dərsi.Mürəkkəb (kombinə edilmiş və ya birləşmiş) dərs tipi də irəli sürülür. Bu dərs tipində bir neçə məqsəd olsa da, əsas məqsəd yeni bilik verməkdir. Buna görə də onu birinci tipə aid etmək daha düzgün olardı. Hər bir dərs tipinin özünəməxsus quruluşu vardır.

Dərsin quruluşu, mərhələlərin miqdarı və ardıcıllığı təxminidir. Fənn, mövzu və sinifdən, dərsin məqsədindən, şagirdlərin səviyyəsindən asılı olaraq dərslər müxtəlif variantlarda qurula bilər. Canlı və yaradıcı proses olan dərsi heç bir universal, standart quruluşla məhdudlaşdırmaq olmaz. Hər bir dərs müəllimin pedaqoji-metodik simasını ifadə edir; müəllimə, əsasən, keçdiyi dərslərə görə qiymət verilir. Odur ki, müəllim hər bir dərsə böyük məsuliyyətlə yanaşmalı, onu yüksək səviyyədə qurmağı bacarmalıdır. Bunun üçün dərsə verilən müasir tələbləri yaxşı bilmək və onları düzgün tətbiq etmək

lazımdır. Dərsə verilən müasir tələblər çoxdur. Onları iki qrupa bölmək olar: ümumi və xüsusi tələblər. Dərsə verilən ümumi tələblər təlim prinsiplərində ifadə olunmuşdur. Dərsdə didaktik prinsiplər (həyatla əlaqə, elmilik, sistematiklik, şüurluluq və fəallıq, əyanilik, müvafiqlik, fərdi yanaşma və s.) kompleks şəkildə həyata keçirilməlidir. Xüsusi tələblər isə bilavasitə dərslə bağlıdır.

Pedaqoji prosesin texnoloji əsasları istehsalatla oxşarlıq təşkil edir və mahiyyətcə fərqlənmir

Pedaqoji prosesin əsas mərhələləri qarşılıqlı əlaqəli, mühüm elementləri özündə birləşdirir. Bu mərhələ özlüyündə digər sistemlərdən nisbi təcrid olunmuş bir sistemdir. Onun aşağıdakı elementləri vardır: qarşıdakı fəaliyyətin məqsəd və vəzifələrinin müəyyən olunması və izah edilməsi; pedaqoqlarla şagirdlərin qarşılıqlı təsiri; pedaqoji prosesin nəzərdə tutulmuş metodları; vəzifələri və formaları; əlverişli şəraitin yaradılması; məktəblilərin fəaliyyətini stimullaşdırmaq üçün müxtəlif tədbirləri həyata keçirmək; pedaqoji prosesin digər proseslərlə əlaqəsini təmin etmək. Pedaqoji prosesin səmərəliliyi bu elementlərin bir-birilə məqsədyönlü əlaqəsindən, onların istiqamətinin və praktik həyata keçirilməsinin ümumi məqsədə və bir-birinə zidd olmamasından asılıdır. Pedaqoji prosesin həyata keçirilmə mərhələsində onun idarə edilməsi ilə bağlı operativ qərarlar qəbul etmək üçün əks əlaqənin mühüm rolu vardır. Əks əlaqə prosesi keyfiyyətlə idarə etmək üçün əsasdır. Bununla əlaqədar qeyd etmək lazımdır ki, pedaqoji proses sistemi xeyli dərəcədə özünü tənzimləyən sistemdir, çünki orada iştirak edən insanlar öz iradəsinə və sərbəst seçmə imkanına malikdirlər. Pedaqoji prosesin gedişində operativ əks əlaqənin yaradılması qarşılıqlı təsirdə vaxtında düzəlişlər aparmağa kömək edir.

Pedaqoji prosesin yekun mərhələsi alınan nəticələrin təhlili ilə başa çatır.

Fəal və interaktiv təlim metodlarının səciyyəsi

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər.

İnteraktiv təlim prosesində şagirdin mövqeyi – "kəşf edən", "tədqiqatçı", "araşdırıcı" mövqeyidir; o, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən, bunları müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər təlim prosesində passiv dinləyici deyil, fəal düşünən, danışan, fikir söyləyən, münasibət bildirən, biz subyekt, təlim prosesinin tamhüquqlu iştirakçısı, tədqiqatçısı kimi çıxış edir və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər.

**Nəticə:** İnformasiya Cəmiyyətinin ən mühüm tələblərindən biri də müasir inkişafa uyğun yaradıcı, informasiya-kommunikasiya vasitələrindən səmərəli istifadə edə bilən vətəndaşların yetişdirilməsidir. Məktəblər hazırda bu vəzifənin öhdəsindən asanlıqla gəlirlər. Regionlarda olan tədris müəssisələrinin də hazırda maddi-texniki baza təminatı formalaşdırılmaqdadır. Müəllimlər müxtəlif öyrədici kurslarda iştirak edərək öz peşəkarlıqlarını inkişaf etdirirlər. Elektron lövhələrdən, fəal təlim metodlarından istifadə təhsilalanların səriştəli şəxsiyyət kimi formalaşmasını təmin edir. Şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində nəzərdə tutulan əsas strateji hədəflərdən biridir. Araşdırmalar

nəticəsində təsdiq olundu ki, pedaqoji texnologiyalardan istifadə olunması təhsili inkişaf etdirən əsas amillərdən biridir. Eyni zamanda pedaqoji texnologiyalardan yerli-yerində istifadə olunmalı və o, inkişaf etmiş təhsil-tədris prosesinin vasitələrindən biri olmalıdır. Pedaqoji texnologiyalardan istifadə həm təhsilalanların, həm də təhsilverənlərin keyfiyyət göstəricilərindən biridir və texnologiyalar daim tədris prosesinin mərkəzində dayanmaqla onun inkişafını təmin edir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. //Azərbaycan məktəbi, 2013, №5.
2. F. Əliyeva, Ü. Məmmədova Müasir təlim texnologiyaları-dərs vəsaiti. Bakı, 2014.
3. Z. Orucov, Y.Rzayeva. Texnologiya. Bakı, 2006. s.156-182.
4.Ş. Ağayev. İbtidai siniflərdə şagirdlərlə əməli işlərin təşkili texnologiyaları."Nasir", Bakı, 2011.səh.181-186.
5.S. Ağayev. Məktəbəqədər yaşlı uşaqların quraşdırma işlərinin təşkili metodikası."Nasir", Bakı, 2005. s.11-49.

## İNSAN DAVRANIŞININ PSİXOLOJİ YAŞI

***Tələbə: Cəfərova Jalə Əkbər qızı (TSPX2101B),***
***Elmi rəhbər: b/m. Əlizadə Aygün Yaşar qızı***

Davranış bir insanın bütün müşahidə edilə bilən hərəkətləridir. Gün ərzində davamlı olaraq sərgilədiyimiz hər şey, məsələn, dost gördüyümüz zaman əl uzatmaq, telefon zəngi çalanda telefona əl uzatmaq və danışmağa başlamaq, qapının zəngini çalanda ayağa qalxmaq, tıxacda əsəbiləşən sürücüyə işarə etmək kimi, yeməyimizin duzsuz olduğunu düşündüyümüz zaman duz qabını götürüb duz səpmək və s. Hər hansı bir hərəkət davranışdır. Uşaqlıqdan fərd böyüdüyü və inkişaf etdiyi icmaların dəyərləri ilə yoğrulur. Əvvəlcə ailə, sonra məktəb və mənsub olduğu sosial qruplar, sonra isə qurumlardakı hakim qaydalar və dəyərlər. Sosial həyatda fərdin hərəkətləri bir sıra qaydalarla idarə olunur. Yəni uşaqlıqdan yetkinliyə doğru inkişaf prosesində müxtəlif üsullarla hansı davranışların müxtəlif mühitlərə uyğun, hansı davranışların məqbul olduğu öyrədilir. Din, əxlaq və hüquq insan davranışını idarə edən əsas sistemlərin başında dayanır. Məsələn, başqasının xəbəri olmadan özünə aid olmayan bir əşyanın alınması, yəni oğurlanması bütün bu qayda sistemləri tərəfindən arzuolunmaz davranış kimi qəbul edilir. Dinimizə görə oğurluq günahdır; Mənəvi nöqteyi-nəzərdən oğurluq edən insanlar cəmiyyət tərəfindən qınanır və kənarlaşdırılır, oğurluğu törətdiyi cinayətin ağırlığına uyğun olaraq cəzalandırmaq üçün qanunlar yazılır və tətbiq edilir. Bu nümunədən də göründüyü kimi, fərdin sosial həyatda hansısa davranışları arzuolunmaz davranışlar kimi müəyyən edilir və ailədə, məktəbdə və ictimai həyat təcrübələri ilə fərdə öyrədilir. Başqa sözlə, fərd bu qaydalarla ictimailəşir. Nəticə olaraq, davranışın tarixi inkişafı mürəkkəb bir prosesdir, o, sosio-mədəni və fərdi təsirlərdən təşkil olunmuşdur. İnsan davranışları tez-tez dəyişə bilən bir mövzudur və müxtəlif elm sahələri tərəfindən anlaşılması üçün

üzərində tədqiqatlar aparılmalıdır. İnsan davranışına təsir edən amillər olduqca müxtəlifdir. Əsas amillərdən bəziləri bunlardır:

Genetik faktorlar: İnsan davranışının bəzi aspektlərinə genetik faktorlar səbəb ola bilər. Məsələn, şəxsiyyət xüsusiyyətləri, intellekt səviyyəsi, meyllər kimi məsələlərdə genetik faktorların təsiri vacibdir.

Ətraf mühit amilləri: İnsan davranışına ətraf mühit amilləri də təsir edə bilər. Bu amillər ailə və dostlar kimi yaxın əlaqələr, sosial və mədəni amillər, təhsil və təcrübələr kimi bir çox şeyi əhatə edə bilər.

Psixoloji amillər: Psixoloji amillər də insan davranışını anlamaq üçün vacibdir. Bunlar emosional vəziyyət, psixi sağlamlıq, davranış və düşüncə nümunələri kimi mövzuları əhatə edir.

Bioloji amillər: İnsan davranışına bioloji amillər də təsir edə bilər. Bu amillər hormonal balanssızlıqlar, beyin kimyası, xəstəliklər və ya fiziki qüsurlar kimi məsələləri əhatə edə bilər.

Bütün bu amillər insan davranışına təsir edən və formalaşdıran komponentlərdir. Ancaq hər bir insanın fərqli təcrübəsi və şəxsiyyəti olduğundan, onların davranışını tam izah etmək həmişə asan olmur.

Davranış nəzəriyyələri insan davranışının necə formalaşdığını, dəyişdirildiyini və formalaşdığını anlamaq üçün istifadə olunan nəzəri yanaşmalardır. Bu nəzəriyyələr müxtəlif amillərin (genetik, ətraf mühit, sosial, mədəni) insan davranışına necə təsir etdiyini izah etmək məqsədi daşıyır. Əsas öyrənmə nəzəriyyələri və insan davranışlarınına nümunələr:

Albert Bandura: Müşahidə yolu ilə öyrənmə nəzəriyyəsi - Bandura təklif edir ki, insan davranışlarının çoxu ətrafımızdakı digər insanları təqlid etməklə öyrənilir. Bu nəzəriyyə xüsusilə təhsil və psixoterapiya sahəsində geniş istifadə olunur.

B.F. Skinner: Operant şərtlənmə - Skinner davranışın nəticələrə görə formalaşdığını və mükafat və ya cəzanın davranışa təsir etdiyini iddia edir. Bu nəzəriyyə biznes və idarəetmə kimi bir çox sahədə istifadə olunur.

Davranış pozuntuları insanın normal davranış modellərindən kənara çıxan, funksionallıq baxımından problem yaradan və adətən psixoloji və ya nevroloji faktorların səbəb olduğu vəziyyətlərdir. Bu pozuntular emosional, koqnitiv və sosial funksiyaların pozulmasına səbəb ola bilər. Bu problemlər uşaqlıqdan yetkinliyə qədər hər yaş qrupunda baş verə bilər və müxtəlif səbəblərə görə inkişaf edə bilər. Məsələn, diqqət əskikliyi hiperaktivlik pozuqluğu (DEHB), zehni gerilik, autizm spektri pozuntusu, obsesif-kompulsif pozuntu (OKB), depressiya, narahatlıq və şizofreniya kimi hallar davranış pozuntularına misal ola bilər. Davranış pozuntuları çox vaxt fərdin həyat keyfiyyətinə mənfi təsir göstərir. İş, təhsil və sosial əlaqələr kimi sahələrdə çətinliklərə səbəb ola bilər. Davranış pozuntuları üçün müalicə və dəstək üsulları fərqlidir. Bunlara dərman müalicəsi, terapiya (psixoterapiya, koqnitiv davranış terapiyası və s.), təhsil və reabilitasiya proqramları daxil ola bilər. Davranış pozuntularının başa düşülməsi və qiymətləndirilməsi adətən mütəxəssislər tərəfindən aparılır. İnsan davranışının psixologiyası ilə bağlı mövzular daim inkişaf edən və aktual olan sahələrə daxildir. Davranış psixologiyası sahəsində daim yeni araşdırmalar və kəşflər edilir. Beyin fəaliyyəti, duyğular, motivasiya, öyrənmə və yaddaşla bağlı araşdırmalar davranışın necə baş verdiyi və onun necə dəyişə biləcəyi ilə bağlı yeni məlumatlar verir. Mədəni və sosial dəyişikliklər insan davranışının necə formalaşmasına təsir göstərir. Qloballaşma, rəqəmsallaşma, miqrasiya, müxtəliflik kimi amillər insanların davranışlarına,

psixoloji proseslərə təsir edir. Buna görə də davranış psixologiyası sahəsində mədəni və sosial dəyişiklikləri başa düşmək və izah etmək vacibdir. Davranış psixologiyası da sağlamlıq və rifahla da əlaqələndirilir. Psixi sağlamlıq, stresin idarə edilməsi, asılılıq, yuxu rejimi kimi məsələlər bu gün diqqət mərkəzindədir. Davranış psixologiyası tədqiqatları insanların sağlam və xoşbəxt həyat sürmələrini dəstəkləmək üçün böyük əhəmiyyət kəsb edir. Davranış psixologiyası, effektiv ünsiyyət, motivasiya, iş dünyasında komanda işi və liderlik kimi mövzulara da diqqət yetirir. Davranış psixologiyası sahəsində davamlı araşdırmalar və kəşflər insanların davranışlarını anlamaq və təkmilləşdirmək üçün mühüm mənbədir. Bütün bunları nəzərə alaraq məni bu mövzuda tədqiqat işi yazmağa sövq edən amilləri ətraflı təhlil etmək istədim. İnsan davranışları müxtəlif faktorların təsirilə şərtləndiyi üçün və yaş müxtəlifliyi də xüsusi rol oynadığı üçün mən bu mövzunu daha da konkretləşdirmək məqsədilə yeniyetməlik yaşı dövründə şagirdlərin davranışlarını təhlil etmək, onlar arasındakı fərqlərin səbəblərini aşkarlamaq, həmin dövrdə davranış problemlərinin aradan qaldırılması yol və vasitələrini təyin etmək, müxtəlif davranış nəzəriyyələri baxımından şərh etmək məqsədini qarşıya qoydum. Bu məqsədlə tədqiqat üçün Ağcabədi rayon Gələbədin kənd tam orta məktəbin 50 nəfər 7 –ci sinif şagirdləri ilə tədqiqat apardım. Sosiometriya metodundan istifadə etdim. Nəticədə metodun tətbiqi zamanı təlimatı şagirdlərə verdim, şagirdlər adları qeyd edib vərəqləri mənə verdilər. Mən vərəqdə qeyd olunan adları jurnal üzrə nəzərdən keçirdim və aşkar olundu ki, sinifdəki T.(oğlan) və M(qız). adlı şagirdləri seçən olmamışdır. Adlar şərti qeyd olunmuşdur. Yəni həmin şagirdi sinifdə necə deyərlər yox saymışlar. Şagirdləri dərs prosesində müşahidə etdikdən sonra həqiqətən də həmin o, 2 şagirdin sinifdə münasibətlərə daxil olmadığını, qaynayıb – qarışmadığını, dərsdə fəallıq göstərmədiklərini, müəllimin də həmin şagirdləri fəallaşdırmaq üçün xüsusi səy göstərmədiyini, daha çox sinifdə fəal şagirdlərlə ünsiyyət saxladığını izlədim. Fasilədə həmin 2 şagirdlə söhbət etdim. Şagirdləri daha yaxşı tanımaq üçün anket keçirtdim. Anketdə qeyd olunan suallar şagirdin adı, soyadı, təvəllüdü, ailə tərkibi, yaşadığı psixoloji və fiziki narahatlıqlar, narahatlıqların neçə müddətdir davam etməsi və s. ilə əlaqəli idi. Şagird suallara çox səmimi cavablar verdi. Hər iki şagirdin davranış motivlərində oxşarlıq var idi. T. davranışlarında özünü göstərən aqressivliyi ailə üzvləri ilə arasında adekvat olmayan ünsiyyətlə, (T. anası ilə ünsiyyətdə çətinlik yaşayır), əlaqələndirirdi. Baxmayaraq ki, ailə tam ailədir. Ailə üzvləri öz fəaliyyətləri ilə cəmiyyətdə sosiallaşma imkanı əldə etmiş şəxslərdir. M. isə özünəqapanıqdır. Ünsiyyətdən qaçır, tənhalığa meyillidir. Ailəsi mürəkkəb struktura malikdir. Ailə daxilində M. in davranışlarını müşahidə edən ailə üzvləri bir neçə dəfə onunla söhbət etməyə cəhd etsələrdə uğurlu olmamışdır. M. ilə də müsahibə apardım. Hər iki şagirdi daha yaxından tanıdıqdan sonra onlarla yuxarıda qeyd etdiyim SWOT analizinin tətbiqinə başladım. 3 həftə davam edən görüş zamanı şagirdlərlə ayrı – ayırılıqda həftədə 3 dəfə 1 saat olmaqla psixoloji konsultasiya apardım. Hər bir şagird üçün fərdi inkişaf proqramı tərtib etdim. Proqramda şagirdin həm gün rejimi, yuxu, qidalanması, istirahəti, məşğuliyyəti, idman tapşırıqları, davranış strategiyaları barədə məlumat qeyd olunmuş və 21 gün müddətində şagirdin həmin proqrama uyğun davranmasını izləyən cədvəl verilmişdir. Eyni zamanda şagirdin ailəsi ilə mütəmadi söhbət aparılmış, həmin yaş dövrünün xüsusiyyətləri haqqında ətraflı maarifləndirmə aparılmış, valideynlik bacarıqlarının artırılması istiqamətində məsləhətlər verilmiş, düzgün ünsiyyət qəliblərindən istifadənin əhəmiyyəti diqqətə çatıdırlmış, müəllim – valideyn əməkdaşlığının övladlarının gələcək inkişafına təsiri məsələləri ətraflı təhlil olunmuşdur. Bütün bu fəaliyyətlər nəticəsində şagirdin

davranışlarında əhəmiyyətli dəyişikliklər özünü göstərmişdir. İnsanın davranış psixologiyası mövzusunda elmi tədqiqat işinin yekunu kimi onu qeyd etmək olar ki, insan davranışları mürəkkəb struktura malikdir. O, müxtəlif amillərin təsiri ilə dəyişə bilir. Elmi tədqiqat işində müəyyən edilmişdir ki, şagirdin davranışında özünü göstərən problemlər ətraf mühitin təsiri ilə əmələ gəlmişdir. Həmin ailələrdə genetik, bioloji baxımdan narahatlıqlar olmasa da, davranışlar keçici olmamış, şagirdlərdə fərqli neqativ xarakter xüsusiyyətləri özünü göstərmişdir. Yəni daha çox hansı qrup xarakterik xüsusiyyətlərin təsirinə məruz qalmışsa həmin davranışları sərgiləmişdir. Burdan o qənaətə gəlmək olar ki, ətraf mühit insan davranışına təsir edən amillər içərisində ən əhəmiyyətlisidir. Tədqiqatda qeyd olunan davranış nəzəriyyələri motivasiya, öyrənmə, sosial qarşılıqlı əlaqə və insan davranışının əsasını təşkil edən idrak prosesləri kimi məsələləri əhatə edir. İnsan davranışının nəticələri qiymətləndirilib və davranışın fərdin sağlamlığına, xoşbəxtliyinə, uğuruna, münasibətlərinə və həyat keyfiyyətinə təsiri təhlil etmişdir. Eyni zamanda aşağıdakı təkliflərin nəzərə alınması da işin səmərəsini artıra bilər.

1. Valideynlər övladlarında müşahidə olunan davranışlara xüsusi diqqət yetirməli, əgər hansısa neqativ dəyişiklik hiss edərlərsə psixoloji, pedaqoji dəstək almalıdırlar.
2. Övladları ilə effektiv ünsiyyət tərzlərindən istifadə edərək dialoqa girməli, onlarla empatiya qurmalıdırlar.
3. Gün rejimini düzgün təşkil etməli və bu rejimə əməl etmə mexanizmlərini müəyyənləşdirməlidirlər.
4. Öz psixo-fizioloji sağlamlıqlarının qayğısına qalmalı, ailə münaqişələrindən uşaqlarını uzaq tutmağı bacarmalıdırlar.
5. Məktəb psixoloqları mütəmadi uşaqların psixoloji portretini tərtib etməli, onları müxtəlif diaqnostik testlərdən keçirib uyğun korreksiya üsulları ilə terapiya etməlidir.

**Nəticə:** Davranış psixologiyası insan davranışını anlamaq, təsir edən amilləri müəyyən etmək, nəzəriyyələrin tətbiqi, davranışın nəticələri və müdaxilə strategiyaları kimi mövzularla məşğul olmuşdur.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ə. S. Bayramov, Ə. Ə. Əlizadə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Çinar-Çap,2008, 620s.
2. Ə. S. Bayramov, Ə. Ə. Əlizadə. Sosial psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Qapp-Poliqraf, 2003, 356 s.
3. Ə. S. Bayramov, Ə.Ə. Əlizadə.Sosial psixologiyanın aktual məsələləri. Bakı: Azərnəşr, 1986, 350 s.
4. Ə. S. Bayramov Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981, 190 s.
5. R. İ. Əliyev. Psixologiya tarixi. Bakı: Nurlan, 2006, 384 s.
6. R. N. Yusifova Müasir psixologiyada özünüaktuallaşdırma problemi və onun psixososial əsasları // Psixologiya jurnalı, 2010, №1, s.41-52
7. "Davranışın İlkeleri" (Richard B. Herrnstein, William Vaughan)
8. "Davranışın Analizi" (John B. Watson)
9. "İnsan İradesi" (William James)
10. "Davranış Bilimi: İnsan Davranışını Anlamak ve Değiştirmek" (Barry J. Schwartz)
11. , J. S. Adams (1965). Inequity in Social Exchange. Advances in Experimental Social Psychology, 2, 267-299.

## UŞAQLARDA ŞƏXSİ KEYFİYYƏTLƏRİN FORMALAŞMASI PROSESİNDƏ MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN TƏHLİLİ

***Tələbə: Nağıyeva Aysu Sənan qızı (AZD2101B),***
***Elmi rəhbər: b/m. Əliyeva Hicran Nəsir qızı***

Elmi tədqiqat işinin öyrədilməsi bacarıqlarında, müəllim-şagird münasibətlərində yeni təlim texnologiyalarından istifadə etməyin problemin inkişafına təsiri təhlil edilmişdir.

Elmi tədqiqat işinin əsas ideyası ondan ibarətdir ki, müasir tədris daha dinamik, daha canlı və təhsil mühitinə daha əlverişlidir. Bu, öz növbəsində, müəllim-şagird qarşılıqlı əlaqəsinin inkişafına, artmasına yeni səbəb olur.

Tədqiqat nəticəsində belə qənaətə gəlinmişdir ki, müəllim – şagird münasibətləri şagirdlərin təlimə marağının artmasında mühüm rol oynayır, qarşılıqlı şagirdlərin fəallığını artırır və kollektiv şəkildə işləməyə sövq edir.

Müəllim - şagird münasibətləri uşaqlarda şəxsi keyfiyyətlərin formalaşdırılmasına necə təsir edə bilər.

Müasir müəllim şagirdlərlə əməkdaşlığa daha çox önəm verməlidir ki, uşaqlara öyrənməyi öyrədə bilsin.

**İstifadə olunmuş ədəbiyyat:**

1.Təlim prosesi: Ənənə və müasirlik.
2. Azərbaycan Respublikasında Ümumi təhsilin Konsepsiyası.
3.Ünsiyyət və qarşılıqlı münasibətlər məktəbə psixoloji hazırlığın əsası kimi. Bakı, 2007.
4. Pedaqoji psixologiya. Bakı, 2011.
5. Fəal təlim metodlarına giriş kursu. Bakı, 2004.

## NATAMAM VƏ TAM AİLƏLƏRDƏ TƏRBİYƏ İŞİNİN TƏŞKİLİ

*Tələbə: Hüseynzadə Fidan Kamil qızı (Qrup AZD2102B),*
*Elmi rəhbər: m.Cəfərova Ətrabə Şiraslan qızı*

Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı da bundan asılı olacaqdır.

*Ümummilli Lider Heydər Əliyev*

Pedaqogikanin əsas anlayışlarından biri də tərbiyədir. Tərbiyə insan cəmiyyətinin yarandığı ilk dövrlərdən meydana gəlmiş və şəxsiyyətin formalaşması prosesi olmuşdur. Tərbiyə yaşlıların istədiyi sifət və keyfiyyətləri uşaqlara aşılamaq məqsədilə aparılan birgə həyat fəaliyyəti prosesidir. Bu proses

şüurlu, mütəşəkkil və planlı şəkildə həyata keçirilir. Tərbiyə prosesində 2 tərəf fəal iştirak edir. Onlardan biri yaşlı adam tərbiyəçi o biri isə uşaqdır. Hər ikisi fəaldır. Ancaq daha fəal olan tərbiyəçidir. Məhz o uşağı bəsləyib yetişdirir, ona nəcib əxlaqi keyfiyyətlər aşılayır. Beləliklə, tərbiyə prosesi tərbiyəçi ilə tərbiyə olunan arasında yaradıcılıq əməkdaşlığı şəraitində həyata keçirilən ikitərəfli qarşılıqlı fəaliyyət prosesidir.

Tərbiyə sözü ərəbcə "əl tərbiyə" sözünün rəbb kökündən əmələ gəlmişdir. Bu söz üç mənanı ifadə edir. "Rəba"- doğru yol göstərmək; "rəbi"- bəsləmək, yetişdirmək ; "riba"- çoxaltmaq deməkdir. Rəbb Allahın 99 adından biri olub Quran kitabında Allah sözündən sonra ən çox istifadə edilən sözdür. Mənası "tərbiyə edən", "nemət verən", "ərsəyə çatdıran", "maddi və mənəvi kamilliyə doğru yönəldən" deməkdir.

İnsanın bir şəxsiyyət kimi formalaşmasında digər amillərlə yanaşı, tərbiyə prosesinin də böyük rolu var. Məhəmməd peyğəmbər buyururdu ki, tərbiyə valideynin övladına verdiyi ən böyük hədiyyədir. İngilis filosofu C.Lokk deyirdi ki, insanlar arasındakı fərqləri məhz tərbiyə yaradır.

Çətinlik dərəcəsi ilə əlaqədar olaraq tərbiyənin üç növü var.

1. İlkin tərbiyə
2. Özünütərbiyə
3. Yenidən tərbiyə

Davranışla əlaqədar olan ailə və cəmiyyət üçün faydalı hesab olunan, milli və ümumbəşəri mənəvi keyfiyyətlərin gənc nəsildə məqsədyönlü, planlı şəkildə formalaşdırılması ilkin tərbiyədir.

Tərbiyəçilərin bilavasitə nəzarəti olmadan, lakin faydalı məsləhətlərinin uşaqlar tərəfindən müstəqil olaraq planlı şəkildə mənimsənilməsi özünütərbiyədir. Yenidəntərbiyə adamın şəxsiyyətində, rəftar və davranışında müşahidə edilən qüsurların, zərərli keyfiyyətlərin aradan qaldırılmasıdır.

Ailə ya qohum münasibətləri, ya da evlilik yolu ilə bağlı olan insanlar qrupudur.

Tərkibindən asılı olaraq sadə və ya nüvə ailəsi – uşaqları olan və ya olmayan valideynlər (valideyn) tərəfindən təmsil olunan bir nəsildən ibarətdir.

İbtidai – üç üzvdən ibarət bir ailə: ər, arvad, uşaq. Belə bir ailə öz növbəsində:

Tam – tərkibdə həm valideynlər, həm də ən azı bir uşaq var.

Natamam – uşaqları olan yalnız bir valideynin ailəsi və ya uşaq olmayan valideynlərdən ibarət ailə.

Kompozit – bir neçə uşağın tərbiyə olunduğu tam nüvə ailəsidir.

Kompleks ailə və ya patriarxal ailə - bir neçə nəsildən ibarət böyük bir ailə. Buraya nənə və babalar, qardaşlar və arvadları, bacıları və ərləri ola bilər.

Ailənin yaşayış yerindən asılı olaraq:

Matrilokal – həyat yoldaşının valideynləri ilə yaşayan gənc ailə.

Patrilokal - ərin valideynləri ilə yaşayan bir ailə.

Neolokal – valideynlərin yaşayış yerindən uzaq bir evə köçən ailə.

Dağıdıcı ailənin ilk növbədə ayrı – ayrı üzvlərinin münaqişə mühitinin yaranmasına töhfə verdiyi qeyd olunur. Belə bir ailədə lider çıxarmaq çətindir. Üzvlərindən biri ruhi xəstədirsə və ya alkoqoldan istifadə edirsə, ailələr dağıdıcı olurlar.

Parçalanan ailə - valideynlər arasında münaqişə son həddə çatanda olur. Adətən uşaqlar münaqişəyə cəlb olunurlar.

Sınıq bir ailə - valideynlərdən birinin tərk etdiyi lakin onunla əlaqəsini davam etdirən ailələrdir.

Tamamlanmamış ailə - valideynlərdən birinin olmadığı bir ailədir.

Çiçəklənən ailə dedikdə onların ümumiyyətlə kifayət qədər maddi təminatlı olan və uşağa mənfi təsir etməyən bir ailə başa düşülür.

Disfunksiyali ailələr dedikdə valideynlər bir assosial həyat tərzi keçirirlər: alkoqol tərkibli içkilərdən istifadə edirlər, fiziki əməklə məşğul olmurlar, zehni olaraq qeyri sabitdirlər.

Ailə cəmiyyətin kiçik bir hissəsidir. İnsanın ilk tərbiyəsi məhz ailədən başlayır. Ailədə tərbiyə qurulanda həmin ailədən cəmiyyətə daxil olanlar da ağıllı, mehriban olurlar. Hər bir ailənin özünəməxsus qaydaları olur. Bu mənada ailəni dövlətlə müqayisə etmək olur. Hər dövlətin qanunları olduğu kimi ailənin də qanunları var.

Ailənin başçısı ata və anadır. Onların vəzifəsi və məqsədi cəmiyyətə sağlam və yararlı şəxsiyyət bəxş etməkdir.

Nuklear ailə dedikdə məhz ailənin nüvəsi, kökü nəzərdə tutulur. Ailədə bir neçə nəsil - bir, iki, üç və ya dörd nəsil yaşaya bilər. Əgər ailədə üç və ya daha çox nəsil yaşayırsa, (baba, nənə, ata, ana və uşaqlar) belə ailə mürəkkəb ailə adlanır.

Natamam ailələrdən olan uşaqların emosional sferasında ciddi deformasiyalar hiss olunur. Onlar utancaq, özünə güvənməyən, həyəcanlı və s. kimi keyfiyyətlərlə böyüyürlər, bu da onların gələcək həyatında normal, tam formalaşmış şəxsiyyət olması üçün müəyyən maneələrə gətirib çıxara bilər. Tam ailələrdə böyüyən uşaqlar natamam ailələrdə böyüyən uşaqlardan bir çox xüsusiyyətlərinə görə fərqlənir. Onların içərisində emosional sahəni xüsusilə qeyd etmək lazımdır. Çünki normal ailədə böyüyüb, boya-başa çatan uşaqlar daha mülayim xasiyyətli, həyatsevər, xoşbəxt və s. olurlar. Natamam ailələrdə böyüyən uşaqların emosional sahəsində olan qüsurlara nəinki elmi əsərlərdə həmçinin bədii əsərlərdə də yazıçılar müraciət edib. Belə əsərlərə misal olaraq İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" pyesini nümunə gətirmək olar. Nargilə adlı obrazın anası Nəzakət tənhalıqdan yaxa qurtarmaq üçün Fərəc adlı bir nəfərlə məcburiyyətdən ailə həyatı qurur, həm də bu insana kölə kimi qulluq edir. Nargilə atalığından ata qayğısı görmür. Tənhalığın dəhşəti onu Həsənzadə ilə görüşdürür. Nargilə ərköyün qızdır. Həsənzadə Nargilənin məhəbbətinə hörmətlə yanaşır və onun qəlbini qırmaq istəmir. Buna görə də Nargilənin "sevgi nağılını" övladın ataya olan məhəbbətinə çevirir. Əsərin 1-ci hissəsində gördüyümüz ərköyün, şıltaq əvvəl xalatda, sonra isə ona çox gözəl yaraşan plaşda cavan, gözəl, yetkin bir qız obrazı canlanır. Artıq Nargilə Həsənzadənin yaratdığı həyata hazırladığı kamil bir vətəndaşdır. Həsənzadə gənc yaşlarında həyatdan küsmüş bir qızcığazı depresiyadan, pessimizmdən çıxardıb onun ürəyini həyat eşqi ilə döyünən bir insana çevirir.

Əgər boşanma qaçınılmaz bir son olaraq görünürsə uşaqların yaşayacaqları sarsıntını minimum səviyyəyə endirmək, həmçinin ilk illərdə olan çətinlikləri daha asan sovuşdurmalarını təmin edə bilmək üçün ana və ata ayrıldıqdan sonra belə əl-ələ verib səy göstərməlidir. Valideynlər uşaqlara qarşı məsuliyyətlərini paylaşaraq həyatlarına davam etməlidir. Məsələn, ata artıq evdə yasamırsa da, yenə də hər səhər oğlunu və ya qızını qapının qarşısından götürüb məktəbə qədər apara bilər. Bu tip davranış

uşağın zehnində yaranan bulanıq düşüncəni bir az da olsun düzəltməyə kömək ola bilər. Uşaq hər kimin yanında yaşayırsa yaşasın, hər iki valideynlər ilə tez-tez bir araya gəlməsi təmin olunmalıdır.

**Nəticə:** Ailənin və tərbiyənin uşağın bir şəxsiyyət kimi formalaşmasında önəmli rolu var. Ailədə tərbiyə prosesində ata və ananın iştirakı vacibdir. Ana və atanın bir-biriləri ilə mülayim davranmaları uşaqda xoş ovqat yaradır. Onlar bir-biriləri ilə nəzakətli davranmalıdırlar. Çünki ailə həyatı şəxsiyyətin inkişafına bütövlükdə təsir göstərən amillərdən biridir. Valideynlərdən birinin yoxluğu onların emosional sferasında ciddi qüsurlara yol açır. Uşağı valideyn sevgisindən məhrum etmək onun daxili aləmində kobud insan obrazı yaradır. Gələcəkdə rastlaşdıqları insanlarla münasibətində, davranışında müəyyən qüsurlar özünü göstərir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. N. Kazımov. Məktəb pedaqogikası. Bakı, 2009.
2. A. Abbasov. Pedaqogika. Bakı 2010.
3. Ə. Paşayev, F. Rüstəmov. Pedaqogika. Bakı, 2017.
4. Ə. Bayramov, Ə. Əlizadə. Psixologiya. Bakı, 1998.

## İNTERNETDƏN İSTİFADƏNİN FƏSADLARI VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

***Tələbə: Tağızadə Nuray Nəcməddin qızı (TSPX2101B),***
***Elmi rəhbər: m.Yolçuzadə Pərişan Üzeyir qızı***

Müasir dövrün ən aktual problemlərindən biridə "internet asıllığı"dır. Lakin bu gün heç kim internetin və ya da ki, texnoloji vasitələrin həyatımızdakı rolunu inkar etmir. Demək olar ki əksəriyyətimiz günümüzün böyük bir hissəsini mobil telefon, planşet, və digər internet resursları ilə xərcləyirik. Lakin təəsüflər olsun ki, bu hall uşaqlarda daha çox yayılıb. Kiçik yaşlı uşaqların əksəriyyəti bütün gün əlində telefon və ya planşet səssiz-səmirsiz ya oyun oynayır, yada internetə daxil olur. Bu hal tək uşaqlarda yox gənclərdə və yaşlılarda da var. Onları ictimai nəqliyyatda, kafelərdə, hətta parklarda belə görürük amma əhəmiyyət vermirik. Sosial şəbəkələr vasitəsilə asanlıqla qurulan əlaqələr, hiss və düşüncələri ifadə edə bilmək imkanı, yeni uğur və nailiyyətlər qazanmaq üçün internet hər bir kəsə əvəzedilməz imkanlar verir. Bundan əlavə, qadağan olunanlara asan giriş imkanı internetin istifadəsini artıran digər amillər sırasındadır. Gündəlik həyatda təhsil, bank, maliyyə, müxtəlif xidmət sahələrində əlverişli imkanlar təqdim edən internetin həddindən izafi istifadəsi "İnternet asılılığı" adlanan sosial problemi gündəmə gətirir. İnternetdən istifadə vərdişlərinin artması müəyyən müddətdən sonra internet asılılığına doğru yönəlir. Ağıllı telefonlarla yatmaq, insanlarla söhbət edərkən telefona baxmaq, toy və yas mərasimlərindən şəkillər paylaşmaq gündəlik həyatımızda tez-tez rast gəldiyimiz davranışlardandır. Son zamanlarda İnternet istifadəçilərinin ondan asılı vəziyyətə düşmələri narahatlıq yaradan əsas məsələlərdən biridir. Çox vaxt valideynlər uşağın sakitliyini təmin etmək üçün və yaxud yeməyini yedirmək üçün uşağın əlinə mobil telefon verir. Bəs görəsən bu hal nə dərəcədə düzgündür? Uşaqlarda və böyüklərdə bu asıllığı necə aradan qaldırmaq olar?

1. İnternet həyatımızı elektrik , mətbəə, və telefon qədər dəyişdirdi. Yalnız bir ünsiyyət vasitəsi deyil, bir çoxumuz üçün gündəlik hayatın bir parçası halına gəldi. Bu texnologiyanın köməyilə bir çox mövzuyla əlaqədar məlumata asan, sürətli və etibarlı bir şəkildə çata bilirik.

İnternet həyatımızdakı rolunu biz yaxşı və ya pis kimi qiymətləndirə bilərik. Bu insanın özündən onu necə istifadə etməsindən asılıdır. Əgər biz özümüz onu asılı və sağlamlığımıza zərər vurmaq üçün istifadə etsək gələcəyimizə ziyan vurmuş olarıq.

İnternetin uşaq və gənclər üzərindəki mənfi təsirlərindən biri də kompüter oyunlarıdır. Normal oyunların uşaqların fiziki, zehni və romantik istiqamətlərinin inkişafında bir çox faydası var. Yenə diqqətlə seçilmiş kompüter oyunlarının da uyğun zamanlarda oynanmasıyla təlimatçı, təlimçi və inkişaf etdirici təsirlərinin olduğu görülmüşdür. Lakin indiki vaxtda bir çox oyun asılılıq yaradır və zorakılıq meyllərini artırır. Zorakılıq məzmunlu oyunlar gənclər və uşaqlarda qumar və içki asılılığı kimi ruhi pozğunluqlar yaradır.

Bütün bu mənfi hallarla yanaşı, internet şagirdlərin öyrənmə vərdişlərini və məlumat təcrübələrini zənginləşdirmək üçün istifadə edə biləcəkləri vasitədir. İnternetdən ünsiyyət, araşdırma, məlumat almaq üçün istifadə edilir. İnternet sayəsində dərsləri üçün lazımlı olan araşdırmaları daha çox məlumata sürətlə çataraq edə bilərlər. .

İnternetin həyatımızdakı rolu haqqında apardığımız sorğuda insanların fikirləri belədir:

İnternet olmasa bəlkədə biz bir çox işi düzgün apara bilmərik;

İnternet vasitəsi ilə biz gündəlik həyatda bəzi işləri qaydasına salırıq;

İnternet vasitəsi ilə biz dostlarımız və ailəmizlə əlaqə saxlayırıq;

İnternet vasitəsi ilə biz sosial həyatdan məlumat ala bilərik;

İnternet vasitəsi ilə müxtəlif tip oyunlar oynayırıq;

İnternet həyatımın ayrılmaz hissəsidir;

İnternet vasitəsi ilə biz dərslərimizi izləyə bilirik;

İnternetdən əlaqə yaratmaq üçün istifadə edirəm;

İnternetsiz yaşayışın olduğunu fikirləşmirəm;

Market və mağazalarda internet olmasa alış-veriş edə bilmərəm;

Sevdiklərimizin xoş anlarını paylaşa bilirəm.

2.İnternet asıllığının yaratdığı psixoloji fəsadlara bunları deyə bilərik:

İnternet itdikdə və ya hansısa səbəbdən internetə daxil ola bilmədikdə güclü psixoloji gərginlik, stress, narahatlıq halının yaşanması;

İnternetlə məşğuliyyəti həyati əyləncələrin hər birindən üstün hesab edərək (oyun maniyasına tutulmaq və s.) eyforiyalar yaşamaq;

Asosiallaşma;

Konfliktlərə meyillilik,

Koqnitiv pozuntular;

İnternetin gücünün daha da yaxşılaşdırılması üçün lazım olan məbləğin ödənilməsini digər həyati əhəmiyyət kəsb edən tələbatların ödənilməsindən üstün tutmaq;

Həyati vacib maraqların, məqsədlərin azalması və ya itməsi;

Robotlaşma (məsələn, yuxudan qalxan kimi dərhal kompüteri yandirib internetə daxil olmaq).

Hafizənin zəifləməsi və düşüncə qabiliyyətinin azalması;

Diqqət əksikliyi;

İdrak proseslərinin zəifləməsi;

İradənin itməsi;

Emosiyasızlaşmaq;

İnternet asıllığının fizioloji fəsadları isə bunlardır:

Gözlərdə quruluğun yaranması, görmə qabiliyyətinin zəifləməsi;

Qidalanma və şəxsi gigiyena qaydalarına riayət etməmək səbəbindən bədənin ümumi immunitetinin aşağı düşməsi;

Yuxu rejiminin pozulması, yuxusuzluq:

Karpal kanali (tunel) sindromu (əl əzələlərinin uzun müddət gərilməsi zamanı yaranan keyləşmə):

Hərəkətsizlik səbəbindən maddələr mübadiləsinin pozulması, çəkinin artması;

Onurğa və bel ağrıları;

Qapalı şəraitdə uzun müddət vaxt keçirildiyindən beyində karbon qazının miqdarının artması səbəbindən baş ağrılarının olması;

Mədə-bağırsaq və qəbizlik problemlərinin yaşanması;

Qan dövranında, sinir sistemində pozuntular.

İndi isə insanların fikirlərinə diqqət yetirək:

Təklik hissi yaradır, tək sığınacağı telefonda görürəm.

Fikrimi ifadə edə bilməyib, tək çarəni internetdən axtarmaq.

Ailəmdən və sevdiklərimdən uzaqlaşıram.

İnternetlə keçirdiyim zaman, cəmiyyətlə keçirdiyim zamandan daha dəyərli hiss etdirir.

İnternetin yaydığı şüa, səhətimə ziyan vurur.

Həyatımızın bir hissəsinə çevrilən internet zaman keçdikcə asıllığa çevrildiyi məlumdur, bəs biz bundan qurtulmaq üçün nələr etməliyik?

Bir çox psixoloqların fikrincə, real həyatda mənəvi tələbatlarımızı ödəmək üçün maraqlı və əyləncəli məşğuliyyətlər tapmaq lazımdır. Bu məşğuliyyətlərə biz: *rəsm çəkmək, idmanla məşğul olmaq, kitab oxumaq, təsərrüfat işləri ilə məşğul olmaq* və s. aid edə bilərik. Daha sonra internetə meyilliyin səbəbini tapmaq, yaxınlarımızla ünsiyyətə tez-tez girmək və onlarla əlaqəni kəsməmək lazımdır. Gündəlik iş qrafiki təyin etməliyik, buda əsasən bizi məşğul edəcək və zamanımızı daha səmərəli işlərə yönəldəcəyik. Bu haqda maarifləndirici bukletlərin hazırlanması və əhali arasında yayılması bir azda olsa insanların bu asıllıqdan qurtarmaq üçün yaxşı yoldur.

Uşaqda yaradıcı işə, rəsm çəkməyə və ya idman növünə maraq oyatmaqla onu kompüterdən ayırmaq olar. Yaşından asılı olmayaraq insanlar hər zaman ünsiyyət vərdişlərini inkişaf etdirməlidir. Virtual aləmdə ünsiyyət rəngarəng, maraqlı və asan görünsə də, əslində bu real münasibətlər deyil. İnsan reallıqdan əl çəkib virtual münasibətlərə üstünlük verirsə, bu, problemdən qaçışdır. Problemdən qaçış isə bildiyiniz kimi, onun həlli deyil.

Aparılan sorğu nəticəsində insanların bu haqda fikirləri mənə maraqlı gəldi. Bəs insanların fikirləri nədir:

İnternetdən qurtulmaq üçün idmanla məşğul olaram.

İnternetdən qurtulmaq üçün özümü daha sərfəli işlərə yönləndirərəm.

Gündəlik olaraq istifadə etdiyimdən daha az istifadə edərm.

İnternetə ayırdığım vaxtı kitab oxumağa və yaxud musiqi dinləməyə sərf edərəm.

İnternetdə keçirdiyim vaxtı beynimi təzimləyəcək və rahatladacaq işlərə yönəldərəm.

İnternet bizi yönəltməməsi üçün mən öz həyatımda dəyişikliklər edərəm.

**İstifadə olunmuş ədəbiyyat:**

1. L.M. Qurbanova. Psixi sağlamlıq. Bakı, 2019, səh. 150.
2. https://qadin.net/muxtelif/mutleq_bilmelisiniz/44090-nternetin-hyatmzdak-yeri-v-hmiyyti.html

***Kompüter yığımı*** - *Sahibə Nəsirova, ADPU-nun Ağcabədi filialının kompüter mərkəzinin müdiri*

*Yığılmağa verilib: 25.05.2023*
*Çapa imzalanıb: 01.06.2023*
*Tiraj 50*

***ADPU-nun Ağcabədi filialının kompüter mərkəzi***

-----------------------------------------------------------------------------------------------------------------

***E-mail:*** *sahibanasirova1963@mail.ru*